Azərbaycan Yaradıcılıq Fondu

# 33 pərdəli dram

Ramilə Qurbanlı

I kitab

Bakı - 2015

***Azərbaycan Yaradıcılıq Fondunun***
***Kitabxanası***

***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının***
***"İstedadlı insanlara dəstək olmaqla onların ictimaiyyətə tanıdılması üçün yeni imkanların yaradılması"***
***qrant layihəsi çərçivəsində çap olunur.***

Redaktor: **Qismət**

**Ramilə Qurbanlı. 33 pərdəli dram. – Bakı: Mütərcim, 2015. – 240 səh.**

Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafı üçün onun hərtərəfli araşdırılmasına və təbliğatına ehtiyac var. Mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin sənət və həyat yolları oxucu kütləsi üçün həmişə maraq kəsb edib. Kitabdakı materiallar bu baxımdan oxunaqlıdır və bu sahənin adamlarına gərəklidir. Kitabda müəllifin tanınmış mədəniyyət adamları haqda yazıları dərc olunub. Materiallarda onların yalnız sənət yolundan deyil, həm də həyat yollarından, keşməkeşli talelərindən danışılır.

**ISBN: 978-9952-28242-9**

**©AYF, 2015**

## *Maariflənmək üçün kitab*

*İllərdir ki, mədəniyyət sahəsində yazan jurnalistlər arasında bir imza diqqəti çəkir – Ramilə Qurbanlı. Bu imzanın sahibi ona görə diqqəti çəkib ki, onun yazıları yalnız bu gün üçün yazılmayıb, onlar sanbalı, tarixiliyi və müasirliyi, gələcək üçün önəmliliyi ilə kitabxana rəflərinə düşəcək qədər dəyərlidir.*

*Müəllifin bu sıradan qələmə aldığı portret yazılarını oxudum və çox bəyəndim. Bu 33 sənətkarın bütün həyatını, yaradıcılığını, keçdikləri yolu gözlərimiz qarşısında orijinal surətdə canlandıran yazılar bu sahəni seçən gənclərə dərs vəsati, digər sahələrdə fəaliyyət göstərən kəslər üçün isə maariflənməyə xidmt edəcək bir kitabdır.*

***Professor Azər Paşa Nemətov***

## *Səmimiyyət işiğında*

*İncəsənətdən, o cümlədən teatr sənətindən yazmağa maraq göstərən jurnalist çoxdur. Kimi məşhurların şöhrətinin işığında görünmək istəyir, kimi incəsənətə marağından bu işə baş qoşur, kimi sənətin zahiri cazibəsinə aşiq oluban da qələmə əl atır...*

*Çox az qism isə sənətə sevgisindən əlavə, onun incəliklərini səylə, ilhamla, şövqlə öyrənir. Öyrəndiklərini idrakla mənimsəyir. Mənimsədiklərini təcrübədən zərif həssaslıqla çıxardır. Sənətkara ehtirmaın etik prinsiplərinə bələd olur, onlar barədə təfəkkürlə, emosional məhəbbətlə, psixoloji dürüstlüklə düşünmək vərdişlərinə yiyələnir.*

*Ramilə Qurbanlı məhz bu az qismə aid olan qələm sahiblərindən biridir.*

*Oxuculara təqdim olunan bu kitabda toplanmış məqalə-esselər müxtəlif vaxtlarda mətbuatda çap edilib. Nə yaxşı ki, müəllif onları oxucularına toplum halında çatdırır. Bu yazılar müəllifin ilk növbədə sənətkarların həyat və yaradıcılıqlarına fərqli və gözlənilməz rakurslardan yanaşması ilə diqqəti cəlb edir. Bir də xoşuma gələn odur ki, müəllif sənətə və sənətkara yanaşmasında emosionaldır, səmimidir, kövrək duyğuların mahiyyətinə vara bilir.*

*Ramilə xanımın yaradıcılığının bir gözəl cəhəti də odur ki, qələminə ehtiramı, məhəbbəti, hörməti həmişə həssaslıqla gözləyə bilir, uca tutmağı bacarır. Elə buna görə oxucuları da onun yazılarını intizarla gözləyirlər, məhəbbətlə qarşılayırlar.*

*Əminəm ki, «33 pərdəli dram» kitabına oxucu məhəbbəi anlarla yox, günlərlə, aylarla, illərlə olacaq...*

***Professor İlham Rəhimli***

# Ön söz

Nə vaxtsa kitab nəşr etdirmək heç ağlımın ucundan da keçməyib. İşimi çox sevmişəm, araşdırmışam, yazmışam, yazdıqca daha çox dərinliklər açılıb, daha qaranlıq döngələrə, dalanlara düşmüşəm və onları işıqlandırıb, işığı da orda qoyub keçmək mənə çox maraqlı və lazımlı gəlib. Hər yazımda hansısa qaranlığı işıqlandıranda daha dərin qaranlıqlara baş vurmaq yanğısı yaranıb məndə. Belə-belə bir də görmüşəm ki, kompyuterlərin, internet saytların arxivləri bu yazılar üçün ehtibarlı saxlanc deyil. Bir gün texnika elə bir oyun oynayar ki (ya da insan), iyirmi illik zəhmətindən bir damla da qalmaz. Sənin də həyatının mənası itər, elə düşünərsən ki, mənasız və xeyirsiz yaşamısan bu dünyada. Bəziləri belə it-bat oldu hətta. Etiraf edim ki, bəzilərinin də istinadsız-filansız istifadə olunmağı xoşuma gəlmədi. Elə bildim kimsə "balalarıma" sahib çıxmaq istəyir. Axı, bu yazılar eləbelə, heçdən yaranmayıb, illərin əziyyətinin məhsuludur. Bunlar quru-boş rəqəmlər, faktlar toplusu deyil, özlərinin mənə danışdıqları, mənim onlarda gördüklərim, axtardığım və bəzən görə bilmədiklərimdir. Eləsi olub ki, dediklərini yalnız o, dünyadan köçəndən sonra yazmağımı məsləhət görüb, eləsi də var ki, yaz, özüm də oxuyum bunları, – deyib, – sonra gec olar. Bəziləri haqda yazdıqlarım ondan sonra ailəsinin ürəyincə olmayıb, amma mən əmin olmuşam ki, bu adam yazdıqlarımın kimlərinsə eşitməsini, duymasını, onun haqqında bunları bilməsini çox istəyirdi.

Bəziləri ilə dəfələrlə görüşüb söhbətləşmişik, səhnələrdə oynadıqları obrazlara dəfələrlə baxmışam, analiz etmişəm, özləri ilə fikir mübadiləsi aparmışıq. Çox az qismini heç görməmişəm, oxumuşam, öyrənmişəm, araşdırmışam, onlarla

canlı ünsiyyətdə olmuş, özümdən əvvəlki yazarların yazdıqlarından bəhrələnmişəm.

Mədəniyyət adamlarından bəhs edən bu kitabda müxtəlif illərdə mətbuatda dərc olunan yazıları topladım, hər hansı ardıcıllıqla düzmədim onları, bölümlərə də ayırmadım, çap olunma vaxtlarında necə yığmışdımsa elə də kitaba saldım. Nə sənətkarlara haqsızlıq olmasın, nə də yaxınları inciməsin. Sadəcə, bir gün düşündüm ki, iyirmi ildə böyüdüb ərsəyə gətirdiyim "balaları" bir yerə toplayıb altından imzamı qoymağın vaxtıdır. Bu kitab həmin o imzadır. Sabah həm də övladlarıma analarının hansı işin sahibi olduğunu sübut edəcək imza...

Yaradıcı insanların yoluna işıq salan akademik Kamal Abdullaya, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fonduna və Azərbaycan Yaradıcılıq Fonduna bu kitabı oxuculara çatdırmaqda vəsilə olduqları üçün təşəkkür edirəm.

**Ramilə Qurbanlı**

# İÇİNDƏKİLƏR

*A.Nemətov*. Maariflənmək üçün kitab.................................................3
*İ.Rəhimli*. Səmimiyyət işığında...............................................................4

Ön söz..................................................................................................5

## Portretlər

1. Siyavuş Aslan.........................................................................9
2. Nodar Şaşıqoğlu......................................................................19
3. Rasim Balayev.........................................................................27
4. Yaşar Nuri...............................................................................37
5. Məlik Dadaşov.........................................................................47
6. Rasim Ocaqov..........................................................................57
7. Həsən Məmmədov....................................................................63
8. Ceyhun Mirzəyev.....................................................................71
9. Əliağa Ağayev..........................................................................79
10. Səməndər Rzayev....................................................................85
11. Telman Adıgözəlov..................................................................93
12. Möminat Qurbanova...............................................................101
13. Lətif Səfərov..........................................................................107
14. Kamil Məhərrəmov.................................................................117
15. Ələsgər İbrahimov..................................................................123
16. Nəcibə Məlikova....................................................................129
17. Adil İsgəndərov.....................................................................137
18. Nəsibə Zeynalova...................................................................143
19. Hüseynağa Atakişiyev............................................................149
20. Almaz Əsgərova.....................................................................157
21. Ələkbər Hüseynov..................................................................161
22. Kamal Xudaverdiyev..............................................................171
23. Leyla Bədirbəyli.....................................................................177
24. Siyavuş Şəfiyev......................................................................185
25. Həsənağa Turabov..................................................................191
26. Hacı İsmayılov.......................................................................199
27. Mehriban Zəki........................................................................205
28. Nurəddin Mehdixanlı..............................................................213
29. Hacı Murad Yegizarov............................................................221
30. Fuad Poladov..........................................................................227
31. Ramiz Novruz.........................................................................233
32. Amaliya Pənahova..................................................................241
33. Zərnigar Ağakişiyeva..............................................................247


Sənətkar
simasındakı həyat

*Yayın əvvəlində, iyunun 27-də həyatdan bir müharibə uşağı, talesiz ata, ər, etibarsızlıqdan sarsılan dost, potensialını tam göstərə bilməyən, dəyərini özü ilə aparan sənətkar getdi.*

*Kiminsə qəlbində həzin, xoş xatirəsi qaldı, sadəcə qoyub getdiyi obrazlarla... Kimsə "Ondan bir də olmayacaq" dedi. Əksəriyyət isə ... Heç "təəssüf" belə demədi.*

## Müharibə övladı

Balacaboy, tösmərək bir oğlan qoltuğuna vurduğu tar boyda idi az qala, Bakının dar dalanları ilə bu tarı güclə daşıyıb hər gün dərsdən sonra "Pionerlər evi"nə gedərdi. O vaxt üçüncü sinifdə oxuyurdu, tarı çox sevirdi, amma dram dərnəyinə gedən Hacıağa adlı dostu teatrın əlçatmaz gözəlliklərindən o qədər danışdı ki, bir gün ona qoşulub dram dərnəyinə yollandı. İlk məşqlər, ilk tamaşalar və ilk rol... Beləcə gələcəyin, məşhur, sevimli aktyorunun həyat yolu və taleyi müəyyən olundu.

1935-ci il sentyabrın 5-də Bakıda sürücü Məmmədağa kişi və onun həyat yoldaşı, evdar qadın Anaxanımın kasıbvarı komasında bir oğlan uşağı dünyaya gəldi. Adını Səyavuş qoydular ki, bəxti yüyrək olsun. Səyavuş fars dilindən tərcümədə atlı mənasını verir. Hamının uşağı kimi küçədə oynayır, deyir-gülür, axşam evə yığışırdı. Məktəbə gedəndən sonra o vaxtın əksər ailələri kimi uşağı ya musiqiyə, ya idmana, ya da hansısa dərnəyə yazdırmalı idilər. Bu uşaq tarı seçdi, üç il sonra isə könüllü dram dərnəyinə keçdi.

Səyavuşun taleyi yüyrək oldu deyəsən, həyatda hər şey sürətlə, hələ yaşı çatmamış gəlib-keçdi, iz buraxdı.

Böyük Vətən Müharibəsinin şətəsi bu ailədən də yan keçmədi, taleyinə müharibə dövründə yaşamaq yazılmış hər bir insan bu və ya digər dərəcədə dövrünün qurbanı olur. Bu uşaq da hələ orta məktəbin ilk illərində müharibənin dəhşətlərini yaşadı. Hər şeydən qurtulmaq üçün işləmək, çalışmaq lazım idi, artıq oxumağa vaxt qalmırdı.

7-ci sinfi bitirib Dəmiryol Texnikumuna üz tutur ki, tezliklə bir sənətin sahibi olsun, əli çörəkpuluna çatsın. Oxuya-oxuya isə həyatın bütün çətinliklərinin, ağrı-acısının yükünü çiyinlərindən getdiyi "Dram dərnəyi"ndə müəllimi Ağadadaş Qurbanovdan öyrəndikləri sayəsində boşaldırdı. Onunla birgə həmin dərnəyə dostu Həsən də gedirdi. Sonralar bu dostlar Azərbaycan kino və teatr mədəniyyətinin iki möhtəşəm sütunu olacaqdılar – Səyavuş Aslan və Həsən Turabov.

Ağadadaş Qurbanov Səyavuşu peşəkar teatr səhnəsinə gətirmək üçün çox sınaqlara çəkirdi, ən çətin, fərqli obrazlar verirdi. Aktyor hamısının öhdəsindən gəlirdi.

Səyavuş Aslan peşəkar teatr səhnəsinə ilk dəfə 1954-cü ildə Musiqili Komediya Teatrı səhnəsində xorun solisti kimi çıxır. Xorda işləyən Səyavuş Lütfəli Abdullayevin oynadığı bütün rolları o qədər sevir ki, onları özündən asılı olmayaraq əzbər bilirdi.

Bir gün "Arşın mal alan" tamaşasının premyerası zamanı Lütfəli Abdullayev xəstələnir. Səyavuş teatrın rəhbəri Ələsgər Şərifovdan xahiş edir ki, Vəli rolunu əzbər bildiyi üçün ona Lütfəlini əvəz etməyə icazə versin. Başqa yol yox idi.

Səyavuş Aslan Vəli obrazında yeni heç nə deyə bilməsə də rolun öhdəsindən gəlir. Təpədən-dırnağa Lütfəlini yamsılamağı onu vəziyyətdən çıxardırdı.

Həmin illərdə onlar arasında ata-bala münasibəti yaranmışdı. Lütfəli bu inadkar, oynamaq istəyi ilə yanıb-qovrulan gənci çox sevirdi, hətta hərdən özünü xəstəliyə vururdu ki, Səyavuşun səhnəyə çıxıb özünü göstərmək imkanı yaransın.

## Məşədi İbad "qubbaxda"

Əsgərlikdə də Səyavuş sevimli peşəsi ilə məşğul olurmuş. Şəhər Mədəniyyət Evinin tamaşalarında oynayırmış. Bir dəfə isə çox maraqlı hadisə baş verir. Onu rol aldığı tamaşanın premyerasına getməyə qoymurlar. Səyavuş hissədən qaçır. Əynindəki əsgər mundirini çıxardım stulun başına keçirir. Tamaşaya gələn patrul təsadüfən açıq pəncərədən əsgər paltarını görür. Maraqlanır və həqiqət çıxır ortaya.

Səyavuş Aslan İlham Rəhimlinin onun haqqında yazdığı kitabda bu barədə danışıb. Deyir, zalıma nə qədər dil tökdümsə, tamaşanın ikinci hissəsini oynamağıma imkan vermədi: "Məni tutub apardı ki, hərbi hissədən icazə kağızım olmadan çıxmışam. Özü səhnəyə çıxıb Məşədi İbadın ikinci hissəni oynaya bilməyəcəyini söylədi, dedi, Məşədi İbadı tutub aparırıq, üç sutkalıq".

Əsgərlikdən sonra Səyavuş Aslan gah Kukla Teatrında, gah Quba Dövlət Dram teatrında çalışır, amma hiss edirdi ki, yerində deyil. Nəhayət, bir gün onu Musiqili Komediya Teatrına dəvət edirlər. Şəmsi Bədəlbəylinin teatra rəhbərlik etdiyi vaxtlar idi. Amma onu aktyor heyətinə götürmürlər, bunun üçün o vaxt uğurlu bir rolla sınaqdan keçməli idin.

Şəmsi Bədəlbəyli "Yoy" tamaşasına quruluş verəndə Qoşun rolunda Lütfəli Abdullayevə Səyavuşu dublyor verir, amma onu da deyir ki, premyera sənin sınağın olacaq. Premyera günü Şəmsi Bədəlbəyli mötəbər qonaqları nəzərə alıb sözünü geri götürür, "qoyun, Lütfəli özü oynasın" deyir. Səyavuş çox pərt halda, amma ötkəm səslə: "Ya premyeranı oynayıram, ya gedirəm", -deyir. Şəmsi Bədəlbəyli deyəsən gələcəyin potensial aktyorunu itirə biləcəyini anlayıb razılıq verir. Səyavuş sınaqdan uğurla çıxır və sabahısı teatrın aktyor heyətinə qəbul olunur.

Onun sənət taleyində Mirzəağa Əliyevin, Cahangir Zeynalovun böyük rolu var, hər ikisi heç bir məktəb keçməyən Səyavuş Aslan üçün əsl sənət məktəbi olublar. Daha bir uğuru Lütfəli Abdullayevlə olan münasibətləri idi. Özünün də bir vaxtlar etiraf

etdiyi kimi doğma atasını itirəndə hələ həyatı dərk etmədiyindən almadığı zərbəni Lütfəli Abdullayev dünyadan köçərkən, onu itirərkən alıb.

Səyavuş Aslan adı artıq afişalarda parlayır, tamaşaçılar onun adına tamaşalara gəlir. Yavaş-yavaş kino dəvətləri başlayır. Teatrda bir-birinin ardınca təkrarçı, eyni səpgili, komik rollar oynayan aktyor kinoda bəzən faciəli obrazların öhdəsindən belə məharətlə gəlməyi bacarırdı.

Onun kinodakı, teatrdakı rollarını sadalamayacam. Səyavuş Aslan dövrümüzün sənətkarı olub və rollarını hamımız bilirik. Amma onun bir insan kimi, bir sənət adamı kimi zəmanəmizdəki rolu hamı üçün aydın deyil.

Səyavuş Aslan səhnədə eyni və daha çox komik rollar yaradıb. Bu onun potensialından irəli gəlmirdi, əksinə, onun zəngin potensialını ortaya çıxarda biləcək dərin dramaturji material yox idi. Gəncliyində də, orta yaşda da, ömrünün sonuna qədər ürəyindən xəbər verən, içini göstərə bildiyi bir rol yazılmadı onun üçün. Son illər Milli Dram Teatrının səhnəsində gürcü müəllifin "Kaş, araba aşmayaydı" tamaşası məxsusi onun üçün tamaşaya qoyulsa da yenə Səyavuş Aslan sənətkarlığı üçün az idi. Bax, bu sənətkarın faciəsidir.

Səyavuş Aslan təbiətcə kəskin təzadlı xarakterə malik insandı. O, həm həyatından çox sevdiyi qadını-Ofeliya Aslan üçün göz yaşları tökürdü, həm də onu dəlixanaya saldırmağa qadir idi. Həm müxtəlif şirkət rəhbərlərindən, brend firma mağazalarından bir kostyum istəyəcək qədər enə bilirdi, həm də ölkə prezidenti ilə üzbəüz gələndə özü üçün deyil, gənc aktyorlar üçün təqaüd xahiş edəcək qədər yüksəklikdə görünürdü.

## Qibtə edilən sevginin iflası və sənətdə tənəzzül

25 il Musiqili Komediya Teatrında çalışdı. Bədii rəhbər vəzifəsinə qədər ucaldı.

Həmin illər ərzində bu teatrda nəhəng sənət simalarından ibarət gözəl kollektiv formalaşmışdı. Onların arasında gənc, gözəl Ofeliya da vardı. Sevgi özünü gözlətmədən gəldi. Bir-birinə həm xarakter, həm zahiri görkəmcə çox bənzəyən bu iki gənci bir yerdə görməyə alışmış gözlər, bir gün onların toy sevincini də yaşadı, övladlarının doğuluşu münasibəti ilə təbriklər də söyləmək düşdü qismətlərinə.

Teatrın kollektivi elə bil ailə idi, Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Səyavuş Aslan üçlüyü isə Bəşir Səfəroğlu, Lütfəli Abdullayevdən sonra səhnəni çiyinlərində şərəflə daşıyırdılar. Bəli, səhnə böyük sənətkarların çiyinlərində daşınır və ötürülür.

Şan-şöhrət, sənət yanğısı, uğur, ailə xoşbəxtliyi-hamısı eyni vaxtda gəldiyi kimi bir gün ya bir-bir, ya da elə gəldiyi kimi eyni vaxtda əldən çıxa bilərmiş.

İllər bir-birini əvəz etdikcə nədənsə sabahın yox, keçən günün təəssüf və həsrətilə yaşayırsan.

Yaxşı yaradıcı, mehriban kollektiv dağılmağa başlamışdı. Teatra, sənətə, sənətkara münasibət də dünənki kimi deyil nəysə, axı 90-cı illər astanadadır. Elə bil lənətlənib bu illər, hər il o birindən ağır gəlir. Mədəniyyətimizin tənəzzül illəri idi.

## O, qadınların deyil, qadınlar onun arxasınca gələrdi

Üstəlik də ailədəki problemlər. Səyavuş Aslan qadın düşkünü deyildi. O, heç bir qadının arxasınca düşməzdi, sevdiyi xanımı onun üçün bütün başqa qadınlardan üstün idi. Amma onun şöhrətinə aludə olan qadınlar vardı ki, Səyavuş Aslana rahatlıq vermirdilər. Bəlkə də haqqında yayılan söz-söhbətlər, şayiələr bu qadınların uydurması, xəyalı idi. Ofeliya Aslan isə qadındır-zəif

məxluqdur, bu şayiələrdən artıq təngə gəlib, psixoloji problemlər baş qaldırıb onda. Səyavuş Aslan ailəsini sevir, ürəyi onlarladır, amma qayğı göstərmək, bu sevgini onlara yaşatmaq xislətinə xas deyil.

Söz-söhbət belə kişilərin ailəsindən əskik olmur. Qadının dığdığından qurtulmaq üçün isə ya boşanmaq lazımdır, ya da...

Səyavuş Aslan hər ikisinə əl atır, illərlə həm səhnəni, həm də yastığını bölüşdüyü sevimli Ofeliyadan ayrılır, üstəlik onu psixoloji dispanserə təhvil verir.

Teatr sənətimizin tarixinə qızıl hərflərlə yazılmış məşhur "Hicran"ın qəhrəmanları arasında da hər şey qaydasında deyil. Nəsibə Zeynalova Səyavuş Aslanın xanımına göstərdiyi, onun qənaətincə anlayışsızlığa görə qınadı, küsdü ondan.

Hətta "Hicran" tamaşası lentə yazılıb tarixə köçürülən zaman o üç aktyorun üçü də bir-biri ilə danışmırmış. Düzdür, o vaxt hələ Səyavuşla Ofeliya ayrılmamışdılar, qadının psixoloji durumu da pozulmamışdı, amma artıq narazılıqlar axarından çıxırdı.

## Hacıbaba Bağırovun Səyavuş Aslanın yerinə keçməsi

İllərin dostları Hacıbaba Bağırovla Səyavuş Aslan arasındakı soyuqluğa isə səbəb tamam başqa amillərdir. Burda birincinin ikincinin yerinə göz dikib, dostluğu tapdayıb xəbərdarlıqsız onun vəzifəsinə sahib çıxması amili ilə yanaşı, qadın məsələsi də istisna olunmurdu. Düzdür, bədii rəhbər təyinatla olurdu, amma iki dostdan biri o birinin yerinə gəlməyə razılıq verirsə bu ikinci dostu incitməyə bilməzdi.

Səyavuş Aslan Musiqli Komediya Teatrının bədii rəhbərliyindən çıxarılanda həm də övlad nisgili vardı, övladlar ata-ana arasında olan soyuq münasibətdən, valideynlərin onlara qayğısızlığından "bəhrələnmişdilər".

Şöhrət bəzən insanın gözünü elə tutur ki, bu şirin "pərdə"-dən başqa heç nəyi görə bilmirsən. Görə bilmirsən ki, sənin həyatında başqa dəyərlər var. Onları gözdən qoysan sadəcə itirə bilərsən, övlad kimi, həyat yoldaşı kimi, ailə kimi dəyərləri. Onlar qayğısızlıqdan, sevgisizlikdən yanlış istiqamətlərə düşə bilərlər.

Səyavuş Aslan Ofeliyası ilə bir evdə iki yad adamlar kimi yaşayırdılar. Gecələdiyi doğma teatr da, vəzifə də beləcə əldən getdi. İndi onu nə gözləyir? Üstəlik insanların etibarsızlığı. Ən yaxın dost onun kreslosunda və bir vaxtlar ciblərinə pul qoyduğu, problemlərini həll etdiyi həmkarları həmin dostun ətrafında.

Bundan ağır stress ola bilərdimi?

Bir vaxtlar üzündən gülüş əksik olmayan insan beləcə aqressiya ilə yüklənir. Milli Dram Teatrına onu uşaqlıq dostu, həmin vaxtlar teatrın rəhbəri olan Həsənağa Turabov gətirir. Bu teatrın səhnəsində də maraqlı obrazlar imza atırdı Səyavuş Aslan, amma insan hamıya qarşı aqressiya ilə yüklənmişdi. Teatrda onu sevən çox az adam olardı, çünki heç kimə xoş münasibət göstərmirdi, onda xoş əhval qalmamışdı. Yalnız çox az-bir neçə adam bunları bilirdi və Səyavuş Aslanın əslində çox kövrək qəlb sahibi olduğunu dəyərləndirib ona münasibətini dəyişmirdi.

Əgər həmin vaxtlar bu böyük sənətkarın içinə aqressiya, insanlara inamsızlıq, qəzəb hakim kəsilmişdisə, illər ötdükcə qəlb öz sözünü deyirdi, kövrəkləşir, həzinləşir, günahları üçün özü öz qarşısında hesabat verirdi. Hesabat zamanı isə heç kim, hətta insanın öz məni belə onu bu günahları eləməsinə gətirib çıxaran səbəbləri araşdırmır, haqq qazandırmır, sadəcə mühakimə edir.

Belə çıxır ki, nə həyatda bir işin sahibi olmadın – ata, ər, oğul kimi. Nə də səhnədə olmaq istədiyin kimi ola bilmədin. Niyə yaşadın, nə dedin, kim oldun? - bu sualları hər gün özünə verir, göz yaşlarını qəlbinin çatlarına axıdırdı. Bəzənsə o göz yaşları elə efirdəcə özünü büruzə verirdi. Xüsusən də ailəsinə-həyat yoldaşına münasibətinə görə özünü günahkar bilirdi, qınayırdı. Ofeliya üçün hər şey edirdi, bəlkə günahını yuyar deyə bazarlığına qədər da-

şıyıb yaşadıqları eyni mənzildəki otağına gətirərdi, amma qadın qəlbi bağışlamırdı ki, bağışlamırdı.

Ömrünün axırına qədər də belə oldu, o, bunu, bu da özünü bağışlamadı.

Beləcə xanımından sonra yaşadığını da saya almayan, ömründən hesab etməyən bir kişi, sənətkar sakitcə, səssiz-səmirsiz, təəssüfsüz, göz yaşısız köçdü həyatdan. Soyuq, boş divarlar arasından əbədi soyuq torpağa köç etdi.

Yayın əvvəlində, iyunun 27-də həyatdan bir müharibə uşağı, talesiz ata, ər, etibarsızlıqdan sarsılan dost, potensialını tam göstərə bilməyən, dəyərini özü ilə aparan sənətkar getdi. Kiminsə qəlbində sadəcə həzin, xoş xatirəsi qaldı, sadəcə qoyub getdiyi obrazlarla... Kimsə ondan bir də olmayacaq dedi. Əksəriyyət isə ... Heç “təəssüf” belə demədi.


Bakıdan namusu
üstə gedən sənətkar

***"Bakı həyatımı, kino yaradıcılığımı məhəbbətimə qurban verməli oldum"***

*"Sərt Mixaylo siması heç vaxt dönüb lirik Məcnun ola bilməz", - dedilər. Rejissor inadından dönmədi, çünki seçdiyi aktyorun potensialını duyurdu. Söhbətin mövzusu nə Sovet İttifaqı Qəhrəmanıdır, nə lirik qəhrəman. Bu dəfə özüdür - Nodar Şaşıqoğlu.*

## Əslən türk olan ata Şaşıqoğlu

Batuminin Türkiyə ilə sərhəd olan kəndində İzzət Rəcəb oğlu Şaşıqoğlu adlı bir keçmiş çar zabiti olub. Onun anası azərbaycanlı, atası acar, bir babası türk, nənəsinin biri rus imiş. Bu keçmiş rus zabitinin xanımı gürcü idi, onun anası rusdu, ata nənəsi tərəfdən isə turklərlə qarışığı vardı.

Nodar bu ailədə dünyaya gəlib. Repressiyaya uğramış məşhur Azərbaycan aktyoru Ülvi Rəcəb Nodarın əmisi idi.

Nodarın atası 1914-cü ildə rus-türk müharibəsində vuruşan zaman Ülvi balaca imiş. Onun üstündə əsirmişlər ki, evin sonbeşiyi, həm də son ümididir. Sən saydığını say, gör fələk nə sayır. Bu qədər qorunan qardaş gənc yaşlarında repressiyaya uğraycaqmış. Tale...

Türk ola-ola rus ordusu tərəfdə vuruşmalı olan İzzət Şaşıqoğlu birinci və ikinci dərəcəli "Georgi" ordenli ştabs-kapitan idi. Kapitanın parlaq hərbi karyerası olub. Rusiyada vətəndaş müharibəsi gedən zaman isə istefaya çıxmışdı, nə "qırmızılar", nə də ağ qvardiyaçılar tərəfdə vuruşub. Sovet dövründə Stalin repressiyalarından onu xilas edən də elə bu fakt olub.

## *Nadinc oğul Şaşıqoğlu*

Nodar tək övlad olmasına rəğmən, atası onu ərköyün böyütmədi. Deyirmiş ki, əsl oğul böyütmək istəyirsənsə, ona düşmən kimi yanaş.

Bununla belə atası Nodarın nadincliyinin qarşısını ala bilmirdi. Bu yerdə ağlıma nənələrin bir fikri gəlir - qanında o qədər millətin qarışığı olan adam bir yerdə otura bilər?

Elə bir gün yox idi ki, atasına Nodarın oxuduğu məktəbdən, ya hardansa şikayət gəlməsin.

Balaca Nodar Sovet hökumətinin təhsilə xüsusi yer ayırdığı vaxtlarda məktəbə getdi. Dəcəlliyindən beş dəfə qovulub ayrı-ayrı məktəblərdə oxusa da, mükəmməl təhsil ala bilmişdi.

Hətta rus dili olimpiadasında birinci yeri tutmuşdu. Bütün Gürcüstanda rusca qiraət müsabiqəsində onunla bir sırada dayana bilən olmadı. Gözəl şeir deməyi vardı Nodarın. Onu oxuduğu məktəbdən Ümumittifaq bədii qiraət müsabiqəsinə namizəd vermişdilər. Nodar da, müəllimi də əmin idi ki, o, birinci yeri tutacaq, amma…

Amma müharibə imkan vermədi. Həmin illəri Şaşıqoğlu ailəsi Tiflisdə yaşadı. Müharibə daha yarım il davam etsəydi, Nodar da müharibəyə gedəcək yaşa çatacaqdı.

### **Üç məktəbə qəbul olundu, birini seçdi, amma qovuldu**

On yeddi yaşının tamamında atası Nodarı Moskvaya təhsil arxasınca göndərir. "Get, hansı sənəti istəyirsən seç, oxu, yetər ki, seçdiyin sənəti mükəmməl bil", - deyir.

Nodar eyni vaxtda həm Teatr İnstitutuna, həm üç teatr-studiyası məktəbinə imtahan verir.  İşini ehtiyatlı tutur ki, heç olmasa, birinə girə bilsin. Tale elə gətirir ki, bütün imtahanlardan keçib sənədlərini verdiyi məktəblərin hamısına qəbul olunur. Seçim qar-

şısında qalanda evə, atasına zəng edir, qərara gəlirlər ki, Teatr İnstitutunda oxusun. Moskva kimi şəhər, rus qızları, yaraşıqlı yarı türk, yarı qafqazlı oğlan. Belə şəraitdə onu oxumadığına, dərsə getmədiyinə görə kim qınaya bilər? Ancaq nainsaf olan. Nəticədə 12 fənndən iki alan gənc, yaraşıqlı Nodar ali məktəbdən xaric edilir.

Növbəti il Nodar yenidən, bu dəfə Şukşin adına Teatr Məktəbinə daxil olur. Elə orada oxuya-oxuya Vaxtanqov Teatrında işləməyə başlayır ki, başı işə, təhsilə qarışsın. Təyinatla Kiçik Teatrın aktyoru olmalıykən, Taqanqadakı teatrda işləməyə başlayan Şaşıqoğlu bir il keçməmiş orada darıxmağa başlayır.

## Səbəbkar erməni qayınana idi

Amma bu bir il müddətində evlənməyə də vaxt tapmışdı. Qadın heyranlarının arasından seçdiyi qızın anası erməni idi. Olduqca qəşəng olan bu qız xüsusən baş rollarda oynayan aktyorun sevgisini qazana bilmişdi. Onun darıxmasının, yeni evləndiyi xanımından da ayrılmağının səbəbkarı erməni qaynanası oldu. Nodar Şaşıqoğlu evini də xanımına verib evdən də, işdən də çıxdı.

Nodar Şaşıqoğlu ümumilikdə dörd dəfə evil olub, hər dəfə də evini ayrıldığı xanıma verib, bir çemodanla çıxıb.

Taqanka teatrında işlədiyi vaxtlardan artıq kinolara çəkilməyə başlamışdı. Məşhur kinorejissor Sergey Yutkeviç ilk dəfə onu "Böyük döyüşçü İsgəndər bəy" adlanan filmində Sultan Mehmet roluna çəkdi.

Özü də əvvəlcə aktyordan soruşub ki, türk sultanının rolunda oynaya bilərsən? Nodar Şaşıqoğlu - “Mənim əcdadlarım türk olub”, - deyib.

Film çəkilişindən sonra onun üzünə teatrın qapıları bağlandı, o vaxt teatr aktyoru filmə çəkilməməli idi. Ancaq zaman keçdi və Nodar Şaşıqoğlu yenidən Taqankaya dəvət olundu.

## Əlvida, Moskva, salam, Bakı

Həmin vaxt Bakıdan kinorejissor Rəşid Atamalıbəyov Taqankadakı tamaşalara baxmaq üçün gedibmiş. Tamaşadan sonra Nodar Şaşıqoğlu ilə görüşən rejissor ona əsl tapıntı olduğunu deyib. Sovet İttifaqı Qəhrəmanı, azərbaycanlı Mehdi Hüseynzadə rolu üçün tapıntı.

Təklif edən Mixaylo haqda çəkiləcək filmin ikinci rejissoru idi.

Azərbaycanlı qəhrəman, baş rol... Şiriniklǝndirici təklif idi, amma bunun üçün Nodar Şaşıqoğlu Moskva həyatı ilə vidalaşmalı idi. Razı oldu, çünki bu şəhərdə onun qohumları yaşayırdı, çoxdan gəlmək istədiyi, nədənsə onu hər zaman çəkən bir şəhər idi Bakı. Qohumu Mərziyyə Davudova da hələ sağ idi, ondan çox şeylər öyrənmək olardı. Anası da Bakıya vaxtaşırı gəlirdi. Bütün bunları düşünüb razılıq verdi.

Bu rola onlarca namizəd var idi. Dövrünün tanınmış aktyoru Möhsün Sənani də sınaq çəkilişində iştirak edirdi. Onda güclü komizm vardı. Mehdi Hüseynzadə rolu isə cidd simalı aktyor axtarırdı. Həm də ciddiliklə faciəvinin bir simada birləşməsi lazımdı.

## Qadınlar onun əynindəki kostyumu cırıq-cırıq elədilər

Tofiq Tağızadənin "Uzaq sahillərdə" filmi Sovet İttifaqında o zaman kəşfiyyatçı haqqında çəkilən ikinci film idi. "Kəşfiyyatçının şücaəti" adlanan birinci filmdə məşhur aktyor Kadoçnikov oynamışdı. "Uzaq sahillərdə" hər cəhətdən o filmi arxada qoya bildi. Film Daşkənd festivalında birinci yeri tutdu. Filmin nümayişindən sonra adamlar Nodar Şaşıqoğlunu Mixaylonun özüymüş kimi əlləri üstündə aparırdılar. Əynindəki kostyumdan özlərində nə isə bir yadigar saxlamaq üçün hərə bir kəsim götürmüş, onu cırıq-cırıq etmişdilər.

Bundan sonra Nodar Şaşıqoğlu səkkiz il Bakıda yaşadı. Rejissor Məhərrəm Haşımov onu dəfələrlə Rus Dram Teatrında işləməyə çağırdı. Hər dəfə imtina edirdi, çünki filmlərə çəkilirdi. 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində "Azərbaycanfilm"in ən parlaq aktyoru Nodar Şaşıqoğlu idi. Eyni vaxtda iki-üç filmə çəkilirdi. Pula da pul demirdi. Bakının gözəl vaxtları idi. Dövlət Bakıda ona ev də vermişdi. Bakının iki Mixaylosu vardı - biri müharibədə həlak olan, biri Nodar Şaşıqoğlu. Təkcə Mehdinin ailəsi yox, bütün Azərbaycan bunu belə qəbul eləmişdi.

Küçədə onu "Mixaylo" deyib qucaqlayıb öpürdülər. Nodar Şaşıqoğlu bu şöhrətdən şaşırmırdı. Küçələrdə piyada gəzməkdən çəkinmirdi.

## Bakını namus üstdə tərk etməli oldu

O zamanlar Bakıda Rubinçik adında məşhur fotoqraf var idi. Dövlət tədbirlərinin hamısını, respublika rəhbərinin bütün səfərlərini o çəkərmiş. Nodar Şaşıqoğlu ilə də tanış imişlər, gediş-gəlişləri varmış. Fotoqrafın çox gözəl xanımı olub. Nodar Şaşıqoğlu ilə bu xanım elə ilk görüşdən bir-birilərinə aşiq olurlar. Bu sevgi Nodar Şaşıqoğlunun hesab etdiyi qədər də ötəri olmur, alovlanır, hisslərinə hakim ola bilmirlər. Bu həmin dövr idi ki, Nodar Şaşıqoğlu Lətif Səfərovun "Leyli və Məcnun" filmində Məcnun rolunda çəkilirdi.

Həyatda yaşadığı sevgi filmdə gözlərində əksini tapır. Füzulinin misralarını qəlbindəki dəli, ümidsiz sevgi ilə alovlandıran Nodar Şaşıqoğlu sonralar bu rolu ən çox sevdiyi obraz adlandırıb: “Filmdə dəli insanın surətini yaratmamışam, məhəbbətin filosofunu oynamışam”, – deyrdi.

Filmdən fərqli olaraq həyatda sevgisinə qovuşur. Qadınla evlənirlər. Onun soyadı Şepeleva idi. Atası tanınmış idman məşqçisiydi. Respublikada bir çoxları bu izdivaca görə Nodar Şaşıqoğlu ilə münaqişəyə girdi. Mentalitet, adət-ənənə, hamısı “baş rol”da

oldu. Nodar Şaşıqoğlunun Azərbaycanda bütün yolları bağlandı, təbii ki, vəzifəli şəxslər tərəfindən. 70-80-ci illərdə belə rejissorlara icazə verilmirdi ki, Nodar Şaşıqoğlunu rola dəvət etsinlər. Məsələn, "Dədə Qorqud" filmində baş rola çəkilməli imiş. Həmin adam siyahıda onun adının üstündən qalın bir xətt çəkir, üstəlik Tofiq Tağızadəyə də gözlərini ağardır.

## Məcburən Moskva həyatı

“Leyli və Məcnun” filminin Sankt-Peterburqdakı səsləndirilməsi zamanı Azərbaycanın o vaxt əməkdar artisti Nodar Şaşıqoğlu möhtəşəm Aleksandrinsk Teatrında işə götürülür. Yenicə Məcnun rolundan çıxmış aktyor teatrda ilk dəfə Don Juanı oynayır.

Sağlığında kişilərə maraqlı məsləhətlər verib: “Həyatda həmişə Don Juan olmuşam. Amma həyatda mənim kimi Don Juan kişilərin heç birinə arzu etmirəm ki, günlərin bir günü dönüb Məcnun olsunlar. Bu fəlakətdir. Görün, məcnunluğuma nələri qurban verdim?.. Mən bütünlüklə Bakı həyatımı, kino yaradıcılığımı məhəbbətimə qurban verməli oldum.

Bakı ilə uzun müddətə vidalaşdım. Yalnız teatrın qastrol səfərləri ilə neçə ildən bir bura gəlirdim. Yadıma gəlir, Aleksidzenin tamaşaya qoyduğu "Antiqona" və "Günün gur vaxtı" ("Ças pik") tamaşalarıyla bura gəlmişdim. Çox uğurlu tamaşalar idi. Biri klassik yunan faciəsi, digəri müasir psixoloji dram. Qastroldan savayı, bəzən həyat yoldaşımın burdakı işləriylə əlaqədar Bakıya bir neçə günlüyə gəlməli olurdum. Bunlara baxmayaraq, Bakı mənim üçün onda keçmiş idi. Artıq Peterburq həyatımı yaşayırdım. Əvvəlki xasiyyətimdə qala-qala” .

Xasiyyətindən özü də şikayətçi olub. Növbəti dəfə ailəsindən ayrıldı. Onun üçün öz ərini, hər şeyi qoyub gedən xanımına evini verib çıxdı. Bakıdakı mənzilini isə onun atasına bağışlamışdı. Onu Aleksandrinsk Teatrından üç dəfə xaric ediblər. Sonra yenə teatra qəbul etdilər. Çıxarılmağının səbəbi isə tez-tez fərdi yara-

dıcılıq səfərlərinə çıxmağı, xaltura ilə məşğul olmağı idi. Həm pul qazanmalı idi, həm də yeni münasibətlər axtarırdı, darıxırdı.

Bakı isə onun üçün böyük məna kəsb edirdi. Ömrünün sonlarında yenə bura – Bakıya qayıtdı. Bura onun sevdiyi, onu sevənlərin çoxluq təşkil etdiyi şəhər idi.

Azərbaycan teatrını da çox sevirdi. Bütün filmlərdə onun səsi olan Əli Zeynalov və özü xasiyyətdə Eldəniz Zeynalovla dostluq edərdi. Hər ikisinin dəfnində də Bakıya gəlib. Barat Şəkinskayanı sevərdi, hər gəlişində onunla görüşə can atarmış. Bir dəfə özünü saxlaya bilməyib onu sevdiyini deyib. Barat Şəkinskaya gülümsəyib ona – "eyni sözləri əmin Ülvi də deyib mənə", - deyə etiraf edib.

Sonuncu sevgisi Rusiyada özündən 25 yaş kiçik bir qız oldu, evləndilər. Fürsət tapan kimi ona xəynət edən bu qadını da Nodar Şaşıqoğlu bir ev hədiyyəsi ilə buraxır.

Bakıya qayıdandan sonra Rus Dram Teatrında fəaliyyətə başlayan aktyor bir gün rejissor Aleksandr Şarovskinin kabinetinə girib: "Cənab rejissor, mənim üçün "Kral Lir" tamaşasını qoy, Kral Liri oynayıb teatrın və dünyanın qapısını arxamca örtüb gedim", - deyir.

Dünyanıı işinə, möcüzəsinə bax, İlahi. Elə də oldu. Bakıya qayıdandan sonra, (elə bil ölməyə gəlmişdi) Heydər Əliyevin ona bağışladığı mənzilində uzun müddət xəstə yatdı. Moskvadan, dörd arvaddan qalan iki oğlundan biri gəlib onun yanında qalırdı. Oğlanlarının ikisinin də adı Nodardır, çünki hər ikisi o, analarını qoyub gedəndən sonra dünyaya gəlib. Anaları da onun adını oğlanlarına verib.

Özündən sonra yer üzündə iki Nodar Şaşıqoğlu, bir də yüzlərlə obraz qoyub getdi.


Həbsxanadan və
əsəb sanatoriyasından
keçən ömür yolu

Tanrının ali məxluq kimi yaratdığı insan ömür boyu yanlışlıqlar edir, səhvlər və onları guya düzəltməyə çalışmaqla keçir ömrümüz. Bir səhvimiz də ondadır ki, sevdiklərimizdən olduqları kimi deyil, bizim istədiyimiz kimi görünmələrini tələb edirik. İnsan övladının hər birində hansısa istedad, qabiliyyət olur. Nə xoş o kəsə ki, yerindədir. İndi söhbət açacağım şəxs də istedadlıdır, illər uzunu öz qabiliyyəti sayəsində sənətinin peşəkarına çevrilə bilib, öz yerindədir, həm də olmaq istədiyi yerdə. Biz isə ondan öz sahəsində deyil, tamam başqa bir istiqamətdə qəhrəman olmasını istəyir və səhv edirik. Bu səhv həm onu itirməyimizə, həm də adamın özünün özünü itirməsinə gətirib çıxara bilər...

Bir az əvvələ qayıdacağam, daha doğrusu keçmişə, Sovet dönəminə. O vaxta ki, insanlar əmək sahəsində böyük uğurlar qazanırdılar və onların əməyi qiymətləndirilirdi. Bu başqa söhbətdir ki, onlara verilən stimul yazıqların işlədiklərindən ikiqat artıq çalışmaları üçün hesablanırdı.

Ağsuda bir qız vardı. Gəncəcik qız əlləri ilə o qədər pambıq yığırdı ki, heç kombayn bu nəticəni verə bilmirdi. Zümrüd adlı bu qız o vaxtın pambıq qəhrəmanı idi – staxanovçu. Bu Staxanov şaxtaçı olub, əmək sahəsində elə bir rekord əldə edib ki, onun rekorduna yaxınlaşan adama onun adı ilə staxanovçu deyirlərmiş.

Zümrüd staxanovçu olandan sonra partiya işçisi olan Əhmədlə talelərini birləşdirir, həyat yollarında birgə addımlamağa başlayırlar. Amma Zümrüd daha pambıq yığmır. Əvəzində dünyaya səkkiz övlad gətirir - üç qız, beş oğlan. Bu sahədə də, maşallah, staxanovçu olur.

## Məktəbə tez gedib, onu gec başa vurdu

Ailənin böyüyü Rasim boyca hündür olsa da çəlimsizin biri idi, hətta kiçik bacı-qardaşları ondan böyük görünürdülər, amma bu uşağın oxumağa, öyrənməyə o qədər həvəsi vardı ki, 5 yaşında artıq əlifbanı bilir, 6 yaşında heç kimin köməyi olmadan kitab oxuyurdu. Ona görə də valideynləri qərara gəlirlər ki, Rasimi 6 yaşından məktəbə göndərsinlər. O vaxt qanunla hamı 7 yaşda getməli idi məktəbə, onu götürmək istəmədilər. Atasının partiya fəalı olması işə yarayır bu yerdə.

"Mənim üçün 1-ci sinif çox maraqsız keçdi. Onlar hərfləri, rəqəmləri öyrənirdilər hələ, mən bunları çoxdan bilirdim, üzündən sərbəst oxuyurdum".

Həmin il, yəni 1954-cü ildə məktəbə gedənlər üçün təhsil ili 11 il oldu. Tərs kimi, adam bir il irəli düşmək istədi, amma elə həmyaşıdları ilə eyni ildə qurtardı məktəbi, çünki növbəti il məktəbə gedənlər yenidən 10 illik təhsillə bitirdilər orta məktəbi.

Məktəb illərində ədəbiyyat müəlliməsi Nabat müəllimənin sayəsində ədəbiyyatı, sənəti sevdi Rasim:

"Nədənsə mənim şeir deməyim, əsərləri intonasiyalı oxumağım onun xoşuna gəlirdi. Sinifdə dram əsərlərini rollara görə bölüşdürürdü, aramızda səhnələşdirilmiş kimi oxuyurduq əsəri. O vaxt radio-tamaşalar olurdu, onlara qulaq asırdım və bu da sinifdə rolumu yaxşı oynamağıma kömək edirdi".

Bir də Rac Kapurun o vaxt bütün Sovetlərə yayılan filmləri Rasimdə bu sənətə maraq oyatmışdı, bütün günü dostları üçün Rac Kapurun rollarını oynayardı.

Bir gün xəbər yayıldı ki, Ağsuda "Uzaq sahillərdə" filmi çəkilir: "10 yaşım vardı. Ağsu aşırımında filmin müəyyən kadrları çəkiləndə mən də tamaşa edirdim. Nodar Şaşıqoğlunu çox sevirdim, ürəyim atlanırdı ki, görəsən mən də belə aktyor ola bilərəmmi? Taleyin işinə bax ki, Kino İttifaqın katibi kimi onu öz kabinetimdə qəbul etdim, oturub söhbətləşdik".

## Ana əllərinin nəvazişi üçün getdi, həbsə düşdü

Artıq orta məktəbin son siniflərində Rasim sənətini seçmişdi. Dostu Səməndər Rzayevin institutdan kəsilmiş, qayıdıb məktəbdə dram dərnəyi yaratmışdı. Bu, Rasimin arzusunu reallaşdırmağa bir az da təkan oldu.

Növbəti il ikisi də Teatr İnstitutunun aktyorluq fakültəsinə qəbul olundular. Nabat müəllimə də onun bu seçimindən və uğurundan çox məmnun qaldı. Ailə də bu addıma zidd getmədi.

Ümumiyyətlə, rayon Partiya Komitəsində məsul vəzifədə çalışan atanın oğlu çətinlik görməmişdi, atdığı addımlar da həmişə uğurla nəticələnmişdi. Gəncin gözü ayağının altını görmürdü, elə bilirdi ki, elə həyat belədir, hər şey asanlıqla başa gəlir, istədiyin hər şeyi edə bilərsən.

Üçüncü kursda oxuyurdu, möhkəm soyuqlamışdı, qış sessiyası öncəsi rayona gedir ki, anası onu sağaltsın. Neçə ay idi rayona getməmişdi, anasının nəvazişli əlləri ona dəyən kimi sağalacağına əmin idi, amma soyuqlama keçmək bilmədi. Rayonda bir dostu ilə Ağsu xəstəxanasına yollandılar.

Xəstəxananın həyətində bir gənc oğlanla dostunun sözü düz gəlmir, dalaşmalı olurlar. Rasim də təbii ki, dostuna kömək etməyə çalışır və dava böyüyür. Onları tutub milis məntəqəsinə gətirirlər. Bu dava isə həmin dövrdə xırda xuliqanlığa az qala terrorizm qədər cəza kəsildiyi dövrə təsadüf edir. Sovet milisi xuliqanlığa görə Rasimi həbs edir.

“100 gün Gəncə həbsxanasında yatdım. Həmin 100 gün mənə bütöv bir həyat dərsi oldu. Çox burnu yuxarı idim, həyat mənim üçün əyləncə idi elə bil. Həbsxana həyatı göstərdi ki, əslində həyat nədir”.

Rasimi həbsxanadan çıxartmaq elə də asan başa gəlmir. Atası vəzifədə olsa da xış kötüyə ilişmişdi. Dostu ilə birləşib döydükləri gənc o vaxtkı baş prokuror Qambay Məmmədovun qohumu imiş.

**Sevdiyi əmi qızı ilə...**

100 günlük həbsxana həyatından sonra Rasimə məhkəmənin qərarı ilə bir il şərti iş verilir.

Bu vaxt ərzində onun kurs yoldaşları artıq semestr imtahanlarını vermişdilər. Tələbə yoldaşları yığışıb Teatr İnstitutunun rektoru Rahib Hüseynovun yanına xahişə getdilər.

"O vaxt beş-altı uşaq götürürdülər kursa və onları yaxşı yetişdirirdilər. İndiki kimi konveyer üsulu ilə aktyor buraxmırdılar. Rahib müəllim kurs işlərimi görüb bəyənmişdi. Dedi, səni ona görə kursa bərpa eləyirəm ki, yaxşı bir aktyoru gələcək mədəniyyətimizdən qopartmayım, amma bir də elə bir hərəkətin olsa heç nəyi nəzərə almayacam".

Rasimi öz kursuna bərpa edirlər, şərti işin də vaxtı bitir, tələbəlik həyatının da. Rasim institutdan uzaqlaşmır, elə tədris teatrında işə başlayır, bundan başqa institutda dərs də deyir.

İlk baxışdan həyat öz axarına düşmüşdü, Rasim ailə qurmuşdu, sevdiyi əmisi qızı ilə evlənmişdi, işləyirdi. Bakıda bir erməninin evində kirayədə yaşayırdılar, atasının əli də üstlərində idi.

Bir gün Rasim qayğıkeş atanın ölüm xəbərini aldı. Bu qəfil ölüm onu çox sarsıtdı. Həmin il oğlu Ülvinin dünyaya gəlişi onu qismən bu sarsıntıdan çıxara bildi. Amma həyat rahat deyildi daha, kirayədə yaşamaq, ailənin böyüməsi, məvacibin azlığı… Bir tərəfdən də dəvət aldığı bütün sınaqlar uğursuz nəticələnir, az qala təsdiq olunduğu rola belə sonda başqasını çəkirlər.

"Bu nə işdir belə, əgər belə istedadsız idimsə niyə Müxlis Cənizadə kimi ustad mənim gələcəyimin parlaq olacağını deyirdi, niyə Rahib Hüseynov məni instituta bərpa etdi? Yox əgər bacarıramsa niyə bacarıqsız kimi kənarda qalıram ? "- kimi suallar ona rahatlıq vermirdi. Ondan bacarıqda geridə olan uşaqlar çəkilirdilər filmlərə, teatrların qapısı üzlərinə açılırdı, amma Rasim üçün bütün qapılar birdən bağlanmışdı elə bil.

1972-ci ildə sarsıntı, əziyyət o həddə çatır ki, Rasim xəstəxanaya düşür. Həmin vaxt onun ikinci oğlu dünyaya gəlir. Rasim xəstəxanadan xəbər göndərir ki, adını Asim qoyun, ölsəm yalnız "R" hərfini adın əvvəlinə əlavə edərsiniz. Depressiya onu çox pis hala salmışdı. Belə xəstələr adətən həyatlarında yaxşılığa doğru əsaslı dönüş olarsa həyata qayıdırlar.

Bu o dövr idi ki, İsa Hüseynovla Həsən Seyidbəyli Nəsimi axtarırdılar. Bir gün Həsən Seyidbəylinin yadına Tədris Teatrında gördüyü oğlan düşür və tapşırır ki, ona ssenarini verin oxusun, sınağa gəlsin. Rasim ona xəstəxanada təqdim olunan ssenarini oxumadan qaytarır ki, mənim ömrümə az qalıb, sizi naümid etməyim. İkinci rejissor bu sözləri Həsən Seyidbəyliyə çatdırır. Rejissor həmin anda səhiyyə nazirinə zəng vurur. Bu xahişdən sonra Rasim yenidən müayinədən keçirilir və onu Mərdəkana əsəb sanatoriyasına göndərirlər. Orda müalicə ala-ala Rasim Nəsiminin məşqlərinə başlayır.

1973-cü ildə "Azərbaycanfilm"in Bədii Şurası Rasimin həyatı ilə bağlı çox önəmli bir qərar verir-onu Nəsimi roluna təsdiqləməklə həm də ölümün pəncəsindən qoparır. Rasim sevindiyindən uşaq kimi hönkür-hönkür ağlayır.

## Nəsiminin dərisi soyulanda o, öz əlinə mismar pərçimləyirdi

Film Rasim üçün uğurlu başlanğıc oldu. Filmin ilk nümayişinin səhəri Rasim artıq bütün Sovetlər Birliyində məşhur idi - Rasim Balayev kimi.

Filmin rejissoru Həsən Seyidbəyli deyirmiş: "Hamı məni qınadı ki, elə bir obrazı gənc, təcrübəsiz aktyora həvalə etməklə iflas edərsən, riskə getmə. Getdim, amma inandım ki, bu risk deyil, bu gənc çox istedadlıdır, mənə onda öz istedad və bacarığına inam yaratmaq qalırdı ki, o, Nəsimiləşsin".

Nabat müəllimənin ona əruzu gözəl öyrətməsi, qiraəti sevməsi də Rasimin köməyinə çatmışdı, hər məşqdən, çəkilişdən sonra Rasimin özünə inamı daha da artırdı, bütün vücudu ilə Nəsimi ola bilirdi. Buna görə də həmin il Beynəlxalq Kino Festivalının tapıntısı Rasim Balayev oldu. Elə Azərbaycan kinosunun da.

Bir dəfə Moskvada, kino festivalı vaxtı Rasim Balayev köşklərdə bir aktyorun şəkillərinin satıldığını görür. Şəkilləri Azərbaycandan gedən başqa sənətkarlar da görüb Rasimə deyirlər ki, öz şəklindən birini də özün al. Rasim elə bilir zarafat eləyirlər onunla, cavab verir ki, hə, mənə yaman oxşayır.  Yaxınlaşıb köşkdən şəkli alır və baxır ki, arxasında Rasim Balayev və onun haqqında məlumat yazılıb. O vaxt aktyor hələ öz məşhurluğunun fərqində belə deyilmiş. Bəlkə heç sonralar da.

Ümumittifaq, beynəlxalq kino festivallarının iştirakçısı kimi Rasim Balayev az qala dünyanın yarısını gəzdi. Uşaqlıq kumiri Rac Kapurla bir səhnədə mükafat aldı.

Ən yaxşı kişi roluna görə nominasiyanın qalibi oldu. Ömür boyu bir aktyorun ala biləcəklərini Rasim Balayev yalnız Nəsimi roluna görə aldı.

O vaxt cəmi 25-26 yaşı vardı. 31 yaşında isə Babəki oynadı.

Ardıcıl 70 filmdə sanballı rollara çəkildi. Almaniyada, Türkiyədə, İranda, Tacikistanda, Osetiyada, çeçenlərin ilk kinosunda, Özbəkistanda, Moskvada, Gürcüstanda.

Onu yalnız müsbət qəhrəman kimi sevmədik, həm də cəmiyyətdəki mənfi tipləri gözlərimiz qarşısında bütün çılpaqlığı ilə canlandırdı, məsələn elə "Həm ticarət, həm ziyarət" filmindəki obrazı ilə. İnanıram ki, o obraza tamaşaçı Babəki, Nəsimini, Beyrəyi sevdiyi qədər nifrət edirdi.

Daha rollarını sadalamayacağam, kinoşünas deyiləm, həm də o rolları hamımız görmüşük, məndən eşitməyiniz yenilik olmayacaq.

Rasim Balayev 34 yaşında artıq Azərbaycanın Xalq Artisti idi.

Çünki Nəsiminin dərisi soyulanda o əzabı simasında verə bilsin deyə ovcunun içində saxladığı mismarı var gücü ilə sıxıb

ətinə pərçimləyəcək qədər sənətini sevirdi. Mismar onun ovcunu parçaladıqca Nəsimi dərisi soyularkən yaşadığı cismani əzabı yaşayır və bu, onda təbii alınır. Yaxud "Qatır Məmməd" filmində Göyüş onu vurarkən çəmənliyə yıxılır və çabalamaq istəyir ki, bu vaxta qədərki filmlərdə güllə dəyən kimi yıxılıb ölmək olmasın. Axı insan yerə yıxılır, çabalayır və canını tapşırır. Rasim özünü çəmənliyə çırpanda bilməyib ki, otların arasındakı çapıq daş onu necə yaralayacaqsa çabalamağa taqəti qalmayacaq ağrıdan.

Ömür boyu qəhrəmanları oynayıb, amma bu o demək deyil ki, biz ondan qəhrəmanlıq gözləyək, umaq. Bu barədə özü də deyib:

"Mən qəhrəman deyiləm, yalnız qəhrəmanları oynamışam".

Biz ondan umaq ki, nə qədər damarında qan, canında can var, gözəl obrazlar yaratsın və bunun üçün ona şərait yaradılsın. Yoxsa xalqın sevimli, xalqı öz arxasınca aparmağa qadir sənətkarını məqsədli şəkildə gözdən salmayaq. Kinonun daha bir peşəkar aktyorunu xatırladım – Həsən Məmmədovu. O, da belə bir tale yaşadı, çox sevildi, ömrünün sonlarında isə məhrumiyyətlər ucbatından hakim partiyaya sığınmalı oldu və bəziləri buna görə onu qınadı.

"Mən Qazandan dönmərəm, istər məni, iki parça et"-deyən Beyrək, "Mən sizinləyəm, insanlar" deyən sərkərdə Babək deyil Rasim Balayev, "ədalətli olmağa, hamıya kömək etməyə çalışan, yalana, ikiüzlülüyə, riyakarlığa və lovğalığa nifrət edən" bir sənətkardır sadəcə.

Dostların əhatəsində pəsdən səslə oxumağı var, xüsusən onun ifasında "Arxadan zərbə" filmində zümzümə etdiyi mahnı çox gözəl alınır. Oğlunun toyunda isə məxsusi onun üçün yazılıb, bəstələnmiş mahnı ifa edib.

Gözəl qəzəl deməyini, Alim Qasımovla duetini bir neçə dəfə görmüşük.

Kiminsə siyasi oyununda piyada olacaq qədər sadəlövh deyil, amma sadə adamdır.

Xanımı Sevil deyir ki, Rasimdə məni hər şeydən çox ağır təbiəti, mərdliyi və yaratdığı fövqəladə rollar heyran edir.

Son illər çəkildiyi "Sübhün səfiri" filminin çəkilişlərində bir daha əmin oldum ki, Rasim Balayev çox peşəkar kino aktyordur. Elə bir aktyor ki, hələ 100 il bundan sonra da kino tariximizdə izi qalacaq.

Çəkilmədiyi rollar isə onu gözləyir, qabaqdadır hələ.

Bu gün onun həyatında daha bir qara zolaq keçir, lap 70-ci illərin əvvəlində olduğu kimi. Yenə Rasim Balayev depressiyadadır. Günlərlə evə qapanır, içki ilə əsəblərini sakitləşdirməyə çalışır. Dostları, heç Alim Qasımov belə Nəsimi qəzəllərindən zövq almaq üçün çağırdığı məclislərə onu apara bilmir.

İki dəfə yıxılıb, birində ayağı, ikincisində qolu qırılıb. Hərəsində bir-iki ay gipsdə və müalicələrdə olub. Ayağının baş barmağının ustufca yerə toxunmasından başına gəlməyən oyun qalmadı, barmaq kəsilməsinə qədər gəlib çıxdı, onu da şükür atlatdı. Şəkəri var. Bu yaxınlarda mədəsindəki daxili qanaxmadan hemoqlobini 30-a düşüb. Məlum olub ki, mədəsində xora əmələ gəlib.

Bütün bunların hamısı stress və əsəb gərginliyinin nəticəsidir.

"İttifaqdan istefa verməyimi çox ağır yaşadım. Heç nə ilə təsəlli tapa bilmirdim. Özümü artıq yararsız hiss edirdim. Bəlkə də səhhətimdə problemlər yaranmasaydı, o dərd məni öldürərdi, elə bil başım qarışdı səhhətimə, canımın hayına qaldım və zaman keçdi".

Mən şəxsən Rasim Balayevi yalan, riyakar sifətdə görmədim. İstər zarafatla, istər ciddi-ciddi nə dedisə, düz dediyini gördüm.

Nə yazıq ki, qəribə bir şakərimiz var. Birinin üstündən dərhal xətt çəkməyə hazırıq- şəxsiyyətsiz, simasız damğası da vururuq- heç ağlımıza da gəlmir ki, o xətt çəkdiyimiz qələmi əlimizin üstündən başqa əl tutur, çəkdirir bizə xətti öz bildiyi istiqamətdə.

Rasim Balayev bu gün aşağı düşmüş qanın, hemoqlobinin və mədə xorasının müalicəsi ilə məşğuldur. Hemoqlobini qaldırmaq üçün ürəyi istədiyi kimi qidalanmağa mədəsindəki yara imkan

vermir, ona görə də iynə-dərmanla müalicə alır, antibiotiklərsə orqanizmi həm də zəif salır.

Bu tale və yaşam mücadiləsində sənətkarımızın arxasında, yanında olaq, ayağının altında başı aşağı vəziyyətdə quyu qazan halda yox. Ondan tezliklə sağalıb kinomuza qayıtmasından başqa heç nə tələb etməyək. Bu ona ən böyük köməyimiz olar.



# Serroz, səhnə sevgisi, dörd dəfə yayılan ölüm xəbəri

*60-cı illərin əvvəllərində televiziyada, əsasən, uşaq verilişlərində gülərüz, şən, çılğın bir oğlan uşağı görünməyə başlayıb. Üzündə şeytan tükü varmış kimi onu kim görürmüşsə, dərhal ekran qarşısında sehrlənib qalarmış və özündən asılı olmadan simasında təbəssüm yaranarmış.*

## Yaşar Nurinin Buratinodan başlayan "macəraları"

Bir gün, iki gün… Bu oğlan efir ulduzuna çevrilməyə başlayır. Tamaşaçının gözü ekranda həmişə onu axtarır. Bu kim olar? – deyə dillərdə suallar dolanır. Kimin oğludur, görəsən? Bəziləri deyir Fazil Salayevə çox oxşayır, yəqin onun oğludur, digərləri tamam başqa bir sənətkarın oğludur, yaxud filan yazıçının qohumudur – deyir. Məktəblərdə həmyaşıdları özlərini ona bənzətməyə çalışırdılar, tellərini onun kimi darayır, onun mimikalarını yamsılayırdılar.

İllər keçir, televiziyaya ilk dəfə Buratino obrazı ilə çıxan və elə Buratino kimi simasından gülüş və səmimiyyət əksilməyən, tamaşaçısını da öz müsbət aurasına alıb aparan bu oğlan uşağı böyüdükcə daha çox efirlərə yaraşır, daha çox arzu edilirdi. Böyüdükcə efirdəki rolu da böyüyürdü, uşaq verilişlərindən böyük verilişlərinə keçirdi. İndi daha çox əyləncəli proqramlardakı səhnəciklərdə oynayırdı. O, tərəf müqabilləri olan böyük aktyorlardan zərrə qədər geri qalmırdı, hətta onların arasında belə fərqlənir, seçilməyə başlayırdı.

## Məsələ sosiskada deyil e...

Artıq indiki İncəsənət və Mədəniyyət Universitetinin tələbəlik illəri arxada qalmışdı. Həmin cəlbedici, balaca oğlan kinolara çəkilirdi, teatr tamaşalarında oynayırdı, kifayət qədər tanınan və sevilən bir aktyor idi.

1982-ci ilin dekabr axşamında, o vaxtkı "Kommunist" nəşriyyatında işləyən dostu İlham Rəhimli ona zəng edir ki, sənə "əməkdar artist" fəxri adı verilib: "Qəzetdə siyahıda adını öz gözlərimlə oxudum, qəzet çapa gedir, sabah özün də görəcəksən".

Aktyor sevincindən sabahı gözləyə bilməyib, nəşriyyata gəlir. Çap prosesində olan qəzetin hazır səhifəsini götürüb baxır və sənə muştuluğa bir fransız köynəyi məndə - deyir. Sonra birdən gözləri dolur, rəngi tutulur: "Yazıq atam neçə il səhnədə külüng vurdu, bir quru ada da həsrət qaldı".

Səhər çalışdığı teatrda da onu hamı təbrik edirdi, amma axşamdan tutulan siması açılmırdı ki, açılmırdı. "Atam Vücudun halal payı mənə düşdü"-deyir.

Teatr aləmində Vücud ləqəbi ilə tanınan aktyor onun atası Məmmədsadıq Nuriyev, onun oğlu isə hamının sevimlisi aktyor Yaşar Nuru idi. Bu həmin Məmmədsadıq Nuriyevdir ki, Musiqili Komediya, indiki Milli Dram Teatrlarında çalışmaqla bahəm, həm də çox sayda Azərbaycan filmlərində qısa, epizodik obrazlar canlandırıb. Məsələn, "Uşaqlığın son gecəsi"ndə dostundan iki kilo sosiska təvəqqəsində olan Davud obrazını xatırlayın.

"Nə vaxt demisən ki, Davud, köpəyoğlu, al, bu iki kilo sosiskanı sənin üçün gətirmişəm. Özümün pulum var, alaram da, amma sən gətirsən, deyərəm dostum gətirib. Məsələ sosiskada deyil e, məsələ "vnimatelni" olmaqdadır".

Sənətkarlar üç cür olur – birincilər xalqın da yaddaşında qalır, xalq artisti fəxri adını da qazanır. İkincilər nə xalqın yaddaşında qalır, nə də fəxri ad üzü görürlər, üçüncülər fəxri ad üzü görməsələr də xalqın yaddaşında həmişəlik həkk olunurlar. Onların adı gələndə kimsə hər hansı bir obrazından sitat gətirməklə onu xa-

tırlayır və xatırladır. Məmmədsadıq Nuriyev üçüncü kateqoriya aktyorlardan olub. Kinoda, səhnədə müxtəlif obrazlar oynayıb, istedadlı və məhsuldar olub, nə yazıq ki, əməyi layiqli qiymətini almayıb, amma bu günə qədər də yaddaşlarda var. Onun övladı Yaşar Nuriyə "əməkdar artist" fəxri adı veriləndə ona görə aktyor əvvəl sevinib, sonra kədəri sevincinə qarışıb ki, atam bu ada həsrət köçdü dünyadan.

## Yaşarın doğuluşu, yaxud niyə məhz Yaşar...

Məmmədsadıq Nuriyevin xanımı Rəfiqə evdar qadın idi, evdə dörd körpəyə baxırdı. İndi o iki qız və Yaşar Nurinin qardaşı müxtəlif sahələrdə çalışırlar, müəllimə, tibb bacısı, mühəndis. 1951-ci ilin 3 sentyabrında dünyaya göz açan Yaşarsa meylini aktyorluğa salmışdı.

Qəribədir, o vaxt "Sovetski"də böyüyən uşaqlar, ya "vor zakon" olmagı arzulardılar, ya da sənətkar-aktyor, rejissor, bəstəkar. Yaşar da aktyor olmaq istədi.

Bir dəfə oxuduğu 173 saylı məktəbin həyətində futbol oynayarkən, topla məktəb pəncərəsinin şüşəsini qırmışdı. Direktor tələb elədi ki, atan gəlsin və şüşənin pulunu ödəsin. Atası məktəbə gələndə isə direktor onu tanıyıb və aktyoru gülərüzlə qarşılayıb, pul da almadan yola salıb.

Özü müsahibələrində bu barədə belə deyir: "Düşündüm ki, mənim kiçik xətamı, dələduzluğumu atama görə keçdilər, gərək mən də aktyor olam ki, böyüyəndə böyük xəta və dələduzluqlarımı da özümə görə keçsinlər. Özümə bələd idim axı".

O vaxt Gəncə Teatrında işləyirdi, özü də məhz Yaşar dünyaya gələndə "Yaşar" pyesində Əliqulunu oynayırdı Məmmədsadıq Nuriyev. Ona görə də əvvəlcə oğlunun adını Əliqulu qoymaq istəyib, sonra düşünüb ki, elə arzusunda olduğu qəhrəmanın öz adını qoysun – Yaşar.

Yaşadığı məhəllənin uşaqlarından fərqli olaraq, sakit, məktəbə vaxtında gedib-gələn, yaxşı oğlan idi. 10-12 yaşı olarmış, yenə atası ilə teatra gedib. "Toy kimindir?" tamaşasının başlanmasına bir neçə saat qalmış rejissor deyib ki, Qoşunun oğlu Tapdıq rolunu oynayan aktyor xəstələnib. Hərə bir təklif verib. Aktyor İbrahim Hüseynov deyib ki, Məmmədsadığın oğlu o rolu əzbər bilir, çünki bütün tamaşalara baxıb, icazə verin oynasın, baxın. Balaca Yaşar bu təklifə o qədər sevinib ki, bir saatın içində bilmədiyi yerləri də əzbərləyib və axşam tamaşada uğurla oynayıb. Nəsibə Zeynalova, Lütfəli Abdullayev, Bəşir Səfəroğlu, Münəvvər Kələntərli və atası ilə ilk dəfə bir səhnəyə çıxıb.

1972-ci ildə o vaxtkı İncəsənət İnstitutunda Rza Təhmasibin sinfini əla qiymətlərlə başa vurur. Zatən institut illərində onu artıq hazır aktyor bilirdilər. Uşaqlığından televiziyada çıxış etməyi onu həm populyarlaşdırmışdı, həm də ustalaşdırmışdı. Onu sevən tələbə yoldaşlarının, yəni qızların heç birinə fikir verməzdi gənc Yaşar, sadəcə, dodaqucu gülümsəyib keçərdi. Fikrində anasının bir sözü dolaşırdı: "Gedib yada-yalana ilişərsən, bilmərik kimdir, nəçidir, gətirib salarlıq ailənin içinə. Sənə qızı da özüm seçəcəm ".

Elə də oldu. Anasının seçimi ilə Yaşar Konservatoriyada təhsil alan, Rəhimə adlı uzaq qohumlardan olan qızın izinə düşdü, bir gün, iki gün gedib-gəldi arxasınca. Bir gün qıza yaxınlaşıb deyir: "Bilirsən, nə var, vaxt yoxdur ssenari qurmağa, bütün günü səhnədə ssenari ilə oynayıram, evlənirik, vəssalam".

Yaşar Nuriyə hansı qız "yox" cavabı verərdi ki.

Evlənirlər. O illər Yaşar Nuri, artıq Tofiq Kazımovun dəvəti ilə Dram Teatrında işə başlamışdı. 55 manat məvacib alırdı. Orda ilk rolunu oynayırdı – vampir rolunu. Bəli, peşəkar səhnədə ilk rolu vampir olmuşdu. Ona görə sənətin vampirinə çevrildi.

## Buratinodan Elçin müəllimə qədər

Teatrda yaratdığı obrazlar, aktyor oyunu barədə teatrşünas İlham Rəhimli belə deyir: “Səhnəyə gəlməyini xəbər vermək kimi bir fənd var. Bu, milli dramaturgiyamızda ən məşhur fənddir. Azərbaycan milli teatrı peşəkarlaşandan sonra aktyor teatrı olub. Seyrçi teatra ilk növbədə aktyora baxmağa gəlir. Bunu yaxşı bilən, bütün hüceyrələri ilə hiss edən aktyor da oynadığı epizodun səhnəyə çıxma vaxtı yetişəndə, qabaqcadan seyrçilərini xəbərdar eləyir ki, bəs, arxayın olun, bu gün mən sizinləyəm. Aktyor tam əmin olmalıdır ki, tamaşaçı səsini eşitcək, məhz onu-sevimli və istəkli sənətçisini, anların intizarıyla gözləyir.

Yaşar Nuri bu fənddən 25 ildən çoxdur ki, istifadə edir. Epizodun vaxtı yetişəndə aktyor həməncə səhnəyə çıxmır, bir-iki saniyə ləngiyir, pauza verir. Elə həmin məqamda səhnə arxasından həssaslıqla salonu dinləyir. Yalnız özünə bəlli olan hüdudacan gözləyir. Sonra ilk replikasını-sözünü ucadan deyir və yenə bir neçə saniyə salonu dinləyir. Həm də salonun psixoloji reaksiyasını bütün oynaqları ilə duyur. Tamaşaçılar arasındakı canlanma qulağına, hisslərinə çatar-çatmaz sözün əsl mənasında, səhnəyə şığıyıb yerində "donur".

Sürəkli alqışlar! Seyrçilər rəğbətlə, sevimli aktyorunu salamlayır. O isə "obrazdan çıxmadan" donmağıyla pərəstişkarlarının salamlarını alır. Alqış qoparıb, səhnədən getmək də Yaşara xas fənddir. Açığını desək, bu, ən çətin fəndlərdən biridir. Bir çox pyeslərdə, ələlxüsus, çağdaş komediya və dramlarda müəlliflər fikri daha çox ansamblın hərəkət quruluşuna yönəldirlər. Səhnədən gediş üçün öncədən personaja vurğulu, nidalı, mənalı, partlayıcı qüvvəyə malik kəlmə, yaxud ifadə, cümlə vermirlər. Daha doğrusu, heç bu təmənnada olmurlar da. Yaşar bu "əngəl"i asanlıqla aşır, bu "maneə"ni ustalıqla adlayır. Həmin işdə onun dadına parlaq improvizə qabiliyyəti yetişir. Yaşarın rol üzərindəki iş prosesi məşqlərdə bitmir. Bəzi "bombalar" tamaşa zamanı bədahətən partlayır, bəziləri isə vəziyyətə cavab olaraq.

Pauzanı saxlamaq - ilk baxışdan bu fənd, son dərəcə asan görünə bilər. Axı susmaqdan rahat nə ola bilər? Yaşar pauzadan-mənalı gərgin sükutdan bir tamaşada çox istifadə etmir, onun dəyərini qoruyur. Çünki bir dəfə, özü də obrazın hadisələrlə bağlı ən gərgin epizod yerində istifadə edilən sükut, tamaşaçıya uzun-uzadı monoloqlardan daha çox şey "deyir". Yaşarın ustadı Tofiq Kazımov tamaşalarını (illah da ki, İlyas Əfəndiyevin lirik-psixoloji dramları əsasında qoyulanları...) bu cür "çoxdanışan sükutlarla" özünəməxsus ifadəliklə zənginləşdirirdi. Məncə Yaşar da ustadının həmin fəndini məharətlə mənimsəyib, bundan səmərəlicəsinə faydalanıb və ona öz şəxsi "rəngini" verib. Seyrçilərlə ünsiyyətə arxalanaraq, Yaşar Nuri bu fəndi ("mənalı sükutu") qarşılıqlı dialoqun əməli vasitəsinə çevirir. Bu, vasitəyə xüsusi ılıqlıq, istilik verən həmsöhbətlərinin zövqünə inam və birgə yaradıcılığına çağırışdır.

Tamaşanın ilk anlarından qəhrəmanını birmənalı təqdim eləyən Yaşar, xüsusi dəqiqliklə onun (personajının) xasiyyətnaməsini səhnəyə hər yeni gəlişində təsdiqləyir, rəngarəngləşdirir və tamaşanın, təxminən, ortasında obrazı seyrçilərin "köhnə tanışına" çevirir”.

### Firəngizlə olan sevgi

İlham Rəhimli Yaşar Nurinin teatrdakı fəndlərindən söz açdı. Mən həyatdakı fəndlərindən danışacam. Rəhimə ilə evliliklərindən iki qızları oldu. Yaşar Nuri ailəyə, qadınına sadiq bir insan idi. Sevgisi iki qütbə ayrılmışdı – sənəti və ailəsi. Heç birini o birindən ayrı təsəvvür edə bilmirdi.

Amma sağlığında özünün də dediyi kimi, insanın qəlbində elə bir sevgi olur ki, onunla dərdləşə bilirsən. Yəqin düşünəcəksiniz ki, bu Firəngiz xanım Mütəllimova ilə olan sevgisidir. Bəlkə də, hə, bəlkə də, yox, amma bu sevgi vardı, indi də Firəngiz xanım Yaşar Nurini çox sevdiyini etiraf edir, amma hər kəs öz aləmində bu

sevgiyə istədiyi donu geyindirir. Yaşar Nuri isə bayaq dediyim ki, bunu dərdləşdiyi sevgi hesab edirdi.

Firəngiz xanım deyir, o qədər çox sevirəm ki, Yaşarı, bir dəfə hətta Rəhiməyə də dedim, iki qızınız var, biri olsun mənim, ver mən baxım, o birinə də sən. Ailədə sədaqətə, inama baxın ki, təkcə Rəhimə xanım bu sevgiyə onun əyninə biçilmiş donu geyindirə bilib və bu səbəbdən münasibətlərdə problem yaranmayıb.

## İçki, serroz, 4 illik xəstəxana həyatı

Azərbaycan kinosunda dürlü-dürlü obrazlar yaradıb. Komik rolu da var, faciəlisi də. Hər birində də özünəməxsus çalarlar. "Mozalan" satirik kinojurnalında yaratdığı hər obraz özü bir kinodur. Teatrda, kinoda, "Mozalan"da, televiziyada yaratdığı bütün obrazlar, onun sənətdəki əməyinin qiyməti 1981-ci ildə SSRİ-nin əməkdar artisti fəxri adından tutmuş, 2011-ci ildə 60 yaşında ona verilən "Şöhrət ordeni"nə qədər layiqli dəyərini alıb.

İnsan həyatının müəyyən bir dönəmində bəzən bilərəkdən, bəzən bilmədən istəmədiyi yola düşə bilir. Yaşar Nuri ağıllı, şüurlu surətdə içki həvəskarı idi. Yeyib-içən oğlan idi – özünün təbirincə ifadə eləsək. Bunun ona əksər hallarda ziyanı dəyirdi. İçkili olduğuna görə bəzən çəkiliş təxirə salınırdı.

Bir dəfə dövlət televiziyasında yeni il şənliklərində Şaxta baba rolunda ikən içkili olması, həmin şənliyin çəkiliş prosesini tamam əngəlləmişdi, bununla belə həmkarları, rejissorlar onu o qədər məhəbbətlə sevirdilər ki, güzəştə gedirdilər. Kimsə ona dərs vermək fikrinə belə düşmürdü ki, içmə, yaxud az iç. Buna Yaşar Nuri özü rəvac verməmişdi ki, kimsə bu cəsarətli addımı ata bilsin. Amma bu aludəçilik artdıqca öz izini, nəinki onun işində, səhhətində qoymağa başlayırdı. Səhhət əldən gedirdi.

İlk dəfə qaraciyərində yaranan problem ona yeni ciyər köçürülməsi ilə sonunclandı. Hamı belə başa düşdü ki, bu xəstəliyin sonudur, yəqin Yaşar Nuri qalan həyatını sağlam, içkisiz keçirər.

Onunla eyni vaxtda müğənni Baloğlan Əşrəfova da qaraciyər köçürülmüşdü. İkinci hələ də sağ-salamatdır. Yaşar Nuri isə heç bir çərçivəyə sığmayan insan olduğundan, həkimin verdiyi məsləhətlərin tam əksinə həyat tərzi seçdi, daha doğrusu, əvvəlki həyat tərzini davam etdirdi. Nəticədə, xalq artistimiz dörd il özü demiş, xəstəxanaların fəxri sakininə çevrildi.

Haqqında dörd-beş dəfə ölüm xəbəri yayıldı. Kim idi bu xəbəri yayan, hardan qaynaqlanırdı belə xəbər? Bəlli deyildi. Bəlli olan o idi ki, aktyor, həqiqətən də, bu dörd ildə, əslində, çox ölüb-dirildi. Gah aparatın köməkliyi ilə, gah da onu sevənlərin sevgisi sayəsində həyata qayıdırdı, tam bərpa olunmaq isə mümkünsüzdü görünür.

Sonuncu görüşümü xatırlayıram Yaşar Nuri ilə. "Şöhrət ordeni" almışdı, səhəri gün özü Milli Dram Teatrının qarşısna gəlmişdi, əlində əsa. Teatrın qarşısındaca stul vermişdilər, əyləşib ona gələn təbrikləri qəbul edirdi.

Səhhəti ilə maraqlandım. Dedi ki, səkkiz dondurmanı birdən yediyi üçün bütün nəfəs yolları, o cümlədən, köçürülmə ciyəri soyuqlayıb. Adam bunu elə dedi ki, elə bil, qəhrəmanlıq edib, yəni ölümün özü onun üçün qorxulu deyildi. İnsan 60 yaşını qeyd etməyə hazırlaşırdı, amma daha çox 80-90 yaşlı adam təsiri bağışlayırdı, artıq o dünyaya hazır adam.

Həm də sabaha ümidi vardı, inanmırdı belə tezliklə bu dünya ilə vidalaşa bilər. Qəribədir, elə bilirdi ki, ölümə də meydan oxuya bilər.

## Dörd dəfə ölüm xəbəri

"4 ildir bu xəstəliklə əlləşirəm. Amma yorulmaq olmaz, yorulmaq mənlik deyil. Həyatda yorula bilərəm, səhnədə yox... İkincisi də, lazım olmasan, gərək özün yavaş-yavaş gedəsən. Mən səhnəyə çıxarkən alqışlanıram. Bilirsinizmi, səni növbəsiz mağazaya buraxarlar, qırmızı işıqda keçəsən bağışlayarlar, amma tamaşaçı

sevgisini qazanmaq çox çətin məsələdir. Mən bu sevgini hiss edirəm. Teatrın açılışında mən salona daxil olanda o cür alqışlandım. Gəldim evə, amma yenə özümü səhnədə hiss edirdim. Mən bildim ki, səhnəyə çıxanda, sənə əl çalırlarsa, səni öpürlərsə, sənə növbəsiz yer verirlərsə, deməli tamaşaçı məhəbbətini qazanmısan. Özümə qarşı tamaşaçı sevgisini hiss etdiyim üçün çox xoşbəxtəm.

Bəzən dost-tanışlarım məni danlayır, deyirlər: "Əşşi elədiyini eləmisən, bu yaşda sən elədiyini heç kim eləməyib". Bəzi dostlarım isə "Yaşar, bu yaşa qədər sən nələr eləməmisən, bəsdir də" – deyirlər. Deyirəm, yox bəs deyil, imkan olar işləyərəm, olmaz da ki... Amma yenə gələcəyəm, yenə baxacağam. O əzmlə çalışıram ki, səhnəyə çıxım və çıxacağam. Nəinki burada, hələ Musiqili Komediyada, Gənc Tamaşaçılar Teatrında, Kukla Teatrında da işlərim var".

60 illiyi birtəhər xəstəlikdən imkan tapıb qeyd olundu. Dəfələrlə xəstəliyi səbəbindən təxirə salınmışdı. Yorulmadan çalışdığı səhnəyə hələ qayıdacağını, müxtəlif teatrlarda, müxtəlif obrazlar oynayacağını düşünürdü. Necə ki, Opera və Balet teatrında, Musiqili Komediyada, hətta Kukla Teatrının səhnəsində oynamışdı, yenə oynamaq arzusunda idi. Bu arzunu reallaşdırmaq üçün isə, ya iradəsi çatmırdı ki, səhhətini də qorusun, ya da… sadəcə, həm də nə isə istəmirdi.

2012-ci ilin noyabrında növbəti ölüm xəbəri düz oldu. Getdi bu dünyadan səhnəmizin Yaşar Nurisi, Nurlu Yaşarı, həmişə Yaşarı. Özündən sonra rolları, təbəssümü, bir də qəlblərdəki sevgisi qaldı. Bu gəlişi gözəl sözlər deyil, reallıqda belədir, hər birimizn içində bir Yaşar Nuri sevgisi var…


Məlik Dadaşovun
həyat hekayəti

*Bir vaxtlar müəllimi, Adil İsgəndərov "Axırıncı aşırım" filmində Kərbəlayi roluna görə ona verilən mükafatdan imtina edərək "Bu mükafat Məlik Dadaşova düşür, Qəmlonu yaratdığına görə" demişdi.*

*İnsan taleyi belədir, hansı məqamdasa qədri bilinir, qiymətləndirilir, hansı məqamdasa çox ucuz tutulur. Əsas odur özündən sonra xəyallarda, düşüncələrdə qala biləsən. Məlik Dadaşov xəyalarda, düşüncələrdə qala bilənlərdəndir. Bu gün onun adını çox övladlar daşıyır, onlardan biri də öz nəvəsidir, Gülnarə Dadaşovanın oğlu Məlik.*

## Şöklü Məliyin adını daşıyan uşaq

İstedadlı adamları heç vaxt ətrafdakılar, mühit birmənalı qarşılamır. Onlar haqqında ziddiyyətli fikirlər dolaşır. Əslində bunlar hamısı onlara qarşı ətrafındakıların-həmkarlarının qısqanclığından qaynaqlanır. İstedadlı adamlara qısqanclıqdan, paxıllıqdan badalaq vurulur, bu badalaqlar uğuru ləngidirsə də, qarşını ala bilmir. Adam yaranışından istedadlıdırsa, onun gördüyü ən xırda iş də gözə sanballı gələcək, özünü büruzə verəcək və zaman keçdikcə o şəxs artıq heç bir iş görməsə belə adı bəs edəcək ki, ətrafdakıların qısqanclığı birə-beş artsın. Söhbət mədəniyyət aləmindən gedirsə, mədəniyyətin səlahiyyətliləri də o adamın varlığını nə dana bilir, nə də qəbul edə, çünki bu adam özünü yoxmuş kimi apara bilmir, hər addımında "varam" deyir. Onu həm sevənlər çoxdur, həm də sevməyənlər, sevməyənlər əsasən onun asılı olduğu sahədəndir.

Bu münasibət müxtəlif şəxsiyyətlərdə özünü fərqli göstərir. Kimisi bu münasibətə - paxıllıqlara, qısqanclıqlara bir görməzlik, yoxmuş kimi heç bir reaksiya vermədən öz yolu ilə gedir, bəzən badalaqdan yıxılır, durub yenə irəliləyir. Kimisi isə görür və gör-

düklərini də car çəkir ki, görürsünüz filankəslər imkan vermir, maneə olur. Bu adam sınır, sarsılır, aqressivləşir.

Bugünkü yazımızın qəhrəmanı ikincilərdəndir. Sənətində misilsiz uğurları vardı, oynadığı hər bir obraz şedevr olurdu, bu onun özündən asılı deyildi, genindən, qanından gəlirdi, istedadlı idi adam. Amma ona veriləcək rolu əlinə çathaçatda qamarlayıb alırdılar, yüksək bir kürsüyə gedərkən onu badalaq vurub yıxırdılar, başqasını göndərərdilər o yerə. Bütün bunlar onun xarakterinə pis təsir göstərirdi...

Bakıda, neft sənayesində bir nəfər də işləyirdi. İndiyə qədər adı neft şefləri arasında çəkilməyib, amma Sovet hökumətinin arxivlərindən onun neft buruqlarının sənədləri çıxıb. Nobellərlə birgə çalışırmış Yusif kişi. Xanımı evdar qadın idi, üç oğul böyüdüb, tərbiyə edirdi. Uşaqların sonbeşiyi Məlik idi. Atası Şöklü Məliyin şərəfinə onun adını belə qoymuşdu.

## Sürgün, müharibə, kontuziya

Bu ailə də dövrünün bir çox imkanlıları kimi Sovet imperiyasının qurbanına çevrildi. Ailənin böyüyü, ata sürgünə göndərildi. Yerdə qalanlar səslərini içlərinə salıb, soyadlarını belə dəyişib yaşamağa məcbur oldular.

Çox sonralar bəraət alıb vətənə qayıdan ata 1971-ci ildə xanımının vəfatından sonra dünyasını dəyişir. Ailənin böyük oğlu Salman Dadaşov aktyor olub. "Onun böyük ürəyi" filmində Oqtay rolunu canlandırıb. Sonralar Sumqayıt teatrının rəhbəri olub. İkinci qardaş Süleyman Dadaşov - Brilyant Dadaşovanın atası riyaziyyat müəllimi idi. Universitetdə dərs deyirdi. Süleyman müəllim həm də qarmonda, pianoda gözəl ifa edərdi. Amma yalnız ailədaxili məclislərdə.

Məlik Dadaşov isə uşaqlıqdan incəsənətə bağlı olub. Musiqiyə gedər, kontrabasda çalarmış. Bununla belə orta məktəbi qurtaranda sənədlərini Tibb İnstitutuna verib. Qəbul olunub, amma elə

birinci kursdan hiss edib ki, yerində deyil, onu səhnə daha çox çəkir. Tale yenə öz işini görür, müharibə başlayır. Məlik Dadaşov müharibəyə getməli olur. 1943-cü ildə aldığı kontuziyaya görə geri qaytarılır və uzun müddət müalicə olunur. Müalicədən sonra hərbi hissələrdə musiqiçi kimi fəaliyyət göstərir. 1945-ci ildə müharibədən qayıdan Məlik Dadaşov Gənc Tamaşaçılar Teatrına yollanır və orda aktyor kimi işə götürülür. Az sonra sənədlərini Teatr İnstitutuna (indiki Mədəniyyət və İncəsənət Universiteti) verir. Adil İsgəndərovun sinfinə daxil olur.

Səhnəyə gəlişi 1946-cı ilə təsadüf edir. Səhnə fəaliyyətinə Zaqatalada yenicə açılmış teatrda başlayır. 23 yaşlı gənc aktyor Zaqatala teatrında əsas rolların ifaçısı idi, əsas qadın obrazlarını isə Sofiya Hüseynova adlı gənc aktrisa oynayırdı. Bu tərəf-müqabilliyi bir gün bir ailənin əsasının qoyulması ilə nəticələnir. Məlik Dadaşov gənc Sofiya ilə ailə qurur. Bu izdivacdan 1946-cı ildə gələcəyin daha bir aktyoru Rafael Dadaşov dünyaya gəlir.

Bu gün Rafael Dadaşovun atası haqda bir kəlmə belə deməküistəməməyini başa düşmək olar, çünki ata onu körpə yaşlarında tərk edib, gənc Sofiya oğlu Rafaelə təkbaşına tərbiyə verib. Tale onları ikilikdə müxtəlif teatrlara atıb, Sofiya xanım Naxçıvan Teatrında işləyəndə xalq artisti fəxri adı alıb. Həmin dövrdə Məlik Dadaşov çoxdan Milli Dram Teatrında çalışırdı və ikinci dəfə ailə qurmuşdu.

Milli Teatrda bir-birinin ardınca obrazlar yaradırdı, kinostudiyada filmlərə çəkilirdi. Həm müəllimi Adil İskəndərov, həm də sənət yoldaşı Həsən Turabov onu teatrda və kinoda bacarığına görə irəli çəkirdilər.

İkinci evliliyindən isə Məlik Dadaşovun iki qız övladı dünyaya gəlmişdi. Qızlardan biri gənc yaşlarında xərçəng xəstəliyindən vəfat edib. İkinci qız isə hazıra Amerikada ailəsi ilə birgə yaşayır.

## Prototip onu ölümlə hədələdi

Məlik Dadaşov 100-dən çox tamaşada, 50-dən çox filmdə müxtəlif çalarlı obrazlar yaradıb. Filmdə ilk rolu 1961-ci ildə Lətif Səfərovun Ənvər Məmmədxanlının ssenarisi əsasında çəkdiyi "Leyli və Məcnun"da olur. "Axırıncı aşırım"da Qəmlo ilə kino tarixinə adını qızıl hərifllərlə yazıb Məlik Dadaşov. "Dəli Kür"də Molla Sadıq, "Koroğlu"da Bolu bəy, "O dünyadan salam"da Şeyx Nəsrullah, "Birisi gün gecə yarısı"nda Nəriman Nərimanov, "Bir məhəlləli iki oğlan"da Nazif, "Ulduzlar sönmür"də general Mehmandarov, "26 Bakı komissarı"nda Əzizbəyov, "Müharibəni görən adam"da Niyazxan, "Fəryad"da Aram Xaçaturyan Məlik Dadaşovun içindən keçirdiyi – yaratdığı obrazlardır.

1985-ci ildə Məlik Dadaşov "Azərbaycanfilm" və "Belorusfilm"in birgə istehsal etdiyi "Müsahibə götürən adam" filminə çəkilir. Siyasi məsələlərə görə Pakistanda zəhərlənən Anatoli Kavaleznik haqqında olan filmdə Məlik Dadaşov bu ölkənin əks-kəşfiyyat komissarı Niyaz xan obrazını yaradır. Film çəkilən zaman sağ olan Niyaz xan bundan xəbər tutur və onun obrazını yaradacaq aktyoru öldürəcəyi ilə hədələyir. Buna görə də filmin Pakistanda aparılmalı olan çəkilişləri təxirə salınır. Məlik Dadaşovu da Pakistana qoymurlar. Filmin çəkilişləri İçərişəhərdə aparılır.

Məlik Dadaşov başqa rollara görə də hədə-qorxu ilə üzləşib. "Axırıncı aşırım"da Qəmlonu, "Fəryad"da erməni obrazını , "Dəli Kür"də mollanı, "Ölülər"də Şeyx Nəsrullanı oynayanda.

"Atam o rolu ifa etmək istəmirdi. Ümumiyyətlə, atam yaradıcılığı boyu iki rolu ifa etmək istəməyib. Erməni rolunu, bir də "Ölülər"də Şeyx Nəsrullahı. Şeyx Nəsrullahı ona görə oynamaq istəmirdi ki, özü axır vaxtlar namaz qılırdı. Deyirdi, mən Allaha ibadət eləyirəm, amma "Ölülər"də Allaha qarşı çıxıram. "Fəryad" filmində isə düşmən obrazı yaratmalı idi. Bu rolu heç oynamaq istəmirdi. Yadımdadır ki, Ceyhun Mirzəyev yalvarırdı atama, deyirdi ki, bu rol sizə yazılıb. Atam onun sözündən çıxmadı, yaratdı o obrazı. Əslində, bu tipaj sovet dövründə general Baqramyan var

idi, onun obrazı idi. O da keçəl idi. Atamın da saçlarını qırxmışdılar. Atam əvvəl nə qədər çalışırdısa, alınmırdı. Bilirsiniz, çox çətin rol idi. Düşmən obrazını yaratmaq, özü də beləsini. Yadımdadır ki, çox əsəbiləşirdi, narahat olurdu. Amma oynadı o rolu. Ən pisi də o oldu ki, rola görə atamı Ermənistanda milli qəhrəman kimi qəbul etdilər. Atam isə AzTV-də çıxış elədi və imtina elədi o addan.

Dedi:

- O adı heç vaxt heç cür özümə yaraşdıra bilmərəm. Bax buna görə də mən bu rolu oynamaq istəmirdim. Bilirdim ki, nəticəsi bu ola bilər.

Görün atam bu obrazı nə qədər gözəl oynamışdı ki, ermənilər ona qəhrəman adı vermişdilər. Düşünürəm ki, bu onun ən uğurlu rolu idi ".

Xatirələrini bölüşən qızı Gülnarə Məlik Dadaşovun Doloreslə üçüncü nikahından doğulub.

"Onların arasında çox güclü sevgi olub. Anamla atam 1964-cü ildə tanış olublar. Bir yerdə İncəsənət Universitetində işləyiblər və 1966-cı ildə ailə qurublar. Atam anamdan 13 yaş böyük idi. Bu nikahdan yalnız mən doğulmuşam".

## Filmlərdən başı nələr çəkib

"Dəli Kür" filminin çəkilişlərində maraqlı bir hadisə olub. Meyxana səhnəsində Cahandar ağanın bacısı Şahnigar, Mollanın-Məlik Dadaşovun üzünə sillə vurmalı idi.  Gürcü aktrisası oynayırdı bu rolu. Xanımın ona şillə vurması bir neçə kadr təkrarlanıb, amma yenə alınmayıb.  Rejissor Hüseyn Seyidzadə aktrisaya deyir ki, qızım, bərk vur şilləni.  Aktrisa isə deyir: "Vura bilmərəm. O qədər yaraşıqlı, yaxşı  kişidir ki, ürəyim gəlmir onu vurmağa". Məlik Dadaşov da özünü saxlaya bilməyib deyir ki, sən, əlli dəfə yavaşdan vurmaqdansa bir dəfə tutarlı bir sillə tutuzdur canımız qurtarsın.

“Fəryad” filmindən çox sonralar isə belə bir hadisə olub. Məlik Dadaşov instituta gedəndə “Malakan” bağının yanında bir qadın onu görüb qışqırmağa başlayır. “Ay camaat, bu adam ermənidi”, – deyib camaatı yığır başına. Bu zaman bir əsgər aktyora yaxınlaşır və ondan sənədlərini tələb edir. Görünür, cavan olduğu üçün aktyoru tanıya bilməmişdi. Qadın isə dediyinin üstündə təkid edirdi: “Mən onu televizorda görmüşəm, o, erməni hərbçidir”. Axırda aktyor əsgərə deyir: “Bala, mən azərbaycanlıyam, erməni yox. Sən cavansan, məni tanıya bilməmisən. Mən tanınmış aktyoram. Sadəcə filmdə erməni obrazını yaratdığım üçün qadın məni qarışıq salıb”.

Daha bir maraqlı məqam yenə “Fəryad” filmi ilə əlaqədardır. Filmin premyerasında-sırada ondan arxada oturan tamaşaçılar qulağı eşidə-eşidə Məlik Dadaşovu söyürmüşlər. Elə bil onlarla bir zalda əyləşən aktyor Məlik Dadaşov deyil, erməni yaraqlısının özüdür. Evə qayıdanda aktyor qızı Gülnarədən soruşub ki, rolum xoşuna gəldi? Qız cavab verib ki, ata çox əclaf bir obraz yaratmısan. Aktyor “Sən də nifrət etmisənsə atana, demək obraz yaxşı alınıb” deyib.

## Onu teatrdan kim qaçaq saldı

Uzun çəkişmələrdən sonra bir gün Məlik Dadaşov Milli Dram Teatrını tərk etməli olur. Ona görə uzun çəkişmələr dedim ki, bu tərk etmə qərarı birdən-birə verilmir, vəziyyət bunun üçün yetişir. Onda teatrın direktoru Həsənağa Turabov idi, amma əslində Məlik Dadaşovun teatrdan getmə səbəbkarı Turabov deyildi. Qızı Gülnarə atasının teatrdan getmə səbəbini o vaxtkı mədəniyyət naziri Polad Bülbüloğlu ilə bağlayır.

Amma Milli Teatrdan uzaqlaşdırılan Məlik Dadaşov hərdən səhnəsində bəzi obrazlar yaratdığı Rus Dram Teatrına direktor göndərilir. Görünür, bu da bir gediş idi, çünki cəmi iki il sonra aktyoru burdan da təqaüd adı ilə çıxardılır işdən.

Gülnarə Dadaşovanın dediklərindən:

“Atamı xoşagəlməz kommersiya əməliyyatında əli olmaqda günahlandırırdılar. Bunun üçünsə heç bir əsas yox idi. Çünki əsl yaradıcı insan olan Məlik Dadaşov kommersiya məsələlərini o qədər də bilmirdi. Onu teatrdan uzaqlaşdırdılar. Hətta aktyor kimi fəaliyyət göstərməsinə belə imkan vermədilər. 1991-ci ildə təqaüdə göndərdilər”.

Aktyor bundan çox böyük zərbə alır və işemiya keçirir. İki ay xəstəxanada yatır Məlik Dadaşov. Müalicədən sonra Həsənağa Turabov onu yenidən “Azdrama”ya dəvət edir. Sənətkarı yalnız sənətkar anlaya bilər. Həsənağa Turabov nazirliyin təhriki ilə Məlik Dadaşovu teatrdan uzaqlaşdırmışsa da, çox keçmədən bu günahı içində daşıya bilmədiyindən onu geriyə, teatra qaytarır. Artıq Məlik Dadaşov tək aktyor kimi yox, rejissor kimi də fəaliyyət göstərməyə başlayır. Bir müddət sonra aktyor könüllü şəkildə yalnız müəllimlik fəaliyyəti ilə məşğul olub teatrdan uzaqlaşır.

Artıq içində hər şeydən, hamıdan – zamandan, məkandan, teatr, kino rəhbərlərindən, özündən, dünyadan belə incikliyi vardı Məlik Dadaşovun. Ürək hər gün yeni sarsıntıların qurbanı olurdu.

Səhhəti onsuz da qaydasında deyildi. Bir gün də Tədris Teatrında tələbələrlə “Arşın mal alan”ı məşq edirmiş. Başı ağrıdığı üçün zalda oturub mizan verirmiş tələbələrə, özü səhnəyə çıxmırmış ki, qalxsa ayağa, təzyiq onu yıxar. Verdiyi epizodu isə tələbə ürəyincə göstərə bilmir, aktyor özünü unudub qalxır ayağa, çıxır səhnəyə. Həmin epizodu necə eləmək lazım olduğunu göstərmək istəyəndə müvazinətini itirib yıxılır. Gicgahı yaxınlıqdakı stolun küncünə dəyir. Onu xəstəxanaya çatdırırlar, bundan sonra altı gün yaşayır böyük aktyor. Altı gün ərzində dili də tutulur. Eşidir, görür, amma danışa bilmir. Axırıncı gün qızından qələm-dəftər istəyir. Yazır ki, məni Dram Teatrından götürməsinlər. Kimlərisə dəfninə buraxmamağı xahiş edir. O adamların adını yazır ki, onlar damla-damla Məlik Dadaşovu bu son yataq vəziyyətinə təhrik ediblər. Hər halda o, belə düşünürdü. 70 yaşı vardı, ikinci nikah-

dan olan qızı xərçəngdən dünyasını dəyişəndə Məlik Dadaşov "mən artıq yaşaya bilməyəcəm" demişdi.

1996-cı ildə 72 yaşında dünyasını dəyişən aktyorun dəfnində çox adam vardı. Oğlu Rafael Dadaşov yox idi, incik ata ilə oğul son məqamda da halallaşmamışdılar. Bir də xanımı Dolares əlindəki siyahıda kimlərin adı vardısa, onları buraxmadı dəfnə.

Bir vaxtlar müəllimi, Adil İsgəndərov "Axırıncı aşırım" filmində Kərbəlayi roluna görə ona verilən mükafatdan imtina edərək "Bu mükafat Məlik Dadaşova düşür, Qəmlonu yaratdığına görə" demişdi.

İnsan taleyi belədir, hansı məqamdasa qədri bilinir, qiymətləndirilir, hansı məqamdasa çox ucuz tutulur. Əsas odur özündən sonra xəyallarda, düşüncələrdə qala biləsən. Məlik Dadaşov ikincilərdəndir. Bu gün onun adını çox övladlar daşıyır, onlardan biri də öz nəvəsidir, Gülnarə Dadaşovanın oğlu.



# Aktrisa ilə evlənib, onu kinoya həsrət qoyan rejissor

Azərbaycan kino tarixində saysız rejissorlar olub. "Balaxanıda neft fantanı" müəllifindən tutmuş "Dolu", "Sübhün səfiri" filmlərini çəkən rejissorlara qədər. Peşəkar filmlər çəkiblər. Ola bilər ki, çəkdikləri filmlər arasında indiyə qədər sevilənləri var. Amma həmin rejissorları ustad adlandırmaq olmaz, çünki özlərindən sonra nə onların yolunu davam etdirən rejissor var, nə də kəşf etdikləri aktyor. Hazır "məhsullardan" yararlanıb filmlərini çəkiblər, vəssalam. Elələri də olub ki, onlarla assisentlik edənlər indi peşəkar rejissorlardır. Kəşf etdikləri aktyorlar isə kinomuzun inciləri...

Haqqında söhbət açacağımız rejissor Rasim Ocaqov ikincilərdəndir. O, yalnız film çəkməklə işini bitirmiş hesab etmədi. Həm film çəkdi, həm də Azərbaycan kinosu üçün peşəkar kadrlar yetişdirdi. Kəşf edib kinoya bəxş etdiyi aktyorlara hələ də çox böyük ehtiyac var.

Rasim Ocaqov təbiətcə qaraqabaq, başıaşağı adam idi. Düşüncəli görkəmi vardı. Onu həmişə barmaqlarının arasında siqaret nə isə düşünən görərdin. Özü heç vaxt ünsiyyətə can atmazdı. Amma onunla ünsiyyət qurmaq da çətin deyildi. Elə ki, səni tanıdı, məmnuniyyətlə söhbət edər, isinişərdi.

Şəkidə dünyaya gəlmişdi. Uşaqlıqdan foto ilə maraqlanmağa başladı. Həvəskar şəkillər çəkirdi, amma arzusu geoloq olmaq idi. Bir dəfə Şəkiyə sənədli film çəkən qrup gəlir. Bu vaxt fotoqrafiya ilə ciddi məşğul olan Rasim peşəkarların necə işlədiklərini görmək üçün yanlarına gedir. Möcüzəli kino aləmi onu özünə elə çəkir ki, gənc fotoqraf bu sənəti dərindən öyrənməyi qərara alır. Orta məktəbi bitirdikdən sonra Moskvaya gedir. MÜDKİ-nun kinooperatorluq fakültəsində (1951-1956, B.Qolovnya və L.Kosmatovun emalatxanası) təhsil alır. 1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator kimi çalışmağa başlayır.

Çox filmlərdə operator kimi çalışıb. “Bir cənub şəhərində”, “Bizim küçə” filmləri onun kamerası ilə çəkilib. “Bir cənub şəhərində”ni kino aləmində çox vaxt Eldar Quliyevin yox, Rasim Ocaqovun filmi hesab edirlər. Bəzən heç rejissorla məsləhətləşmədən çəkilişləri aparır, sonradan bu kadrlara birgə tamaşa edəndə rejissorlar onun işinə qibtə edirdilər. “Əsl dost”, “Bizim küçə”, “Mən rəqs edəcəyəm”, “Sən niyə susursan?” və “Skripkanın sərgüzəşti” filmlərində Rasim Ocaqov Azərbaycan kinosunda operatorluq sənətinin ən layiqli nümunələrini yaratdı.

Bir gün Rasim Ocaqov hiss edir ki, onun içində aşıb-daşan yaradıcılıq istəyi kamera ilə kifayətlənmir. Rejissor kimi film çəkmək istəyir. Bu arzu ilə M.A.Əliyev adına ADİİ-nun rejissorluq fakültəsini bitirir. (1977).

Bu yerdə düşünürəm: kim olsaydı deyərdi ki, MÜDKİ-nun diplomunu alandan sonra nəyimə lazımdır, İncəsənət İnstitutunu bitirmək?

Amma Rasim Ocaqov həmişə peşəkarlığa xüsusi önəm verib, üstəlik çox məsuliyyətli insan idi.

İki il kino çəkmək arzusunu həyata keçirə bilməyib, ona film verməyiblər. Bir gün “Azərbaycanfilm”in rəhbəri onu çağırıb və deyib ki, sənə Moskvanın qəbul etmədiyi bir filmi yenidən işləmək üçün verirəm, bacarsan, rejissor olacaqsan, bacarmasan kino üzünə həsrət qalacaqsan. Beləliklə “Qatır Məmməd” filmi Rasim Ocaqova həvalə olunur. Rejissor artıq hazır bir filmi “söküb” yenidən “toxuyur”. Ayrılan vəsait xərclənib, plyonka işlənib, çəkilən çəkilib. Min bir əziyyətlə filmi yenidən ərsəyə gətirir. Moskva baxır və film nümayişə buraxılır.

O vaxtdan Rasim Ocaqovun rejissorluq yolu başlayır. 1973-cü ildən quruluşçu-rejissor kimi çalışır. “Ad günü”, “Bağlı qapı”, “İstintaq”, “Onun böyük ürəyi” filmlərini çəkir. “Onun böyük ürəyi” filmi Ocaqovun ilk sərbəst işi idi. 1958-ci ildə Bakı kinostudiyasında lentə alınmış bu filmdə Rasim Ocaqov həm də özünü psixoloji anların ustası kimi təsdiq etdi. Bu film Sumqayıt metallurqlarının həyatına həsr olunmuşdu. Filmə baxanda hiss edirsən ki, bu

ağır peşə adamlarının ekran həyatı operatorun kamerası ilə romantik və cəzbedici bir formaya salınıb. İnsanların od püskürən soba qarşısındakı gərgin anları, bəzən romantik məqamlarda geniş və orta planlardakı vəziyyətləri elə ustalıqla yaradılıb ki, tamaşaçı həqiqətən onun yaradıcılarının istedadına heyran qalır.

Doğrudan da, tamaşaçı filmə operatorun gözü ilə baxır. Əgər kinooperator duyumlu, texniki cəhətdən mükəmməldirsə, deməli, filmin baxımlılığı təmin olunub.

Orta məktəbdən tapıb bu filmdə Rəna roluna dəvət etdiyi Sveta Cavadovaya aşiq olması isə filmlərə ara verməyinə səbəb olur. Orta məktəbi qurtaran ərəfədə kinoya çəkilməsi ilə bu aləmin möcüzəliyinə vurulub ondan ayrılmayacağını zənn edən gənc qız özü də bilmirdi ki, gənc rejissor da ona vurulub və onu bu sahəyə gətirdiyi kimi də ayırmağa çalışacaq.

Bu sevgi onların evliliyi, Svetanın isə kinoya həmişəlik vida etməsi ilə nəticələnir.

Rasim Ocaqov filmlərini çəkməklə məşğul olur və 1990-cı ildə "Ocaq" studiyasını yaradıb öz sevimli işini müstəqil davam etdirməyə başlayır.

"Tütək səsi", "Özgə ömür", "Park" "Təhminə", "Bağlı qapı", "Həm ticarət, həm ziyarət", "Ölsəm, bağışla" filmləri Ocaqovun yaradıcılığının məhsuludur.

Deyirdi, müharibə filmləri çəkə bilmirəm, çünki onu yaşamamışam. Rasim Ocaqov yalnız içindən keçənləri, yaşadıqlarını ortaya qoyan rejissorlardan idi. Ona görə də çəkdiyi filmlər sevilir və illər sonra da tamaşaçıya təsirsiz ötüşmür.

Səhhətindəki problemlərdən əziyyət çəksə də onu yıxan siqareti atmırdı. Deyirdi, onun hər qullabı beynimdə yaranan bir süjetdən çıxır.

Kinematoqrafçılar İttifaqında işləyəndə isə film çəkmirdi daha. Düşünürdü ki, kimsə, işi olmayan rejissor çəksin, onun artıq işi var və kifayət qədər də film çəkib. Özü deməsə də hamı bilir ki, Hacı İsmayılov, Fəxrəddin Manafov kimi bir çox sənətkarlar onun

aktyor tapıntılarıdır. Operator Kənan Məmmədov həmişə Rasim Ocaqov məktəbindən bəhrələndiyini deyir.

Sonuncu filmi “Otel otağı” oldu. Yenə insan mənəviyyatı, insanın iç dünyası filmin əsasını təşkil etdi. Hər filmin bütöv bir fikir, tutarlı söz olması Rasim Ocaqov yaradıcılığının məğzi idi.

Azərbaycanın (1967), Çeçen-İnquş Respublikasının əməkdar incəsənət xadimi (1964), xalq artisti (1982), Azərbaycanın (1980) və SSRİ-nin (1981) dövlət mükafatları laureatı Rasim Ocaqov 7 iyul 2006-cı ildə 73 yaşında ürək çatışmazlığından dünyasını dəyişdi.

"Bu gün Azərbaycan kinosundan Rasim Ocaqovun filmlərini götürsək, canlı varlıq olan kino yarıçılpaq qalar”.

Bu onun filmlərində çəkilən rusiyalı aktyor A.Kalyaginin fikridir.



# Fizikanı atıb aktyor olan adam

*2003-cü il fevral ayının 23-də Milli Dram Teatrının səhnəsində Həsən Turabovla vida mərasimi idi. Səhər hələ adamlar toplaşmamışdı. Turabovun cənazəsi vida üçün səhnəyə qoyulmuşdu. Zalın düz ortasında Həsən Məmmədov əyləşmişdi. Səssiz-səmirsiz gözlərini son dəfə sevimli səhnəyə "çıxan" həmkarına zilləmişdi, onun "son roluna" baxırdı. Baxırdı və eynəyinin altından dağdan səssiz-səssiz qaynayıb aşağı yol alan bulaq suyu kimi yanaqları boyu göz yaşları axırdı. Və elə bil deyirdi, məni də apar, nə xoşbəxtsən, gedirsən, çox çəkməz, gələrəm arxanca.*

*Çox qəribədir, Turabov özü də getməyə çox böyük yanğı ilə tələsirdi, Həsən Məmmədov da göz yaşları ilə bunu deyirdi. Həm dostuna, həm də özünə ağlayırdı elə bil. Cəmi altı ay sonra avqust istisində səhnədə o, özü "son rolunu" oynadı...*

## Əli qabarlı atanın oğlu "qoltuğu papkalı" olmaq istəmədi

Sadə bir ailədə dünyaya göz açıb. 1938-ci il noyabrın 22-də Salyan rayonunda doğulub. Sovet vaxtı bu rayona "Azərbaycanın Sibiri" deyirmişlər. Hökumət kimi cəzalandırmaq istəsə, bu rayona işləməyə, ən yaxşı halda uzun müddətli ezamiyyətə göndərərmiş. Sonralar bu rayon Azərbaycan elminə, mədəniyyətinə çox görkəmli şəxsiyyətlər bəxş etdi. O cümlədən Həsən Məmmədovu.

Həsən Məmmədov Salyanda 2 saylı orta məktəbi 1956-cı ildə bitirib. Sovet dövrünün bütün nümunəvi gəncləri kimi valideyn-lərinin istəyinə rəğmən Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika-riyaziyyat fakültəsinə daxil olub. Əlləri qabarlı atası oğlunu ali təhsilli müəllim görmək istəyirdi. Düşünürdü ki, oğlu ali təhsil almaqla onun da yarımçıq qalan arzularını həyata keçirər. "Əynində kostyum, qoltuğu qovluqlu"

məktəbə gedib-gələr. Daha onun kimi əziyyətlə çörək pulu qazanmağa məcbur olmaz. Oğlunun isə içində aktyor olmaq yanğısı günü-gündən alovlanırdı. Nəhayət, universitetin 2-ci kursunda içindəki bu yanğı onu ali ocağı atmağa məcbur etdi. Artıq teatr dərnəklərində təcrübə qazandığından bu dəfə yolunu teatrlara salır. Bir müddət müxtəlif teatrların yardımçı heyətində aktyorluq edir. İstədiyinə yavaş-yavaş çatmağa başlayır. Qınaqlar, tənələr onu əzsə də artıq sevdiyi işlə məşğul olmağı hər şeyə qalib gəlməsinə kömək olur.

1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olan Həsən tələbəlik illərində dövlət radiosunda diktor da işləyib (1960-1961).

1962-ci ildə Mehdi Məmmədovun kursunu bitirib təyinatla Akademik Milli Dram Teatrına göndərilir.

## Ağaməmmədin oğlu Həsəni televizorda göstəriblər

Bu vaxta qədər qəzəbi soyumayan ata hələ də oğlunun o yoldan qayıdacağını gözləyirdi. Bir səhər eşidir ki, rayonda hamı Ağaməmmədin oğlu Həsəndən danışır. "Zalım oğlu yaman yaradıb, elə bil elə Rüstəm kişinin oğludur", "hələ məktəbdə oxuyanda hiss olunurdu ki, ondan bir şey çıxacaq", "bəxtəvər anasının başına, daha gözləri ayaqlarının altını görməz". "Böyük dayaq" filmindən sonra dillərdə dolaşan bu söhbətlər ata-anasına çatmışdı. Üzə vurmasa da Ağaməmməd kişi oğlunu bağışlamışdı, artıq içində bir qürur hissi də baş qaldırmışdı. Oğlu hansı yolu seçməyi özü daha yaxşı bilirmiş. İlk rolundan sonra atasından xeyir-dua alan Həsən Məmmədov bir-birinin ardınca dürlü-dürlü obrazlar yaradır. "Böyük dayaq"da Qaraşdan sonra "Arşın mal alan"da Əsgər, "Gün keçdi "də Oqtay kimi lirik obrazların ifaçısının öz həyatının lirik dövrü gəlib çıxır.

Kinostudiyanın yaxınlığında kirayə qaldığı həyətdə ondan başqa da tələbələr qalırdı. Onlardan biri-Lətifə adlı qız Həsənin

bütün diqqətini özünə cəlb etmişdi. Həsən çəkilişlərdən vaxt tapan kimi bu qızı qarabaqara izləyərdi. Bunu görən rəfiqələri Lətifəni qısqanırdılar. Artıq kino ulduzuna çevrilmiş bir aktyorun həyat yoldaşı olmaq o vaxt hansı qızın arzusu deyildi?! Bu minvalla bir ailənin də təməli sevgi ilə qoyulur. Çox keçmir ki, onlara ev də verilir, çox uzaqda yox, elə kinostudiyanın həyətində tikilən yeni binalarda.

Bu illər ərzində Həsən Məmmədov Akademik Teatrda müxtəlif obrazlar yaradır. 1972-ci ildə kino çəkilişlərinin çoxluğu ilə əlaqədar teatrdan kinostudiyaya işə keçirilir.

Yaradıcılığının lirika dövrünü isə artıq qəhrəmanlıq obrazları əvəz etməyə başlayır. "Arxadan vurulan zərbə" (Qəmərlinski), "Birisi gün gecə yarısı" (Baba Əliyev), "İstintaq" (Murad).

Öhdəsinə hansı obraz düşürdüsə onun Tanrıdan bəxş olunmuş fakturasına yaraşırdı. Azərbaycan kinosunda çox az tapılan gözəl səs tembri vardı. Ələsgər Ələkbərovda, Həsən Turabovda, Məlik Dadaşovda olan səs tembrinin fərqli çalarlarından biri də onda idi. O qədər də qəddi-qamətli deyildi, amma kamera önündə, obrazda möhtəşəm görünürdü. "Dədə Qorqud" (Dədə Qorqud), "Axırıncı aşırım" (Abbasqulu ağa Şadlinski), "Sevil" (Balaş), "Yeddi oğul istərəm" (Bəxtiyar), "Bir cənub şəhərində" (Murad), "Qızıl qaz" (Fərman), "Bakıda küləklər əsir" (General), "Alma almaya bənzər" (Qurban), "Səmt küləyi" (Əlibala), "İstintaq davam edir" (Əzimov), "Şahid qız" (polkovnik), "Qəm pəncərəsi" (Məmmədhəsən əmi), "Papaq" (Mirzə Səfər), "Həm ziyarət, həm ticarət" (Əlimurad), "Zirvə" (Kamil) "Bizi bağışlayın" (Nəriman). Siyahını ümumilikdə götürəndə adam heç nə demir bu obrazlar, amma bir-bir yada saldıqca bu qədər fərqli xarakterlərin bir bədəndə öz əksini necə tapdığına təəccüb edirsən. Dədə Qorqud hara, Balaş hara? "Papağını da götürüb kontordan gedən" Mirzə Səfər hara, Məmmədhəsən əmi hara? Eləcə də Abbasqulu ağa ilə "Alma almaya bənzər"dəki Qurban nə qədər təzadlı obrazlardır. Bu xoşbəxtlik hər aktyora nəsib olmur. Hər aktyor da bu qədər müxtəlif obrazlara öz canını verməyi bacarmır.

## Sevimli müraciəti "Qurban" idi

Ailədə isə artıq iki övlad böyüyür, bir oğlan, bir qız. Ata kino ulduzudur. Ətrafda hamı bunu bilir, uşaqlar məktəbdə əvvəlcə qeyri-adi qarşılanırlar. Axı Həsən Məmmədovun övladlarıdır. Yoldaşları onlara qəribə baxırlar. Bir müddət keçir görürlər ki, onlarda qeyri-adi heç nə yoxdur. Əksinə, hansısa mağaza müdirinin övladlarının geydiyi pal-paltarı heç onlar yuxularında görmürlər.

Məktəbə xüsusi maşınla gəlib-gedən sinif yoldaşları onlara nağıl qəhrəmanları kimi baxsalar da əslində nağılda yaşayan imkanlı uşaqların özləridir.

Həsən Məmmədov çox təvazökar insan olub. Onun qədər təvazökar insan çox az tapılar. Sovet vaxtı film qəhrəmanları kolxozlara, zəhmətkeşlərlə görüşlərə gedərdilər, yəni onları aparardılar o görüşlərə. Həsən Məmmədov gedib həmişə arxada bir yerdə çəkilib oturarmış. Onu çəkib irəli dəvət edəndə sifəti rəng verib, rəng alırmış. Heç vaxt yaşadığı zəmanəyə uyğunlaşmırmış. Həmkarlarının dediklərinə görə Həsən Məmmədovla dost olduğuna, hətta təsadüfi şəkil çəkdirdiyinə görə nələrisə əldə edən insanlar var. Amma Həsən Məmmədov özünə görə kimsəyə ağız açmağı, xahiş etməyi xoşlamazmış. Heç vaxt "mənim yaratdığım rollar" ifadəsini onun dilindən eşidən olmayıb.

İllər keçir, zaman dəyişir, insanlar zamana adaptasiya olunur. Həsən Məmmədov dəyişmir. Sovet quruluşu iflasa uğrayır, hər kəs bu dolanbacda nələrsə əldə etməyə çalışır, mənfəət güdür. Onun yenə halına təfavüt etmir, bacardıqca filmə çəkilir, dostu Həsən Turabovun dəvəti ilə yenidən qayıtdığı Akademik teatrda 1992-ci il noyabrın 21-dən elə ömrünün sonunadək aktyor truppasında çalışır.

Heç vaxt onun dilindən kimsə sərt cavab, təhqir eşitməyib. Olduqca mülayim adam olub. Hamıya "qurban sənə" deyə müra-

ciət edirmiş. Bəzən onun “sənə”sini də demirdi, elə “qurban” formasında qalmışdı dilində.

### Azərbaycan mədəniyyətində ən əxlaqlı adam olub

Yaxın dostu kino adamı Şeyx Əbdül Mahmudov deyir: “O vaxt kinoya Gürcüstandan, Orta Asiyadan, Baltik yanı respublikalardan aktyorlar dəvət olunardı. Hər biri Həsənlə bir kadra çəkildisə heyrətə gəlirdilər. Çəkilib kənara onun ustalığına tamaşa edirdilər. Həsən indi sağ olsaydı, dünya kinosu ondan əl çəkməzdi. Sovet məkanında onun kimi ikinci aktyor Tixonov hesab olunurdu. Bir onu soruşurdu ki, filmi hansı planda çəkirsən? Qalanını özü bilirdi. Daha ona demək lazım gəlmirdi ki, Həsən sən nəyi necə eləməlisən. “Kapriz” deyilən bir şey onda yox idi. Çəkilişi qurtarırdı, meydançadan getmirdi ki, birdən rejissorun ağlına nə isə gələr lazım olaram, bir də niyə arxamca maşın göndərib axtarsın məni. İşə gəlmişəm, çəkilişim qurtarsa da çəkiliş boyu burda olmalıyam. Onun qədər ikinci əxlaqlı aktyor yoxdur, içi mən qarışıq. Zarafatımız vardı, bir dəfə qastrolda gördüm ki, ətrafda nə qədər qadın, qız var hamısı bunun əsiridir, bunun heç eyninə deyil. Eyham vurdum ki, adə, hərəkət elə, mənə elə acığı tutdu ki, olmayan kimi”.

### Bütün fəxri adları almışdı

Kino sənətində göstərdiyi xidmətlərə görə 1971-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1982-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. “İstintaq” bədii filmindəki Murad roluna görə SSRİ, “Birisi gün gecə yarısı” kino lentindəki Baba Əliyev obrazı üçün Azərbaycan SSR dövlət mükafatları ilə təltif edilib. 1970-ci ildə “7 oğul istərəm” filmindəki Bəxtiyar roluna görə Respublika Lenin komsomolu mükafatı laureatı olub. Bütün

bunlardan öndə duran bir fəxri ad hələ də yaşayır - Həsən Məmmədov.

"Bəxtiyar rolu" dedim, bir məqam yadıma düşdü. Bir dəfə teatrda müsahibə alırdım ondan. Qış idi, uzun qara palto geyinmişdi, təpədən-dırnağa kino adamı olan bu şəxsdə qəribə bir magiya vardı. O qara paltoda, iri addımlarla teatrın girişindən keçəndə hamı kənara çəkilib yol verdi. Söhbətləşdik, sonda belə bir fikir dedi: "İndi sən demədin, qızım, amma çox vaxt mənə deyirlər ki, çəkildiyiniz filmlər sovet təbliğatına xidmət edib. Bəxtiyar komsomol olub, bizə düşməndir. Bu günün nəzərləri ilə baxsaq, Bəxtiyar sadəcə bir insan, şəxsiyyət idi ki. Xalqının əmin-amanlığını istəyirdi."

Hiss etdim ki, bu mövzu Həsən müəllimin yaralı yeridir. İllərlə yaratdığı obrazlar, çəkildiyi filmlər kimlərinsə nəzərində sən demə, havayı atılmış güllə kimi qəbul edilir. O vaxt haqqında yazdığım yazı ilə ona nə qədər təsəlli ola bildim, deyə bilmərəm. Hər halda sonralar, ömrünün son günlərinə qədər zənglərimə məmnuniyyətlə cavab verib, həmsöhbət olurdu. Bildiyim odur ki, bəzən özləri heç bir işə qadir olmayan kəslər başqalarının gördüyü işləri kölgələməyə çalışmaqla təsəlli tapırlar.

## Axı, ürək neyləsin...

Ömrünün son illərində Azərbaycan kinosunun qızıl illəri arxada qalmışdı. Təltifləri, fəxri adları, hörməti… Maddi cəhətdən isə o qədər də böyük təminatı yox idi. Ailəsi də sovet vaxtı ona verilən dar mənzilə sığmırdı. Zəmanəyə uyğunlaşa bilmədiyinə görə Həsən Məmməfovu çox qınayırdılar və bu ona rahatlıq vermirdi. İstədiyini ailəsinə bəxş etmək üçün fikirləşib tapdığı yollar isə onun şəxsiyyətinə, xarakterinə yad idi.

Qatar getmişdi, arxasınca atla, ayaqla gedib çatmaq olmazdı. Bəlkə uzaqgörən olmayıb? Niyə o, kiməsə ağız açmalıdır? Bəlkə, düz eləmir, hamı necə, o, da elə? Niyə zəmanə adamı ola bilmir?

Özünə gah haqq qazandırır, gah qınayırdı. Hərdən üzv olduğu partiyanın da qapısına qədər gedib çıxır, yenidən geri qayıdırdı.

Niyə Tanrı ona bu xarakteri verib? Başqa cür olsaydı, bəlkə ailəsini daha yaxşı təmin edərdi? Axı, onun yerində kim olsaydı...? Bu ağrılar onu ürək əməliyyatına qədər gətirib çıxartdı. Əməliyyatdan sonra rahat, qayğısız, təmin olunmuş həyat yaşamalı idi, ürək bunu tələb edirdi. Əks halda...

Avqustun cırhacırı idi. Zəng elədim: "Həsən müəllim, necəsiniz?" Ömür boyu şikayət etməyən adam elə bil dilə gəlmişdi: "Əməliyyatdan sonra Allahın bir putyovkasını tapmıram ki, gedib bu istilərdən kənarda bir az dincəlim..."

Bu həmin 2003-cü ilin avqustu idi ki, iki gün sonra əvəzsiz aktyor, nümunəvi sovet adamı Həsən Məmmədov dünyasını dəyişdi. Bəlkə də onunla da böyük, şaxəli bir çinarın son yarpağı qopub düşdü. Onu II Fəxri Xiyabanda dəfn etdilər. O itkini isə, Azərbaycan kino sənətinə geri heç bir qüvvə qaytara bilməz. Bəlkə, nə vaxtsa haqqında böyük kitablar yazılacaq, amma o, qayıtmayacaq. Yenə seviləcək, yenə zəmanə adamı olmadığı, iradəsinin ziddinə gedə bilmədiyi, şəxsiyyətli, abırlı, əxlaqlı, yalnız saf sənətkar olduğuna, yaşamağın başqa - ənənəvi yollarını bilmədiyinə görə qınanacaq, amma seviləcək. Seviləcək və bir də ondan olmayacaq.


"Ögey ana"da başlayıb
"Fəryad"la bitən tale

Bu təsadüfdürmü, yoxsa zərurət, yəqin ki, daha çox taledir. Sadəcə tale… İnsan dünyaya gələndə onun həyat yolu artıq cızılmış olur, nə qədər çalışsan da o cığırdan kənara çıxa bilmirsən, sadəcə yüngül sapmalar ola bilər, vassalam.

O, atasının ikinci evliyindən dünyaya gəlmişdi. Atası Cəmil Mirzəyevin birinci evliliyindən övladı olmamışdı. Hamı demişdi ki, qadınını boşa, yenidən evlən, övladın olsun, amma 17 il birgə həyat sürdüyü ömür-gün yoldaşından ayrılmamışdı kişi. 17 ildən sonra qadın dünyasını dəyişib, yalnız ondan sonar ikinci dəfə evlənib. Onun anası Marqarita xanım milliyətcə gürcüdür. Xanımın da ikinci evliliyi idi, birinci ərindən - İbrahim Məmmədəliyevdən bir qızı da vardı. Cəmil Mirzəyev bu qıza da öz övladı kimi baxırdı. O, yəni qəhrəmanım Ceyhun dünyaya gələndə yalnız ailənin deyil, bütün nəslin sevinci hədsiz oldu.

Ceyhunun atası Cəmil Mirzəyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində çalışırdı. "Qırmızı Döyüş Bayrağı" ordeninin (Orden Boyevoqo Krasnoqo Znameni) ilk daşıyıcısı olmuşdu. Həmin orden ilk olduğu üçün indi də Rusiya Tarixi Muzeyində saxlanılır. Bizim kinoçular isə bu ordeni "Qanun naminə" filmində tarixə salıblar. Gənc prokurorun yaxasında.

Evlənəndə artıq 48 yaşı olan Cəmil Mirzəyev Ceyhun 3 yaşında ikən ürək çatışmazlığından dünyasını dəyişir. İllərdir övlad həsrətində olan ataya övlad sevincini doyunca yaşamaq qismət olmadığı kimi övlada – Ceyhun Mirzəyevə də ata qismət deyilmiş.

## İsmayılın uşaqlığı

Bəli, Ceyhun Mirzəyevdən danışırıq. 1946-cı il aprelin 9-da Bakıda anadan olsa da, əsli Qarabağdan- Ağdamın Abdal-Gülablı kəndindən olan, bir ömürdə iki tale yaşayan aktyor Ceyhun Mirzəyevdən.

Sənət taleyinin birinci dönəmində "Ögey ana"dakı İsmayıl, ikinci dövründə isə "Fəryad"dakı İsmayıl kimi iki əsr insanların yaddaşına yazılan Ceyhun Mirzəyev.

Hələ uşaqkən Azərbaycan Televiziyasında uşaq verilişlərində iştirak edirdi. Onu elə efirdən görüb bəyənən rejissor Həbib İsmayılov "Ögey ana" filmində İsmayıl roluna dəvət etdi.

Bu film eyni anda neçə-neçə taleyi özündə birləşdirirdi. Həm Ceyhun Mirzəyevin özünün yetimliyi, ögey bacısının olması vardı, həm də baş rolu oynayan Nəcibə Məlikovanın taleyi filmdə öz əksini tapmışdı.

Aktrisanın qaynanası gəlininin aktrisa olmasını həzm edə bilmirdi. Həyat hər addımda təzadlarla doludur. Bəlkə bu da həyatın təzadıdır ki, Nəcibə xanım özü qayınana sarıdan çox əziyyətlər çəkib. O qədər çəkib və dözüb ki, bir gün onlara qonaq gələn rejissor, o vaxt kinostudiyaya rəhbərlik edən Ədil İsgəndərov dözməyib və Nəcibə xanımı kimi "Ögey ana"nı elə öz obrazında, qayınanası və həyatı ilə bahəm kino ekranlarına gətirib. Evdən çıxarkən deyib ki, Xanım xala, səndən kino çəkəcəm.

Film çox sevildi, xüsusən İsmayıl və onun ögey anası. Görünür, hər iki obrazda onu yaradan aktyorların öz həyatından ştrixlərin olması hər şeyin təbii alınmasına çox ciddi təsir göstərdi.

Balaca Ceyhun isə kinodan və uşaq verilişlərindən aldığı qonorarla artıq ailəni-bacısı və anasını dolandırırdı.

"Ögey ana" filmindən sonra Ceyhun "Əsl dost" (1959), "Matteo falkone" (1960), "Qara qağayı" (1962-ci ildə Rusiyada çəkilib), "Yenilməz batalyon" (1965), "Qanun naminə" (1968) "Dəli Kür" (1969), "Bakıda küləklər əsir" (1974), "Yol əhvalatı" (1980),

"Qanlı zəmi" (1985), "Lətifə" (1989)-ümumən 25-ə qədər filmdə müxtəlif obrazlar yaradır.

Ceyhun sənətə aktyorluqla başlasa da, rejissorluğa da böyük həvəsi vardı. İncəsənət İnstitutunun rejissorluq fakültəsini bitirmişdi. Moskvada təcrübə keçib qayıdandan sonra isə "Mozalan"da bədii rəhbər işləyirdi. Rejissor kimi 100-dən çox süjet çəkmişdi.

## Sevgisindən vaz keçmədi

Bir gün artıq gənc aktyor, rejissor olan Ceyhun Mirzəyev kino heyəti ilə Moskvaya qastrola getmişdi. Qalanını aktyorun həyat yoldaşı, baş ədliyyə müşaviri Lidiya Mirzəyeva danışır: "Onun 18, mənim 17 yaşım vardı. Bizi məktəbdən Moskvaya aparmışdılar. Orda olduğumuz zaman eşitdik ki, Azərbaycandan artistlər də burdadır. Onda Ceyhunu ekrandan tanıyırdım, yetərincə məşhur idi. Amma ilk dəfə onları canlı şəkildə Bakıya yola salanda gördüm. Ceyhun bizi restorana dəvət etdi. Sonradan bildim ki, son pulunu da o qonaqlıqda xərcləyib. Bir-birimizə telefon nömrələrimizi verdik və ayrıldıq. Mən Bakıya qayıdandan sonra bir dəfə mənə zəng vurdu, görüş təklif etdi. Mən də razı olmadım, onu bir az acıladım. Bu, bizim son danışığımız oldu".

Düz 8 ildən sonar Ceyhun onu yenidən tapır. Hər gün Lidiyanın iş yerinə gəlir, pəncərəni döyüb otağa bir gül atır və gedir. Nəhayət, sevdiyi qızın könlünü alır və onunla ailə qurmasına razı sala bilir. Ceyhunla Lidiya 1973-cü ildə ailə qururlar və Cəmalə adlı bir qızları dünyaya gəlir: "Bəzən məndən soruşurdular ki, niyə elə bir uşaq? Deyirdim, bir niyə? Mənim iki uşağım var - Ceyhun və Cəmalə. Ceyhun doğrudan da uşaq kimiydi. Tez sınırdı, inciyirdi. Yeyib-içməyi, gəzməyi, geyinməyi çox sevirdi. O qədər ürəyiyumşaq, kövrək adam idi ki... Ehtiyacı olan hər kəsə əl tuturdu, kömək edirdi. "Mozalan"da işlədiyi müddətdə nə qədər gənci işlə təmin etdi. Haqsızlığa dözə bilmirdi. Ona qarşı xeyli haqsızlıqlar olmuşdu. Bir müddət yaradıcılığında fasilə yarandı. Kinostudiyada

ona iş vermirdilər, ssenarilərini qəbul etmirdilər. Bunun da səbəbi kinostudiyanın o vaxtkı direktoru Adil İsgəndərovla Ceyhunun əmisi Seymur Mirzəyevin arasında yaşanan problem idi.

Seymur Mirzəyev əvvəl Moskvadakı "Romen", sonra Mayakovski, Yermolov teatrlarının icraçı direktoru olmuşdu. Onların arasında nəsə şəxsi problemləri vardı. Ceyhun da bu şəxsi münasibətlərin qurbanına çevrilmişdi, əziyyət çəkirdi. Amma Ceyhun kimi bir insanı incitmək olmazdı axı. Mən ona təskinlik verməyə çalışırdım. Ona qarşı bir haqsızlıq da fəxri ad verilməməsiydi. Düzdür, Ceyhunun heç bir fəxri adı yoxdur, amma o, sözün əsl mənasında xalqın artistidir. Xalq onu sevir. O da xalqını çox sevirdi. Film çəkəndə aldığı qonorardan xəbəri də olmurdu, pul onu maraqlanmırdı. Deyirdi, "bu film xalqa lazımdır, gələcək nəsillərə miras qalmalıdır". O, çox təmiz insan olub, xalqa xidməti qarşısında heç nə ummayıb, güdməyib. Bütün filmlərinə canla, ürəklə yanaşıb".

Onun rejissor kimi ilk işi "Bəyin oğurlanması" filmi olub. Onun ardınca "İşarəni dənizdən gözləyin" filmini çəkib. "Fəryad" filmi isə sonuncu filmidir.

Elə bil nəyisə duyubmuş kimi "Ögey ana"dakı İsmayıl obrazının sonrakını taleyini gətirib "Fəryad" filmi ilə bağladı. Bu, Ceyhun Mirzəyevin aktyor və rejissor kimi axırıncı işi olur. "Fəryad" onun haqsızlıqlara qarşı son fəryadı idi- qu quşunun son nəğməsi kimi.

## Ceyhun Mirzəyevə qarşı sui-qəsd olub

Filmin operatoru Kənan Məmmədov deyir ki, "Fəryad" filmi 1993-cü ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunub: "Biz ilk olaraq filmin harada çəkiləcəyi barədə çox düşündük. Bu, mühüm bir məsələ idi. Sonra Ceyhunla belə qərara gəldik ki, çəkilişlər soyuq fəsildə aparılmalıdır. Çünki Qarabağ savaşından bəhs edən filmi yayda, otun-çiçəyin arasında çəkmək düzgün

olmazdı. Filmin bütün natura çəkilişləri Goranboyda Murov dağın ətəyində, Zeyvə, Qaraçinar, Ağcakənddə keçdi. Onda döyüşlər təzəcə başa çatmışdı. Biz ora yanvarda ezam olunduq və çox kəskin hava şəraitinə baxmayaraq, 15 günə natura çəkilişlərini bitirdik. Düzdür, təşkilati problemlər vardı. Məsələn, ordu, patron, avtomat lazım idi, onları çətinliklə əldə edirdik. Amma mənəvi çətinliklər daha çox idi. Hamımız daxilən çox böyük iztirablar keçirirdik. Xüsusən də Ceyhun çox əzab çəkirdi. Torpaqlarımızın işğalı ona pis təsir etmişdi".

Kənan Məmmədov çəkilişlər zamanı baş verən bəzi hadisələri də xatırlayır: "Filmdə bir səhnə var – balaca qızın zorlanma xəbərini eşidən İsmayıl bunu kimin elədiyini başa düşür. Səngərin arası ilə qaça-qaça gəlib ermənilərin mövqeyinə çatır və bu alçaqlığı edən ermənini öldürür. Bu səhnəni hərəkətlə çəkirdim. Kamera maşında idi. Ceyhun ağacların arasında qaçdığı müddətdə maşın da paralel olaraq gedirdi. Birdən Ceyhun qeyri-adi bir hərəkət etdi və yıxıldı. Demə, Ceyhun qaçdığı yerdə bir ağacdan o biri ağaca çox nazik, amma poladdan bir sim çəkilmişdi. Kim bunu eləmişdi bilmirik. Amma təbii ki, əvvəlcədən olunmuşdu. Ceyhun onu son anda görüb əlilə itələyib yıxılmasaydı, ip boğazını üzərdi. Çox sarsıldıq o anda. Əli kəsilmişdi, həkimə aparıb yardım etdik.

Bir də o səhnədə qaçan zaman çaydan keçir. Qış ayı, dağdan gələn su, adamın barmağını da kəsirdi. Mən etiraz edirdim ki, o səhnədə kaskadyor, dubl aktyoru çəkilsin. Amma Ceyhun razı olmadı, özü çəkildi. Ondan sonra da təbii ki, özünü pis hiss etdi. Ümumiyyətlə, bu film Ceyhuna mənən xeyli təsir etdi, ürəyi tap gətirmədi. Filmi tez hazırlayıb qurtarmaq istəyirdi, tələsirdi elə bil. Bəlkə də ürəyinə nəsə dammışdı. Amma çox təəssüf ki, tam olaraq başa çatdıra bilmədi. Filmin qaralama montajı bitəndə Ceyhun rəhmətə getdi. Özü də montajı birlikdə edirdik. Mənsiz eləməzdi. Deyirdi, "sən bütün materialı məndən yaxşı bilirsən...". Filmin birinci variantı başa çatandan sonra Ceyhunu itirdik. Nə öz rolunu səsləndirə bildi, nə də filmi gördü".

**İsmayıl böyüdü və…**

Lidiya xanım danışır ki, həyat yoldaşı "Fəryad"ın çəkilişlərindən qayıdanda evdə rahatlıq tapmırdı: "Siqaret çəkir, düşünür, öz-özünə danışırdı. Ermənileri söyürdü, vəhşidilər deyirdi. Elə bil bu filmi çəkməklə onlardan, ümumiyyətlə bütün haqsızlıqlardan hayıf çıxmaq istəyirdi".

Filmin hazır olub ekranlara çıxmasını həsrətlə gözləyirdi. Amma "Fəryad" filminin çəkilişlərindən sonra Ceyhun Mirzəyev mikroinsult keçirdi. İki həftəlik müalicədən sonra yenidən filmin işlərini davam etdirməyə başladı. Özü də tələsərək... Filmi tez başa çatdırıb ekranlara çıxarmaq arzusundaydı.

Rayonlar bir-bir işğal olunurdu, vəziyyət gərgin, film ərsəyə gətirmək zülm. Ceyhun Mirzəyev isə həm vətənini, həm də kinonu çox sevirdi.

1993-cü il martın 5-də , 47 yaşının tamamına 1 ay qalmış Ceyhun Mirzəyev telestudiyaya getmişdi. Onun "Fəryad" filmi haqqında veriliş hazırlanırdı. Elə oradaca vəziyyəti pisləşib. Diktor Hicran Hüseynov onu maşına qoyub evə gətirəndə Ceyhun Mirzəyev özündə olmayıb. Yalnız əli ürəyinin üstündə olub. Xanımı danışır ki, ürəyində güclü ağrı vardı: "Tez uzandırdıq, təcili yardım çağırdıq. Əsirdi, titrəyirdi deyə ayağını isti suya qoydum. Yenə xeyri olmadı. Bir anlıq gözünü açıb qızımız Cəmiləni çağırdı. Qızın üzünə baxdı və gözlərini yumdu. Biz elə bildik yuxulayıb. Amma təcili yardım gəlib dedi ki, bayaqdan canını tapşırıb..."

İsmayılın "Ögey ana"da başlayan həyat yolu "Fəryad"la beləcə bitdi.



# Gülməkdən ölən komediya aktyoru

*O, yayın istisində ictimai nəqliyyatda gənc bir oğlanın qəzəblə axan göz yaşlarını sildiyini görür. Yaxınlaşıb soruşur ki, heç sənin kimi gənc də bu şəkildə göz yaşı tökərmi? Gənc oğlan cavab verir ki, əgər üç il bir ali məktəbdən kəsirlərsə, başsız qalmış bacı-qardaşlarına çörəkpulu qazanmaq üçün iş tapmazsa, əlbəttə, tökər. Soruşanın məşəqqətli uşaqlığı və gəncliyi düşür yadına. Oğlanı yanına salıb indicə kəsilib çıxdığı ali ocağa aparır. Onun xahişi ilə gənci həmin ali məktəbin gecə şöbəsinə qəbul edib, gündüzlər isə elə həmin institutun tələbə yataqxanasında qarovulçu kimi işə götürürlər.*

*O vaxtlar sənətkara belə hörmət vardı.*

## Atasını 1918-də ermənilər qətlə yetirib

Hələ 2 yaşında olanda anasını itirmişdi. 5 yaşında, 1918-ci ildə atasını ermənilər qətlə yetirib. Atası Qazaxdan, anası Tiflisdən idi. Atası anasını qaçırtmışdı, sonra isə Tiflisə köçmüşdülər.

1918-ci ildə ermənilər Tiflisdə yaşayan azərbaycanlılara qarşı soyqırımına başlayanda onlar qaçıb Azərbaycana gəlirlər, amma bilmirdilər ki, eyni hadisələr Bakıda da cərəyan edir.

O vaxt Əliağanın cəmi beş yaşı vardı. Üç qardaş idilər, çox çətinliklərlə boya-başa çatdılar.

7-ci sinfi bitirən Əliağa gəmi təmiri zavodunda işə düzəlir ki, çörək pulu qazansın. Eyni vaxtda zavodun dram dərnəyinə də yazılır.

Elə ilk günlərdən dram dərnəyi rəhbəri onun istedadını sezir. Oynadığı obrazlar tezliklə zavod kollektivinin, sonra Bakı camaatının diqqətini çəkir, onlarda maraq yaradır.

Bu minvalla Əliağa hələ çox gənc yaşlarından Gənc Tamaşaçılar Teatrının truppasına gəlib çıxır.

Onu Mirzəağa Əliyev kimi sənətkar bəyənir, ştata götürülməsinə nail olur.

O vaxtdan bu teatrın afişasına yeni, həm də ətrafına tamaşaçı toplaya biləcək bir imza yazılır – Əliağa Ağayev.

## İlk sevgi və evlilik

Gənc Tamaşaçılar Teatrının özülünü qoyanlardan biri olan aktyor az bir zamanda oynadığı obrazlarla, istedadı və xoş xasiyyəti ilə hamının sevimlisinə çevrilir. Kollektivin gənc qızları arasında onu sevənlər də az deyildi, amma Əliağanın gözü onlardan birini tutmuşdu.

Gənc aktrisa Cəvahir İsgəndərova ilə səhnədə tərəf müqabili idilər. Məhəbbətlərinin özülü elə səhnədə qoyuldu. Ağadadaş Qurbanov bir gün onların münasibətlərindən xəbər tutub Əliağanı yanına çağırır. Deyir ki, bu qız mənim teatr truppamda yetişib, bu teatrın səhnəsinə çıxıb: “Mənə öz balam kimi əzizdir, sən də yaxşı oğlansan, ona qarşı münasibətin ürəkdən deyilsə uzaqlaş, ürəkdəndirsə gecikmə, yaxınlaş”.

Ürəyini qıza açmağa cəsarət eləməyən gənc bu sözlərdən sonra qəti addım atıb Cəvcahirlə evlənir.

Uşaqları dünyaya gələndən sonra Cəvahir xanım evdə oturmalı olur, Əliağa uşaqları ona etibar edib özü sənətin zirvələrinə doğru kəşməkəşli yola çıxır.

Onun da oynadığı “Hacı Qara” tamaşasına Mircəfər Bağırov baxır. Tamaşadan sonra Bağırov Əliağanı yanına çağırtdırır. Qardaşı Mirzəağa 1937-də ildə repressiyaya uğrayan aktyor kəfənini boynuna salıb rəhbərin qəbuluna yollanır. Sən demə, Mircəfər Bağırov onu çağırtdırıb ki, oynadığı obrazdan heyranlığını ifadə etsin. Deyib ki, çox bəyəndim. Fəxri adının olub-olmamağını da soruşub. Bir müddətdən sonra Əliağa Ağayevə əməkdar artist fəxri adı verilib. Sonra da xalq artisti olub. Gənc Tamaşaçılar Teatrında ilk və o vaxtlar yeganə xalq artisti Əliağa Ağayev idi.

SSRİ xalq artisti fəxri adı verilməsi üçün aktyora Kommunist Partiyasına keçməsi təklif olunub. Hər dəfə bu söhbətdən yumorunu işə salmaqla yayınan aktyor ömrünün sonuna qədər nə partiyaya daxil olub, nə də SSRİ xalq artisti adı üçün cəhd göstərib.

## Məşədi İbada verilən kürk

"O, olmasın, bu olsun" filmindən sonra Əliağa Ağayevi hamı tanıyırdı, amma adı ilə deyil, oynadığı obrazla, Məşədi İbad kimi.

Aktyorla birgə çox tamaşalar hazırlayan rejissor Ağakişi Kazımov xatırlayır ki, bir dəfə İraqda qastrol zamanı Əliağa bazarda itib: "Dedilər, bu harada ola bilər? Hərləndim bazarı gördüm ki, bir yerdən səsi gəlir. Gördüm ki, əfqanlar yığılıb onun başına, qabağında da bağlama var. Dedim bu nədir gətirmisən? Dedi tanıdılar ki, Məşədi İbadı oynayanam, mənə kürk verdilər".

Mirzəağa Əliyev dünyasını dəyişəndən sonra bir gün Şıxəli Qurbanov Əliağa Ağayevi çağırıb deyir ki, sən "Azdrama"nın səhnəsinə lazımsan.

Əliağa Ağayev əşyalarını götürmək üçün doğma teatrına gələndə Gənc Tamaşaçılar Teatrının ilk aktyorlarından biri Süleyman Ələsgərov qəmə qərq olur: "Sən bu teatrın qapısına qıfıl vurub gedirsən, buranın tamaşaçıları bundan sonra "Azdrama"ya gedəcəklər".

Əliağa Ağayev Məşədi İbadı oynayanda qara, gur saçları olub. Film təbii alınsın deyə özü saçlarını dibindən qırxdırıb.

Saqqalının üstündə isə günlərlə özü işləyib, nəhayət təbii göründüyünü hiss edəndən sonra çəkilişə razılıq verib.

Çox güclü hafizəsi olub Əliağa Ağayevin. Rolun sözlərini bircə dəfə oxumağı bəs edirmiş ki, çaşmadan, zamanında deyə bilsin.

Onun teatrın bufetinə girməyi yetərmiş ki, bütün aktyorlar başına yığışsın. Deyib-gülməyi, yeyib-içməyi çox xoşlayırmış, elə bunun da güdazına gedir.

Heç vaxt şəxsi işləri üçün kimdənsə xahiş etməyi xoşlamayıb.

Bir qızı, iki oğlu vardı. Deyirdi, bir rollarım, bir də övladlarımdır həyatdakı qazancım. Sənətini də çox sevərdi, amma övladlarının bu sənətə gəlməsinə razı olmazdı. Oğlu Vaqif ondan gizlin o vaxtkı İncəsənət İnstitutunun rejissorluq fakültəsinə qəbul olunmuşdu. Hər il atasına "Politexnik"ə hazırlaşıram" deyə yalan satan Vaqif Ağayev yalnız diplomunu alandan sonra onu atasına göstərib həqiqəti etiraf etmişdi. Vaqif Ağayev çox istedadlı rejissor oldu. Musiqili Komediya Teatrının səhnəsində şöhrət qazanan "Hicran" tamaşasına o quruluş vermişdi. Hayıf ki, həyatdan vaxtsız köçdü.

## İynə vurdurub filmə çəkilib

Əliağa Ağayev isə sağlam adam idi. Səhnədə, yeyib-içməkdə, çəkilişlərdə keçdi ömrü. Son illər, yəni ömrünün axırlarında səhhətində bəzi narahatlıqlar olub, bu da yaşın göstəricisi idi.

Çəkildiyi son "Evlənmək istəyirəm" filminin rejissoru Cahangir Mehdiyev danışır ki, biz onu qızdırmanın içində çəkdik: "Dedim ki, çəkilişi təxirə salaq, sizə ziyanı dəyə bilər, razılaşmadı. Həkim çağırıb iynə vurdular, temperaturu bir az düşdü, çəkdik, çəkilişdən sonra təcili yardımla getdi".

Amma ondan sonra neçə-neçə çəkilişlərdə, tamaşalarda oldu Əliağa Ağayev.

Yetmiş yaşı ərəfəsində, yubileyqabağı dostlarıyla kafedə oturub deyib-gülürmüşlər. Əliağa Ağayev danışdığı lətifəyə ətrafdakılarla birgə ürəkdən gülüb. Necə ürəkdən gülübsə ürək damarı partlayıb. Dostları elə biliblər ki, zarafat edir, baxıblar ki, yox, kişi dünyasını dəyişib.

Bu, 3 noyabr 1983-cü ildə olub.



# Araq, serroz, son rol

*Çox qədim bir əfsanə var - Səməndər adlı quş həmişə oda yanır, yanır, amma heç vaxt ölmür. Özünü odlara yaxmaq onun yaşamaq yanğısıdır, yanır və yaşayır. O vaxt ölür ki, yaxılmağa od tapmır.*

## Ləqəbi "Aktyor" olan Səməndər

Atası adını Səməndər qoydu, taleyini Tanrı verdi. Tanrı yazdı ki, Səməndər aktyor olacaq, sənəti üçün əbədi odlara yaxacaq özünü. Səhnədə, kinoda misilsiz obrazlar yaradacaq, heç vaxt süni, ürəksiz oynamayacaq. Dublyajda da ürək qoyacaq. Onun səsində başqasının obrazı elə canlanacaq ki, elə bil Səməndər Rzayev özü oynayır, oynayan aktyor onun səsində əriyib itəcək. Sənəti üçün belə yandığına görə cəmi 41 il yaşayacaq.

O, dünyaya gələndə ölkədə Böyük Vətən Müharibəsi gedirdi. 1945-ci ilin yanvarı idi, böyük qələbəyə beş ay vardı. Çoxuşaqlı ailənin sonbeşiyi olan bu uşaq müharibənin qan-qadasından uzaq Ağsu rayonunda doğulsa da müharibə onun da taleyinə təsirsiz ötüşmədi.

Çox çətinliklə, qıtlıq, kasıbçılıqla böyüdü. Anası onu, adının qısaldılmış formasında Səməni – deyib çağırırdı. Kasıbçılığı uşaq hissiyatı ilə duyan Səməni istedadına uyğun işlər tapıb pul qazananda hələ çox balaca idi.

Tay-tuşları ilə kənd klubun yanında oynayanda açıq qapıdan divarlara vurulmuş plakatlar onun marağını çəkir. Klubun müdirəsinin diqqətini isə plakatlara gözlərini zilləyib baxan bu toppuş uşaq cəlb edir.

- Niyə elə baxırsan, oğlum, xoşun gəlir?

- Yox, baxıram ki, mən bunlardan yaxşı çəkərəm, yazaram, rəngləri daha yaxşı yaraşdıraram bir-birinə.

- Çək gətir, baxaq, xoşuma gəlsə, bunların yerinə sən çəkəni asaram.

İki gün sonra iri bir plakatı qucağında güclə tutan uşağı, öz qapısı ağzında görən qadın təəccübünü gizlədə bilmədi. "Bu uşağın məsuliyyətinə bax",-deyə düşünüb, onun çəkdiyi plakatı klubun ən görkəmli yerinə asdı, üstəlik Səməniyə zəhmət haqqı da verdi. Bu minvalla Səməndər anasına tez-tez belə oğul qazancı gətirdi.

Bir gün qazandığı pulu anasına verib dostları ilə rahatlıqla oynamağa getdi. Hava yağışdan sonra çox gözəl idi, amma yer palçıqdan sürüşkən olmuşdu. Üstündə oynadıqları körpüdən sürüşüb üzüaşağı yuvarlanan Səməndər dizindən ağır zədə alır. Diz qapağı sınan uşaq düz dörd il xəstəxana, sonra isə ev şəraitində müalicə olunur.

Həmin dörd il onun üçün gələcək həyatının bünövrəsini qoyub. Hər gün radio tamaşaları, verilişləri dinləməkdən başqa əlacı olmayan uşaq, tezliklə bu sənətin sehrinə düşür. Xüsusən "Arxib baba və Lyonka" radio-tamaşasındakı Arxib baba rolunda Ələsgər Ələkbərovun səsi Səməndəri aktyor olmaq üçün qərar verməyə tələsdirir.

## Şöhrətə doğru

Oxuduğu məktəbdə "aktyor" ləqəbi qazanan Səməndər Rzayev orta məktəbi bitirib İncəsənət İnstitutunun aktyorluq fakültəsinə qəbul olunur. Bəxti gətirir, çünki Rza Təhmasibin kursuna düşür. Daha doğrusu, imtahanı özü götürən Rza Təhmasib kursuna yığdığı uşaqlar arasında Səməndərin adını qırmızı haşiyəyə alır.

Azərbaycan mədəniyyətinə isə bu ad qırmızı haşiyədə yox, qırmızı hərflərlə yazılır – Səməndər Rzayev.

İlk vaxtlar Rza Təhmasib onu filmə çəkilməyə, teatrda işləməyə icazə vermirdi, "hələ püxtələş, tez məşhurlaşıb məhv olarsan" – deyirdi. Ona görə də Səməndər Rzayev yalnız institutu

bitirəndən sonra təyinatla Sumqayıt teatrında işləmək hüququ qazandı. Kinoda isə ilk dəfə "Uşaqlığın son gecəsi"ndə ani bir kadra çəkilmişdi, 1968-ci ildə. Ardınca "Tütək səsi" filmində, yenə epizodik rol.

Yalnız 1973-cü ildə artıq teatrdan, televiziyadan tamaşaçıların sevdiyi Səməndər Rzayev ilk dəfə "Nəsimi" filmində böyük rol oynadı-Şirvan şahı rolunu. Həmin filmdəki Nəsimi roluna görə "Ən yaxşı kişi aktyor" olan Rasim Balayevin uğuruna isə ən çox sevinən elə Səməndər Rzayev idi. Çünki Rasim Balayevi əlindən tutub bu sənətə gətirən, ona kömək edən Səməndər Rzayev olub.

Ümumiyyətlə, bu aktyor həyatda heç vaxt özü üçün yaşamayıb, sənəti, bir də dostları onun həyat eşqi idi.

babası" (film, 1981), "Bağ mövsümü" (film, 1985), "Bəyin oğurlanması" (film, 1986) sonrakı illərin filmləri idi. Hər birində fərqli, maraqlı obrazı var. Televiziya tamaşaları deyəndə dərhal gözlərimiz qarşısında Şakir Şəkərov canlanır. Səməndər Rzayev kinoda çəkilməyindən danışanda "Ayə, niyə oynamırsınız?" məşhur ifadəsi yadımıza düşür. Onun teatr səhnəsində oynadığı Xudayar bəy obrazının hələ də təkrarı, yaxud ondan yuxarı pilləsi yoxdur. "Nə deyir ə, bu" – əsərdə bu cümlə yoxdur, onu məhz Səməndər Rzayev yaradıb və qalan bütün Xudayar bəy ifaçıları bu ifadəni ondan öyrəniblər.

## Sevgi və evlilik

Sevib-seçdiyi qızla evlənəndə Səməndəri tanımayan yox idi. Qız doğma yurdundandır-Ağsudan. Rayonda qohumlardan birinin toy mərasimində rastlaşmışdılar. Onu demək olar ki, qız özü seçmişdi. Səməndərin çox tanınması və cazibəli gözləri qızı cəlb etmişdi, toy boyu ona o qədər baxmışdı ki, axırda Səməndərin də diqqətini çəkmişdi bu baxışlar. Səməndər Rzayev qadınlara meylli deyildi, amma qızın baxışları onun evlənmək qərarı verməsinə gətirib çıxartdı.

Evləndilər, iki övladları dünyaya gəldi, bir qız, bir oğlan. “Gənclik”də bir otaqlı mənzildə yaşayırdılar. Bu mənzili onlara Heydər Əliyev hədiyyə eləmişdi. Teatrda Səməndər Rzayevin tamaşasına baxıb ona valeh olandan sonra. Gürcüstanın o vaxtkı dövlət başçısı Şevarnadze də Səməndər Rzayevi çox sevərmiş, bir dəfə Tiflisdə qastrolda onun kürəyinə əlini vurub “sən böyük aktyorsan” demişdi.

Onu ölkəsində az sevmirdilər. Sənət dostlarının dediyinə görə ölkənin elə bil rayonu, əyaləti yox idi ki, Səməndər Rzayev ora gedəndə bütün əhali onun pişvazına çıxmasın. Camaat onun ayaqları altında qurban kəsərmiş ki, Səməndər Rzayev bu torpağa ayaqlarını basıb.

Tanıyanlar insan kimi də Səməndər Rzayevi çox sevərmiş. Kimliyindən asılı olmayaraq bir insan onun yanına kömək üçün gələrdisə, Səməndər varından yox olub ona kömək edərmiş. Dəstəyi götürüb bir salam verməyi bəs idi ki, böyük idarə rəisləri, məmurlar onun istənilən xahişini dərhal yerinə yetirsinlər.

Çox savadlı və yalnız aktyor kimi deyil, fitrətən istedadlı insan olub. Yaxşı rəsm çəkməklə yanaşı pianoda gözəl ifa edib. Hərdən özü çalıb, özü də pəsdən oxuyarmış.

Radionun “Bulaq” verilişinin aparıcısı kimi ürəklərə xüsusən bulaq kimi axardı Səməndər Rzayev. Çox vaxt verilişi, mətni özü redaktə edərmiş. Hər hansı bir səhv Səməndərin gözündən yayınıb efirə gedə bilməzdi.

Həm istedad, həm savad-bilik, həm də insanlıq bir arada hər aktyora qismət olan xoşbəxtlik deyil. Bu xoşbəxtlikdir, yoxsa bədbəxtlik-hökm vermək çox çətindir.

Nə yazıq ki bu qədər sevilən, uğurlu insanın taleyi çox ağır olub. Və qəribəsi ondadır ki, onunla eyni nəsildən olan aktyorların hər biri çox istedadlı, böyük sənətkarlardır və belə ağır tale yaşayıblar – Hamlet Qurbanov, Hamlet Xanızadə, Şahmar Ələkbərov və. s.

"Çox içirdi Səməndər, onun güdazına getdi"- söhbət etdiyim bütün həmkarları, dostları ya adını eşidən kimi, ya da onun haqqında danışarkən sonda bu kəlməni dedilər.

Evi həmişə qonaq-qaralı olardı. Dostları çox idi, yeyib-içdiyi dostlar. Bunun üstündə bəzən evdə xanımı ilə söz-söhbət olardı. Xanımı onu qorumağa çalışardı ki, çox içməsin. Görürdü ki, gözgörəti uçuruma gedir həyat yoldaşı. Bu "dostbazlıq" onu ölümə sürüklədi.

## Son rol və qaraciyər serrozu

Teatrda bir-birinin ardınca uğurlu rollar oynayır, hər dəfə tamaşaçını heyrətləndirirdi, amma özü də, ətrafdakılar da görürdülər ki, hər gün bir addım geri gedir Səməndər Rzayev. Sənətdə irəli, fiziki cəhətdən geri.

Artıq yeriyəndə yer silkələnən, danışanda gözləri lərzəyə salan Səməndər deyildi, nəfəsi güclə gəlirdi, o qədər arıqlamışdı ki, onu görən kimi xəstə olduğunu hiss etmək asan idi. Qara ciyər hədsiz içkiyə davam gətirə bilmirdi artıq. Fiziki cəhətdən sağlam olması 41 yaşına qədər içdiyi içkilərin ona yıxa bilməməyinin göstəricisi idi, amma artıq geri də yol qalmamışdı.

Bütün ömrü boyu çalışdığı Dram Teatrının səhnəsində "Sizi deyib gəlmişəm" tamaşasında Xudayar bəyi oynayırdı. Tərəfmüqabili Səidə Quliyeva danışır ki, çox möhtəşəm bir səhnəmiz vardı, tamaşanın canı olan bu səhnədə mən Səməndəri sillə ilə vururdum: "Həmin yer gələndə Səməndər yavaşca pıçıldadı ki, Səidə, ölürəm, yola ver, vursan, yıxılacam, halım pisdir. Tamaşadan sonra səhnə arxasından onu xəstəxanaya götürdülər, siması ağappaq, özü də büzüşmüşdü".

İki gün sonra "Közərən ocaqlar" tamaşasında oynamaq üçün birbaşa xəstəxanadan səhnəyə gəlib Səməndər Rzayev. Onun üçün bilet alıb gələn tamaşaçısını məyus etmək istəməyib. Tamaşadan əvvəl bəsdir demədən içib, bu dəfə ağrılarını unutmaq, tamaşanı

oynamaq üçün. O qədər içib ki, ayaq üstdə durmaq belə çətin olduğu halda tamaşanı oynayıb və səhnə arxasında yıxılıb, bu onun səhnədə son rolu olub.

Özündən sonra həyatda onu saysız, yadda qalan obrazları xatırladır, bir də övladları. Qızı Rübabə radioda çalışır. Oğlu Rəşid aktyordur.

Çox qədim bir əfsanə var - Səməndər adlı quş əbədi odlara yanır, amma heç vaxt ölmür. Özünü odlara yaxmaq onun yaşamaq yanğısıdır, yanır və yaşayır. O vaxt ölür ki, yaxılmağa od tapmır.



# Yanlış diaqnoz və qəfil ölüm

*"Televiziya kanallarında atamın hansısa tamaşasını göstərəndə anamla bacımı qoymuram baxsınlar. Dözə bilmirlər, ağlayırlar... Biz hələ də onun yoxluğuna alışmamışıq. Atamın yeri, o boşluq çox hiss olunur. Neyləsək də, o boşluq heç nəylə dolmaz. Bu itki bizi həmişə göynədəcək " – oğlunun dediklərindən.*

## Uşaqlığı və…

Abasqulu kişinin ailəsi Balakəndə sovxozda işləyirdi. Ailədə iki oğlan uşağı böyüyürdü, ailə o vaxtkı Sovet ailələri kimi sadə, xudmani dolanırdı. Elə bir dərdi-sərləri də yox idi, sadəcə özlərini yerlərində hiss etmirdilər, elə bil qəribçilikdə yaşayırdılar.

Adıgözəlovlar ailəsi əslən Ordubaddan idi. Sovet rəhbərliyi o vaxtlar bir çoxlarını Ordubaddan Balakənə nəsillikcə köçürüb. Adıgözəllər ailəsi də bu siyasətin qurbanlarından olub. Bu ailə də daxil olmaqla Balakəndə Ordubaddan olan ailələrin yaşadığı məhəlləyə "Ordubad" məhəlləsi deyirmişlər.

Bir gün ailənin kiçik oğlu Telman möhkəm soyuqlayır, anası onu çimdirdikdən sonra həyətdə oynamağa qaçan uşaq müalicə alır və sağalır. Ancaq uşağın bir qolunda limfalar şişir, irinləyir və sağalmaq bilmirdi. Həkim deyir ki, Balakənin iqlimindən çıxmasa bu uşağın qolu qanqrena eləyəcək, kəsməli olacayıq.

Ailə uşağı da götürüb Bakıya köçməli olur, həm uşağı müalicə etdirmək, həm də nə qədər zaman da keçmiş olsa sürgün həyatının alınlarına vurduğu möhürdən xilas olmaq üçün. Cənnət də olsa Abasqulu kişiyə Balakənə məcburən köçürüldükləri fikri rahatlıq vermirdi.

O vaxt dördüncü sinifdə oxuyan Telman və qardaşı Vaqif üçün Balakən doğma idi, dünyaya gözlərini orda açmışdılar, dostları, doğma məktəbləri vardı.

Bakıya da tez öyrəşdi, tezliklə özünə yeni dostlar tapdı, yarası da sağalıb keçdi.

Bir gün məktəb yoldaşları ilə dərsdən qaçıb kinoya getmişdilər. O vaxt çox sevilən bir hind filminə baxmaq üçün dərsdən qaçmağa dəyərdi, həm də bunun zövqü təkcə kinoya baxmaqla bitmirdi, dərsdən qaçıb kinoya getməyin öz romantikası vardı.

Kinodan çıxanda bir nəfər Telmana yaxınlaşıb ona televiziyaya gəlməyi təklif etdi. Yuxarı siniflərdə oxusa da hələ peşə seçimi barədə müəyyən bir fikrə gələ bilməyən Telman təklifi qəbul etdi. Dövlət televiziyasında çalışan rejissor Nazim Zeynalov onu "Evrika" verilişində fantastik səhnələrə çəkir. "Yasəmən" televiziya teatrında iştirak edir. Yeddinci sinifdə oxuyanda isə Adil İsgəndərovun kinoaktyor kurslarına yazılır. Beləliklə, Azərbaycan incəsənətinə yeni bir ad gəlir – Telman Adıgözəlov.

## İlk obrazları

1975-ci ildə indiki Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsini bitirəndə Telman Adıgözəlovu tamaşaçı artıq televiziyadan tanıyırdı. Aktyor beş il Tədris Teatrında, televiziya tamaşalarında, səhnəciklərdə işlədi. 1980 –ci ildə Milli Dram Teatrında işə başlayan aktyor ömrünün sonuna qədər bu teatrda çalışdı. Bir-birindən maraqlı, müxtəlif xarakterli obrazlar oynadı. C. Məmmədquluzadənin "Dəli yığıncağı" əsərinin eyniadlı tamaşasında Zəncirvuran obrazından tutmuş , İ.Əfəndiyevin "Xurşidbanu Natəvan"ında Daşdəmir, "Mahnı dağlarda qaldı"da Rəhman, Şekspirin "Maqbet"ində Flins, M. İbrahimovun "Közərən ocaqlar"ında Xanəhməd, H.Cavidin "İblis" pyesində şeypurçu, S.Vurğunun "Vaqif" əsərində təlxək, S.Rəhmanın "Nişanlı qız"ında çeşməkli kişi, E. Baxışın "Qədr gecəsi"ində oyunbaz, Elçinin "Ah Paris…Paris!.."ində Əhməd, "Mənim sevimli dəlim" də professor, R.Novruzun "Hələ "sevirəm" deməmişdilər"ində qumarbaz obrazlarına qədər.

Eyni vaxtda dövlət televiziyasında hazırlanmış "Yaşıl eynəkli adam", "Ordan-burdan", "Qonşular", "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Nəsimi", "Üzü küləyə", "Xatirələr üzü" kimi filmərdə bəzən xarakterik, bəzən epizodik rollar oynadı. Kinoda bəxti o qədər də gətirməmişdi, öz nəslinin başqa aktyorları kimi onun da çəkilə biləcəyi illərdə kinematoqrafiya tənəzzül dövrünü yaşadı. "Nəsimi" filmində yalnız bir epizoda çəkilib, həmin epizod isə artıq Telman Adıgözəlov siması televiziyadan və teatrdan tanış, sevimli olduğu üçün gözə çarpır.

## Şəxsiyyət

Telman Adıgözəlov siması olan, şəxsiyyətli insan olub. Nə öz işi üçün kiminsə qapısını döyər, nə də ev üçün, pul üçün, yaxud fəxri ad, rol xətrinə minnətçi düşərdi. El-obada isə hamının xeyirşərinə yarayırdı. Kim zəng eləsə ki, mənimlə filan işin arxasınca gedək, sənin xətrinə o iş həll olunar, gedərdi. Bilirdilər ki, Telman Adıgözəlovun adı gələn yerdə ən sərt məmur da yumşalacaq. O tay Azərbaycandan uzaq qohumları gəlib Bakıda işlərini Telman Adıgözəlovun köməkliyi ilə yola verirdilər. Heç kimi rədd etməzdi, onlara təmənnasız yardımçı olardı. Balakənlilər, hətta başqa millətlərin nümayəndələr də onun üstünə kömək üçün gələrdilər.

Evdə bütün problemləri təkbaşına həll edərdi. Ailəsi – xanımı və iki övladı atanın hansı çətinliklər bahasına onların firavan yaşayışını təmin etdiyini bilməzdilər. Pis yaşamırdılar, amma xalq artistlərinin hamısı onlardan daha yaxşı yaşayırdı. Niyə hamısına ev verilir, amma Telman Adıgözəlovun mikrorayonda dar mənzili genişləndirilmir ki genişləndirilmir?

Hamıya prezident mükafatı, təqaüd verilir. Siyahıdan Telman Adıgözəlovun adı çıxarılıb, ötən il aldığı pul bu il artıq ona verilməyəcək, deməli ailə maddi cəhətdən geri gedəcək. Üstəgəl oğlu ordudan qayıdıb, nişanlıdır, amma işləmir. Qızı Tibb Universitetini bitirib, işə düzəltmək lazımdır.

Teatrda isə son vaxtlar "Hələ "sevirəm" deməmişdilər" tamaşasındakı rolundan sonra bir rol oynamayıb. Yaş gedir, işləmək, yaratmaq istəyir, rol oynamalıdır, bu gün olmasa sabah gec ola bilər, amma ortada heç nə yoxdur. Teatr təmirə dayandığından "Mir" telekanalında onlar üçün ayrılan bir zalda məşqlər edirlər, tamaşalar isə hələ oynanılmır. Yeni rolu olmadığından Telman Adıgözəlov elə vaxt olur ki, heç ora getmir.

Bütün bu fikirlər ona rahatlıq vermir. Yaxşı ki, arada "Müsyo Jordan Dərviş Məstəli şah" tamaşası bir qığılcım kimi parladı onun yaradıcı ruhunda. Müsyo Jordan rolu ürəyincə idi, həvəslə işlədi üstündə.

Bir gün ürək bütün bu yükə tab gətirməyib – bəsdir məni yüklədin dedi, küt, dözülməz ağrı verdi kürək nahiyəsində.

Telman Adıgözəlov birinci dəfə bu ağrıya elə də böyük əhəmiyyət vermədi. Həm də bu qədər problem içində elə bir həkimim, iynə-dərmanım çatmır – deyə ürəyinə cavab verdi.

İkinci dəfə ağrı elə dözülməz oldu ki, fikir verməyə bilmədi. Getdi həkimə, ürəyinin kardioqramasını çıxartdılar, dedilər ki, ürəyində heç nə yoxdur, həkim – "görünür, duzlaşmadır" deyə müalicə yazdı. Müalicəni keçdi, heç ağlına da gəlmədi ki, bəzən ürəyin çəkdiyini heç bir peşəkar həkim, kardioqrama belə göstərə bilmir.

Müalicə getdi, amma aktyor özündə yaxşılığa doğru bir dəyişiklik hiss etmədi, əksinə…

Yaxın dostu Ramiz Novruz danışır ki, heç bir şikayəti yox idi, amma görürdüm ki, tez-tez təngnəfəs olur, durduğu yerdə tərləyir: "Deyirdim yəqin müalicə duzlaşmanı əridir, ona görə belə olur. Sonuncu dəfə də işə gələndə, girdi içəri, aktyorlar bufetdə nərd oynayırdılar, zarafat elədi ki, ey, nardovşiki, xarakteri nardovşiki. Qaydayın bir filmində işlədilən bu ifadə ilə zarafat elədi, sonra ikimiz oturub mənim məhz onun üçün, qəhrəmanını onu düşünüb yazdığım pyesi müzakirə elədik. Oxumuşdu çox xoşuna gəlmişdi, istəyirdik tamaşanı hazırlayaq. Hər axşam da zəngləşib bu barədə danışırdıq. Həmin axşam da zəng eləmişdi mənə, danışmışdıq".

## Ağrı

Həmin axşam – Telman Adıgözəlov bir qohum toyuna getmişdi, amma nədənsə tez qayıtmışdı toydan. Çəkilib otağa pyesi oxuyurdu. Daxildə narahatlığı vardı. Özünə yer tapa bilmirdi, Səhhəti qaydasında deyildi, mənən də narahat idi, amma bunları heç kimə deməmişdi, xoşlamırdı içini kimlərəsə açmağa.

Ömür boyu kiməsə öz dərdlərini yükləməyi, bir də ailəsi barəsində danışmağı xoşlamazdı. Nə vaxt zəng edərdin, evdə dəstəyi də özü qaldırardı. Şikayət də etməzdi nə səhhətindən, nə daxili problemlərindən, amma simasından hiss olunurdu ki, içində təlatüm var bu adamın, bu adamın haqqı tapdanır. Çünki heç vaxt kiminsə çaldığı havaya oynamazdı, öz musiqisi, sümüyünün öz ritmi vardı, süni havalara girməzdi.

Oğlu Tural danışır: "O gün atamın adi günlərindən biriydi. Həm də həmin gün səhhətində də bir nasazlıq olmamışdı, ağrımamışdı. Mən məşqdən qayıtmışdım. Yorulmuşdum deyə bir az tez yatmışdım. Bir az keçəndən sonra atam yanıma gəldi. Soruşdu: "Özünü necə hiss edirsən? Xəstə zad deyilsən ki?" Dedim: "Yox, yaxşıyam. Sadəcə bir az yorulmuşam." Vəssalam, bu, bizim son danışığımız oldu. Bir də gecə saat 4-ə işləmiş anamın səsinə oyandım. Uca səslə atamı çağırırdı. Tez onların otağa getdim, gördüm atam xırıldayır, elə bil boğazında nəsə qalıb. Biz əvvəl elə bildik ki, yuxuda təngnəfəs olub. Başladıq silkələməyə ki, yuxudan ayılsın. Amma gördük yox, düşündüyümüz deyil. Artıq rəngi də qaralmışdı. Demə, can verirmiş, biz də bilmirik. Çünki indiyə qədər elə şey görməmişdik. Təcili yardıma zəng vurduq. Nə olduğunu aydınlaşdıra bilmədilər. Təzədən ikinci təcili yardım briqadasını çağırdıq. 10 dəqiqədən sonra ikincisi gəldi. Təzyiqini ölçdülər, sonra da elektroşok elədilər. Amma xeyri olmadı. İki-üç dəfə elədilər, sonra dedilər keçinib. Elə xırıldayaraq canını tapşırdı. Nə bilim, yəqin bu da belə taledir".

2010-cu ildə aprelin 15-i gecə teatr sənətimiz Telman Adıgözəlovu, yüzlərlə, minlərlə tamaşaçı öz sevimli aktyorunu, ailəsi arxa – dayağını, əzizini itirdi.

Sən demə ürək damarlarında tromblaşma gedirmiş, onu kardioqrama göstərmir, daha müasir aparatlar göstərir, vaxtında düzgün diaqnoz qoyulsaydı, yüngülvari müalicəsi varmış, həkim isə ostroxondrozdan müalicə edib onu. Allah hamımızı pis həkimdən qorusun.

## Vida

Xalq artistinin ailəsi nə qədər gözlədi, rəsmi instansiyaların səsi çıxmadı. Yalnız yas mərasiminə gələn Mədəniyyət və Turizm Nazirliyinin işçiləri bəyan etdi ki, Fəxri Xiyabanda yer olmadığı üçün aktyoru ailəsi harda istəsə orda dəfn edə bilər. Çalışdığı səhnədən isə vida mərasimi olmayacaq, çünki teatrda təmir gedir.

Onu sevənlər Telman Adıgözəlovu yaşadığı mənzildən son evinə - Fatmayi məzarlığına qədər yola saldılar. Yol boyu insan axını gedirdi onun tabutunun arxasınca. Hamı onu 57 yaşında itirməyin təəssüfünü yaşayırdı o gün də, ondan sonrakı günlər, illər ərzində də, indi də.

Yas mərasimlərinin xərcini dövlət özü çəkdi, məzarının üstü də dövlət vəsaiti ilə götürüldü.

Qızının sənədlərini özü sağlığında nazirliyə təqdim etmişdi. Qızı çağırıb işə qoydular. Oğlu da indi Fövqəladə Hallar Nazirliyində işləyir.

İki il sonra qızı ailə həyatı qurub, artıq bir övladı dünyaya gəlib. Telman Adıgözəlov həyatdan köçəndə oğlu nişanlı idi, iki il sonra evlənib. Xanımı Büllur xanım da həmişəki kimi bağçada uşaqların tərbiyəsi ilə məşğuldur, qəlbinin yarasına onlarla məlhəm qoyur.

Həyat davam edir. Bircə o, yoxdur həyatda, xatirələrdə obrazları, maraqlı jestləri və bir də şəxsiyyəti ilə qalıb – Telman Adıgözəlov. Allah ruhuna rahatlıq versin.

"Televiziya kanallarında atamın hansısa tamaşasını göstərəndə anamla bacımı qoymuram baxsınlar. Dözə bilmirlər, ağlayırlar... Biz hələ də onun yoxluğuna alışmamışıq. Atamın yeri, o boşluq çox hiss olunur. Neyləsək də, o boşluq heç nəylə dolmaz. Bu itki bizi həmişə göynədəcək " – oğlunun dediklərindən.



# Sevgilisi üçün aktrisa da oldu, muzey işçisi də...

## Qaçaq Nəbinin Həcəri, Ənvər Həsənovun Möminatı

Mətbu orqanlarda belə bir informasiya getmişdi: "Xaçmaz yolunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Ənvər Həsənovun idarə etdiyi maşın aşıb, nəticədə sərnişin Möminat Qurbanova yerindəcə keçinib".

Quru, ürəksiz informasiyaları sevmirəm, çünki həmin anda onu deyən aparıcı, yazan jurnalist gündəlik işini görür, heç ağlına da gəlmir ki, bu acı xəbərin arxasında neçə-neçə yıxılmış talelər, qaralmış dünyalar durur.

Bu dəfə də elə oldu.

Buzovnada sadə bir ailədə dünyaya gəlib Möminat xanım. Ailədə altı uşaq olublar, beş bacı, bir qardaş. Ailənin sonbeşiyi olduğundanmı, yoxsa xarakterinə görəmi Möminat hamıdan ərköyün və çılğın uşaq idi.

Ona görə də orta məktəbdə komsomol fəalı, özfəaliyyət kollektivinin, idmanın öncüllərindən olan bu qız məktəbi bitirib sənədlərini indiki Mədəniyyət və İncəsənət Universitetinə verəndə hamı bunu ərköyünlük kimi qarşıladı və reaksiya vermədilər. Dedilər, yəqin tezliklə həvəsdən düşüb özünə "düz-əməlli peşə" tapar.

Amma Möminatın bu ərköyünlüyü ötəri olmadı. Hələ orta məktəb illərində "7 oğul istərəm" filminə o qədər baxmışdı ki, filmi əzbər bilirdi. Cəlalın (Ənvər Həsənovun-red.) dedikləri dilindən düşmürdü. Cəlalın şəklini otağının divarından asmışdı. Hərdən bu rəsmlə söhbət edirdi. Ona demişdi ki, səninlə bir filmə çəkilmək üçün aktrisa olacağam. Ənvər Həsənov haqqında mətbuatda yazılan məqalələr, tənqidlər, təriflər qovluqda, Möminatın kitab dolabında layiqli yerdə dururdu. İllər keçəcək Möminat Qurbanova

Ənvər Həsənovun  evinə həmin qovluqla gəlin köçəcəkdi. Amma hələ ki, buna bir neçə il var. Hələ ki, Möminat  institutun aşağı kurslarında oxuyur, Ənvər Həsənov isə ardıcıl olaraq kinolara çəkilir.

1977-ci ildə Kamil Rüstəmbəyov və Şamil Mahmudbəyov "Dərviş Parisi partladır" filminə kino sınaqları keçirirdi. Tələbə Möminat eşidir ki, filmdə Şahbaz bəy roluna Ənvər Həsənov çəkiləcək. Filmin sınaq çəkilişlərində iştirak etmək üçün kinostudiyaya gəlir. Heç özü də bilmir ki, hansı rolun sınaq çəkilişində iştirak edəcək, sadəcə rejissorun gözünə görünmək istəyirdi. Sınağa gələn tələbə qızlar arasında Möminat Qurbanova Kamil Rüstəmbəyovun sərraf rejissor gözündən yayınmır. Ənvəri də çağırıb deyir ki, bax gör bundan sənə Şərəfnisə olar? Ənvər "elə olar",-deyə yarızarafat cavab verir. Amma hər ikisi hiss etdi ki, aktrisada əsl bəy, xan qızlarına, xanımlarına xas şahanə görkəm var.

Sınaq çəkilişlərindən də Möminat qalib çıxır, Şərəfnisə roluna ən layiqli namizəd kimi.

Ənvər Həsənov danışır: "Münasibətlərimiz elə bu filmlə də başladı. Filmin çəkilişləri başa çatar-çatmaz nişanlandıq".

1978-ci ildə institutu bitirən Möminat Qurbanovaya o vaxt hamıya verilən təyinat əvəzinə azad təyinat verilir, çünki artıq çox tanınmış aktyor Ənvər Həsənovun həyat yoldaşı idi. Ənvər Həsənov onda "Azərbaycanfilm"də çalışırdı.

Ənvər isə onu daha çox evdə görmək istəyirdi:

"İstəyirdim işdən evə qayıdanda yuvamı isti, Möminatı uşaqla, mətbəxlə məşğul olan görüm. Düzü bir az da qısqanırdım, o, mənim Şərəfnisəm olmuşdu, kiminsə Şərəfnisəsi, nə bilim Nigarı olmasını qəbul edə bilmirdim".

İllər keçir, artıq aktrisa olmayacağı ilə sevimli Ənvərin xətrinə razılaşmış Mömünat daha bir filmə dəvət alır. Bu dəfə dəvət deyildi, tələb idi. Ailənin dostu Şeyx Əbdül Mahmudbəyov  Qaçaq Nəbidən bəhs edən "Atları yəhərləyin" filmində Həcər rolunda Möminatdan başqa heç bir aktrisanı təsəvvür edə bilmirdi.

Ənvər Həsənov deyir: "Möminatın igid, ağıllı qadın görkəmi vardı. Çox ağıllı və çox şən qadın idi. Onun sayəsində ailəmizin çoxlu dostları vardı. Onun iştirak etdiyi məclislərdə kollektiv şənlik olardı. Həsən Turabovla Əbdül dedilər ki, razı olmasan, onu qaçırdıb sənsiz çəkəcəyik. Əlacım kəsildi, razılaşdım. Nəbini Həsənağa Turabov oynasa da Həcərlə olan əksər mehribançılıq səhnələrində özüm oynamışam, qrimi elə ediblər ki, hiss edilməyib. Həcərin at çapmaq səhnələrini də Möminatın təhlükəsizliyi üçün özüm oynayırdım, çünki mənim təcrübəm vardı, məharətlə at çapırdım. Bir dəfə çəkiliş vaxtı həvəslənib özü mindi ata, at da onu götürüb baş alıb getdi, yaxşı ki, qabağı divara dirəndi. Onda Möminata möhkəm acığım tutdu, elə bildim itirdim onu. Ona bir şey olsa nə edəcəyimi təsəvvürümə belə gətirə bilmirdim".

Həcər rolunu oynayanda Möminatla Ənvərin Aytən adlı bir qızları vardı. Onlar çox övlad istəyirdilər, amma tale yalnız Aytəni bəxş etdi. İkinci uşağın dünyaya gəlməsi üçün Möminat xanım həyatını riskə qoymalı idi. Ondan olsa riskə gedərdi. Ancaq Ənvər Həsənov nəyinsə xətrinə Möminatın həyatını riskə qoymağa razı olmadı.

"Möminat cəmi üç filmə çəkilib, üçündə də mənimlə birgə. Üçüncü film kommersiya filmi idi, hələ də ekranlara çıxmayıb. İndi sevinirəm ki, heç olmasa üç filmə çəkilib, tarixdə qalacaq o filmlərlə. Daha çox çəkilsəydi, böyük uğurlar qazanardı. İncəsənət Muzeyində çalışırdı, elmi dərəcəsi də vardı, tez bir zamanda şöbə müdiri oldu, yəni yaranışdan istedadlı, şən, fəal insan idi".

Bir gün dostlarla birgə növbəti ailə şənliyini qeyd etmək üçün şəhər kənarına çıxmaq istədilər.

Möminat xanımın 50 yaşı olurdu, dekabrın 8-i idi. Dostları onları Nabrana dəvət etmişdilər. Razılaşmışdılar, amma nədənsə yola çıxmaq vaxtı gələndə tərəddüd etdilər. Möminat xanım axşam nə isə yuxu görübmüş, əhvalı pis imiş.

"Bir gün əvvəl də yarmarkadan dublyonka almışdı, evə gələndən sonra nədənsə xoşuna gəlmədi, dedi ki, səhər aparıb dəyişəcəyəm bunu. Gəldim ki, Möminat , dostlar aşağıda, maşında göz-

ləyirlər, gedək. Dedi ki, Ənvər, sən get, mənim həvəsim yoxdur. Dedim, ay qız, sənin yubileyindir, gedək. Dedi, üzrxahlıq edərsən, mən gedim bu dublyonkanı dəyişim, sonra gec olar, dəyişməzlər. Razılaşdım və keçib o biri otaqdan ov tüfəngimi götürdüm ki, meşədi də, birdən ov düşər könlümüzə. Möminat əlimdə tüfəngi görən kimi qalxdı ki, mən də gedirəm. Kaş, götürməyəydim o tüfəngi. Bu tüfəng atmaq həvəskarı idi, dedi ki, sən gedib mənsiz ov edəcəksən, mən də gedirəm. Getdik. Qayıdanda maşını dostumuz sürürdü. Birdən dedi ki, Ənvər yuxu məni basır, gəl bir az da sən sür. Oturdum sükanın arxasına, Möminat məndən arxada oturub, dostum qabaqda, onun xanımı da ondan arxada. Çox yavaş sürürdüm, sonra ekspert də müəyyən etdi ki, o sürətlə yer buz da olsa maşın aşa bilməzdi, arxa təkərin altına daş düşüb ki, belə aşıb. Qarşıdan bir it keçdi, sükanı qəflətən döndərməli oldum, heç necə oldu bilmirəm, yığa bilmədim, çırpıldı ağaca. Maşının arxa qapısı, Möminat tərəf çırpılmışdı, heç ağzını açıb bir kəlmə deyə bilmədi. İndiyə qədər özümə gələ bilmirəm, yaxşı ki, qızım, nəvəm var, onlara görə yaşamalıyam".

50 yaşı qeyd edən kimi dərhal əbədiyyətə qovuşmaq yazılıbmış taleyinə. Ənvər Həsənova isə ondan sonra "bəlkələrlə", "kaşlarla" özünə əzab verməк.

Mömünatsız bir dəqiqəsi yoxdur. Hər an düşünür, xatırlayır, müşkül suallara öz özlüyündə cavab axtarır.

Tale elə gətirib ki, yeznəsi də gənc köçüb həyatdan. Qızı, Murad adlı balaca nəvəsi Ənvər Həsənovla bir yerdə yaşayır. Bir-birlərinə dəstək, dayaq olurlar.Bir də çəkəcəyi filmlərdir onun təsəllisi.

Hər il dekabrın 8-i bu ailədə doğum günü ilə ölüm günü bir yerdə qeyd olunur.

Həmin tarixdə mətbuat orqanlarında belə bir informasiya getmişdi: "Xaçmaz yolunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Ənvər Həsənovun idarə etdiyi filan nömrə nişanlı maşın aşıb, nəticədə sərnişin Möminat Qurbanova yerindəcə keçinib".

Bu quru, ürəksiz informasiyaları sevmirəm, çünki həmin anda onu deyən aparıcı, yazan jurnalist gündəlik işini görür, heç ağlına da gəlmir ki, bu acı xəbərin arxasında neçə-neçə yıxılmış talelər, qaralmış dünyalar durur.

Bu dəfə də elə oldu.



# Son kadr

Gecənin bağrını ov tüfəngindən sinəyə tuşlanan atəş yarır. Son anda gözləri qarşısında Şuşa və onun dar dolanbacları ilə qaçan, filmə çəkildiyi üçün ayağı yerə dəymədən qanadlanan yeddi yaşlı oğlan canlanır. Bu görüntü gözlərində filmin son kadrı kimi qalır və göz qapaqları qapanır. Ondan sonra nə olacaq, daha nə onun özünə, nə də başqa kimsəyə maraqlı idi. Altı yaşlı oğlu, xanımı, güllə səsini eşidib gələn qonşular nə deyəcək, kim necə olacaq, eyninə deyildi. Zatən, bütün bu yüklərdən özünü bir atəşlə xilas etmişdi.

Bəzən insan həyatın dolanbaclarında təntiyəndə düşünür ki, bəlkə həyatımı başqa cür qursaydım, məsələn, bu sənəti seçməsəydim, bu adamla evlənməsəydim, yaxud bu ölkədə yaşamasaydım hər şey başqa cür olardı... Özünü günahlandırırsan, amma heç düşünmürsən ki, harda, necə yaşamağından asılı olmayaraq hansı taleyi yaşamalı idinsə, onu da yaşayacaqsan. Hərdən düşünürsən ki, taleyini insanın xarakteri müəyyən edir, ağlına da gəlmir ki, xarakterin də sənin taleyinə düşəndir axı.

Qəhrəmanım da 47 illik qısa ömründə dəfələrlə düşünmüşdü ki, bəlkə də o vaxt Şuşada kinematoqrafçılar qarşısına çıxıb onu kinoya çəkməsəydilər, hər şey başqa cür olardı. “Bəlkə həkim olardım, yaxud müəllim”-deyirdi. Sonra da özünə təskinlik verirdi: mən ona görə kinematoqrafiyaya vuruldum ki, o sənətdə hər sənətdən var, hər bir peşə adamının həyatını ekranda yarada bilərəm.

## Ulduz uşaq

Lətif Səfərovdan danışırıq. Kinorejissor, indiki Kinematoqrafçılar İttifaqının yaradıcısı, ilk rəhbəri, onlarla sənədli, “Bəxtiyar”, “Qızmar günəş altında”, “Leyli və Məcnun” bədii filmlərinin rejissoru...

1920-ci ilin bir payız günündə Şuşada dünyaya göz açan Lətif Bəşir oğlu Səfərov taleyinin diktəsi ilə hələ yeddi yaşında ikən kinoda ilk addımlarını atmışdı.

"Azərbaycanfilm" "Tuncay" filmini Qarabağın dilbər guşəsi Şuşada ekranlaşdırırdı. Filmdə əsas rolu oynayacaq balacanı da Qala uşaqlarından seçmişdilər. Yüzlərlə uşağın içində balaca, çəlimsiz, iri qara gözləri olan Lətifə üstünlük verdilər. Çəlimsiz olsa da iri iti, diri baxışlar, çeviklik kinematoqrafçıları cəlb etmişdi. Onun kinoya hədsiz marağı da qeyd edilməlidir. Uşağın kinonu ən xırda detallarına qədər öyrənmək marağı onun oynayacağı rolun da öhdəsindən gələcəyini xəbər verirdi.

Film "Gilan qızı" adıyla ekranlara çıxandan sonra bu balaca oğlanı artıq Azərbaycanda hamı tanıyır. Şuşa camaatı ona yer adamı kimi baxmır, məktəbdə müəllimlər, sinif yoldaşları onu az qala əllərinin içində göylərə qaldırıb gəzdirirlər.

Sonradan o bu illəri xatırlayıb yazırdı: "7 yaşım var idi. "Gilan qızı" filminin bir sıra natura obyektlərini çəkmək üçün Şuşaya gəlmiş Azərbaycan kinematoqrafiyası işçilərini dağın zirvəsində yerləşən şəhərin nağılvarı mənzərəsi heyran etmişdi... Hər şey elə bundan başlandı... Əgər onlar mənim şəhərimə gəlməsəydilər, bəlkə də həyatım başqa cür qurulardı. Əgər mən həkim olsaydım, insanları müalicə edərdim, müəllim olsaydım, insanlara bilik öyrədərdim... 10-cu sinfi bitirmiş gənci maraqlandıra biləcək çoxlu ixtisas saymaq olar. Mənim qismətimə kinematoqraf düşdü. Burada mən özümü bütün ixtisaslara yiyələnmiş kimi hiss edirəm. Mən bütün peşələrdən olan adamlara xidmət edirəm. Bunu nə qədər çox dərk etdikcə, özümdə daha artıq məsuliyyət hiss edirəm..."

Taleyin işinə bax ki, yeddi yaşında uşağın həyat yolu müəyyən olunur. O, özünü kinematoqrafiyadan ayrı təsəvvür belə edə bilmir.

Atası Bəşir dövrünün oxumuş ziyalılarından idi. Vəzifə sahibi olmuşdu. Elə vəzifədə olması da onunla həyat yoldaşı, yəni Lətifin anası Maya arasında uçurum yaradırdı. Ona görə də ata onu və balaca bacısını anasının himayəsində qoyub özünə "layiq"

bir xanımla ailə qurmuşdu. Dörd yaşında ikən artıq ata üzünə həsrət qalan Lətifin qarşısında indi onu və ailəsini bütün çətinliklərdən qurtara biləcək bir yol açılırdı. Anası isə oğlunu gözündən uzağa qoymağa ürək eləmirdi. Bəlkə ana ürəyi duymuşdu ki, oğlunu qarşıda hamar, rahat yol gözləmir. Bəlkə onun vaxtsız faciəli ölümünü də ana ürəyi fəhm edərdi, amma hələlik gözlərini oğlunun ilk, cəlbedici uğuru qamaşdırırdı.

Çəkildiyi ilk filmin rejissoru Leo Mur, operatoru İvan Frolov, görkəmli aktyor Sidqi Ruhulla ondan əl çəkmək fikrində deyildilər. Nəhayət, onu özləriylə Bakıya aparmaq üçün anası Mayanı yarıxoş, yarı-zor razı saldılar.

Tez bir zamanda balaca Lətif rejissor Mikayıl Mikayılovun qayğıkeşliyi sayəsində kinostudiyanın aktyor ştatına işə götürülür. Lətif günün birinci yarısını internat məktəbdə oxuyur, dərslərini qurtaran kimi işə tələsirdi. Studiyada çalışanlar balaca aktyora məhəbbətlə, nəvazişlə yanaşırdı. Uşaq heç gözləmədiyi ulduz həyatı yaşayırdı.

1928-ci ildə "Sevil" filminin çəkilişi başlayanda Gündüz roluna aktyor axtarmağa ehtiyac olmadı. Cəfər Cabbarlının tövsiyəsi ilə bu iş Lətifə həvalə edildi. Ağasadıq Gəraybəyli, Mustafa Mərdanov kimi aktyorlarla bir sırada kamera qarşısında dayanmaq həm məsuliyyət, həm də şərəf idi.

Ardınca Mikayıl Mikayılov "Lətif" filmində onu baş rola çəkir. Lətif "Lətif"lə daha da məşhurlaşır.

## İlk məyusluqdan doğan stress

Artıq yeniyetməlikdən gəncliyə addım atmaqda olan Lətifin həyatında bu uğurdan sonra uğursuz qara zolaq başlayır. Balaca yaşında zirvəyə qədəm qoyan oğlan birdən-birə ordan aşağı yuvarlanmağa başlayır. Nədənsə daha onu filmə çəkmirlər, uşaq rollarını artıq başqa uşaqlar oynayır, onu öz yaşına uyğun rolda heç kim görmür, diqqətdən tamam kənarda qalır.

Növbəti iki film – "Şərqə yol" və "Qızıl kol" zəif alınır. Lətif stressdən ağır xəstələnir. Səhhətiylə əlaqədar ona işləməyi qadağan edirlər. Təhsilinə də fasilə vermək məcburiyyətində qalır. Balaca aktyor ruhi-mənəvi sarsıntı keçirir. Bir-birinin dalınca gələn uğursuzluqlardan aldığı zərbələr xeyli vaxt ona baş qaldırmağa imkan vermir. Zərbə ardınca zərbə gəlir.

Bu vaxt ərzində anası bir nəfərə ərə gedir və qızını da götürüb Bərdəyə köçür. Lətif bir müddət anasının yanında yaşayır. 1935-ci ildə yenidən Bakıya dönür. İş yerinə qayıdır, təhsilini davam etdirir, amma yenə onu filmə çəkmirlər.

Nəhayət, qərar verir ki, çəkilməsə də kinodan ayrılmasın, kamera qarşısında deyil, arxasında olsa da kinoda çalışacaq. Lətif rejissor köməkçisi və assistenti, aktyor kimi yenicə fəaliyyətə başlayan dublyaj şöbəsində "Çapayev", "Lenin oktyabrda", "Biz Kronştatdanıq", "Lenin 1918-ci ildə" və başqa məşhur sovet filmlərinin səsləndirilməsində iştirak edir, böyük məktəb keçir. Azərbaycan kinematoqrafiyasının formalaşmasında və inkişafında əməyi olan insanlarla – Səməd Mərdanov, Rza Təhmasib, Əlisəttar Atakişiyev, Sidqi Ruhulla, Rza Əfqanlı, Mustafa Mərdanov, Ələsgər Ələkbərov və başqalarıyla çiyin-çiyinə çalışmaq ona çox şey öyrədir. Lətif yavaş-yavaş rejissor sənətinə meylləndiyini duyur. 16 yaşında komsomol sıralarına keçdikdən sonra, imtahan verib Gəncə Pedaqoji Texnikumunun qiyabi şöbəsinə qəbul olunsa da, gələcəkdə taleyini müəllimliyə bağlamayacağını bilirdi.

## "Xalq düşməni"nin atasız oğlu

Belə bir vaxtda atası Bəşir repressiya qurbanı olur. Ona əksinqilabçı damğası yapışdırırlar. İndi Lətif atalığını görmədiyi adama görə də zərbələrə dözməli idi, "xalq düşməni"nin oğludur axı.

Bu barədə özü yazmışdı: "...Mən xalq düşməninin oğlu olanda cibimdə pasportum yox idi. Müstəqil həyatımı küçədən başladım. Onda yay kostyumunda idim, cibimdə də 10 qəpik pulum

vardı. Allaha şükür ki, yay idi, hələ gecələr bulvarımız isti, amma skamyalar gündüzkü kimi bərk olurdu...” Atası sürgündən sağ qayıdır. Görüşürlər. Bu təsirli səhnə Lətifin xatirələrindən yan keçməyib: “...Mənə bu yaxınlarda atamı görmək xoşbəxtliyi nəsib oldu. Bədbəxtlikdən o da uzun sürmədi... O, vəfat etdi...”

1939-cu ildə texnikumu fərqlənmə diplomuyla bitirir. Arzusu Moskvada Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində oxumaq idi. 1940-cı ildə göndərişlə Moskvada ali məktəbə qəbul olur. Bundan böyük xoşbəxtlik yox idi onun üçün, nə yazıq ki, bir il sonra müharibə başlayır. Bir gün onu da cəbhəyə aparırlar, amma orduya yaramır, tərxis eləyirlər. Müharibə dövründə heç sevmədiyi işlə məşğul olur-mülki tədris şöbəsində hərbi inspektor kimi çalışmaqla yaşayır.

Qələbədən sonra təhsilini davam etdirmək üçün yenidən Moskvaya yola düşür. Yenidən tələbəlik illərinin sevinci, üstəlik sevgi hissləri onu çuğlayır. Deyəsən, ağ zolağa çıxıb daha. Kurs yoldaşı, sevdiyi Faina Nikolayevna ilə evlənir. Bir oğlu, bir qızı olur.

Diplom işi-“Yeni həyat qurucuları” adlı sənədli filminə görə “əla” qiymət alır.

Qriqori Kozintsevin emalatxanasında təhsilini uğurla bitirib, diplom və müəlliminin verdiyi daşdan keçən xasiyyətnamə ilə vətənə dönür. Xanımı və iki övladı da onunla birgə. Gənc rejissora yaşamaq üçün kinostudiyanın həyətində kiçik bir otaq verirlər.

Gənc, həvəsli, işi ilə xarüqələr yaradacağına inanan rejissor bir-birinin ardınca “Gənc leninçilər”, “Azərbaycan sərhədçiləri”, “Quba bağlarında” sənədli filmləri, “Ordenli Azərbaycan” və “Gənc nəsil” kinojurnalları, Moskvadakı mərkəzi xronika studiyası üçün süjetlər çəkir. İşinə o qədər aludə olur ki, ağ ciyərindəki problemi də unudur, ailəsini də.

O, yaradıcı həmkarlarını bir yaradıcı təşkilatda birləşdirməkdə ikən, xanımı uşaqlarını da götürüb Lətif Səfərovu tərk edir.

Lətif Səfərov da deyəsən, onun yaradıcı həyatına duruş gətirməyən xanımının dığdığından bezmişdi, odur ki, onu saxlamağa

çalışmadı, yalnız uşaqlara atalıq edəcəyinə onu əmin etmək istədi, qadının cavabı isə qəti oldu: “Hər şey bitdi, sən də bizim üçün bitdin, heç nəyini istəmirik”.

Rejissor isə növbəti yaradıcılıq işi üçün, “Hacı Qara” filmini çəkmək üçün çarpışırdı.

İllər bir-birini əvəz edir. Bir gün nəhayət, “Bəxtiyar” bədii filmini çəkir. Sonra daha iki bədii film. Həmin günlərdə çox tanınmış müğənni Şövkət Ələkbərova ilə rastlaşır. Musiqini gözəl bilməsi və sevməsi Şövkəti ona sevdirir.

Xoşbəxt idilər, bir oğul övladları dünyaya gəlmişdi, Lətif ona atasının adını vermişdi – Bəşir.

## “Paraya dəymə, diriyə dəymə” prinsipi

1958-ci ildə Lətif Səfərov əsasını qoyduğu Kino İşçiləri İttifaqının sədri seçilir, Ümumittifaq Kinofestivalının üzvlüyünə də layiq bilinir. İlk baxışdan bunlar yüksəlişdir, deməli həm də ayaqdan çəkənlərin, problem yaradanların da sayı artır.

Zaman gəlir ki, Lətif Səfərov öz yaratdığı Kinemotoqrafçılar İttifaqında arzuolunmaz insana çevrilir. Tələbkardır, peşəkardır, beləsini sevmirlər.

Yeganə ümid yeri Moskvadakı müəllimidir. Tez-tez Q. Kozintsevlə məktublaşır, Bakıdakı mühitdən, problemlərindən söz açır. Bəlkə də, onu intiharının da əsas səbəblərini bu məktublarda tapmaq olar. Müəlliminə mühitin onu hər tərəfdən məngənə kimi sıxdığından söhbət açır. Deyir ki, film çəkməyə imkan vermirlər, tənqidi heç kim qəbul etmir. Düz söz deyənə kino verməməklə “gözünü çıxardırlar”. Üstəlik ətrafdakı yaradıcı insanları sənin əleyhinə çıxardırlar ki, guya sən onlara işləməyə imkan vermirsən. Onların mənafeyi üçün çalışdığın halda onların əli ilə vurulursan və bunu isbat edə bilmirsən.

“Leyli və Məcnun” filminin çəkilişləri onun əsəbləri bahasına başa gəlir. “Onu çəkmə, bunu çək”, “belə çəkmə, elə çək”, “bu

sözü çıxart, bu sözü daxil elə" ilə rejissor necə film çəkə bilərdisə elə də çəkmişdi. Ancaq Mərkəzi Komitə onların özlərinin "paraya dəymə, diriyə dəymə" prinsipi ilə ərsəyə gətirdiyi filmə görə Lətifə töhmət verdilər – şifahi, kollektiv içində.

Və qəribə bir tendensiya yaradılır, axı o kino ittifaqa rəhbərlik edir, xoşagəlməz nə varsa günahkarı da odur.

SSRİ Kinemotoqrafçılar İttifaqının qurultayına da belə namizədi göndərmək olmaz. Yaradıcı insanın əlində isə çəkəcəyi filmin ssenarisi var. Gəl bu qədər təzyiqlə çək bu filmi. Sonra da ittifaqın sədrliyindən uzaqlaşdırılması daha bir zərbə olur ona. Üstəlik də get-gedə güclənən xəstəlik, qızdırma, ölüm-dirim mübarizəsi.

Onu incidən itirdiyi vəzifə deyil, bir vaxt həmkar saydığı, böhtan atan, karyeraya həris adamların xəyanətkarlığıdı. Baş mühasib Poqosovanın qəfil məktubu yaxın keçmişəcən sədr işləyən rejissorun ittifaqdan borc, ezamiyyə və kredit məqsədiylə götürdüyü 873,15 manat pulun qısa vaxtda qaytarılmasının vacibliyi haqdaydı.

Bakıdakı yaxınlarından borc almağa utanan Lətif Bərdəyə yollanır. Bacı onu vəziyyətdən çıxmağa kömək edir, ondan götürdüyü pulla ittifaqdan canını qurtarır.

Həsən Seyidbəylinin "Möcüzələr adası" ssenarisi təklif olunur, götürür. Üzərində işləyib düzəldəcəyinə ümid edir. Tam çəkilişə başlama ərəfəsində operator Rasim Ocaqov çəkilişdən imtina edir.

Lətif davam etməyə çalışır. Amma daha gücü, taqəti qalmır. Xəstəlik canını yeyir, yaşamaq əzaba, işgəncəyə çevrilir.

Dekabrdır, hava da insanlar kimi soyuyub. Lətif Səfərov hamıdan gizli bir qərar verib. Həmkarı ilə öz evində yaradıcılıq planları qurur, ssenari üzərində işləyirlər, guya sabah işə başlayacaqlar. Onu yola salır, hamama girib yuyunur. Sonra bir-bir yataq otaqlarını gəzib xanımı Şövkətlə, oğlu Bəşirlə vidalaşır, xəyalən onlardan üzr istəyir. Gecə saat ikini keçir. Son ssenarisini vərəqləyir, "Azərbaycan möcüzəsi" çəkəcəkdi. Vərəqlədikcə son olaylar gəlib

vərəqlərə tökülür, elə bil həyatını vərəqləyir. Atasızlıq, anasızlıq, yad şəhər, ulduz həyatı və unudulmaq. Sonra dişinlə-dırnağınla azacıq qazanılmış uğur və ardınca yenə uğursuzluqlar. Üzünə gülüb arxadan zərbə vuranlar, ayaq altı qazanlar, sənin istedadını, bacarığını özünə təhlükə kimi görənlər. Maddi imkansızlıq, borclar. Bir tərəfdə də ailə, uşaq qayğıları. Məşhur xanımın əri olmaq da asan deyil. Xəstəlik isə boğaza dirənib. Ov tüfəngini sinəsinə dirəyib tətiyi çəkir.

Son anda gözləri qarşısında Şuşa və onun dar dolanbacları ilə qaçan, filmə çəkildiyi üçün ayağı yerə dəymədən qanadlanıb göylərə qalxan yeddi yaşlı oğlan canlanır. Gözlərində bu görüntü filmin son kadrı kimi qalır və göz qapaqları qapanır. Ondan sonra nə olacaq, daha nə onun özünə, nə də başqa kimsəyə maraqlı idi. Altı yaşlı oğlu, xanımı, güllə səsini eşidib tökülüşən qonşular nə deyəcək, kim necə olacaq, onun eyninə belə deyildi. Zatən, bütün bu yüklərdən özünü bir ov tüfənginin atəşi ilə xilas etmişdi.

*P.S. Bu yazıda Nəriman Əbdülrəhmanlı və Aydın Kazımzadənin kitablarından, Dövlət Film Fondundan bəhrələndiyim üçün onlara təşəkkür.*



# Gecələdiyi avtobusda ölüsü tapılan aktyor

Azərbaycan kinosunda çox maraqlı bir aktyor olub – Kamil Məhərrəmov. İkicə rolunun adını çəkmək kifayətdir ki, tamaşaçısı onu xatırlasın: "Yol əhvalatı" filmindəki Paşa, "Evlənmək istəyirəm"də Şamilin tapıb gətirdiyi tütək çalan-yetim Hüseyn. "Azərbaycanfilm"də bu iki film də daxil olmaqla 46 bədii filmə çəkilib. Üstəgəl "Mozalan" süjetləri. Bir kadr hamıya yaxşı tanışdır – Kamil Məhərrəmov uzunqulağın belində, radio qucağında xarici musiqi dinləyə-dinləyə gedir.

Bu aktyor epizodik və xarakterik obrazlar qəhrəmanı olub. Bizim kinomuzda belə xarakterik aktyorlar azdır - Fazil Salayev, Məmmədsadıq Nuriyev, Ağahüseyn Cavadov. Kamil Məhərrəmov da həmin məktəbin yetirməsidir. Xırda, amma xarakterik obrazlar oynayıb. Heç bir fəxri ad ona yaxın gəlməyib, çox da məşhurlaşmayıb, amma istedadı göz qabağındadır. Baş rolları oynamağı hər bir aktyor bacarır, tanınır, sevilir. Həm də istədiyi hər şeyi əldə edir - fəxri adlar, ev, maşın, bağ... Ən çətini xırda həcmli obrazla xarakter ortaya qoya bilməkdir. Bax bu, hər aktyora qismət olmur. Yalnız xüsusi istedadın olmalıdır ki, sözün deyə bilmədiyini mimikalarla, ifanla deyə biləsən. Nə yazıq ki, o, kasıblıqla, diqqətsizliklə, depressiya ilə "dost " olur. Faciəvi şəkildə dünyasını dəyişir.

## Uşaqlığı

Şamaxıda sadə ailənin üç uşağından biri idi Kamil. İki qardaş, bir bacı idilər. Hər üçü məktəbdə yaxşı oxuyur, məktəbdən sonra təsərrüfatda ata-analarına yardım edirdilər. Birgə əmək sərf etməsəydilər, onsuz da asan olmayan dolanışıq bir az da çətinləşərdi. Ata dərzi işləyirdi, yaxşı da dərzi idi. Ancaq onların qazancı

gözlərini açandan xəstə yatağında gördükləri analarının müalicəsinə gedirdi. Bu səbəbdən də Kamil hələ balaca ikən ailə Bakıya köçür. Köçür ki, həkimin, xəstəxananın bolluğunda ananın xəstəliyinə bir əlac tapılsın.

Bakıda böyüyür, yeniyetməlik yaşına çatır. Uşaqlıqdan sevdiyi işlə məşğul olmaq üçün Lütfi Məmmədbəyovun teatr dərnəyinə yazılır. Hər gün dərsdən çıxıb dərnəyə gedir, özü oynamadığı tamaşaların məşqlərinə belə baxırdı. Bu uşağın hədsiz marağı Lütfi Məmmədbəyovun diqqətini çəkmiş, onun istedadlı olduğunu hiss etmişdi. Məsləhət görmüşdü ki, hökmən aktyor olsun. Kamil isə ailəsinə kömək etmək üçün tezliklə bir sənətə yiyələnib işləmək istəyirdi. Odur ki, Energetika texnikumuna qəbul olunmuşdu, amma aktyor olmaq, kinoya çəkilmək istəyi səngimirdi.

Axır ki, sənədlərini hazırlayıb o vaxtkı İncəsənət İnstitutuna verir. İmtahanlarından uğurla keçir və qəbul olunur. Ailədə bu sənətlə məşğul olan bir kimsə yox idi. Qardaşı neft sahəsi üzrə elmlər namizədi oldu, bacısı isə tibb bacısı idi.

**İlk sevgi**

Kamil Məhərrəmov institutu bitirən il Sumqayıtda teatr fəaliyyətə başlayır. Onları bütün heyətlə Sumqayıt teatrına göndərirlər. Bundan sonranı xanımı danışacaq. Mahirə xanım müəllimədir. Kamil Məhərrəmovla isə hələ uşaqkən tanış olub:

“O, böyük idi, mən uşaq, 11-ci sinifdə oxuyurdum. Bakıda onların evlərinin pəncərəsi bizim məktəbin həyətinə baxırdı. Hər gün zəng vurulan kimi bir də görürdüm Kamil durub qarşımda. O qədər şən, gözəl insan idi ki, tez vuruldum ona, həm də gözüm-könlüm alışdı. Evləndik, onları Sumqayıta göndərəndə çox sevindim. Əvvəla ona görə ki, Sumqayıt sakit şəhər idi, getdik gəzdik, dənizkənarı bulvarı da çox xoşumuza gəldi. Həm də düşündüm ki, Bakıdakı “kruqundan” uzaqlaşdıraram onu. Bakıda oturub-durduğu insanlar onu içkiyə alışdırmışdılar, hər gün içirdi

onlarla. Sumqayıta gedən kollektiv yaxşı idi, mən də onlarla dostlaşmışdım".

Teatrda Kamil Məhərrəmovun yaxşı rolları vardı, artıq kinoya da çəkilirdi. İki övladı vardı. Tezliklə onlara Sumqayıtda ev də verdilər. Amma nədənsə Kamil Məhərrəmov aludə olduğu içkidən ayrıla bilmirdi. Xanımı danışır ki, nə vaxt onu ayrılmaqla qorxudurdum, bir həftə içmirdi, sonra yenidən başlayırdı.

## Kino və teatr taleyi

Rejissor Cahangir Mehdiyevin iki filmində xarakterik obrazlar yaradıb. Cahangir Mehdiyev deyir ki, çox gözəl aktyor idi, amma içməyinin dərdindən oynamalı olduğu rollar əlindən çıxırdı: "Mən onu çəkilişlərdən əvvəl bir neçə dəfə qaçmağa məcbur etmişəm ki, ayılsın, qaçıb, ləhləyə-ləhləyə üzümə baxıb, görmüşəm ki, özünə gəlib, kadrı çəkmişəm".

Kinostudiyada hər gün çəkilişdə, dublyajda olurdu. Orda aldığını elə yerindəcə içkiyə verib "dostları" ilə bir küncə çəkilir, içir, sonra da rejissorun qəzəbinə tuş gəlib qovulurdu. Bu vaxta qədər xəstə ana da dünyasını dəyişmişdi, atası da. Qardaşı ilə bacısı isə onu nə qədər dilə tuturdularsa xeyri olmurdu.

Mahirə xanım deyir: "Etiraf edim ki, bəzən qapını üzünə açmırdım ki, bəlkə bundan bir dərs götürə, özünə gələ, ata içkini. Heç nəyin xeyri olmadı. Qapını ona açmayıb səhərə qədər yatağımda ağladığım vaxtlar olub".

Teatrda da rejissorlar artıq ona rol vermək istəmirdilər. Bəzən premyeraya içkili gəlib tamaşanı məhv eləyirdi. Aktyor həmkarları deyirlər ki, birdən üz-gözünü təraş edirdi, yuyunurdu, ayıq başla gəlirdi işinin başına. Həmkarları deyirmişlər ki, həmişə belə olsan nə olar. Heç nə demirmiş. Səhər görürdün yenə dağılıb tökülür.

Xanımı deyir ki, diqqətsizlik də ona yer eləyirdi: "Onunla birgə Sumqayıt teatrına gələnlərin hamısı fəxri ad almışdılar, ona vermirdilər. Kinoya da çəkilirdi, qonorarından razı qalmırdı ".

**Acı sonluq**

Bir gün yenə o qədər içir ki, ayaq üstdə dura bilmir. Səhər evdən çıxanda da xanımı "ona içsən, evə gəlmə", - deyibmiş.

1993-cü ilin soyuq oktyabrı idi. Teatrın avtobusu hamını evinə düşürüb, Kamil Məhərrəmov avtobusda necə yuxuya gedibsə, sürücü onu oyada bilməyib, bəlkə də qəsdən oyanmayıb. Sürücü də avtobusun qapısını da açıq qoyub çıxır gedir evinə ki nə vaxt oyansa çıxa bilsin. Səhər gəlib görürlər ki, üzü üstə necə yatmışdısa, elə də oturacaqda quruyub qalıb.

"Onun tay-tuşları hamısı yaşayır. Nə etdisə özünə etdi. Uşaqlar da yerbəyer oldu, vaxtsız gedən Kamil oldu. Çox sevirdim onu, bu gün həyatım təkrar olunsa, yenə o adamla ailə qurar, bu qədər zülmə rəğmən yenə ona ərə gedərdim", – xanımı belə deyir.



# Zalımoğlunun faciəli taleyi

Həyat çox qısadır - bir göz qırpımı qədər. Bizə müvəqqəti bəxş olunan və nə vaxt bitdiyini bilmədiyimiz qısa zaman kəsiyində gərək heç nəyin aludəçisinə çevrilməyək. Nəyəsə aludə olmaq o zamanı daha da qısa edə bilər. Ələsgər İbrahimovun həyatı kimi. 1942-ci ildə doğuldu, cəmi 37 il yaşadı. Bu 37 ilə ali məktəbi bitirmək, bir neçə filmə çəkilməklə yaddaşlarda qalmaq ancaq sığdı. Bəs görəsən, belə qısa zaman kəsiyinə bu adam necə həm də boş, mənasız məşğuliyyətlər yerləşdirə bilib? Həm də bu alışqanlıq onun ömrünü qısaldan amil olub. Bəlkə bilsəydi, ömrü çox qısadır belə yaşamazdı?! Anlasaydı ki, özü öz əli ilə qəbrini qazır, həyat tərzini dəyişərdimi? Bəlkə də yox, kim bilir.

İçəri Şəhərdə bir ailə yaşayırdı. Ata fəhlə, ana evdar qadın. Ailədə iki oğlan böyüyürdü. Böyük Vətən Müharibəsinin adamın axırına çıxan gərgin illəri idi. Yarıac, yarıtox ömür sürürdülər. Ata bütün günü gərgin əməklə məşğul olurdu, o vaxt evdarlığı unudan bütün qadınlar kimi bu ana da zavoda, dəmir-dümürlə işləməyə gedirdi. Bu həm ailənin dolanışığı, həm də Vətən üçün lazım idi.

Bu minvalla uşaqlar orta məktəbi bitirdilər. Ata gərgin əmək sayəsində əlillik statusu "qazanmışdı". Ana işləyirdi, amma onun qazancı ailəni dolandırmağa çatmırdı.

Ələsgər indiki Neft Akademiyasını bitirmişdi. Döymədiyi qapı qalmamışdı, çətin vaxtlar idi, iş tapa bilmirdi.

İçəri Şəhərdə kinorejissor Arif Babayevlə qonşu idilər. Rejissor çoxdan bu qəddi-qamətli, yaraşıqlı oğlanın varlığını sezmişdi. Onun damda quş uçurtması rejissorun xoşuna gəlməsə də Ələsgərin kino üçün yarandığına əmin idi. Onu bir gün kinoya çəkəcəyini özü üçün qət etmişdi.

## Quşbaz aktyor, qırılan sevgi

Bir gün fikrində çəkəcəyi kinoya aktyor seçimi edə-edə evə gələn Arif Babayev damda yenə Ələsgəri quş uçuran görür. Öz-özünə düşünür ki, ilahi, necə də Yan Mareyə oxşayır, bu niyə quş uçurtmaqla məşğul olur axı?

Bu barədə sonralar onun özünə danışacaqdı, Ələsgər də həmin hadisəni öz müsahibələrində qeyd edəcək, hələlik isə ona doğru atılan ilk addımdan söhbət gedir. Arif Babayev onu aşağı, yanına çağırır.

- Sən niyə bir sanballı işlə məşğul olmursan? Özü də ailənin ehtiyacı var.

- İş olsaydı, məşğul olardım.

- Neft mühəndisi iş tapmır?

- ....

- Gəl kinostudiyaya danışarıq.

Rejissor cavab gözləmədən aralaşır.

Ələsgər İbrahimov səhər möcüzələrin yarandığı yer zənn etdiyi "Azərbaycanfilm" kinostudiyasına gəlir. Arif Babayevin təklifi ilə onu kinostudiyaya mühəndis kimi işə götürürlər.

Çox keçmir ki, rejissor onu çəkəcəyi filmə dəvət edir. Arif Babayevin "İnsan məskən salır" filmində Ramiz obrazı Ələsgər İbrahimovun kinoda debütü olur. İllər keçir, Ələsgər İbrahimov kinoya çəkilməklə, kino sexində mühəndis işləməklə yanaşı quşbazlığından da geri qalmır. Əksinə, bu sahədə bir az da irəli gedib, kinostudiyanın damında da göyərçin saxlayır.

Kinostudiyanın o vaxtkı direktoru Adil İsgəndərov onu kinoda görüb bəyənmişdi. Onu axşamlar açdığı kino aktyoru kursuna dəvət etmiş, bu yaraşıqlı oğlanın yaxşı aktyor olacağını demişdi. Ona görə də onun göyərçin saxlamasının əleyhinə çıxan yox idi. Nə yazıq ki Ələsgər İbrahimovun aludəçiliyi yalnız quşbazlıq deyildi. O, hər gün içirdi. İçir, evdə də, işdə də dama çıxır göyərçinlərini yemləyir, onlara o qədər istilik, sevgi göstərirdi ki, bunu ondan heç bir insan görməmişdi.

Görməmişdi dedim, amma...

Onun sevdiyi bir qız da vardı. Birlikdə kinostudiyadan çıxır, qol-boyun dənizkənarına gedərdilər, bulvara yox, dənizin elə bir yerinə gedərdilər ki, orda bir onlar, bir də dəniz olurdu.

Qız xahiş edirdi ki, içkidən əl çəksin.

"Xoşbəxtliyimizə maneə olacaq sənin bu ziyanlı vərdişin "-deyirdi. Ələsgər hər dəfə susur, siqaretə qullab vurub mövzunu dəyişməyə çalışırdı. İllər keçdikcə qızın səbri tükənir, Ələsgər isə nə zərərli vərdişindən əl çəkir, nə də evlənmək barədə bir söz deyirdi. Sevginin də insan həyatı kimi dövrləri var, elə bir dövr yetişir ki, sevgi telləri ailə bağlılığına çevrilməlidir, ya da... qırılmağa məhkumdur.

Ələsgərin 37 yaşı olanda sevdiyi qız da artıq gənclik yaşına əlvida demək dövrünə gəlib çıxır. Səssiz-səmirsiz onu köksünə sıxan oğlana "mənə elçi gəlir, verirlər məni",-deyə bilmir, abrına sığınır.

Başını qaldırıb üzünü onun üzünə söykəyir, göz yaşları Ələsgərin içkinin təsirindən od tutub yanan yanaqlarına süzülür. Bəlkə o qız bu cür onu məsələdən hali etmək istəyirmiş ki, bəlkə sevgilisi ondan niyə ağladığını soruşa... Soruşmur, çox qəribədir ki, iki ay sonra sevdiyi qızın barmağında nişan üzüyü görəndə də heç nə olmayıbmış kimi hərəkət edir. Susur...susur.

İnsan nə qədər içinə qapanar, insan nə qədər susa bilər və partlamaz. Qız ailə qurur, eyni vaxtda kinostudiyanın üstündəki göyərçin hinini dağıdırlar. Qonşular şikayət edir, məsələ məhkəməyə qədər gedib çıxır, ona görə rəhbərlik quşxananın dağıdılmasına qərar verir.

## Müəmma dolu həyatın sonu

Ona qədər Ələsgər İbrahimov "Bizi dağlarda axtarın", "Dvorjakın melodiyası" , "Ömrün ilk saatı", "Qaraca qız", "Torpaq, Dəniz, Od, Səma", "Yeddi oğul istərəm" filmlərinə çəkilmişdi

... Və artıq çox tanınan, sevilən aktyor idi. Kinostudiyada ona Yan Mare, küçədə isə Alen Delon deyirdilər.

Onu daha çox kinoda sevdirən yeddi oğuldan biri-Zalımoğlu olması idi.

Bu obrazda aktyor hardasa öz xarakteri ilə baş-başa qalır. Qaradinməz, içinə qapılan. Yalnız at çapmaq məsələsində çətinliklə üzləşir. İçəri Şəhər balası harda görüb at çapmağı. Çəkilişlərdə at belində onun yerinə dublyor çəkilir və məsələ belə həll olunur.

Ələsgər İbrahimov mərd adam idi, tikəsini dostla, yoldaşla bölərmiş. Kimsəyə qüruruna toxunmağa icazə verməzmiş. Quş damının uçurdulmasını heç cür uda bilmirdi. Buna görə kinostudiyada bəzilərinin çənəsini də sındırmaqdan çəkinməyib.

Yersiz zarafatı da götürməzmiş, bir sözlə həyatda da elə kinolardakı obrazlarındakı kimi ciddi adam olub. Heç kim heç vaxt bilməyib ki, Ələsgər niyə bu qədər içinə qapanır, niyə sevdiyi qıza sahib çıxmadı, niyə çox içir? Niyə? Niyə? İndiyə qədər də bu niyələr onu müşayiət edir.

Yazını hazırlamaq üçün söhbət etməyə onun bir doğma adamını tapmadıq. Axı, tərcümeyi-halına görə bir qardaşı olmalı idi, sağdır, yoxsa...? Bilmədik.

Onun ölümü barədə də yadlar, uzaqdan-yaxından tanıyanlar danışdı.

Sevdiyi qızı və göyərçinlərini itirəndən sonra Ələsgər daha çox özünə qapanır və araq butulkasına daha çox bağlanır. Saatlarla mənzilindən çıxmır, bəzən günlərlə onu axtarıb bağlı qapı arxasında boş araq butulkalarının arasında yatmış vəziyyətdə tapırlar. Belə həyat nəhayət ki öz sonluğuna qovuşur. Çox ağır, sağalmaz xəstəliyə düçar olur, el arasında deyildiyi kimi pis xəstəliyə.

Belə adamın ətrafında dost-tanış qalmır adətən. Ələsgər İbrahimov da həyatla tənhalıqda vidalaşmalı olur. Onunla yaxın olduğu deyilən kəslərdən soruşduq, nə kimsə onun dəfnində iştirak edib, nə də harda dəfn olunduğunu bilən var.

Heç yas mərasimi keçirən də olmayıb. Bircə ölümü barədə eşidəndən sonra onun məzarı üstünə həmin qız gedirmiş, sevdiyi

qız. Gizlincə, səssicə, çiçək qoyub ağlayıb, dərdləşib, ürəyini boşaldarmış. İndi o da kimliyini bildirmək istəmir. Bildik kimliyini, amma biz də bildirmədik, çünki o xanım indi xalq artisti, bəstəkardır, həm də artıq nənədir.

Zalımoğlunun məzarı bütün kimsəsiz məzarların aqibətini yaşayıb, torpağa hopub, yoxa çıxıb. Bəlkə də o yerdə yalnız göyərçinlər uçuşur indi.

2007-ci ildə yeddi oğuldan biri Ənvər Həsənov öz həmkarı haqda "Yeddi oğuldan biri" adlı film çəkib. Həmin film də nümayişə yararlı deyil. Taleyə bax...



# Ölüm ayağında ona xəyanət etmiş ərini arzuladı

## Epiloq

Çiskinli oktyabr günündə, köhnə Bakı kəndi Buzovnada bir qız dünyaya gəlir. Gəlişi ilə bəlkə də heç kimə sevinc bəxş etmədən, arzu olunmadan. Bəlkə də o vaxt bu ailə sevinc nə olduğunu unutmuşdu, yoxsa ailədə ondan başqa iki qız övladı olsa belə, bu qızın gəlişinə də sevinərdilər. Bəlkə də sevindilər ki, nə yaxşı dünyaya oğul gətirmədik, o da ailənin yaxın dostu, bu qızın doğmaca dayısı Ruhulla Axundov kimi "xalq düşməni" damğası ilə həbs edilib ilim-ilim itirilərdi.

Ailənin böyüyü, bu qızın atası sənət adamı idi, Haşım bəy Saqib. Qızcığazın uşaqlığı səksəkə ilə, meşin çəkmələrin səsi onların kandarında bir də eşidilər deyə, qorxu ilə keçdi. Bir də gördü ki, Baki Teatr Texnikomunun tələbəsidir, üstəlik, ilk uğurları da var. Müəllimәsi Fatma Qədri onun oynadığı obrazlara qürurla baxıb dodaqaltı gülümsəyirdi.

Təhsilini başa vuran gənc aktrisa öz arzusu ilə Gəncə Teatrına işləməyə gedir. Bu taleyin diktəsi idimi, yoxsa zərurətdən doğan təsadüfmü? Kim bilir... Bəlli olan odur ki, sənət taleyi ilə bahəm şəxsi həyatı da Gəncə torpağindan pöhrələndi. Gəncə səhnəsi hələ belə gözəl görməmişdi, hündür, şux qamətli, iri ala gözləri və çox cazibədar təbəssümü var. Çox keçmədi, Azərbaycan teatr sənətinə bu gözəlliklə yanaşı, həm də istedadlı bir aktrısanın gəlişi bəlli oldu - Nəcibə Məlikovanın.

## Teatrın Edilyası

Bir-birinin ardınca yaratdığı obrazlar dildən-dilə düşür. "Yaşar"da oynadığı Yaqut obrazı isə onun Gəncə teatrında ən böyük uğuru hesab olunur.

Qədim, gözəl Gəncədə keçmiş xanların nəslindən olan bir ailə yaşayırdı. Ailənin qadını, xan qızı Xanım övlad həsrətindədir, Tanrı vermir. Bir gecə Xanıma yuxuda deyirlər ki, ailə qurmağının 12-ci ilində bircə övladın olacaq, amma cəmi 30 yaş yaşayacaq. Elə də olur, 12 ildən sonra Allah ona bir oğul bəxş edir. Bu oğlan Gəncədə bir məktəbdə oxuduğu, sevdiyi, sonra Tiflisdə dəmir yol institutunda da birgə təhsil aldığı qızla elə orda 18-20 yaşlarında tələbə ikən evlənir, bir övladları olur. Sonra tale elə gətirir ki, bu cütlük tez də ayrılır.

Gəncədə bu oğlanın qulağına çatır ki, teatra bir aktrisa gəlib, gözəlliyinə hamı heyran qalıb, üstəlik, ətrafında pərvanə olanların birinə belə gözünün ucu ilə də baxmır. Həmin gündən qəhrəmanımız axşam tamaşalarına getməyə başlayır. Nəcibə xanıma da deyirlər ki, bütün gəncə qızlarının ürəyinin dağı olan bu oğlan olsa-olsa sənə görə gəlir buralara. Nəcibə xanım əvvəl etinasızcasına çiynini çəkir, amma pərdə arxasından təsadüfən baxışlarının sataşdığı oğlanın həminki olduğunu biləndə özünə də səbəbi bəlli olmayan bir sevinc dolur içinə. Çox keçmir yenilməz aktrisa hər tamaşadan əvvəl pərdə arxasından o oğlana baxıb sonra səhnəyə çıxır.

Bir gün oğlan tamaşaya gəlmir. Həmin gün gənc aktrisa içindəki təlatümü rəfiqələrindən gizlədə bilmir. Tamaşa başa çatar-çatmaz sabahkı günün həsrəti ilə yaşamağa başlayır. Beləcə, bir məhəbbət tarixçəsi də onun sənət tarixçəsi ilə birgə yazılır. Evlənirlər. Həyatının belə bir dönəmində gənc aktrisa həm də Bakıda təzəcə açılmış Teatr İnstituna qəbul olunur. Burda Ədil İsgəndərovdan, Rza Təhmasibdən sənət dərsləri alır, həyat isə tamam fərqli dərs verir. Birincinin dərsini mənimsəməməklə sənətini dəyişməli olursansa, ikincinin dərsini bilmədinsə...

Nəcibə sənət dərsini gözəl mənimsəyir, ali təhsil alır, Milli Dram Teatrında işləməyə başlayır. Hüseyn Cavidin "Şeyx Sənan" tamaşasında Xumar, "Səyavuş"da Firəngiz, Cəfər Cabbarlının "Aydın"ında Böyükxanım, "Sevil"də Edilya kimi fərqli, mürəkkəb xarakterli obrazlar yaradır. Komediya janrı da Nəcibə Məlikovanin sənət taleyində bir xətt kimi keçir. "Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasında Yasəmən, Şıxəli Qurbanovun "Əcəb işə düşdük" pyesində Məlahət, M.F.Axundzadənin "Lənkəran xanının vəziri"ndə Şölə kimi obrazlara imza atıb.

Bu minvalla sənət həyatı öz axarı ilə gedir. Bəxti gətirib. Ədil İsgəndərov, Rza Təhmasib kimi ustadları indi həm də ona bütün istedadını ortaya çıxaran rollar verirlər.

## Kinonun "Ögey ana"sı

Həyat yoldaşı da onu, sənətini sevir, artıq iki oğul övladları var, biri yoldaşının ilk nigahından, biri isə Nəcibə xanımla olan sevgisinin nübarı. Nəcibə xanım oğluna atasının adını verir – Saqib. Onun ilk nikahından olan oğlu, Nəcibə xanımın oğulluğu əvvəlcə atasını bu qadınla görməyi qəbul edə bilmir. Sonra...

Fuad Əsədovun özü indi 70 yaşlarında nurani bir ağsaqqaldır, o vaxt isə 11 yaşı varmiş: "Məni Gəncədə nənəmlə-babam saxlayıb böyüdüblər. Nəcibə xanımı tanıyanda ağlı kəsən uşaq idim, onu ana kimi qəbul edə bilmədim, amma inanın səmimiyyətimə, sonralar əsl ana sevgisini onda gördüm və mən də özümdə onu hiss etdim. Saqiblə aramızda ögeylik olmadı, bu onun qoyduğu özül idi. Hər işdə deyirdi ki, Saqib, sənin böyük qardaşın var. Özü ilə hər yerə məni aparardı, Saqibə deyirdi, gələn dəfə səni apararam".

Fuad Əsədovun xanımı da bu yerdə söhbətə qoşulur: "Çox gözəl qadın olmasından iki qat artıq gözəl insan idi, yaxşı, ana, qayınana olması da, yaxşı insan olmasından qaynaqlanırdı. Bizimlə olmurdu, bizə hər gəlişində mənə bir brilliant komplekt gətirərdi.

Qızım dünyaya gələndən sonra o, hədiyyələri qızıma gətirməyə başladı. Məsələ onda deyildi ki, bizə qiymətli hədiyyələr verərdi, ona görə sevirdik onu, yox, sadəcə, hər diqqətini, qayğısını gördüyümüz üçün necə sağlığında özü, elə də xatirəsi əzizdir bizim üçün".

Hər qaynana haqqında belə yanğı, belə sevgi ilə danışılmır. Aktrisanın öz qayınanası – iddialı xan qızı gəlininin aktrisa olmasını həzm edə bilmirdi. Həyat hər addımda təzadlarla doludur. Bəlkə bu da həyatın təzadıdır ki, Nəcibə xanım özü qayınana sarıdan çox əziyyətlər çəkib. O qədər çəkib və dözüb ki, bir gün onlara qonaq gələn Ədil İsgəndərov dözməyib və Nəcibə xanım kimi "Ögey ana"nı elə öz obrazında, qayınanası və həyatı ilə bahəm kino ekranlarına gətirib. Evdən çıxarkən deyib ki, Xanım xala, səndən kino çəkəcəm. Bir gün isə Nəcibə Məlikovaya ssenarini oxuması üçün verib. Aktrisalığı bir yana, bir mərd, ağayana azərbaycanlı xanım olan Nəcibə özü ssenaridə bəzi dəyişikliklər edir. Onun həyat yoldaşı həqiqətən də yol mühəndisidir, amma dövlət təhlükəsizliyi orqanlarında çalışıb. İsmayıl oğulluğu Fuaddır, filmdə Cəmilə kimi verilən Saqibin obrazıdır. Bu cür xırda dəyişikliklər, görünür, tamaşaçını əsl həqiqətdən yayındırmağa xidmət edib. Nəcibə xanım isə Dilarə rolunda özünü oynayıb. Bu təbiilik illər keçməsinə rəğmən filmi hələ də sevdirir.

## 29 yaşında dul qaldı

Həyatı davam edirdi, kənardan hamının həsəd apara biləcəyi, daxildə isə bir qadın xoşbəxtliyinə möhtac həyat. Gözəl, şahanə, namuslu, bacarıqlı, şöhrətli və eyni zamanda olduqca sadə. Ailəsi üçün canından keçməyə hazır, çox dadlı yeməklər bişirən və ərinin qulluğunda durmaqdan zövq alan xanım. Sədaqəti barədə isə rol üçün etdiyi təklifə görə Nəcibə xanımın silləsi üzündə iz qoyan rejissor özü bəhs edərmiş. Belə qadına hansı kişi xəyanət edər? Ondan necə imtina etmək olar!?

Fuadla, Saqibin ataları Nüsrəddin həm vəzifə adamı, həm də hədsiz yaraşıqlı bir kişi olub. İddialı qadınlar beləsini ələ keçirmək üçün fürsəti fövtə verməz. Həyatında çox qadınlar olub, birinci xanımı da ondan buna görə ayrılıbmış. Nəcibə xanımla ailə qurandan sonra da o, bu vərdişindən əl çəkməyib. Nəcibə xanım isə hər dəfə bu barədə eşidəndə "O, heç kimin arxasınca düşmür, onun arxasınca düşürlər", – deyirmiş.

Deyirmiş, amma bu qürurlu qadın hər gün içində sındığını, xırdalandığını hiss edirmiş. Ailəni saxlamaq üçün qayınanaya dözmək çox asandır, qürurunun tapdanmasına necə dözəsən... Yenə dözdü, o vaxta qədər ki, ailə başçısı bir gün başqası ilə evləndiyini bəyan etdi. Nəcibə xanım səssizcə oğlunu da götürüb çıxıb getdi, amma böyük oğul dediyi oğulluğundan da ayrılmadı. Çox keçmədi Nüsrəddin 30 yaşında faciəli surətdə dünyasını dəyişdi. Ailənin məsuliyyətini təkbaşına zərif çiyinlərində daşıyan Nəcibə Məlikova 29 yaşında dul qaldı, amma bir daha kimsəyə könül vermədi, yeni ailə qurmadı.

Bütün sevgisini Fuadla Saqibə, bir də hələ uğurları qabaqda olan sənətinə verdi.

Həmkarı, xalq artisti Yaşar Nuri: "O dövrün bütün uşaqları kimi mən də İsmayıl və Dilarəni həyatda görüb tanımaq arzusunda idim. Tale elə gətirdi hər ikisi ilə həyatda dostlaşdıq. Nəcibə xanımla bir səhnəni bölüşdük, tərəf müqabili olduq. Bir dəfə söhbət əsnasında dedim ki, Buzovnanı görməmişəm. Məşqdən çıxdıq, məni oturtdu maşına birbaş Buzovnaya, "Yekə kişidir, hələ Buzovnanı görməyib", - dedi. Çox gözəl qadın, gözəl insan, əvəzsiz aktrisa idi".

Firəngiz Mütəllimova: "Anamız, sirdaşımız, rəfiqəmiz idi. Onun yanında kimsə gənc aktrisalara nə isə deyə bilməzdi. Bizi müdafiyəyə qalxardı. Əslində, bizi qorumaq üçün həmişə bizimlə olardı, amma ona belə bir don geyindirirdi ki, guya bizimlə gəncləşmək istəyir".

Teatrda qazandığı uğurlar çox keçmədi kinoda onu izləməyə başladı. Dilarə onun kino yaradıcılığının şah obrazıdır. Bəs, "Arşın

mal alan"da bəyzadə Cahan, "Əhməd haradadır?"da qoçaq Nərgiz, "Leyli və Məcnun"da şahanə duruşu ilə "Qızsan, ucuz olma, qədrini bil", – deyən ana.. Yüksək əxlaq nümunəsi, xeyirxah insan, cazibədar qadın.. bunların hamısı Nəcibə xanımın özünə xas olan xüsusiyyətlərdir.

Tərəf müqabili Elxan Qasımov: "Əhməd haradadır?" filmində bir rəqs səhnəmiz vardı, rəqs müəllimi gəlib çıxmadı, özümüz oynamalı olduq. Çox gözəl rəqs etməyi vardı, "Əhməd hardadır?" filmində də rəqs səhnəsinə məşqsiz çəkilmişdi. O qədər oynadıq ki, çəkiliş qrupu işini qurtarıb bizi gözləyirdi. Maşını qaçırdığı səhnədə isə həqiqətən də saxlaya bilmirdi, mən çatdırıb əyləci basmışdım və Nəcibə xanımın ayağını da möhkəm tapdamışdım, çəkiliş pozulmasın deyə səsini çıxartmamışdı. Çox amiranə qadın idi, əsl ana idi, həyatda da, kinoda da. Ədil İskəndərov onu bütün səpgili obrazlara çəkmişdi. "Qanun naminə"də Zərrintac hara, Nərgiz xala hara?! Yaxşı nərd oynayardı, bir dəfə kinostudiyada nərddə hamını udan bir kişi xeylağına qələbə çaldı. Hamı yığışıb oyuna baxırdı, işıqçı Əliqulu nərdin daşını o atan atdı".

Azərbaycan teatr və kino sənətinə adını əbədi yazdı Nəcibə Məlikova. Ömrünün sonuna qədər Dram Teatrında və "Azərbaycanfilm" kinostudiyasında çalışdı. SSRİ xalq artisti fəxri adına qədər çatdı. Hindistanda qastrol zamanı ağacdan üstünə qəfil atılan meymundan qorxduğundan şəkər xəstəliyinə tutuldu. Həmin bəla da onu 70 yaşında apardı. Ölüm ayağında anası Xoşsimanın adını verdiyi nəvəsi, Saqibin qızı soruşur ki, nənə, indi yanında kimi görmək istərdin? Nəcibə xanım yarışüurlu vəziyyətdə "Yalnız Nüsrəddini" – deyib, arzusuna çatmaq üçün gözlərini əbədı qapayır.

## Proloq

Anasına hədsiz bağlı olduğundan onu itirən vaxtdan ürəyində xəstəlik tapan Saqib dünyasını vaxtsız dəyişdi. Nəcibə xanım Məlikovanın Saqibdən iki qız nəvəsi var.



# Gizlin dəfn edilən böyük aktyor

## “Heyvagülü” sifariş olunur...

Onun haqqında düşünəndə nədənsə gözlərimin önünə əvvəlcə “Qanun naminə” filmində yaratdığı Kamilov obrazı gəlir. Əynində mundir, başında papaq əllərini qaldırıb köhnə kişilərə xas “Çal, mənim havamı çal, heyvagülü” deyir və ağır-ağır oynamağa başlayır. Bir də həmin filmdəki sonuncu kəlməsini xatırlayıram “Kaş, Tanrı mənə bir az da ömür verəydi, onda mən bilərdim necə yaşayardım”.

Bəlkə bu Kamilov obrazının daxili dünyası ilə Adil İsgəndərovun iç dünyası arasında nə isə bir bağlılıq var... Kamilova möhlət verilsəydi, əvvəlki həyatından fərqli olaraq yalnız xeyirxah əməllərlə məşğul olardı. Çünki onun daxili dünyası safdır, sadəcə şeytan əməlinə qalib gələ bilməyib. Bəs, Adil İsgəndərovun özünə bu möhlət verilsəydi, nə edərdi? Görəsən, ömür boyu getdiyi düz yoldan, şəxsiyyətini, mənliyini, sənətini hər şeydən üstün tutduğu üçün çəkdiyi baş ağrılarından qurtulmaq üçün əks istiqamətə yollanardımı? Yəqin ki, yox, çünki...

Tanrının bizə bəxş etdiyi kiçik zaman kəsiyini hərəmiz bir cür başa vururuq. Kimisi sadəcə gəlir bu özülü ədalətsiz qoyulmuş dünyaya, ona verilən vaxtın keçəcəyini gözləyə-gözləyə yaşayır, kimisi çarpışır-vuruşur var-dövlət toplamaqla məşğul olur. Eləsi də var ki, ona verilən həmin qısacıq vaxtda özündən sonrakı ömrünü qazanır. Adil İsgəndərov kimi...

Adının qarşısından bilərəkdən dürlü-dürlü titullar yazmıram. Əslində həm rəsmi şəkildə, həm də qeyri-rəsmi xalq artisti idi.

Həqiqətən xalqın olan sənətkarı xalq unutmur, şəxsiyyəti və sənəti bütöv olanlar bu gün də xalqın yaddaşındadır, onu rəsmən

yada salmasalar da nəsillər dəyişir, amma o ad əbədi qalır. Tofiq Kazımov, Mehdi Məmmədov, Həsənağa Turabov... siyahı o qədər də uzun deyil. Sayı o qədər də çox sənətkarlar arasında Adil İsgəndərovun da imzası var.

## Onun quruluşunda "Vaqif" tamaşası 1064 dəfə oynanılıb

Bakı Teatr Texnikumunda aldığı təhsillə qane olmayan məzun A.Lunaçarski adına Moskva Teatr Sənəti İnstitutunda oxuyub. Moskva Bədaye və Vaxtanqov teatrlarında təcrübə keçib. Tam hazır vəziyyətdə Akademik Milli Teatra gələn Adil İsgəndərovu bir il sonra baş rejissor təyin edirlər. İlk rejissorluq işinə "Polad qartal" tamaşasından başlayan İsgəndərov milli teatrın səhnəsində "Həyat", "Vaqif", "Xanlar", "Fərhad və Şirin", "Aydın", "Şərqin səhəri", "Otello", "Cavanşir" kimi tamaşalara həyat verir.

Onun quruluşunda "Vaqif" tamaşası milli teatrın səhnəsində düz 1064 dəfə səhnələşdirilib. "Otello" tamaşasından Ələsgər Ələkbərovun şəkli Şekspir muzeyində indi də saxlanılır. Moskva dekadasında həmin tamaşanı seyr edən və heyran qalan ingilislər tamaşanı lentə alıb aparıblar. Tamaşa vaxtı Moskva teatrının pərdəsi alqışların səngiməməsinə görə düz 17 dəfə bağlanıb və yenidən açılıb. Azərbaycan teatrına onlarla rejissor və aktyor nəsli bəxş edən sənətkar milli teatrın yeni binaya köçürülməsinə razı olmur, yeni bina akustikasız olduğundan böyük teatr üçün yaramır deyir. Eşitmirlər onu. Sənətkar həqiqəti izhar etdiyi üçün incidilir və nəticədə sözünü geri götürmədən teatrı tərk etməli olur.

## Kinostudiyada

1966-cı ildən başlayaraq "Azərbaycanfilm" kinostudiyasına rəhbərlik etməyə başlayır. Yalnız "Əhməd haradadır?" filminin quruluşçu rejissoru olmağa vaxtı çatan Adil İsgəndərov filmlərdə

müxtəlif səpgili obrazlar yaradıb. Həmin illərdə ondan soruşurlar ki, bu illər ərzində teatrsız necə qala bilirsiniz? Cavabında "Dişimi-dişimə sıxıb dözürəm" deyir. Kərbəlayi İsmayıl kimi ötkəm, Kamilov kimi kövrək və sadəlövh, gülsatan qıza valeh olan şişman alman məmuru kimi obrazların yaradıcısı həm də, 1937-ci ildən ömrünün sonuna qədər İncəsənət İnstitutunda dərs deyib.

## Kərbəlayiyə verilən mükafat Qəmloya çatıb

Adil İsgəndərov tez-tez əyalət teatrlarına gedərmiş. Aktyor Məlik Dadaşov onun belə səyahətlərindən birinin tapıntısı idi. Söhbət Məlik Dadaşovdan düşmüşkən, "Axırıncı aşırım" filminin Tbilisidə nümayişdən sonra baş rolun – Kərbəlayi İsmayıl obrazının ifaçısı mükafata layiq görülür. Adil İsgəndərov mükafatdan imtina edir, böyük ürəklə həmin mükafatı Qəmloya - Məlik Dadaşova verməyi məsləhət görür.

Onunla işləyən aktyorların ailə vəziyyəti, sosial həyatı ilə həmişə maraqlanarmış. O dövrdə çətin vəziyyətdə yaşayan evsiz-eşiksiz xeyli aktyor Adil İsgəndərovun köməkliyi ilə ev alıb. Mərhum sənətkar Şahmar Ələkbərov sağlığında həmişə Adil İsgəndərovun onu ev-eşik sahibi etməyindən danışardı.

Onun üçün sənət şəxsi münasibətlərin fövqündə olub

Hanı indi elə sənətkar ki, sənəti ambisiyalarından üstün tutsun...

Bu qayğıkeş insan şəxsi münasibətlərlə sənət müəyyən etməzmiş. Bir dəfə xalq artisti Rza Əfqanlı ilə pərtləşirlər. Bir neçə gün sonra Hüseyn Cavidin "Şeyx Sənan" əsərini tamaşaya qoymaq üçün rol bölgüsünə başlayan Adil İsgəndərov baş rolu Rza Əfqanlıya həvalə edir. Öz dostları rejissoru qınayır, etiraz edirlər ki, sənin üzünə ağ olan adama niyə baş rol verirsən? Cavab verir ki, qada, mən o obrazda yalnız onu görürəm. Milli Dram Teatrının o vaxtlarını görən qocaman sənətkarlardan eşitmişik ki, teatrda hələ "Şeyx Sənan" tamaşasının baxışı kimi baxış olmayıb. Bütün

zal dolu olub, tamaşa 10 gün anşlaqla keçib. Kollektiv təkcə o tamaşa ilə Tiflisdə 40 gün qastrolda olub.

"Otello" tamaşasında da baş rolu Ələsgər Ələkbərova verəndə onunla qanlı bıçaq imiş. Bu tamaşadan sonra məşhurlaşan Ələsgər Ələkbərov düşmən olduğu Adil İsgəndərov haqqında "On sozdal menya" – deyirmiş.

## Hələ sovet vaxtı ermənini kinostudiyadan qovub

Tələbəsi Əbdül Mahmudbəyovu dinləyək: "Moskvada mənimlə birgə bir erməni təhsil alırdı. Azərbaycan dilini də gözəl bilirdi və təhsilimizin sonunda bu ermənininin ssenarisi ilə bir film çəkmək qərarına gəldim. O vaxtlar "Azərbaycanfilm"ə Adil müəllim rəhbərlik edirdi. Gəldim yanına, çox sevindi, çünki onun yetirməsi idim. Görüşdük, söhbət etdik, vaxt yetişdi, Adil müəllim ssenarini açdı ki, baxsın. Bir də gördüm kişinin rəngi ağardı, oxuyub ki, rejissor Əbdül, ssenari Akopyan. Akopyan da yanımızdadır, qayıtdı ki, qada, bu ermənidir? Dedim, bəli, amma Bakıda doğulub. Qada, cəhənnəmə doğulub, bəs sən bu gədəni bura gətirəndə görmədin ki, girişdə "Azərbaycanfilm" yazılıb? Üzünü tutub Akopyana, qayıtdı ki, dur tərpən Sabunçu vağzalına, min qatara birbaşa "Ermənifilmə" get. Sonra da mənə xəbərdarlıq etdi ki, bir daha belə qələt etməyim."

## İkinci Fəxri Xiyabanın ilk fəxri sakini

Kamal Xudaverdiyevin xatirələrindən: " Adil müəllim kurs rəhbərim olub. Biz sənətin əlifbasını Adil İsgəndərovdan öyrəndik. Mənim ilk filmə çəkilməyimin də səbəbkarı o oldu. "İstintaq" filmində kənardan aktyor dəvət olunmuş bir obraza məni məsləhət görmüşdü. Bunu yalnız mənim üçün etməmişdi, Rasim, Şahmar, ümumiyyətlə o dövrdə üzə çıxan bütün aktyorlar onun tapıntısı

idi. Filmlərə kənardan aktyor dəvət olunmasının qarşısını alıb, öz aktyorlarımızı tanıtdı. Sübut etdi ki, bizdə də bacarıqlı gənclər var. Bir rejissor onu eşitmək istəmirdi, Adil müəllim ondan soruşdu ki, niyə özümüzünkülərlə işləmirsən? Cavab verdi ki, mən özümüzünkülərlə işləyə bilmirəm. Dedi, qada, onda mən kənardan rejissor çağıraram bizim aktyorlarla işləyər. 15 aktyor dəvət etməkdənsə, bir rejissor dəvət etmək daha sərfəlidir. Adil müəllimdən sonra elə kişi görməmişik. O, tamam başqa kişi idi. İnandırıram sizi onu laqeyidlik məhv etdi.

Teatrın 100 illiyində məndən qabaqda oturmuşdu, onun hansı hisləri keçirdiyi mənim içimə süzüldü. Teatrda can qoymuş, özül qoymuş bu adamı bir kimsə yada salmadı. Kişi içində qovruldu. Demədilər ki, 100 illiyə teatrı bu kişi gətirib. "

Belə laqeydliklər insan ömrünü qısaldan başlıca amillərdəndir. Əgər o, insan sənətkardırsa, deməli ömrü çox, lap çox qısa olacaq... 1978-ci ilin sentyabrında Tanrının Adil İsgəndərova verdiyi o qısacıq vaxt sona çatdı. Həmin gün "dahi Sovet rəhbəri" L.İ. Brejnev Bakıya növbəti rəsmi səfərə gəlibmiş. Sənətkarı rəhbərin gəlişindən yaranan bayram əhval-ruhiyyəsi pozulmasın deyə, gizlin-gizlin axşamın qaranlığında divar dibi ilə aparıb indiki İkinci Fəxri Xiyabanda səssiz-səmirsiz torpağa tapşırıblar. Adil İsgəndərov Zaqafqaziyanın ilk SSRİ xalq artisti, həm də o məzarlıqda uyuyan ilk SSRİ xalq artistidir.



# Qayınananın son arzusu

1999-cu ildi, səhnəmizin qayınanası, həmkarlarının anası hesab olunan 83 yaşlı Nəsibə xanım Zeynalova ağır xəstə idi. **Əslində vəziyyəti xəstəliyin ağır vaxtlarında nisbətdə bir az düzəlmişdi, amma bu da, xoş gələcək vəd etmirdi.** Bir il öncə dili tutulmuşdu, ayaqları sözünə baxmırdı. 1999-cu ildə isə yenicə ayaq açan uşaq kimi addım atır, bir-iki kəlmə danışıb, sonra xeyli susurdu. Bizim gəlişimizə görə nəvəsi Nəsibə onu yatağından qaldırıb geyindirdi. Nəsibə xanım həvəssiz halda qollarını qaldırıb qiyafəsini əyninə keçirəndə nəvəsi ilə balaca bir dialoqları oldu.

- Qızım, bayaq Moskva televiziyasında dedilər kir, göydən hansısa planet qopub yerə yaxınlaşır, 2000-ci ilə qədər hara düşə düşə.

- Düşsün də...

- Axı, mən sizdən narahat gedirəm. Mən getdim, bəs, planet sizin başınıza düşsün?

- Düşməz, bir əlac taparlar.

Nənə nəvənin arxayın cavabından bir az rahatlaşdı. Bu kiçik dialoq bir nənənin öz gələcək nəslindən, nəvə-nəticəsindən xırda narahatlığını əks etdirir, amma burda həm də xarakter var. Nənədən başqa, həm də bir insanın, şəxsiyyətin portreti... Bu insan ona verilən qısa zaman çərçivəsində nələr yaşamadı, yetimlik, aclıq, kasıbçılıq, sevinc, sevgi, göz yaşı, uğur. Bu qədər müxtəlif, paradoks təşkil edən hissləri yaşamaq hər kəsin qisməti olmur.

## Atasının 60 yaşı olanda doğulmuşdu

Cahangir Zeynalov dövrünün çox tanınmış, məşhur sənətkarı olub. Adı Azərbaycanın teatr tarixinə yazılıb. 50-ni artıq arxada qoymuş sənətkara bir gün sənət yoldaşları irad tuturlar ki,

sənin var-dövlətinə sahib çıxmaq, adını yaşatmaq, nəslini davam etdirmək üçün bir övladın yoxdur.

Cahangir Zeynalovun yeganə övladı Nəsibə dünyaya gələndə isə onun yaşı 60-ı keçmişdi. Əslən Cənub Azərbaycandan olan Cahangir Zeynalov düşünür ki, gərək ailəsini aparıb ata-baba yurdunu onlara göstərsin. Gedirlər, bir müddət orda qonaq da qalırlar. Taleyin gərdişindən bu səfər İranda başlanan iğtişaşlarla eyni vaxta təsadüf edir.

## Tifdən ölüm

Qayıdanda yolda gəmini saxlayırlar, arvad-uşağa rəhm edən sərhəd gözətçiləri onları buraxır, amma kişilər o cümlədən həmin gəmidə olan Cahangir Zeynalovun **ailəsi** 8 gün açıq dənizdəki gəmidə gecələməli olur. Bakıya tif xəstəliyi ilə qayıdan sənətkar çox keçmir ki, dünyasını dəyişir. Onda Nəsibə yeniyetmə yaşlarına qədəm basmışdı.

## İlk işi fəhləlik olub

Danışırdı ki, o vaxtdan onun ağır həyat tərzi başlayır: "Atam rəhmətə getdi, anam da savadsız qadın idi, bir müddətdən sonra evdə hər şeyi satıb qurtardıq, qaldıq ac-susuz".

Nəsibə gəzib-dolaşıb zavodlardan birində fəhləliyə düzəlir. Tezliklə anasını da itirən qızın həyat üzünə bir də Şəmsi Bədəlbəyli ilə rastlaşdığı gün gülməyə başlayır. Onun istedadını zavodun özfəaliyyət dərnəyinin çıxışında görən Şəmsi Bədəlbəyli Nəsibəni Musiqili Komediya Teatrına işə götürür. Onun köməkliyi ilə Nəsibə xanım Bakı Teatr Texnikumunu da bitirir. Sənətə addım atdığı ilk günlər də onun üçün ağrılı-acılı olur. Texnikumu bitirəndə 1941-ci il idi, bunu demək kifayətdir ki, səhnəyə yenicə atılmış bir qızın əzablı sənət yolu gözlərimiz önündə canlansın.

Amma bir gün bu əzabların sonu çatır.

Musiqili Komediya Teatrının çox uzun bir tarixi Nəsibə Zeynalovanın adı ilə bağlıdır. İndi həmin tarixi vərəqləyirik. Rəxşəndə "Qızılaxtaranlar", Afərin "Rəisin arvadı", Kəblə Fatma "Hacı Kərimin aya səyahəti", Həmşəxanım, Xeyransa "Həmşəxanım", "Sevindik qız axtarır", Qızbacı "Hicran". Sonuncu sonrakı illərin məhsuludur. Həm də çox uğurlu məhsulu.

Kinoda da Nəsibə xanım bir-birindən maraqlı obrazlar yaradıb. "Ögey ana", "Böyük dayaq, "Qanun naminə", "Bizim Cəbiş müəllim" filmlərində yaratdığı obrazların hər biri filmlərin adlarını çəkən zaman tamaşaçının gözləri önündə canlanır. Özünəməxsusluğu, yumoru, təbiiliyi ilə. Yaradıcılığı boyu isə onun qayınana obrazı izləyir, istər kinoda, istərsə də teatrda...

## Həyat yoldaşı cəbhədə həlak oldı, yenidən evləndi

İlk həyat yoldaşının müharibədə həlak olması Nəsibə xanımın onsuz da əvvəldən cüzi işıq ucları görünən qaranlıq həyat yollarını zülmətə qərq etmişdi. Sonradan, bəlkə də şəxsi həyatını tamam arxa plana keçirib özünü yalnız sənətinə bağlayan aktrisanın yoluna bir insan çıxdı.

Nəsibə xanım ailə quranda 38 yaşı vardı, yoldaşının isə 27. Musiqiçi idi, qastrollarda bir yerdə olurdular. İlk vaxtlar Nəsibə xanımın ondan xoşu gəlmirmiş. Özbəkistan səfərində elə bil möcüzə baş verdi, əvvəlcə gözü artıq onu izləyən bir nəfərə alışan Nəsibə xanım evlənmə təklifini qəbul etmədi. Bəhanəsi isə yaş fərqi idi. Qastrolun sonunda bütün diqqət və qayğı ilə, özü də çoxdan, lap çoxdan görmədiyi qayğıyla əhatə olunan aktrisa evlənməyə razılıq verdi.

Bakıya qayıdan kimi toy-büsat quruldu. İki sənət adamının gün-güzəranı çox gözəl keçirdi. Bəzən ayrı-ayrı qastrollara gedirdilər, həmin qastrollar hər ikisi üçün telefon dəstəyindən asılı keçirdi. Tamaşadan sonra yoldaşı Nəsibə xanımı hökmən qarşıla-

yar, **evə öncədən hazırlayıb qoyub getdiyi süfrə arxasına bir yerdə əyləşərmişlər**. Oğlu Cahangir dünyaya gələndə də aktrisanın köməkçisi yoldaşı, kaman ustası Mütəllim olur.

## Allah onu mənə çox gördü

Nəsibə xanım xatirələrində deyirdi: "Ailəmiz inam üstündə qurulmuşdu. Bir-birimizin qədrini bilirdik. Çox səmimi ailəm vardı. Bu səmimilik həyat yoldaşımdan gəlirdi. Mən xoş söz eşitməmişdim, atamı tez itirməyim anamı da elə bükmüşdü ki, dilindən xoş söz eşitməzdin. Nə xoş söz eşitdimsə, yoldaşımdan eşitdim. Allah onu da mənə çox gördü, tez aldı əlimdən. Onu itirəndən sonra xoş günlərimi də itirdim, əvvəlki pis günlərimi də xatırlamağa ondan sonra vaxt tapdım".

## Qiymətləndirilmirdi

Bu sözlərdə bir nisgil də duyulur. Arada ailəsinə başı qarışmış, buna baxmayaraq artıq sənətkar olan Nəsibə Zeynalova 50 illik yubileyi qeyd olunanda heç əməkdar artist də deyildi. Nəvəsi Nəsibə onun arxiv materiallarından elmi iş yazanda Nəsibə xanım özü də öz işləri ilə tanış olur. 83 yaşlı sənətkarın yanaqları boyu yaş axmağa başlayır. "İndi görürəm ki, gözəl sənətkar olmuşam, amma qiymətləndirilməmişəm".

Bəlkə bu sözləri dedirdən yaşın kövrəkliyidir, amma onu da xatırladır ki, yubileyində tamaşaçılar arasından kimsə söz atıb: "Bəsdir teleqrama oxudunuz, oxuyun görək hansı fəxri ad verildi ona". Yalnız ondan sonra Nəsibə xanım əməkdar artist fəxri adının dadını görür.

## Son dəfə səhnəyə çıxmaq istəyirdi

Ömrünün son dövrlərində isə hərtərəfli sevgi, diqqətlə əhatə olunmasına rəğmən yoldaşını xatırlayıb ağlayırdı. Bir də güclə addım atdığı ayaqları ilə son dəfə Musiqili Komediya Teatrının səhnəsinə çıxmaq ən böyük arzusu idi. Son dəfə hər hansı bir rol oynamaq. Görünür, bu ömrünü səhnədə başa vuran bütün sənətkarların son arzusudur. Nəsibə xanım bu arzusuna qovuşa bilmədi.

Xoşbəxt nikahından dünyaya gələn Cahangir Novruzov da sənətkar oldu, babasının, atasının, həm də anasının yolunu davam etdirir. Onun qızı Nəsibə də sənət yollarında addımlayır, amma ondan əvvəlki nəslin keçdikləri yaradıcılıq yolunun araşdırmaçısı kimi.

Ondan sonra nə göydən planet düşdü, nə də dünya dağıldı. Planet düşüb gələcək nəsilləri məhv edəcəyindən qorxduğu yerdən yalnız bir ulduz axıb söndü, vəssalam... Zaman-zaman ulduzlar axıb sönür, qalan hər şey öz yerindədir. Şair demiş "Göy belə göydür, qar isə ağdır"... O qorxulu planet də öz yerində.



# Yeri görünən rejissor

Heç vaxt müəllim işləməyib, amma "müəllim" adını qazanıb. Yetirmələri "müəllim"dən sevgi və ağrı ilə söhbət açırlar.

"Aktyor evinin" birinci mərtəbəsində, qapısı arxadan açılan soyuq, şəraitsiz yerdə özünün yaratdığı və rəhbərlik etdiyi Dövlət Gənclər Teatrında 20 ildən artıq bir müddətdə ard-arda tamaşalar hazırladı, istər klassik, istər müasir əsərlərə səhnə quruluşu verdi. Neçə-neçə gənc aktyorluğu, səhnə məharətini ondan öyrəndi. İstedadlara qapıları taybatay açdı, gənc yazıçılar onun etibar göstərib əsərlərinə səhnə həlli verməsi, bununla da qarşılarındakı maneələri götürməsi sayəsində dramaturq oldular.

Qısa ömründə yalnız öz işi ilə məşğul oldu və yetirmələrinə də bunu tövsiyə etdi. Hazırladığı tamaşalar bəlkə bu gün Azərbaycan teatr tarixinin bir küncünə belə yazılmayıb, amma yetişdirdiyi sənətkarlar nəsli hələ uzun illər fəaliyyət göstərəcək, sonra da yetirmələrinin yetirmələri yetişəcək. Hüseynağa Atakişiyev – deyiləndə hələ uzun illər onların gözləri dolacaq, hələ uzun illər "bir başqa kişi idi" deyəcəklər.

## İlk məsuliyyət

Hüseynağa Atakişiyev 1949-cu ilin sentyabrında Bakıda-Çəmbərəkənddə kasıb bir ailədə dünyaya gəlmişdi. Atası sürücü, anası evdar qadın idi. Ailədə üç uşaq vadı-bir qız, iki oğlan... Xudmani dolanırdılar. Ata axşam işdən gəlir, ailə süfrə arxasına yığışır, Allah verəndən yeyib-içib, bir-biriləri ilə söhbətləşir, şad-xürrəm yaşayırdılar. Ana dünyasını dəyişənə qədər.

Ananın gənc yaşında həyatdan köçməsi balaca tifillərin də, bu ailənin də tifağını dağıtdı. Tezliklə ata yenidən ailə qurdu.

Uşaqların yükü onlardan bir az böyük, cəmi-cümlətanı 12 yaşı olan Hüseynağanın boynuna düşdü.

Bacısı Elmira Atakişiyeva danışır, daha doğrusu göz yaşlarına boğulduğundan danışa bilmir. Qırıq-qırıq söylədiklərindən anlaşılır ki, Hüseynağa çox qayğıkeşmiş, onların dərsləri ilə maraqlanmaqdan tutmuş, əyin-başlarına, yemək-içməklərinə qədər hər şeyi öhdəsinə götürübmüş. Həm işləyir, həm oxuyur, həm də bacı - qardaşının qayğısına qalır.

## Teatrda işə işıqçılıqdan başlayır

12 yaşında uşaq iş axtarmaqdan haldan düşüb, arzusuna rəğmən bəlkə teatrda bir iş tapılar-deyə ora baş vurur. Əslində bu binaya ali təhsilli aktyor kimi işləməyə gəlmək ən böyük arzusudur. Onun əsl teatr adamı olduğunu işə götürən şəxs də başa düşür: "Gəl, bizim işıqçıya ehtiyacımız var, hələlik bundan başla, sonra təhsil də alarsan, baxarıq".

Bu minvalla teatr aləminə işıqçı kimi daxil olur. İllər keçir, balaca Hüseynağa böyüdükcə teatrda ən müxtəlif işlərdə çalışır, hamısının da sirlərinə yiyələnib ustalaşır.

1975-ci il... Nəhayət günlərin bir günü Hüseynağa teatra aktyor kimi daxil olur... Şəki Dövlət Teatrına. Çox keçmir ki, həmin teatrda həm də baş rejissor olur.

## Şəki Teatrı

Bu teatr artıq Hüseynağa Atakişiyev adlı bir sənətkarın varlığını ortaya qoyur. 1975-85-ci illərdə əvvəlcə rejissor, sonra baş rejissor olduğu truppa ilə Azərbaycan və dünya dramaturgiyasının şah əsərlərini tamaşaya qoyur. Şəki Teatrı ölkədən kənarlara çıxır, qastrollarda uğurlu tamaşalar göstərir. 1974-cü ildə 9 tamaşa ilə Moskvada qastrolda olması isə teatr tarixinin qırmızı səhifələrindəndir.

Bu uğurlara görə həmin il əməkdar incəsənət xadimi fəxri adına layiq görülür. Sonra onu Milli Dram Teatrına baş rejissor dəvət edirlər. Gəlir, amma Şəkidə qazandığı uğurları nədənsə bu teatrda əldə edə bilmir. Çox keçmir ki, Gənclər Teatrını yaradır.

*"Kaş bu dünyadan köçəndə ..."*

**Gənclər Teatrının aktyoru, indi Milli Dram Teatrında çalışan Ayşad Məmmədovu dinləyək:** "Kaş bu dünyadan köçəndə tamaşalarımın musiqilərini özümlə apara biləydim ". Bir dəfə bu sözü mənim yanımda demişdi. Hər an fikrimdə dolanır, yaman tutub o söz məni. İlk sənət addımlarımı onun yanında, onun özülünü qoyduğu teatrda, o əllərimdən tutmaqla atmağa başlamışam. 3-cü kursda oxuyurdum, gəldim yanına ki sizinlə işləmək istəyirəm, dedi, gəl. Mənə ilk dəfədən "Romeo və Cülyetta"da Romeo rolunu verdi. Mənə, yetirmələrinə onsuz çox çətindir. Hüseynağa müəllim bizə səhnədən tamaşaçı ilə canlı tellərlə bağlanmağı öyrətmişdi, onun ruhu ilə yetişmişik. İndi harda işləməyimdən asılı olmayaraq çox çətindir".

*"Hamımızın üstündə əməyi var, hamı da bunu bilir və qiymətləndirir"*

**Gənclər Teatrının aktyoru, indi Gənc Tamaşaçılar Teatrında çalışan Qurban İsmayılovun dedikləri:** "Onunla 17 il bir yerdə işləmişəm, nə dostluğumuz olub, nə qardaşlığımız. İş vaxtı bədii rəhbərim olub, düşəndə bir məclisdə yeyib-içmişik. Əvvəl başqa teatrda çalışırdım, amma "Qətl günü" tamaşasına baxanda dostlara demişdim ki, çox istəyərdim Gənclər Teatrının aktyorları ilə işləyim. Dostlar da-Abbas Qəhrəmanov, Ayşad Məmmədov Hüseynağa müəllimə demişdilər, razı olmamışdı, çünki məni heç tanımırdı. Sonra elə oldu ki, premyeraya üç gün qalmış teatrdan gedən bir aktyorun yerinə məşqlərə çağırdılar. İlk tamaşadan sonra Hüseynağa Atakişiyev dedi, sənədlərini götür, gəl. Mənə həmişə baş rollar

etibar edib. Başqa düşüncənin yiyəsi idi. Məsələn, hamı elə bilirdi ki, Hamleti Ayşada verəcək, amma gözlənilmədən mənə verdi. Dedi, indiki zamanda romantik Hamlet olmaz, bir az kobud, hadisələrə real baxan biri olmalıdır.

Əməli ilə sözü eyni olan, sözü bütöv, danışmaqdan çox iş görən bir insan kimi yadımda qalıb, sevmişəm onu. İndiyə qədər həyatımda, sənətimdə yeri görünür, çox çətindir onsuz. İnanın, iki-üç dəfə məni başqa teatra dəvət etdilər, getmədim. Gənclər Teatrının çətin şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq onunla işləmək zövqünü başqa heç bir şeylə əvəz etmək olmazdı. İlin cəmi 4 ayını tamaşa göstərirdik, soyuq ayları geyinib-qıfıllanıb məşq elətdirərdi bizə ki, formadan düşməyək. Hamımızın üstündə əməyi var, hamı da bunu bilir və qiymətləndirir.

*“Çoxdan heç nəyə təəccüblənmirdi”*

**Dramaturq Əli Əmirli:** “Meydan” adlı əsərimin ilk tamaşasından sonra Gənclər Teatrı ilə mənim uzun çəkən əməkdaşlığım başladı- Hüseynağa müəllim on beş ilin içində daha yeddi pyesimi səhnələşdirdi. Bir qayda olaraq mən pyesi verirdim, bir neçə gündən sonra o mənə premyeranın nə vaxt olacağını deyirdi, heç vaxt da sözü yalan çıxmırdı. Pyeslərim haqqında fikir demirdi, ancaq qəzetlərə müsahibələr verəndə qiymətləndirdiyi iki-üç dramaturqun adını çəkirdisə, onlardan biri mütləq mənim imzam olurdu. Hüseynağa müəllim öz qiymətini çox yaxşı bilən təvazökar insan idi. Çox da qürurlu idi, amma onu həmişə gizlətməyə, göstərməməyə çalışırdı. Ömrünün axır illərində hiss olunurdu ki, onu çox şey sıxır, çox şey darıxdırır, amma on beş ildən çox davam edən tanışlığımız, dostluğumuz, işbirliyimiz müddətində onun nə şikayətləndiyini, nə gileyləndiyini gördüm. O çox mərd insan idi, gözü tox, təmənna sözü ona yad idi.

Hüseynağa Atakişiyevlə tanış, dost olduğum on beş ildə hər həftə onunla Aktyor Evindəki qapısı hamının üzünə açıq iş otağında görüşürdüm, daha doğrusu mən onu görməyə gəlirdim, işim

olanda da, olmayanda da, əslində bu bir mənəvi ehtiyac idi. O özü heç yerə, heç kimin görüşünə getməzdi, onu görmək istəyənlər və ya getməyə başqa yeri olmayanlar da gəlirdi bu hücrəyə. Hamıya xoş üz göstərirdi. Əslində bu iş otağı onun əsas evi, mənziliydi, səhər gəlib axşamdan neçə saat keçənəcən burda olurdu.

Teatr haqqında az danışardı, teatra gələn pyesləri müzakirə etməz, özündən söz salmaz, uzun söhbətləri xoşlamazdı, hərdən əhvalının yaxşı məqamlarında Şəki xatirələrindən əhvalatlar, məzəli hadisələri yada salardı. Həyatdan yorulmuş adam təsiri bağışlayırdı, çoxdan heç nəyə təəccüblənmirdi.

Şəkidəki uğurlarına görə Əməkdar İncəsənət Xadimi adına layiq görülmüşdü, davamı çoxdan olmalıydı, olmamışdı. Üzə vurmazdı, amma içində sıxıntı, bəlkə də pərtlik hiss olunurdu, axı gözü-könlü nə qədər tox olsa da, o da bu mühitin əhatəsində idi. İçində haqlı sualların baş qaldırması təbii idi.

Amma şikayətlənməyi, istəməyi, qəbullara getməyi bacarmırdı. Heç çoxdan onu incidən xəstəliyindən də danışmağı sevməzdi, yüz altmış, yüz səksən qan təzyiqi ilə işə gəlirdi, elə bil məqsədli şəkildə ölümünə doğru gedirdi, onun gəlişini sürətləndirirdi. Ətrafında olanlar da bunu görürdü, amma o məsləhəti, illah da öyüd-nəsihəti heç sevmirdi.

Üzeyir Hacıbəyov rolunda - Anarın "Uzun ömrün akkordları" filmində görüb yadda saxlamışdılar. Onu tanıyanların və sevənlərin xatirində Hüseynağa Atakişiyev elə o işıqlı, xeyirxah, mehriban, məlahətli təbəssümü ilə qalır".

## Ömrü boyu katibəsi olmadı, qapısının üstündə bədii rəhbər yazdırmadı

**Sərvər Əliyev (Gənclər Teatrının aktyoru, indi Gənc Tamaşaçılar Teatrında çalışır):** "Qara qutu" tamaşasının birinci hissəsini tam hazırlamışdı. Bu onun yaradıcılığında ilk dəfə təsadüf olunan bir hal idi, əsasən o tamaşanın skeletini hazırlayırdı, sonra ona can

verirdi. Bu dəfə isə martın 28-i idi, dedi ki, birinci hissə hazırdır, uşaqlar bir az istirahət etsin, sonra ikinci hissəni quraraq. Məşqdən sonra yemək yeməyə hazırlaşırdıq, dedi ki, göyərti al gətir, o, yaz-qabağı göyərti ilə atlamanı xoşlayardı. Göyərtini doğramağım xoşuna gəlmədi, aldı əlimdən başladı özü doğramağa.

Birdən elə bıçaq əlində dedi, əlim işləmir, oturdu stula, dedim, o biri əlini qaldır görüm, cəhd etdi o əli də qalxmadı. Həsən müəllimə dedim ki, təcili yardım çağır, müəllim dedi, lazım deyil, biz yenə çağırdıq. Apardılar, Həsən müəllim onunla getdi, mən aktyorlarla Gənc Tamaşaçılar Teatrına, oranın səhnəsini icarəyə götürüb Əli Əmirlinin "Kişi və qadın" əsərinin tamaşasını oynayırdıq. Onu çatan kimi reanimasiyaya aparmışdılar. Tamaşanı oynadıq, Nəsibə xanım (sonuncu həyat yoldaşı-R.Q.) səhnədə olmalı idi və tamaşanı bitirincəyə qədər ona bildirmədik.

Çox böyük şəxsiyyət idi, ömrü boyu yalnız başını aşağı salıb işi, sevdiyi sənəti ilə məşğul oldu. Bizə deyirdi ki, siyasətimiz sənətimizdir, başını aşağı sal işini gör, hər şey yaxşı olacaq. Adama böyük ümidlər verərdi, amma gəlişigözəl sözlər, vədlər verməyi xoşlamazdı.

Bir əsəri tamaşaya qoymazdan əvvəl kollektivlə uzun müzakirələr aparardı, hamı həmin mövzunu artıq həzm edəndə məşqlərə başlayardı, qalırdı sadəcə mizan vermək. Gözəl insan idi, hamının kədərinə öz kədəri kimi baxardı. Bir dəfə Həsən müəllim danışdı ki, bir həmyerlisi ilə rastlaşıb. Kişi ona danışıb ki, oğlugilə gedib, gəlin qapını açmayıb. Müəllimin gözləri doldu, həmin adamı tapdırıb onu dinlədi, dərdinə şərik oldu. Sonra da o mövzuda "Axırı sakitlikdir" adlı bir tamaşa qoydu ortaya, ssenarisini də Elçin Hüseynbəyliyə həvalə etmişdi.

27 mart teatrımızın 18 yaşı tamam olurdu, ona çox təntənəli hazırlıq gördü, elə bil hiss etmişdi. Elə bil özünə vida mərasimi keçirdi. Ayşad iştirak etmədi, dedi, yorulmuşam, ona da zəng elədi ki, niyə burda yoxsan. İnsanlığı sənətindən də yüksək idi, hamıya yaxşılıq edirdi.

Onun otağının qapısına nə direktor, nə bədii rəhbər yazıldı.

Ömrü boyu katibəsi olmadı, qapısı hamının, onu deyib gələnlərin üzünə açıqdı, dərdlərin paylaşanların otağıydı. Bir dəfə bir nəfər gəldi ki, bir sinifdə oxumuşuq, müəllim onu dinlədi, maddi kömək göstərdi, o, gedəndən sonra dedi ki, tanımıram, sinif yoldaşım-filan deyil, insandır də".

## Kəlbətinli rejissor

Bir dəfə hansısa tamaşasının premyerası idi, teatrın binasında xətlərdə nasazlıq ucundan işıqlar sönmüşdü. Hamı düşünürdü ki, premyeranın taleyi necə olacaq. Tamaşanın başlanmasına sanılı dəqiqələr qalmış işıqlar yandı, bir də gördüm ki, Hüseynağa Atakişiyev əlində kəlbətin foyedən keçir, xətti bərpa edib, indi də tamaşanı başlamaq üçün pərdə arxasına keçir. Məni görüb gülümsündü: "Həmişə də sən gələndə fövqəladə hal baş verir". Belə deyildi. O binada elə vəziyyətlər çox olurdu, o zülmlə, üstəlik də icarə haqqı ödəyib teatrı yaşadırdı.

Tez-tez yolumuz bir düşərdi, "Xalqlar dostluğu" metro stansiyasından "Sahil" metrosuna qədər bir yerdə gələrdik. Maraqlı söhbətlər edirdi, ömrü boyu kasıbçılıqla yaşayan bu insanda çox böyük daxili zənginlik vardı.

"Hamlet" tamaşasını tənqid etmişdim, ətrafından mənə mesajlar gəldi, düşündüm ki, yəqin Hüseynağa müəllim bir daha üzümə baxmaz. Bir gün yeni tamaşasına getdim. Həmişə olduğu kimi gülərüzlə qarşıladı məni, üstəlik, "sağ ol ki, bizi diqqətdən kənarda qoymursan", -dedi.

## Üç dəfə ailə qurub, üçü də...

Nə bilək, uğurlu, ya uğursuz, yalnız özü bilib. Bu adamı üç dəfə evlənməyə nə vadar etdi, bilən olmadı, o sirr onunla qəbir evinə getdi. 2006-ci ilin aprelin 9-da həyatından artıq sevdiyi-teatrdan-həyatdan köçdü. Çox az sənətkarlardandır ki, ətrafındakı hər kəsin həyatında yeri görünür.



# Ölümü də gözəl olan qızın nağılı

## Hüsnü-camalı ilə Miranşahı valeh edən Şəms

1949-cu ildə köhnə Bakının sıx məhəllələrindən birində, hələ sakinlərin bir-birinin sevincinə biganə qalmayan, kədərinə şərik olan gözəl vaxtında bir qız dünyaya gəldi. Adını Almaz qoydular, Almaz Əsgərova. Yəqin bu ad sizə heç nə demədi. Elə isə bir nağıl danışım.

Biri vardı, biri yox idi, Bakının yüzlərlə, minlərlə gözəlləri arasında bir qız da vardı. Bu qız istər zahiri görkəminə, istərsə də təbiətinə görə bütün başqa qızlardan fərqlənirdi. Həm də çox istedadlı idi. Bu istedad onu Ə. Əzimzadə adına rəssamlıq məktəbinə gətirdi. Gözəl rəsmlər çəkirdi, müəllimləri onun böyük rəssam olacağına şübhə etmirdilər. Bir gün heç kimin gözləmədiyi halda bu qız rəssamlıq məktəbini atıb sənədlərini Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə verdi və qəbul olundu. Nədənsə burda da özünü tapa bilmədi, amma bir oğlanla tanış oldu və bu tanışlıq onun taleyini müəyyən etdi. Nağılımızın ikinci qəhrəmanın adı Azərdir, soyadı Süleymanov.

## Adil İsgəndərov onu Xuraman obrazı üçün hazırlayırdı

Azər Süleymanov Moskvada kinorejissorluğu bitirib Bakıya qayıtmışdı. Təsadüfən tanış olduğu birinci qəhrəmanımız Almaza aktrisa olmağı o məsləhət görür. Deyir, səni kinofilmlərdə görürəm. Bu məsləhətlə Almaz mənsəbindən çıxıb dağa-daşa atılan çay kimi elə bir məcrasına tuş gəlir. Həm də sevdiyi adamla sevdiyi peşə eyni vaxtda onun həyatına daxil olur. Kinostudiyada Adil

İsgəndərovun kursuna daxil olan Almaza ustadı "Sən gözəl aktrisa olacaqsan", - deyir. Bu minvalla Azər Süleymanovla Almaz Əsgərovanın birgə, amma çox qısa həyat yolları başlayır.

Almaz bir-birinin ardınca maraqlı obrazlar yaradır – "Qanun naminə"də Salamatovun xanımı, "Mən ki gözəl deyildim"də Elmira, "Ulduzlar sönmür" də Fatimə. Daha sonra "Bir cənub şəhərində", "Məhəbbət, məhəbbət", "İstintaq davam edir", "Uşaqlığın son gecəsi" filmlərinə çəkilir. Ustadı Adil İsgəndərov onu çəkəcəyi "Vaqif" filmində Xuraman obrazı üçün hazırlayırdı. Ustadın ölümü bu ideyanın həyata keçməsinə mane olur. Həmin illərdə aktrisa Tacikfilmdə "Rüstəm və Söhrab" filmində baş rola çəkilir. Nəhayət, Almaz həyatın diktəsi ilə kinoda ən yaddaqalan, nə yazıq ki, son obrazına həyat verir – "Nəsimi" filmindəki Şəmsə.

Həsən Seyidbəyli Şəms obrazı üçün Almazı sorğu-sualsız dəvət etmişdi. Bu illər ərzində Almazla Azərin bir oğulları olur. Adını İlham qoyurlar ki, iki yaradıcının pərisi öz övladları olsun.

## "Adı Şəms olan göylərdə qərar tutsun gərək"

Bu fikri filmdə onun tərəf müqabili Miranşah deyir. Bir də onu deyir ki, səni özümlə aparmalı oldum, Şəms. Təsadüflər bəzən insan həyatında misilsiz rol oynayır. Bəlkə Miranşahın dili ilə Almazı ölüm aparırmış. Onsuz da gələn bir gün getməlidir, amma nə olaydı vaxtsız ölümlər, amansız ayrılıqlar olmayaydı…

Almazın bacısı Səmayə xanım xatırlayır ki, Azərla Almaz bir-birilərini əfsanəvi məhəbbətlə sevirdilər, yeganə övladları hər ikisinin canı idi: "Bu üç varlıq elə bil bir candan nəfəs alırdı. Real həyat onlarlıq deyildi, nə isə başqa bir dünya üçün doğulmuşdular elə bil". Bütün çəkilişlərə bir yerdə gedirlərmiş. Azərin tənqidini də Almaz ürəklə qəbul edər, məsləhətlərinə qulaq asarmış. Hər yerdə birlikdə olublar. Yalnız bircə dəfə Azər Almazdan ayrılıqda səfərə çıxıb. Azər ümumi iş üçün Moskvaya yollanıb və geriyə tabutda qayıdıb. O gündən Şəmsin günəşi batıb.

**"Bəs, nə deyim, məni sənsiz görəndə?.."**

Almaz dost-tanışdan, qohum-əqrəbadan, sevimli insanından olduğu kimi, sevimli sənətindən də ayrılıb iç dünyasına çəkilir. O dünyasına ki Azərdən qeyrisinin daxil olması mümkün deyildi. Kinodan ayrılıb ki, Azərsiz kimsə mənə başqa gözlə baxmaq fikrinə düşər. Milli Dram Teatrına dəvət ediblər, "Mən sənətdən getmişəm", - deyə cavab verib. Qapalı həyatı isə onu məhvə sürükləyir. Elə bil bilə-bilə məhvə doğru gedib. Azərinə qovuşmağın yeganə yolunu könüllü seçib. 11 ayın içində amansız xəstəliyə düçar olan Almaz Əsgərovanın gözləri 1988-ci ilin qızmar avqustunda dünyaya əbədi qapanır. Qapanır ki, Azərli dünyaya açılsın.

Biri vardı, biri yoxudu, bir qız vardı…Bu qız bütün həmyaşıdlarından həm zahiri görkəminə, həm də təbiətinə görə seçilərdi. Ölümü ilə də seçildi…



# Ələkbər əminin nağılı

## Epiloq:

Balaca qızcığaz ağzını açıb yeməyini yemək istəmir. Anası deyir ki, yeməyini yeməsən Ələkbər əmi bizə gəlməyəcək. Axı, o gün tamaşada sənə dedi ki, yeməyini ye, bir gün sizə gəlib anandan soruşacam, yemisən, ya yox. Qız dərhal ağzını açıb həvəslə yeməyə başlayır.

## Yeganə bala

Bakıda əslən Gəncədən olan Adıgözəl adlı bir kişi  yaşayırdı. Xanımının adı Yaqut, yeganə övladlarını adı Ələkbər idi.  Adıgözəl kişi  Bakı dəmir yolunda maşinist işləyirdi. Cavanlığında ixtisasca həkim Yaqutun xəstəsi olmuşdu, soyuqdəyməsi canından çıxandan sonra isə Yaqutun xəstəsinə çevrilmişdi. Onun üçün oxuduğu "Həkim qız" mahnısının sehrinə düşən Yaqut Adıgözələ necə vurulmuşdusa bu məhəbbət evliliklə nəticələnmişdi.

1983-cü ildə-onda artıq Ələkbər də böyük oğlan idi-Adıgözəl kişini Binəqədi şosesini keçəndə "Volqa" markalı avtomobil vurdu. O vaxtkı Abşeron tərəvəz institutunun direktorunu gəzdirən maşının sürücüsü hər gün onlara gəlir yalvar-yaxar edir,  göz yaşları axıdırdı: "Mənim beş balaca uşağım var. İndi hər şey sizdən asılıdır. Onları yetim qoymaq istəmirsinizsə, şikayətçi olmayın".

Ələkbər o vaxt əsgərlikdə imiş. Atasının başına gələni eşidəndən sonra icazə alıb evə gəlmişdi. Ələkbərin ürəyi dözməyib: "Ay ana, yazıqdır. Hər bir adamın başına gələ bilər. Onsuz da onu tutdurmaqla ata sağalan deyil". Beləliklə anasını razı salıb şikayət etməkdən çəkindirir.

Ata isə yataq xəstəsinə çevrilir. On bir il yataqda qalır. 1994-cü ildə Adıgözəl kişi elə yataqda ikən təkrar insult keçirib dünyasını dəyişir.

***Anası Yaqut Hüseynova:***

"Ələkbər 1961-ci ildə anadan olmuşdu. Sakit uşaq idi. Səkkizinci sinfə qədər o biri uşaqlardan heç nəylə fərqlənmirdi. Öz otağına çəkilər, özünə müxtəlif məşğuliyyətlər tapardı. Daha burada nələr düzəltmirdi: təyyarə, maşın, qatar. Onun üçün "Texnika-molodyoji" jurnalını alardıq. Ordan maraqlı konstruksiyalar seçib qurur, redaksiya ilə əlaqə saxlayır, gənc texniklər üçün keçirilən tədbirlərdə iştirak edirdi. Bir dəfə indiki Azadlıq meydanında keçirilən yarışda onun quraşdırdığı təyyarə modelini uçurtdular. Bu an mənə elə gəldi ki, bu, Ələkbərin fantaziyası, sakit, mülayim təbiətində gizlədib-saxladığı xəyallarıdır, genişliyə, ümmana doğru uçur. Ondan daim ehtiyat edirdim. Bir az zəif uşaq idi, tez-tez soyuqlayardı. Ona görə də çalışırdım onu bu işdən, açıq havada təyyarrə uçurmaqdan uzaqlaşdırım.

Amma hardasa 13-14 yaşlarından o özü texnikadan daha çox musiqiyə, rəqsə meyil göstərməyə başladı. Nəyə görəsə son vaxtlar xırda-xırda bizdən pul alır, özü üçün yığırdı. Günlərin bir günü gördük budur, həmin pula nağara alıb gətirib evə. Azca keçəndən sonra qarmon, sonra maqnitofon aldı. Beləcə, otağını çevirib incəsənət guşəsi elədi. Bununla paralel məktəbdə də özfəaliyyət musiqi dərnəyinin solisti kimi çıxış edirdi. Səs ona atasından keçmişdi. Adıgözəlin də gözəl səsi, qeyri-adi ifa tərzi vardı. Ələkbərin səsi isə çox nadir rast gəlinən tembrə malik idi. Bir gün də eşitdik ki, rəqsə gedir. Hardasa bir il rəqsə gedəndən sonra müəllimi ona belə xarakteristika verdi: bu uşaq artıq peşəkar rəqqasdır. Sən demə, Ələkbərin axtarışları bununla da bitməyəcəkdi. Bir gün gəlib bizə xəbər verdi ki, Yuri Qaqarin adına Pionerlər Sarayında (*indiki Tofiq İsmayılov adına Uşaq və Gənclər Sarayı – red.*) dram dərnəyinə yazılıb. Bax özünü, nəhayət, orda tapdı. Ona baş rollar verirdilər. Bir gün məni Mark Tvenin əsəri əsasında "Şah-

zadə və dilənçi" tamaşasına çağırdılar. Tamaşa anşlaq keçdi. Mən hətta unutmuşdum ki, baş rolda oynayan mənim uşağımdır. Tamaşaya baxdıqca gülür, ağlayırdım. Onuncu sinfə qədər Ələkbər bütün diqqətini, gününü, vaxtını dram dərnəyinə sərf etdi. Bir-birinin ardınca müxtəlif tamaşalarda çıxış etdi. Açığı, istəmirdim bu yolu tutsun. Onu fikrindən döndərmək, başqa sənət seçməyə yönəltməyə çalışırdım: "Alik, bax a… Birdən artistliyə meyil salarsan… Biz atanla səni tamam başqa sahənin adamı görmək istəyirik."

## Bakıdan Şəkiyə və geri

Taledən isə qaçmaq olmur.  Ələkbər özü də bu taleyin ardınca məmnunluqla gedirdi. O, aktyor olmalıydı. Onuncu sinfi qurtaran kimi sənədlərini İncəsənət İnstitutunun aktyorluq fakültəsinə verir və daxil olur.

"İnstituta imtahan verəndə mən də qarşıdakı bağda oturub nəticəni gözləyirdim. Mənimlə yanaşı dayanan, skamyada əyləşən valideynlər dilənçilərə pul verir, dua eləyirdilər ki, uşaqları yaxşı qiymət alsın. Mənsə ürəyimdə Allaha yalvarırdım ki, qoy, Ələkbər daxil olmasın. İstəmirdim o, aktyor olsun. İstəyirdim, texniki elmlərə yiyələnsin, alim olsun. Bu fikirlərlə institutun qarşısında məşhur aktyorların içəri girdiyini, içəridən çıxdığına baxır və onları ilk dəfə həyatda gördüyümə görə xoş təəccüb, maraq hissi keçirirdim. Rasim Balayev, Şəfiqə Məmmədova, Mikayıl Mirzə… Birdən görürəm, daha bir tanış institutdan çıxıb, sevincdən əllərini havada yellədə-yelləde mənə doğru gəlir. O anda başa düşdüm ki, Allah belə məsləhət görür, oğlum aktyor olacaq. Mənim yalvarışlarımın heç bir əhəmiyyəti yoxdur".

İxtisas fənnindən imtahan götürən müəllimlər, professorlar Mehdi Məmmədov, Rza Təhmasib, Ələmdar Quluzadə, Nəsir Sadıqzadə və digər hörmətli pedaqoqlar, sənətkarlar Ələkbərə şeir dedizdirdikdən, etüd oynadandan, mahnı oxutdurandan, rəqs et-

dirdikdən sonra onun aktyor olacağına tam əmin, arxayın olmuş, hamı ona "əla" qiymət yazmışdı. İnstitutda ixtisasdan ona Nəsir Sadıqzadə dərs deyirdi.

Təhsilini başa vurandan sonra Ələkbər Hüseynov təyinatla Şəki Teatrına yollanır. 1982-ci ildə bir il hərbi xidmət keçəndən sonra yenə öz işinə qayıtdı. 1987-də onlar Şəkidən Bakıya döndülər. Ələkbər Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında işləməyə başladı.

O vaxtdan Ələkbər əminin sənət yolu başladı desək, qəbahət etmiş olmarıq. Oynadığı rollar, rejissor kimi hazırladığı tamaşalar bir yana... Balacaların "Ələkbər əmi"si böyüklərin də yaddaşında məhz Kukla Teatrından başladığı yolla qaldı.

Lap ilk gəncliyindən, o vaxtlardan ki, özü uşaqlığa təzəcə əlvida deyib gəncliyinin ilk sevgi deyilən günlərini yaşayırdı.

## Əminin sevgi tarixçəsi

***Afaq Hüseynova (həyat yoldaşı):***

"İlk baxışdan xoşuma gəlmədi. Analarımız bir yerdə işləyirdilər. Anası məni xoşlamışdı və anamla qərarlaşmışdılar ki, bizi görüşdürsünlər. Bir axşam Yaqut xala ilə bir qarayanız oğlan gəldi evimizə, boyu ortadan bir az hündür, qalın, qıvrım, qapqara saçlarını arxaya vermişdi. Nəyə görə birinci görüşdə xoşuma gəlmədi, bilmirəm. Amma ikinci görüşdə... Mən konservatoriyada (indiki Bakı Musiqi Akademiyası) oxuyurdum. Dərsdən çıxanda gördüm o gün anamın rəfiqəsi ilə bizə gələn oğlan dayanıb məni gözləyir. Üzündə elə xoş ifadə var ki, sanki biz bir-birimizlə bir dəfə yox, dəfələrlə, ömrüboyu görüşmüşük. Onun bu ovqatı beş dəqiqədən sonra mənə keçdi. Sən demə, evdə görüşəndə hər ikimiz sıxılırmışıq. İndi isə Ələkbər sıxıntını aradan qaldırıb danışmağa başladı, özü də nə başladı… Heç özümdən xəbərim olmadan bir də gördüm, qəşş eləyib gülürəm. O qədər maraqlı, məzəli, mənim üçün yeni olan söhbətlər edirdi ki, bütün varlığımla ona diqqət

kəsilmişdim. Bütün şəhəri gəzdik, elə bildik beş dəqiqə keçib. Xəbərimiz olmadı ki, artıq gün keçib, axşam olub. Mən o görüşü heç vaxt, heç vədə yadımdan çıxarmayacağam. O görüş bizi bir-birimizə əbədi bağladı. Əbədi. Bu gün Ələkbər dünyada yoxdur, amma o görüşün təəssüratı yaşayır. Özü də təkcə mənim daxilimdə yox, ikimizin arasında yaşayır. O günü, ona bənzər başqa günləri, eləcə də anları mən Ələkbərlə birlikdə xatırlayıram.

Bir dəfə uroloji xəstəxanada əməliyyat keçirmişdi. "Qətl günü" tamaşasının televiziya variantı hazırlanırdı. Onu heç kimlə əvəz eləmədilər. Əsərin müəllifi Yusif Səmədoğlu özü imkan vermədi ki, onu kiminləsə əvəz etsinlər. Gözlədilər. Ələkbər azca sağalan kimi elə xəstəxanadan gəlib onu çəkilişlərə aparır, sonra yenə gətirib qaytarırdılar yatdığı palataya. Hətta çəkilişlərin birində qan azlığından huşunu itirdi. Telestudiyaya təcili həkim çağırdılar. Birtəhər onu özünə gətirəndən sonra yenə rolunu oynamağa qayıtdı.

Ələkbər üçün nə kiçik rol var idi, nə də kiçik iş. Hər bir şeyə diqqət, qayğı, işgüzarlıqla yanaşırdı. Evdə adi su kranını düzəldəndə belə onu ən yaxşı ustanın əlindən çıxan iş səviyyəsinə qaldırardı. Amma bir şərtlə: gərək buna daxilən hazır olaydı. Həvəs demirəm, sadəcə, evdə nəsə xarab olanda hamımızı belə sakit edərdi: "Darıxmayın, düzəldəcəyəm, amma hələ yox, hələ məqamı gəlməyib".

İndi də bəzən nəyisə düzəltmək lazım gələndə, mənə elə gəlir, yenə onun səsini eşidirəm: "Darıxma, məqamı çatanda hər şey düzələcək".

2002-ci ildə Ələkbər Hüseynov UNİMA – Beynəlxalq Kukla Teatrları Birliyinin xətti ilə Parisdə keçirilən böyük tədbirlərdə iştirak etməliydi. Bu tədbirə ciddi hazırlaşırdı. Amma diş ağrısı ona əziyyət verirdi. Getməzdən əvvəl diş həkimi olan dostunun yanına yollanıb ki, ağrılı dişdən canını qurtarsın. Kaş elə diş ağrısı ilə Parisə gedəydi, görünür bu da taleyin oyunudur. Fransaya getdi, orada elə uğurlu çıxış etdi ki, hamı bəyəndi, çoxlu dəvətlər aldı. Gələndən sonra kefi yaxşı idi. Ailəsini götürüb Yessentukiyə din-

cəlməyə getdi. Hər şey yaxşı idi, yaradıcılıqda da, həyatda da işləri əla gedirdi. Amma həmin ilin sonlarında…

## “Hepatit C” diaqnozu

Günü-gündən rəngi saralırdı. Gözlərinin içində də sarılıq əmələ gəlmişdi. Yoldaşı onu məcbur həkimə aparır. Ciddi yoxladan sonra məlum olur ki, onda “Hepatit C” adlı virus var. Nə özü, nə də yaxınları buna inanmadı. Buna kim inanmaq istəyərdi ki… Fərqli yerlərdə təkrar analizlər eyni nəticəni diktə edir.

2004-cü ildə Moskvada məşhur xəstəxanalardan birində yenə həmin diaqnoz təsdiqləndi. Bu virus yalnız qanla keçə bilərdi. Ələkbər özü üçün müəyyən edə bilmirdi ki, harda bu virusa yoluxub? Ailədə hamı susqunluq keçirirdi. Moskva həkimi diş dibindən şübhələndiyini deyir. Onda Ələkbərin yadına düşür ki, 2002-ci ildə Paris səfərindən əvvəl dişini çıxartdırmışdı. İki il ərzində virus bədəndə öz işini görübmüş. Artıq qara ciyəri şişməyə başlamışdı.

## Ana, mən öləcəm…

***Yaqut Hüseynova:***

“Təzə ev almışdıq, beşinci mərtəbədə. Ələkbərin əl qabiliyyəti yaxşı olduğundan çardağı qəşəng düzəldib, yerə metlax döşəyib, oranı səliqəli iş otağına çevirmişdi. İndi də ora iş otağıdır. Amma çox zaman boş qalır. Ələkbər internetdə maraqlı nəsə oxuyanda oradan bizi çağırardı. İndi də bizə elə gəlir ki, hansısa hadisə ilə əlaqədar, yaxud maraqlı bir xəbər, ya da çox gülməli lətifə tapıb bizi yuxarı çağıracaq. Bu onun adəti idi. Evdə olanda internetə girər, maraqlı məlumatlarla tanış olardı. Bir gün eşitdim məni çağırır. Qalxdım onun yanına. İnternetdə “Hepatit C” səhifəsini açıb yavaşca mənə dedi:

- Görürsən, ana? Burda yazılıb bu virusa tutulanlar üç ildən səkkiz ilə kimi yaşayırlar. Mənim üç ilim başa çatmaq üzrədir…

- Niyə sən üç ili fikirləşirsən, səkkiz ili yox? – ağlıma gələn birinci fikirlə ona etiraz edib qışqırdım. Sonra çalışdım onu sakit edim. Yalandan bir hadisə danışdım:

- Bizim yaşlı bir xəstəmiz var, iyirmi ilə yaxındır bu diaqnozla yaşayır. Gəl sən də bədbin olma, Allah kömək edər, bir çarə tapılar bizim üçün də, mənim balam…

Bir neçə gündən sonra onun özünə gəlmədiyini, fikirli olduğunu, daim gözlərinin yol çəkdiyini görüb daha bir yalan danışdım. Mənim Türkan kəndində bibim yaşayır. Onun adından dedim:

- Bibi gedib "Quran" ağzı açdırıb, orda sənin üçün yazılıb ki, altmış yaşından az yaşamayacaqsan.

Hər gün mən onu belə söhbətlərlə qara fikirlərdən ayırmağa çalışırdım. Ona təlqin edirdim ki, xəstəlik keçəcək, yaxşı olacaqsan. Özüm isə dərdimi içimdə çəkirdim, hər səhər yastığım gecə tökdüyüm göz yaşlarından yamyaş olurdu. Gözüm get-gedə tutulurdu".

Artıq ömrünün sonuna az qaldığını duyan Ələkbər əmi işinə həmişəkindən daha ciddi yanaşmağa, bir-birinin ardınca yeni layihələrə imza atmağa başladı. Qət etmişdi ki, getdikcə azalan bu müddət ərzində daha artıq işləmək lazımdır. Daha fəal, daha yaradıcı həyat yaşamalıdır. Teatrda, televiziyada maraqlı layihələr həyata keçirir, ən müxtəlif tədbirlərdə iştirak edir, hara çağırırdılar, hansı konsertə dəvət edirdilər, gedirdi. Allah elə bil onun gücünü artırmışdı. Səmərəli işləyirdi. Rejissor kimi tamaşalar hazırlayır, şou-proqramlar aparır, uşaqlar üçün yeni verilişlər yazdırırdı. Ölümünə bir neçə ay qalmış onu teatrın baş rejissoru vəzifəsinə təyin etdilər.

**Teatrda uşaqlar üçün keçirilən böyük bir tədbirdə direktor Rəhman Quliyev valideynlərə müraciət etdi. Sonra televiziyalarda, onun iştirak etdiyi və etmədiyi proqramlarda, qəzetlərdə xəstəliyi və ciddi, böyük məbləğ tələb edən müalicəyə ehtiyacı**

**olduğu barədə məlumat verildi. Onun üçün hesab nömrəsi açıldı. Heydər Əliyev adına fond yardım etdi. Onun bədəni antibiotikləri qəbul etmirdi. Bu xəstəliyin tələb etdiyi çoxsaylı və güclü antibiotiklərlə onu müalicə eləmək qeyri-mümkün idi. Onu xarici xəstəxanalara göndərməyin də xeyri yoxdu. Orada da antibiotiklə müalicə edəcəkdilər. Odur ki bir yol qalırdı: yüngül vasitələrlə onu saxlamaq, xəstəlik hallarının gərginləşməsindən qorumaq.**

**Ölümünə bir neçə ay qalmış ona Polşada 1968-ci ildə təsis olunan "Təbəssüm" ordenini verdilər. Bu, dünyada yeganə orden-mükafatdır ki, onunla kimin təltif olunmasını yalnız uşaqlar müəyyən edir. Bu ordenə ən müxtəlif vaxtlarda Tereza Ana, Bill Klinton, Marqaret Tetçer, Dalay-Lama, Sergey Obraztsov, II İoann Pavel, Çingiz Aytmatov və başqa məşhur şəxslər layiq görülüb. Kim özünü uşaqlara, onların dünyanı daha rəngarəng görməsinə həsr eləyibsə, bax, o adamlara bu mükafat verilir. 2007-ci ildə Ələkbər aldı bu ordeni.**

Elə həmin ilin 2 avqustunda – çəkilməyə həsrət çəkdiyi kino günündə vəfat etdi.

Balaca qızcığaz ağzını açıb yeməyini yemək istəmir. Anası deyir ki, yeməyini yeməsən Ələkbər əmi bizə gəlməyəcək. Axı, o gün tamaşada sənə dedi ki, yeməyini ye, bir gün sizə gəlib anandan soruşacam, yemək yemisən, ya yox. Qız dərhal ağzını açıb yeməyini həvəslə yeməyə başlayır.


Ey ömür qatarım,
belə tələsmə,
Bir də bu dünyaya
gəlməyəcəyəm...

Nədənsə aktyorun dilindən eşitdiyim bu misralar onun haqqında yazmaq fikrinə düşəndən beynimdə fırlanır.

Tale insanın xarakterindən asılıdır. Birincini əksər halda ikincini, yəni xarakteri müəyyən edir. Xüsusən əgər şəxsiyyətlisən, yarınmağı bacarmırsansa həyat sənə çətin olacaq, çox çətin. Xarakterinə əks xarakterli insanlar səni hər addımda əzməyə, sındırmağa çalışacqlar, sənin şəxsiyyətin isə onların mənəvi əzilməsi olacaq.

Hamı biləcək ki, sən sınmadın, əyilmədin, yenilmədin, yıxılmadın, bu dünyaya dimdik gəlib elə də getdin. Qiymətləndirməyi bacaranlar tərəfindən seviləcəksən, sən dünyadan köçəndə simalarda bir təəssüf ifadəsi yaranacaq. İllər ötəcək, hərdən yada düşəcəksən, səni insanlara misal çəkəcəklər, "rəhmətlik yaxşı şəxsiyyət idi" deyəcəklər. O birisinin isə adı çəkiləndə sifətlər əyiləcək, hər kəsin daxilindən dilinə gətirmək istəmədiyi bir söyüş keçəcək.

Ailənin böyük övladı Kamal olub, amma bu Kamal yox, o, tez dünyasını dəyişib, sonra bu dünyaya gəlib və adını Kamal qoyublar. Bir qardaşı daha vardı.

İnqilabdan əvvəl babasının-Hacı Məmmədhəsənin neft mədənləri olub. Kamal Xudaverdiyevin yaşadığı bina əslində bütünlüklə onun ata-baba mülkü imiş. Sovet hakimiyyəti qurulandan sonra hər şey əllərindən çıxıb. Dövlət o binada aktyorun atasına 13 kvadrat metrlik mənzil verib.

Kamal Xudaverdiyev 3 may 1938-ci ildə Bakıda doğulub. Bir il sonra atası dünyasını dəyişib, üç il sonra müharibə başlayıb. Yeddinci sinfə qədər gündüz oxuyub. Səhər saat beşdə yuxudan oyanıb dəri sexinə qaçırmış. Orda dəri təmizləyir, saat səkkizdə məktəbə gedərmiş. Sonradan orta təhsilini 6 saylı fəhlə-gənclər məktəbində başa vurub. "Beş ili birtəhər yola verdik, anam işə ge-

dirdi. Mənim üçün 300 qram çörək qoyardı ki, yeyib məktəbə gedərəm. Anam gedən kimi o çörəyi yeyir, bir də axşama qədər ac qalırdım".

## "Fəxri adlı çilingər"

Bu sözü ona dostu , həmkarı Eldəniz Zeynalov deyərmiş.

Müharibədən sonra Qazaxstana xam torpaqlara işləməyə gedir. Burdan ora basanoşkalarda getmişdi, buna görə də ora düşən kimi ayaqlarını don vurur. Zillətlə işləyib ayaqları üçün məlhəm alır və özü müalicə edir.

Qayıdandan sonra 10 il çilingər işləyir. Bütün bu illər ərzində ən çox sevdiyi iki məşğuliyyət varmış, biri hər gün Xəzər sahilinə gedib içinin bütün dərdlərini ona açıb demək, biri də hər həftə sonu teatra getmək. Bileti də həftənin əvvəlindən alırmış.

Yenilikçi ruhlu 60-cıların nümayəndəsi bu münvalla İncəsənət İnstitutunun aktyorluq fakültəsinə qəbul olunur. Daha doğrusu birinci il rus dili imtahanından keçmir. İkinci il bir də ondan imtahan götürən Adil İsgəndərov soruşur ki, axı sən ötən il qəbul olunmalı idin, mən səni xatırlayıram. Kamal Xudaverdiyev rus dilindən kəsildiyini deyir.

Adil İsgəndərovun kursunda təhsil alır. Onun sevimli tələbələrindən olur. Qüdrətli sənətkarlar Mehdi Məmmədovdan və Rza Təhmasibdən də ixtisas təhsili alır.

1965-ci ildə ali təhsilini başa vuran Kamal Xudaverdiyev Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun təklifi ilə oktyabr ayının 1-də truppaya ştata götürülüb. **Raul. "Orlean qızı", Fridrix Şiller, Fərman. "Yalan", Sabit Rəhman, Murov. "Günahsız müqəssirlər" Aleksandr Ostrovski, Lətif. "Söz yarası" Qeybulla Rəsulov, Demetr. "Antoni və Kleopatra" Vilyam Şekspir, Aslan. "Kəndçi qızı", Mirzə İbrahimov, Laert. "Hamlet", Vilyam Şekspir, Ədalət. "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev, Tahirov. "Ümid", Maqsud İbrahimbəyov.**

**Loğman. "Yollara iz düşür", Bəxtiyar Vahabzadə, Sezar. "Kölgələrin oyunu", Yuri Edlis, Hüseynov. "Qızıl teşt", Seyran Səxavət, Kral Lir. "Kral Lir", Vilyam Şekspir, Süpürgəçi. "Ah, Paris... Paris!..", Elçin, Şah Edip. "Şah Edip", Sofokl, Çingizxan. "Sokratı anma gecəsi". Çingiz Aytmatov və Muxtar Şahanov, İzzət paşa. "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı. Salman Tahirov. "Cəzasız günah", Bəxtiyar Vahabzadə, Aqşin. "Dar ağacı", Bəxtiyar Vahabzadə, Dolbanezo. "Kəllə", Nazim Hikmət.** Bunlar dram teatrında onun yaratdığı obrazların yalnız bir hissəsidir.

## Şöhrətin yox, sənətin əsiri

Deyirdi, bu sənətə gələndə gərək qazanc məqsədi güdməyəsən: "Dolanışığın olsa evlən, olmasa ona da cəsarət etmə, çünki fikri ailənin dolanışığının yanında qalan adamdan aktyor olmayacaq".

Elçinin "Ah, Paris, Paris" tamaşasında yaratdığı süpürgəçi obrazı tamaşanın əvvəlindən sonuna qədər səhnədə olan, yalnız danışmayan, mimikalarla yadda qalan bir obraz idi. Həmin rolu rejissor kimə tapşırmaq üzərində çox düşünüb. Sonda teatrın direktoru "bunu çox böyük aktyor oynamalıdır, ver Kamal Xudaverdiyevə" deyib.

İlk çəkildiyi film isə "İstintaq davam edir" filmi idi. Əlisəttar Atakişiyrv baş rola - Çingizov obrazına çəkilmək üçün xaricdən aktyor dəvət etmək istəyirmiş Adil İsgəndərov kinostudiyanın direktoru kimi bu fikrin əlehinə çıxıb və təkidlə həmin rola Kamal Xudaverdiyevi təklif edib.

Ondan sonra da aktyor çox filmlərdə-«Azərbaycanfilm» kinostudiyasında «Sonuncu müsahibə» (Həsənov), «Dağlarda döyüş» (Rüstəmov), «Nəsimi» (Yusif), «Abşeron» (Əli), «Üzü küləyə» (Kombinat müdiri), «Adanı özünlə apara bilməzsən» (Ata), «Otel-

də bir otaq» (Alim), «Dədə Qorqud» (Ata)-xaraktercə fərqli obrazlara çəkilib.

Tamaşaçıların yaddaşında isə daha çox Azərbaycan Dövlət Televiziyasında hazırlanan tamaşalarda oynadığı obrazlarla qalıb.

**İlyas Əfəndiyevin «Atayevlər ailəsində» (İldırım), Ənvər Məmmədxanlının «Şərqin səhəri» (Cavanşir bəy),Mehdi Hüseynin «Alov» (Qaşqay), Əlibala Hacızadənin «Yadigar» (Müəllim), Nazim Hikmətin «Bayramın son günü» (Firuz) və «Şöhrət və ya unudulan adam» (Doktor).**

Doktor onun ən çox sevilən obrazı idi. Bir vaxtlar şöhrətdən başı gicəllənən insanın sonradan necə unudulduğunu Kamal Xudaverdiyev elə məharətlə yaradırdı ki, tamaşanı görənlər indi də onu yaddaşlarında saxlayıblar. Televiziyada son rolu Elçin Mehrəliyevin «Yurd yeri» film-tamaşasında Mahal kişi oldu. Aktyor ev-eşiyindən, doğma yurd yerindən didərgin düşmüş milyonların ümumiləşdirilmiş obrazı Mahal kişi ilə o dərdin nə olduğunu anlamayanlara da anlatdı.

Bu o dövr idi ki, teatr tənəzzülə doğru surətlə gedirdi. Ömür boyu şöhrətin yox, sənətinin əsiri olan aktyor bu vəziyyətlə barışa bilmirdi.

Oğlu Hüseyn Xudaverdiyev: "Atam sənəti çox yüksək tuturdu. Çox da şəxsiyyətli insan idi, çətinliklərlə yaşamışıq, amma heç vaxt heç kimdən özü, ailəsi üçün nə isə xahiş etməyib. Yalnız teatrın düşdüyü vəziyyət onu çox incidirdi. Təsəvvür edin ki, Moskvada xəstəxanada yatanda teatr üçün çox darıxırdı. Əməliyyat olunacağını biləndə isə həkimə sualı bir bu oldu ki, mən səhnəyə çıxa biləcəm? Həkim dedi hə, dedi, onda nə edirsiz edin. Əməliyyatdan sonra səsini itirdi. Dedi ki, görürsən həkim məni aldatdı. Ağ ciyərində olan problemə görə ciyərin bir hissəsini kəsib götürdülər. Ondan əvvəl isə ürək fəaliyyətini artırmaq üçün ürəyini əməliyyat etmişdilər. Xəstəxanada diaqnozunu özü bildi, amma qətiyyən sınmadı. Onu sarsıdan yalnız teatra gedə bilməməsi idi. Sonra bir az düzələndə gedirdi. Altı ay sonra müayinə olundu. Burda müayinədə ciyərində yenidən yaranan işartıları həkimlər

tikiş yerləri kimi qəbul ediblər. Sonra da Moskva həkimi "artıq gecdir" dedi. Dəfn günü ömür boyu onu izləyən ədalətsizliyi bir daha hiss etdim.

Ailə onun üçün sənətdən sonra idi. Demirəm bizi sevmirdi, amma ailəni də gec qurmuşdu ki, sənətdə özünü təsdiq etsin sonra. Anamı sevmişdi, ona görə evlənmişdi. Xalamın əri atamın dostu olub. Onların toyunda atam anamı görüb, tez bir zamanda da evləniblər. Atamın 37 yaşı varmış.

25 ildən artıq mənzil növbəsində olub. Bir-iki dəfə öz növbəsinin tamam evsiz olan aktyorlara güzəştə getmişdi. Evi ona xəstələnəndən sonra verdilər. Ədalətsizlikdən narazı idi, teatrın vəziyyətindən nigaran getdi. Ona təqaüd kəsilmişdi, ev də verdilər, diqqətdən kənarda qalmadı. Teatrın düşdüyü ümumi durum onu incidirdi".

Xalq artisti 70 yaşının tamam olmasına 10 gün qalmış 2008-ci 23 apreldə dünyasını dəyişdi.

Adi məzarlıqda dəfn olundu.

Bu gün ondan qalan iki oğul övladı, özünün hələ sağlığında adını verdiyi nəvəsi Kamal Xudaverdiyev, bir də şəxsiyyətinə hədsiz sevgidir.

Beləcə xarakteri taleyini müəyyən etdi. O tale ki, bu gün də onun ruhunu, xatirəsini izləyir.



# Gül çöhrənin, yaxud Gülçöhrənin hekayəti

1938-ci ildə Moskvada Azərbaycan Mədəniyyəti günləri keçirilirdi. Mədəniyyət kollektivinə Üzeyir bəy Hacıbəyov rəhbərlik edirdi. Konsertlərdən birinə Stalin də gəlmişdi. Azərbaycan Dövlət Filarmoniyasının rəqs kollektivinin çıxışından sonra Stalin onlarla görüşdü və yanında əyləşmiş Üzeyir bəyə qızlardan birini göstərib kimliyi ilə maraqlandı. Üzeyir bəy "Leyladır bizim rəqqasə qızlardan biri" cavabını verdi. Stalin qızı yanına çağırıb onu qucaqladı və alnından öpdü: "Sən əsl Azərbaycan gözəlisən"-dedi.

## Xan nəvəsi, bəy qızı

Həmin bu Azərbaycan gözəli Bakıda-İçəri Şəhərdə doğulub boya-başa çatmışdı. Atası Ağalar Bədirbəyov Şəmkir bəylərinin nəslindəndir. Anası şəmkirli Bikə xanım isə xan qızıydı.

Leyla ailədə tək uşaq deyildi, amma ailənin ərköyünü idi. Atası da ona xüsusi diqqət göstərərdi. Onu əlinə batan tikan atasının ürəyinə sancılırdı sanki. 12 yaşında belə atasının qucağında gəzərmiş. Bir qonaqlıqdan, gəzintidən qayıdanda "yoruldum" deyən kimi atası Leylanı qucağına alarmış.

Anası Bikə Əli Bayramov klubuna-qadınların dərnəyinə gedirdi. Qızını da özü ilə aparırdı. Leylanın incəsənətə marağı da o vaxtdan yaranmağa başlayır.

O, səhnəyə çox gənc ikən çıxıb. 16 yaşı tamam olmamışdı, amma Filarmoniyada solist kimi çalışırdı. Şəxsən Leyla üçün rəqslər qurulurdu. "Toy" və Əlibaba Məmmədovun "Bir dənəsən, bir dənə" rəqsləri məhz onun üçün nəzərdə tutulmuşdu. Filarmoniyada çalışdığı illərdə "Ayna", "Bakının işıqları" filmlərində çəkilir. 1941-ci ildə isə onu Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət edirlər. Beləcə Azərbaycan teatrına bir imza daxil olur-Leyla Bədirbəyli.

Tamaşalarda həmişə baş rolları oynayırdı. Öz işinə çox ciddi, məsuliyyətlə yanaşması onu hamıya sevdirmişdi. Çıxış edəcəyi tamaşaya 2 saat əvvəl gələrmiş. Peşəsinə çox sadiq və məsuliyyətli olduğundan onun sirrlərinə də dərindən yiyələnirmiş. Məsələn "Solğun çiçəklər"də Saranı oynayırdı. Bu tamaşada sonda Sara ölür. O tamaşanı Leyla dəfələrlə oynayıb, amma bir dəfə də olsun səhnəyə baş əyməyə çıxmayıb. Deyirmiş axı, Sara ölüb, mən tamaşaçıların qarşısında necə baş əyim? Leyla Bədirbəylinin teatrda ilk çıxışı M.İbrahimovun «Məhəbbət» tamaşasında Zəhra rolu olub, bunun ardınca A.Ostrovskinin «Tufan»ında Klaşa obrazını yaradıb. Bundan sonra teatr səhnəsində «Pəri cadu» tamaşasında Pəri, «Vaqif»də Gülnar və Xuraman, «Xanlar»da Mehriban, «Solğun çiçəklər»də Sara, «Almaz»da Almaz, «Şərqin səhəri»ndə Dilarə, «Xoşbəxtlər»də İncə, «Əliqulu evlənir»də Qumral, «Kəndçi qızı»nda Göyərçin, «Şeyx Sənan»da Zöhrab, «Uzaq sahillərdə» Ancelika, «Otello»da Dezdemona, «Canlı meyit»də Liza və digər rollar ifa edib.

## Gülçöhrəni ona Üzeyir bəy sınaqsız, amma imtahanla verib

1945-ci il... Leyla Bədirbəyli həm teatrda, həm də kinoda neçə-neçə obrazlar oynayıb, tanınır, sevilir. Stalin "Arşın mal alan" musiqili komediyasını çox sevdiyindən onun filminin çəkilməsi ilə bağlı göstəriş verir. Üzeyir bəy Hacıbəyli əsas rollara Rəşid Behbudovla Leyla Bədirbəylini seçir. Gülçöhrə roluna 100-dən artıq namizəd var idi. **Üzeyir bəyin dəvəti və təşəbbüsü ilə filmə Leyla Bədirbəyli çəkilib. Filmin çəkilişləri yay aylarında Şüvəlanda gedirdi. Məşq zamanı rol alınmırmış.** Bunu görən Üzeyir bəy Leylanı yanına çağırıb deyir: "Qızım, mən səni bu filmə çəkə bilməyəcəm. Çünki bu rol səndə alınmır". Leyla qayıdır evə. Gecə nə isə düşünürsə, səhər yenidən gəlir Üzeyir bəyin yanına və onun roluna sonuncu dəfə baxmağı xahiş edir. Bu dəfə Gülçöhrə obrazı

uğurlu yaradır. Üzeyir bəy isə "mən belə dedim ki, gedib öz üzərində çalışasan" deyir. Və beləcə Leyla Bədirbəyli dünya ekranlarına çıxan "Arşın mal alan" filminə çəkilir.

Leyla xanımın bacısı xatirələrində yazır: "Onda Rəşid Behbudovun Bakıda evi yox idi. Köhnə "İnturist"də qalırdı. Özü də gec evlənmişdi. Anam çox xeyirxah qadın idi. Deyirdi ki, evi yoxdu, yeməyini heç kim bişirmir. Rəşid bizimlə ailəvi yaxınlaşmışdı. Yeznəmizlə də yaxın dost idilər."

## Anasının dişləri onun sevgisinin güdazına gedib

Leyla Bədirbəyli 1937-ci ildə, yəni hələ 16 yaşı olarkən ailə həyatı qurub. Lakin bu ailənin ömrü çox qısa 1-2 il olub. 1942-ci ildə isə Kamil Aslanova ərə gedir. Onların tanışlıqları Filarmoniyadan başlayıb. Kamil Aslanov ixtisasca diş həkimi olub, amma rəqs etməyi xoşlayırmış və gözəl də rəqs edirmiş. O, da Əli Bayramov klubuna gedirmiş. Görünür, elə o vaxtdan Leylada gözü olub.

Yenə bacısı xatırlayır: "Anam danışardı ki, bir gün Leyla gəlib deyib ki, yaxşı bir diş həkimi var gedək onun yanına. Yəqin anamın dişi ağrıyırmış. Görünür, onlar görüşürmüşlər, ancaq anama deməyə utanıb. Hər dəfə də anamı aparanda Kamil olun bir dişini çəkirmiş. Anam həmişə deyərdi ki, mən dişlərimi qızımın yolunda qurban elədim. Elçi gələndə isə artıq hər şey bəlli oldu. Anam dedi ki, bunu elə əvvəldən deyərdin, mən də dişlərimi çəkdirməzdim".

Leyla ilə Kamilin bir neçə il övladları olmur.

Bu illər ərzində Leyla Bədirbəyli artıq bütün SSRi məkanında tanınmışdı.

«Arşın mal alan» qısa vaxt ərzində dünya şöhrəti qazandı və dünyanın bir çox xalqları bəstəkarın sehrli musiqisinə, mənalı yumoruna valeh oldular. «Arşın mal alan»a görə yaradıcı qrup, o cümlədən Leyla Bədirbəyli 1946-cı ildə Stalin mükafatına (sonralar SSRİ Dövlət mükafatı adlandırıldı) layiq görüldülər.

Leyla Bədirbəyli yaratdığı Gülçöhrə obrazına görə dünyanın müxtəlif ölkələrindən məktublar almışdı. Bolqarıstandan gənc qadının göndərdiyi məktub bu sözlərlə qurtarır: «Mən beş oğlun bir bacısına məharətlə oynadığınız Gülçöhrənin adını verdim. Bolqarıstanın Gülçöhrəsi Sizin kimi şöhrət qazansa, özümü xoşbəxt sayaram».

Onun kino taleyi uğurlu olub. Həmişə yüksək insani keyfiyyətlərə malik milli koloritli qadınların obrazlarını oynayıb. O, 50-yə yaxın bədii, televiziya bədii, qısametrajlı bədii filmdə çəkilib. Onun «Fətəli xan» və «Koroğlu» filmlərində yaratdığı Tuti Bikə və Nigar obrazları təkcə sevimli ərlərinin nəzakətli, incə və etibarlı arvadları deyil, həm də igid, cəsur məsləkdaşlarıdır.

«Onun böyük ürəyi» filmindəki Xalidə rolunda isə aktrisa böyük psixoloji həssaslıqla insan xarakterinin pərakəndəliyini və inamsızlıq hissini açıb göstərə bilib. Xalidə obrazı aktrisa Leyla Bədirbəylinin xarakterinə, təbiətinə uyğun olmasa da, bu rolun öhdəsindən bacarıqla gəlib.

Azərbaycan və Özbəkistan pambıqçılarının ənənəvi dostluğundan söhbət açan «Görüş» kinokomediyasında məhəbbət mövzusu ilə bağlı bir neçə süjet xətti var. Bunlardan biri Bilqeyis - Musa xəttidir. Filmdə gənc pambıqçı Bilqeyisin obrazını Leyla Bədirbəyli yaradıb.

Aktrisa müxtəlif illərdə çəkilmiş-«Kölgələr sürünür» filmində Leyla, «İntizar»da Ana, «Sevil» film-operasında Tafta, «Gilas ağacı»nda nənə, «Bizim küçənin oğlanları»nda Leyla, «Çarvadarların izi ilə»də Məfruzə, «Vulkana doğru»da Gülsum, «Kişi sözü»ndə Ana, «Dərviş Parisi partladır»da Şəhrəbanu xanım, «Asif, Vasif, Ağasif»də nənə, «O dünyadan salam»da Kəblə Fatma-filmlərdə maraqlı surətlər yaradıb.

## Faciə ardınca faciə

Ailədə də hər şey yaxşılığa doğrudur. İllər sonra 1947-ci ildə ilk qız övladları – Lalə dünyaya gəlir. 1964-cü ildə isə ikinci qızları olur. Ofeliya Bədirbəyli daha bir maraqlı hadisəni xatırlayır. Hərbçi olan və müharibəyə gedən atası haqqında 1943-cü ildə itkin xəbəri gəlir. Bikə xanım adət-ənənəyə sadiq qalaraq həyat yoldaşının yasını saxlayıb, qırxını verir. 4 ildən sonra gözlənilməz bir hadisə baş verir. Sara Qədimova ilə Leyla Bədirbəyli yaxın rəfiqə olublar. Hətta evləri yaxın olduğu üçün Filarmoniyaya da birlikdə gedib gələrdilər. Bir gün onlar Sara xanımgildə olarkən telefon zəng çalır. Ondan Leylagilin orada olduqları barədə soruşurlar və deyirlər ki, Leylaya qəfil deməyin, atası qayıdıb. Sara xanım çaşır, bilmir nə etsin və Kamili çağırıb ona deyir. Stol arxasında oturarkən Kamil deyir: "Yeməyimizi burada yedik, çayı da gedək anangildə içək". Evə yaxınlaşanda Sara Qədimova deyir: "Leyla, gedək evə görək ki, atan qayıdıb". O isə: "Nə danışırsan, elə şey olar? Atamın xəbəri 3-4 il əvvəl gəlib". Pilləkənləri qalxanda Sara xanım fikirləşirdi və həyəcan keçirirdi ki, Leyla atasını sağ və salamat geri dönmüş görəndə nə edəcək: "Qapını açanda gördü ki, evdə çoxlu adam var. Əvvəl qorxdu, elə bildi, anama nə isə olub. Ancaq içəri girib atamı görəndə qışqırıb ağladı və ürəyi getdi".

Leyla Bədirbəylidən Tanrı heç nəyi əsirgəməmişdi. Çox gözəl idi, istedadlı idi. Onu sevən, anlayan, qiymətləndirən və həyatın bütün təzyiqlərindən qoruyan həyat yoldaşı vardı. 55 il bir yerdə xoşbəxt, qayğısız həyat sürmüşdülər. İki qız övladları vardı. Bütün bunlar Leyla xanımın təravətli qalması üçün stimul idi. Bir gün həyat yoldaşı ona "sənə yeni maşın almaq üçün Almaniyaya gedəcəm" – deyir. Leyla xanım maşınları olduğu üçün etiraz edir-neyniyirsən yeni maşını, mənə bu da bəsdir-deyir. Kamil – o maşın daha sənə yaraşmır-cavabını verir və sabah Almaniyaya biletlə evə gəlir. Hər şey bir göz qırpımında olurmuş. Ailənin böyüyü sözü deyir, biletlə gəlir və səhəri Almaniyaya yola düşür. O, maşını alır, yol uzun olduğu üçün məsuliyyəti öz boynuna çəkməyib orda

yaşayan bir dostu ilə Bakıya doğru yola çıxırlar. Yağışlı havada necə olursa maşın sürüşüb yoldan çıxır və hər ikisi qəzada həlak olur. Onun cənazəsi Bakıya gələndə Leyla xanım şoka düşür.

Ərini ürəkdən sevən həyat yoldaşı üçün bu itkiyə dözmək çox çətin olur. Ancaq bu, bəs etmirmiş kimi, dərd üzərinə daha bir dərd gəlir... Heç bir il keçməmiş buna bənzər daha bir faciə baş verir. Leyla Bədirbəylinin böyük qızı Lalə xanımı Kukla Teatrının qabağında maşın vurur. Övlad itkisi də ananın ürəyinə dağ çəkir. İki böyük itki Leyla xanımın ömrünü şam kimi əritməyə başlayır. Bu iki ölümdən sonra o özü də tədricən ölməyə başlayır. Həyatdan küsür. Ər, övlad itkisindən sonra özünə qapanır. 3-4 il isə ümumiyyətlə, evdən çölə çıxmır. Onun üçün artıq heç nəyin marağı yox idi. Nə televizora baxırdı, nə də mütaliə edirdi. Hətta kimləsə görüşüb danışmaq belə istəmirdi.

Bunu eşidən ölkə başçısı o vaxt Leyla Bədirbəyliyə "İstiqlal ordeni"ni təqdim etmək üçün onu evdən çıxarda bilir. İllər ərzində bu görüş, bu evdən çıxma ilk və son dəfə olur. Yenə özünə qapanır. Onu həmin təqdimetmə mərasimindən görənlər Leyla xanımın niyə evə qapıldığını yaxşı anlayırdılar. Azərbaycan gözəli belə dərd içində, yaşlı, miskin kimi yaddaşlarda qalmaq istəmir. Onu əvvəlki, Gülçöhrəli Leyla kimi xatırlamalarını istəyir.

1999-cu il noyabrın 23-də Leyla Bədirbəyli gözlərini əbədi olaraq yumur. Dünyasını dəyişən gün də o, heç kimlə danışmayıb. Hamıdan, həyatdan, taleyindən küskün şəkildə sadəcə gözlərini yumub və gedib.

İndi onun adını kiçik nəvəsi daşıyır.



# İncik, inadkar, kövrək qərib

## Bir taleyin oyununda...

Tale deyilən nəsnə yaranışdan insanın əlində deyil, ola bilər ki, ağlınla hadisələrə cüzi təsir göstərib onu öz xeyrinə yönəldə biləsən, amma bütünlüklə heç nəyi dəyişə bilməzsən. Əgər o sənin taleyindirsə, ağıl da taleyinə nə qədər düşübsə o qədərdir, sonradan hansısa xidmətlərinə görə artırılmır. Düzdür insan ömür boyu nəyisə dəyişməyə cəhdlər göstərir... amma yenə əvvəlcədən kodlaşdırılmış formada ömrü sona çatır.

Tanrının bütün yaratdıqları kimi  qəhrəmanımız da Tanrının ona bəxş etdiyi əmanət ömrü kodlaşdırıldığı kimi yaşadı və...

## "Əhməd hardadır?"ın qəhrəmanı

Səyavuş Şəfiyevdən danışacağıq. Onun qəribə olduğu qədər də maraqlı taleyindən. Bəlkə kimlərəsə bu ad heç nə demir, amma öz dövrünün çox populyar, sevilən şəxsiyyəti olub. Adı dillərdə gəzib, Bakıda, Moskvada.. Sovet məkanının kumirlərindən biri idi. Onu bir dəfə görmək üçün  keçəcəyi küçədə saatlarla dayanıb gözləyənlər olardı. Bacıları deyir ki, evimizdə telefon dəstəyi yerə düşməzdi, bəzən Siyavuş özü də bezib telefona gəlməzmiş.

Bizim nəsil isə Siyavuş Şəfiyevi kinolardan tanıyır. "Əhməd hardadır?"dan (Əhməd),  "Uşaqlığın son gecəsi"ndən (Rüstəm) və "Nəsimi", "Nizami" kimi filmlərdə oynadığı  epizodik rollardan.

Məhəmməd və Südabə Şəfiyevlərin ailəsində beş uşaq böyüyürdü. İki oğlan, üç qız. Böyüyü Siyavuş 1937-ci ildə, o vaxt onların ailələri kimi yüzlərlə ailənin repressiya xofu, ağrısı ilə yaşadığı vaxt dünyaya gəldi.  Onda Məhəmməd Şəfiyev doğulduğu Cəbrayıl qəzasının Xanlıq kəndində rəhbər vəzifədə çalışırdı. (İndi həmin kənd işğalda inləyən Qubadlı rayon ərazisindədir) 1941-ci ildə onu cəbhəyə yollayırlar. Ayağından yara alıb ordudan tərxis

olunan kapitanı Beyləqan rayonuna birinci katib göndərirlər. Siyavuş orda ibtidai sinfi bitirir. Bakıya köçmələri isə yenə Məhəmməd Şəfiyevin Mərkəzi Komitəyə şöbə müdiri təyin olunması ilə bağlı olur. Beləliklə, Siyavuş Şəfiyev Bakıda orta məktəbi bitirir. Ata-anasının arzusu bütün azərbaycanlı valideynlər kimi onu hüquqşünas, həkim görmək idi. Siyavuşun isə daxili dünyası başqa sənəti diktə edirdi. Hələ orta məktəbdə oxuyanda dram dərnəklərinə, idmana gedirdi. Həmyaşıdlarının qibtə etdiyi bədən quruluşu vardı. Hamı ona səhnə adamı üçün istedadı və görkəmi olduğunu deyirdi. Odur ki, Siyavuş valideynlərinin istəyinə zidd çıxıb sənədlərini Moskva Sirk Sənət Məktəbinə verir və qəbul olunur.

Elə orda da sirk fəaliyyətinə başlayır və sevilməyə başlayır. Uğur arxasınca uğur gəlir. Və maraqlıdır ki, Siyavuş Bakı üçün daha çox darıxır. Hər gün bu alqışları Bakıda qazanmağın həvəsi ilə yaşayır və bu istək onu geri, Bakıya çəkir. Gəlir, Azərbaycan Milli Sirk Kollektivinə qoşulur.

Valideynlər isə yavaş-yavaş onunla barışmalı olurlar. Siyavuş Şəfiyev Bakı Teatr İnstitutunun rejissorluq fakültəsində oxuya-oxuya sirkdə çalışır. İnstitutda isə Adil İsgəndərovdan dərs alır. Dəvət olunduğu "Koroğlu" filmində Koroğlu roluna sirk kollektivi ilə qastrola getdiyindən çəkilə bilmir. Amma ustadı Adil İsgəndərov "Əhməd haradadır?" filmində Əhməd rolunda ancaq onu gördüyündən qastroldan qayıtmasını gözləyir. Əhməd obrazına - qaraqaş, qaragöz, qamətli azərbaycanlı oğlu üçün Siyavuş ideal surət idi.

## Qorxdu, iti zəncirlədilər

Adil İsgəndərovun onu çox tanınmış, peşəkar sənətkarlarla bir filmə çəkməsini Siyavuş Şəfiyev ömür boyu xoş hisslərlə xatırlayardı. Amma orda bəzi səhnələrdə çox çətinlik çəkdiyini də xatirələrində danışıb. İdmançı olduğuna görə, pəncərədən, hasardan tullanmağında problem olmayıb. Amma it üstünə gələndə

çox qorxub. Hasardan atılanda üstünə gələn iti zəncirləməli olurlar ki, Siyavuş-Əhməd rahat çəkilə bilsin. "Uşaqlığın son gecəsi" filmində isə Rüstəm Eliyanı qucaqlayıb öpdüyü səhnə var. Rejissor nə qədər çalışırsa Siyavuş Şəfiyev utanır və qızı öpməkdən imtina edir, axırda yalnız qucaqlaşma səhnəsi ilə razılaşmalı olurlar. Aktyor utandığından qızı öpmür.

Bu arada Siyavuş Şəfiyev daha bir hərəkəti ilə valideynlərinin ziddinə getmiş olur. Moskvada sevib-seçdiyi rus qızı ilə evlənib onu Bakıya gətirir. Anasından qorxduğundan gəlini nənəsinin yanında saxlayır, bir gün nənə gəlini də götürüb Siyavuşun ata-anasının yanına gətirir ki, gizli ailə qurulmaz. Siyavuşun inadını görən valideynlər yenə onunla razılaşmalı olurlar. Onların bir qızı da dünyaya gəlir. Siyavuşun isə həm milli sirk kollektivi, həm də Azərbaycan kinosunda şöhrəti birə-beş artırdı. Artıq əməkdar artist idi, amma mənzili yox idi. Hökumətə müraciət edir, baxırlar, amma ona evi mikrorayonda panel binada verirlər.

Siyavuş Şəfiyev imtina edir: "Mən ömür boyu Bakının mərkəzində yaşamışam, mikrorayonun heç yolunu tanımıram" – deyə incik düşür.

Oğlunun sındığını görən Südabə xanım çox narahatlıq keçirir və 1970-ci ilin noyabrın 25-də insult keçirir, beyninə qan sızan ana dünyasını dəyişir. Siyavuşun incik qəlbi daha bir yara alır. Ömründə yaşarmayan gözlərindən göz yaşları yanaqları boyu axır. Özünü anasının ölümündə günahkar hesab edir və içindən daman bir duyğu ilə "mən də belə öləcəm" deyir.

## Onu döşəməyə yıxılmış tapdılar

Bu o dövr idi ki, Moskva sirk kollektivi Siyavuşu geri qaytarmaq üçün cəhdlər edirdi. Onu orda fəxri adla yanaşı mənzil şəraiti, dünyaya çıxmaq imkanları gözləyirdi.

Ailəsini də götürüb gedir. Moskva Sirk Birliyinin baş rejissoru işləməyə başlayır. Moskva sirki ilə dünyanı gəzən Siyavuş

Şəfiyev sevimli işi, ailəsi ilə bir yerdə olsa da Bakıya qarşı içində qəribə bir nisgil vardı. Nə vaxtsa Bakıya qayıdacağı ümidi ilə yaşayırdı. Bacıları üçün də darıxırdı. Bir ayağı Fransa, İtalyada, biri Almaniyada dolaşır. Bir gün yenə rəhbərlik etdiyi sirk kollektivi ilə Fransanın Havr şəhərində imiş. Səhər hamı məşqə gəlib, Siyavuş Şəfiyev yoxdur. Çox məsuliyyətli adam olduğundan, həmişə hamıdan tez məşqə gəldiyindən yoldaşları təəccüblənirlər. Qaldığı mehmanxanadakı otağın qapısını açanda isə hamı şoka düşür. Siyavuş Şəfiyev döşəmənin üzərində huşsuz vəziyyətdə tapılır. İnsult keçirib, beyninə qan sızıb. Anası kimi.

Moskvada yaşayan bir qrup azərbaycanlı ziyalıların, o cümlədən Rüstəm İbrahimbəyov, Polad Bülbüloğlunun köməkliyi ilə Siyavuşun xanımı Lyubanı Fransaya göndərə bilirlər. Sonra da Siyavuş Şəfiyev Qızıl Ayparanın təyyarəsi ilə Moskvaya gətirilir. Bakıya gətirmək istəyirlər, Siyavuş Şəfiyev əl işarəsi ilə bu vəziyyətdə Bakıya getmək istəmədiyini başa salır. Bu onun arzusu deyildi, arzusu Bakıya başqa cür gəlmək idi.

Sənətkar düz doqquz il yataq xəstəsi kimi yaşayır. Bu illər ərzində xanımı, qız Cəmilə, bacıları növbə ilə ona qulluq edirlər. 2001-ci il noyabrın 25-də illər öncə anasını itirdiyi həmin gün ikinci insult onun əzablarına son qoyur. Vəsiyyətinə uyğun olaraq Siyavuş Şəfiyev Bakıya gətirilib doğma torpağına tapşırılır.

Cənazədə hamı vardı, doğmalar, dostlar, onu sevən, onun tanımadıqları belə. Bircə qızı Cəmilədən başqa. Amerikada yaşayan və ana olacağı günləri sayan Cəmiləni təyyarəyə minməyə qoymamışdılar. Qız atasının qəbir daşına yazılan bu misraları yazıb göndərə bilmişdi.

"Dostum, sevincim-fərəhim, fəxrim, idealım, yeganə sevdiyim atam, rahat uyu. Əbədi bizimləsən, qəlbimdəsən, səni heç unutmayacam. Həmişə olduğu kimi başım üzərində parlayan günəşimsən, sənin işığının şölələri altındayam. Səni çox sevən qızın və doğmaların."

Bu da belə bir tale idi. İnsanın dəyişməyə can atdığı, amma dəyişmək gücündə olmadığı tale. Necə kodlaşdırılmışdısa elə yaşadı və... getdi.

## Epiloq

İndi Amerikada Siyavuşun qızı və əkiz nəvələri yaşayır. Hələlik ailəsində onun yolunu bacısı Gülçöhrə Şəfiyeva davam etdirir. Uzun illərdir ki, Heydər Əliyev adına Respublika sarayının baş rejissorudur. Başqa bir bacısı, bizimlə qardaşı haqda xatirələrini bölüşən Nazilə Şəfiyeva isə kardioloqdur.


Həsən Ağa qüdrəti

2003-cü ilin fevral ayının 23-ü-bazar günü idi. Marta nə qalmışdı ki... Qarşıdan yaz gəlirdi, Novruz kandarda, havada ümidli günlərin qoxusu. Yaz özü ilə bərabər yeni, uğurlu, sevincli günlər gətirəcəkdi. Fevralın sonlarında istər-istəməz həyatda bir canlanma başlayır, sabaha ümid yaranır. Elə bilirik ki, həyatımızda yaxşı olmayan nə varsa qışda qalacaq, qoxusu gələn yazdan o qədər umacağımız var ki…

Nə yazıq ki, kimsə yalnız gözəlliklər, yaxşılıqlar umulan o yaza çıxa bilmir və onun kim olacağını da bilə bilmirik ki… O gün də elə oldu. Biri sadəcə üz çevirib getdi.

Amma bu gündən hər birimiz üçün var. Hamımız hansısa bir yazı görməyib gözlərimizi bu dünyaya əbədi qapadacağıq. Nə xoşbəxt o şəxsə ki dünyanı tərk edəndən neçə il sonra da yada düşəcək və arxasınca "Allah rəhmət eləsin", "Hayıf o insandan" kimi ifadələr səslənəcək. Bunun üçün nə lazımdır ki? Əslində çətin heç nə, bəlkə də kənardan baxanda asan gələn, amma çox çətin bir nəsnə - şəxsiyyət olmaq. Hansı sahədə olursan ol, az tanın, çox tanın, heç tanınma, ətrafında öz dairənin tanıdığı, qohum-əqrabanın bildiyi bir kəs ol, yetər ki, insan ol. İnsan olmaq tanınmış, məşhur səxs üçün göründüyündən daha çətindir.

Onu hamı tanıyır, hətta Azərbaycandan kənarda. Çəkildiyi filmlər Sovet dönəmində Amerikada belə göstərilib. Təkcə "Yeddi oğul istərəm" filmində Gəray bəy obrazını demək kifayədir.

Onun əsl adı Həsəndir. Tələbə ikən ağayanalığı, şux qaməti, yerişi-duruşu ilə tələbə yoldaşlarından "ağa" titulu qazanıb. Sonralar "ağa" sözü adının yanında çəkilb və Həsən Həsənağa olub. Onu çox yüksək qiymətləndirən rejissor Tofiq Kazımov Turabova "Turab" deyərmiş. Aktyor dostları arasında ona Turabov deyə

soyadı ilə müraciət edənlər də vardı. Bəlkə bu onun həm də uzun illər rəhbər vəzifələrdə işləməsi ilə bağlıdır. Həm teatr direktoru, həm də Teatr Xadimləri İttifaqının (TXİ) sədri. Yeri gəlmişkən, TXİ-na rəhbərlik etdiyi dövrlərdə həmin ittifaq qədər aktif fəaliyyətdə olan ikinci qurum yox idi. Turabov özü də aktyor, həm də çox kövrək insan olduğundan o təşkilatda xatirə gecələri, yaradıcılıq gecələri, görüşlər mütəmadi xarakter almışdı. Tez-tez müxtəlif teatr festivalları keçirilirdi. Teatrda yaxşı alınan tamaşanın premyerasından sonra yaradıcı qrupu özü yeyib-içməyə aparırdı. Belə vəzifə adamı idi.

"Bəyin oğurlanması"nda rejissor Əsəd – bir az baməzə, bir az dilxor, həyatdan bezmiş kimi. "Qəm pəncərəsi"ndə Mirzə Cəlil - klassikin, tarixi şəxsiyyətin obrazı. "Yaramaz"da Qəzənfər - yaramazın özündən yaramaz. "Təhminə"də Dadaş - loyal, yaşlı bir elm adamı. "Qorxma, mən səninləyəm"də əzazil bəy Cəfər. "Dantenin yubileyi"ndə aktyor olmaq üçün özünü oda atan, nə yazıq ki, istedadsız Kəbirlinski. "Dərviş Parisi partladır"da atları özündən də çox sevən, vecsiz Rəşid bəy. "Axırıncı aşırım"da sıradan bir bolşevik - Xəlil. "Yeddi oğul istərəm"də Gəray bəy, "Qanlı zəmi" də qaçaq Nəbi (həm də filmin quruluşçu rejissorudur), "Tənha narın nağılı" – Əli ( həm də quruluşçu rejissor). Bütün bunlar adi sıralama deyil, hər biri digərinin əksi olan xarakterlərdir. Biri digərinə heç bir xüsusiyyəti ilə bənzəmir. Adamın inanmağı gəlmir ki, bu obrazların hamısını eyni aktyor yaradıb – Həsənağa Turabov.

Onun kino yaradıcılığı hər birimizin gözlərin önündədir. Bizim nəsil Həsən Turabovun teatr tamaşalarını görməyib. Yalnız lent yazılarından ayrı-ayrı tamaşalardan qısa fraqmentlər görmüş olarıq. Məsələn, "Aydın"dan, yaxud "Sən həmişə mənimlsəsən", "Unuda bilmirəm" tamaşalarından. Qalanlarının lent yazıları da yoxdur.

Həsən Turabov həm də çox gözəl qəzəl sözyləyirmiş.

Yox... **onun haqqında "miş", "miş"lə yaxud**, kiminsə dilindən xatirlərini qeyd etməklə yaza bilməyəcəm. Çünki bu adamla

dəfələrlə canlı ünsiyyətdə olmuşam. Dəflərlə haqqında yazmışam, dəfələrlə söhbətləşib, hal-əhval tutmuşam. O qədər diqqətcil, kövrək, həssas, mehriban insan idi ki, bir az görünməyəndə özü adamı axtarırdı: "Qızım, hardasan? Səsin gəlmir. Dedim, birdən kimsə hansı yazından sonrasa sənə pislik edər, xəbərimiz olmaz". Bunu o vaxt demişdi ki, onun Milli Dram Teatrının direktorluğundan çıxarılmasından sonra teatra heç aidiyyatı olmayan insanlar rəhbərlik edirdi, onlar işçiləri incidir, haqsız olaraq işdən çölə atır, kassadan bilet pullarına qədər oğurlamağa cəsarət edirdilər. Mən də bunları yazmışdım və sonra bir neçə günlük istirahətə getmişdim. Həsən Turabov elə bilmişdi ki, yazdıqlarıma görə kimsə məni işdən çıxartdırıb. Belə insan idi.

İlk dəfə onunla müsahibə almaq istəyimi bildirib tanış olanda, kobud cavabla rastlaşmışdım, dəstəyi də başıma çırpırmış kimi yerə qoymuşdu. Çox qeyzlənmişdim, düşündüşm ki, belə bir sənətkar necə pis adam imiş. Bir yazı hazırlamaq fikrinə də düşmüşdüm. Bir saat sonra redaksiyaya İlham Rəhimli gəlməsəydi, bəlkə də sənətkar mədəniyyətsizliyi barədə yazım dərc olunacaqdı. Sağ olsun İlham Rəhimli izah etdi ki, Turabovun oğlunun faciəli ölümündən sonra jurnalistlərə qəzəbi soyumayıb, çünki ondan müsahibə alan bir jurnalistin "Oğlunuzun ölümünü eşidəndə hansı hissləri keçirdiniz?" sualı onun qəlbini möhkəm yaralayıb. İlham Rəhimli mənə müsahibə verməsi üçün Turabovun razılığını aldı. O vaxt Milli Dram Teatrında, onun direktor kabinetində görüşdük. Çox gülər üzlə qarşıladı məni, çay içə-içə, səmimi söhbət etdik. İndi haqqında yazacaqlarım da o vaxt özünün mənə danışdıqlarıdır.

Həsən Turabov Bakıda 1938-ci ildə martın 24-də dünyaya gəlib. Çox sadə, adi bir ailədə. Anası evdar qadın, atası sadə əmək adamı olub. İki qardaş olublar. Böyük Vətən Müharibəsinin ağır illəri onların uşaqlıq illərinə düşüb. Bununla belə Həsən orta məktəbi bitirib və Teatr İnstitutuna daxil olub. Riyaziyyatı çox gözəl bildiyindən hamı düşünürdü ki, Həsən riyaziyyatçı olacaq. Məhlədə oturub-durduğu dostlar arasında ən çox ünsiyyətdə olduğu Siyavuş bir gün Həsəni özü ilə dram dərnəyinə aparır. Hər gün

sonradan məşhur Siyavuş Aslan olacaq dostu Siyavuşun dərnəkdə oynadığı rollara baxmağa gedən Həsən bir gün görür ki, özü də səhnədədir. Siyavuşun toppuş görkəmi, komik rolları onda da xüsusən komediya janrına meyl yaradıb. Məhz komik rollar oynamaq üçün Teatr İnstitutuna daxil olub dörd il Mehdi Məmmədovdan aktyorluq dərsi alır.

Yaxşı diksiyası olduğu üçün elə tələbə ikən onu radioda işə götürürlər. Diplom tamaşasında oynadığı Hacı Qəmbər obrazı onun teatr taleyini müəyyənləşdirir. Həmin tamaşanı Adil İsgəndərov görür və Həsən Turabovu teatra dəvət edir. O vaxtlar teatrln aktyor truppasına işə götürülmək çox çətin məsələydi. Buna görə də Həsən Turabov dərhal radiodakı işdən çıxır və teatra gəlir. Adil İsgəndərov onun Mehdi Məmmədovun tələbəsi olduğunu biləndə aktyor kimi işə götürmək fikrindən daşınır. Mehdi Məmmədovla Adil İsgəndərovun soyuq münsibətləri təəssüf ki, sənətə də sirayət edirmiş. Onu köməkçi heyətə işə götürən Adil İsgəndərov az müddətdən sonra Turabovu aktyor kimi təsdiq edir. Eyni dövrdə aktyor filmlərə dəvət almağa başlayır.

Teatrda, kinoda tanınmış aktyor bir gün alman dili müəlliməsi Solmaza aşiq olur. Turabovun bu barədə dodaqküncü gülümsəməklə danışması indiyə qədər gözlərim önündədir: "Atası dedi ki, mən mütrüfə qız vermərəm." Mən də maraqla soruşdum: - Bəs, necə oldu, evlənmədiniz o qızla? "Necə evlənmədim, götürüb qaçdım, indi üç övladımın anasıdır, üç idi, indi iki övladım var".

Turabov xasiyyətcə mülayim olduğu qədər də prinsipial və öz prinsiplərinə sadiq adam olub. Bu səbəbdən də 61-ci ildə aktyor kimi teatra işə götürülən adam 62-ci ildə rejissor Nəsir Sadıqzadə ilə "Qaçaq Nəbi" pyesində Nəbi rolunu məşq edərkən sözləri düz gəlmədiyindən ərizə verib işdən çıxır. Birbaşa Odessa Dənizçilik İnstitutuna gedən və qəbul olan Həsən elə həmin il Mehdi Məmmədovun təkidi ilə yenidən teatra qayıdır. Dənizçilik İnstitutu qalır yarmçıq. Ondan sonra uzun illər Milli Dram Teatrının səhnəsində xüsusən baş rollarda oynayır. Teatra Həsən Turabovun timsalında yeni estetika gəlir. Azərbaycan teatrının səhnəsində Tofiq Kazı-

movun təbirincə desək “adam dilində”, yəni pafosdan uzaq, həyatda olduğu kimi danışmağın əsasını Həsən Turabov qoyur. İlk dəfə Turabov sübut edir ki, fikri çatdırmaq üçün qışqırmaq lazım deyil. İlk rollardan onun teatra gəlişi barədə xəbərlər yayılır, artıq tamaşaçılar bu aktyoru görmək üçün teatra gəlirlər.

Həsən Turabov gözəl aktyor idi, amma futbol, bir də şahmat oynamağı çox sevərdi. Şahmat oynayanda onun fikrini yayındıra bilən yeganə qüvvə isə nəvəsi Daşqın idi.

Daşqın əslində Turabovun böyük oğlunun adıdır. Turabovun iki oğlu, bir qızı vardı. Bayaq özündən gətirdiyim sitatda dediyi kimi üç idi, indi ikidir. Oğlanlarının hər ikisi hüquqşünasdır. Böyük oğlu Daşqın Siyəzəndə vəzifə başında, 1997-ci ilin mart ayında qəhrəmanlıqla həlak olub. Onun Ülkər adlı bir qızı qalır. İkinci oğlu indi də həmin orqanlarda çalışır. Turabovun qızı Sevinc isə anası kimi alman dili müəlliməsidir.

Daşqın indi Sevincin oğlunun adıdır. Həsənağa Turabov oğlunun həlakından sonra uzun illər ürək ağrılarından əziyyət çəkdi. İlk və son dəfə Milli Dram Teatrına seçki yolu ilə direktor seçilmiş Həsənağa Turabov İranda ürəyindən əməliyyat olundu. Ondan sonra cəmi dörd il yaşadı. Həmin əməliyyatdan sonra həkim üç il ömür vəd edir. O dörd ildə Həsənağa nəvəsi Daşqınla nəfəs alır, ondan oğlunun qoxusunu alırdı. O dörd il onun yaradıcı fəaliyyətinin çox qısa bir dövrü oldu. Əsasən rəhbər kimi fəaliyyət göstərirdi. Elə bir rəhbər ki, indi eləsini tapmaq çox çətindir. Böyük kollektivə rəhbərlik edəsən, sən içəri girəndə o kollektiv qorxudan deyil, nüfuza hörmətdən ayağa qalxsın. “Turabov gəlir” deyəndə hamı özünü yığışdırsın. Həm də yuxarı dairələrdə sənin nüfuzun rol oynaya. Səninlə hesablaşalar, qəbul etməyələr, səni rəhbər görmək istəməyələr, amma bununla hesablaşmağa məcbur olalar. Sənə görə teatr boyda bir mədəniyyət nüfuzdan salınmağa başlaya, sıxalar, çərçivə günü-gündən darala, sənin şəxsiyyətinə zərrə qədər xələl gəlməyə. Şəxsiyyətin oynadığın obrazlara da hopa. Aldığın adların, diplomların sayı-hesabı olmaya. Səni çağırıb “ərizəni yaz” deyilməyini gözləmədən özün ərizəni yazıb

vəzifədən gedəsən. Çünki başa düşmüşdü ki, əli ilə vəzifəyə gətirdiyi şəxs ona bu təklifi edəcək. Bir gün özün hiss edəsən ki, iyrəncləşən cəmiyyəti tərk etmək istəyirsən, ən yaxşısı budur. "Daşqının yanına getmək istəyirəm"-deyəsən və üstündən cəmi bir neçə gün keçəndən sonra istəyinə çatasan. Beləsi Tanrının da sevdiyi deyilmi?

2003-cü il fevralın 23-ü, bazar günü idi. Turabov səhər erkən qalxmışdı. Axşam boks çempionatına baxıb gec yatsa belə yenə erkən durmuşdu. Adətinə uyğun olaraq eyvana çıxıb Xəzərin üstündən günəşin Bakı üzərinə çıxıb şöləsini yaymağa başladığına tamaşa etdi. Bu onun səhərlər ən çox sevdiyi iş idi. İçəri geçib "Daşqın hanı?" soruşdu və yıxıldı. Qızı Sevinc deyir, indiyə qədər bizə müəmmalı qalıb ki, atam oğlu Daşqını soruşdu, yoxsa qonşu otaqda xalça üzərində oyuncaqlarla oynayan nəvəsi Daşqını.

Gözlərimiz önündə Gəray bəyi, Kəbirlinskini böyük məharətlə yaradan aktyorun gülümsər çöhrsəi durur. Hər şəxsiyyətin işi deyil, dünyaya şəxsiyyət gəlib, şəxsiyyət kimi də ölmək. Bunu üçün ağa qüdrəti lazımdır. Həsən Ağa qüdrəti.


Xanın kasıb nəvəsi

*"Həm ticarət, həm ziyarətə dəvət olunanda qorxdum ki..."*

72 filmə çəkilib, onların içinə televiziya tamaşaları da daxil olunmaqla. Azərbaycan kino tarixinə, mədəniyyətinə bir Mustafa rolu ilə də düşə bilərdi. Mustafa müəllim demək kifayətdir ki, aktyor Hacı İsmayılovun Mustafa üçün Tanrı tərəfindən biçilmiş siması göz önündə canlansın.

Müharibə vaxtı dünyaya gəlmişəm, 1944-cü ilin yanvarın 22-də, amma dünyaya gələndə bilmirdim müharibə gedir. Çətin, amma uşaqlığım olduğu üçün çox maraqlı illər idi. Bütün günü o daş küçələr, qala divarlarının üstü, Xan sarayı bizim oyun meydançamızdı. Top tapılmırdı, köhnə corabları bir birinin içində yumrulayıb top düzəldərdik. Çox xoş xatirələrdir. Hərdən imkan düşəndə gedib o küçələrdən keçirəm, xatırlayıram o günləri. Bizim İçəri Şəhərdə evimiz yox idi, şəxsi mülkdə kirayədə yaşayırdıq. Atam əslən Dərbənddən olub, gəlib Masallıdan anamla evlənib, Bakını ortaq məxrəc seçib burda yaşayıblar. Anam Masallıda tanınmış tayfanın qızıdır. Mən Mircavad Talışxanovun bacısı nəvəsiyəm. O vaxt həmin bölgənin qubernatoru olub. Anam tərəfin əksəriyyəti oxumuş, ziyalı adamlardır. Anam özü evdar qadın idi. Atam isə uzun müddət Xəzər Gəmiçiliyində çalışıb. İmkanlı olmamışıq, kasıb yaşayırdıq.

Yaddaşımın küncündə səhərlər divardan asılan "Rodina" adlı radiodan Sovet Azərbaycanının himni ilə oyanmağım ilişib qalıb, indiyə qədər də o himn qulaqlarımdadır. Məktəbə gedirdim, bir əlimdə çanta, birində çernel şüşəsi. Uşaqlarla itələşəndə o şüşə tez-tez sınırdı üst-başımız çernel olurdu. Çörəyin arasına yumur-

tanı yağda bişirib qoyurdular çantama. Məktəbdə fikrim qalırdı o çörəkarasında ki, nə vaxt tənəffüs olacaq onu yeyəcəm.

Kasıb yaşadığımız üçün uşaqlardan pal-paltar sarıdan geri qalmağım məndə kompleks yardırdı. İçimdə həmişə düşünürdüm ki, necə edim ki, nəyləsə diqqəti özümə çəkim. Bəlkə ona görə teatra meyllənmdim. Məktəbdə bir idman dərsi, bir də teatra gedəndə mənim üçün bayram olurdu. Cəfər Cabbarlının Aydını deyir e, elə yaşayım ki, küçədə məni barmaqla göstərsinlər. Mənim də istəyim elə idi. Tək bir dəfə təzə dama-dama köynək almışdılar mənə yerə-göyə sığmırdım forsumdan.

Yaxşı müəllimlərimiz vardı. Uşaqları mədəniyyətə, ədəbiyyata, kimin qabiliyyəti haradırsa ora düzgün yönəldirdilər. Bir müəllimimiz vardı, Zərbəli Səmədov mənə də ilk dəfə o, dedi bala, sən artist ol. Özfəaliyyət dərnəyində çıxışımı görmüşdü ona görə. Mən də oldum. Məktəbdə dram dərnəyinin rəhbəri Tofiq İsmayılov idi, mən də yazılmışdım. İlk rolum da tənbəl Mahmud oldu, balaca bir səhnəcikdə. Yadımdadır səhnəyə ilk dəfə çıxanda mətnin əvvəlini yox birbaşa son sözünü dedim. Sonra ani olaraq özümü toplayıb təzədən əvvəldən dedim. Sonra fəxr edirdim ki, özümü itirmədim, səhvimi düzəltdim. O vaxt dərnəklər uşaqların yetişməsində çox böyük rol oynayırdı.

## Boy-buxunum Adil İsgəndərovun xoşuna gəlmədi

O vaxt küçələr geniş, maşınlar da çox az. Bütün günü geniş küçə tapıb futbol oynayırdıq. Artıq yuxarı siniflərdə oxuyanda eyni vaxtda həm Lütfi Məmmədbəyovun dram dərnəyinə gedirdim, həm də futbolla məşğul olurdum. Yaxşı qapıçı idim, yəqin aktyor olamasam qapıçı olardım. Bir müddət belə davam elədi, sonra hiss etdim ki, incəsənətə meyl daha çoxdur, idman istəyimi üstələyir. Məktəbi bitirəndən sonra iki il teatr institutundan kəsildim. Birinci

il boy-buxunum Adil İsgəndərovun xoşuna gəlmədi. İkinci il miz üstündə ritmi tuta bilmədim, əlim əsdi. Üçüncü il Rza Təhmasib məni qəbul elədi. O vaxt çox çətin idi o instituta girmək təsadüfən düşə bilməzdin, gərək xüsusi istedadın olsun. Rza Təhmasib, Məlik Dadaşov, Rza Sarabski, Nəsir Sadıqzadə müəllimlərim olublar. Sonra bütün kursumuzu İrəvan Azərbaycan Dövlət Teatrını bərpa etmək üçün göndərdilər. İlk rollarım orda oldu. Teatrı elə sevirdim ki, sənət üçün özümü fəda etməyə hazır idim, pul qazanmaq barədə düşünmürdük, yalnız sənəti düşünürdük. Ata-anam yaşlı, mən də yeganə övlad olduğum üçün qayıtdım Bakıya. Bir il institutda sənətdən dərs dedim, amma məni qane etmirdi, teatrda işləmək istəyirdim. Bu arada Sumqayıt teatrı açıldı, mən orda işləməyi seçdim. Yenə özümü yerimdə hiss etmədim, hərçənd baş rollar oynayırdım. Nəhayət 1970-ci ilə Milli Akademik Dram teatrının aktyor ştatına qəbul olundum. Burda nəhəng aktyorlarla birgə səhnəyə çıxıb nizə tutmağın özü bir fəxarət idi. Məsələn ilk rollarımdan biri "Hekayəti xırs quldurbasan" tamaşasında bircə sözü olan Kərəm olub. Bircə dəfə çıxıb səhnəyə "Qaçsa qaçar e" deyirdim vəssalam. Daha çox səsimdən istifadə edirdi rejissorlar. Tofiq Kazımov "Hamlet" tamaşasını hazırladı Hamletin atasının-kölgənin səsini mən verirdim, özü də səhnənin altından. Əşrəf Quliyev, Məmmədkamal Kazımov, Mehdi Məmmədovun tamaşalarında oynayırdım. Baş rol almaq üçün kiçik rollarla özünü sübut etməli idin. Teatrdan məşqdən çıxırdım qaçırdım kinostudiyaya məşqə, ordan çıxıb təzədən teatra axşam tamaşasına qayıdırdım. O vaxt hər axşam tamaşa olardı. Dublyajdan tanıyıb rejissorlar kinoya dəvət edirdilər. Xırda rollarım çox olurdu. Kinoda ilk böyük rolum Rasim Ocaqovun "Ad günü" filmində Mustafa oldu. Rasim Ocaqov kinostudiyasının kafesində gördü məni sınağa çağırdı, keçdim çəkdi. Ssenarini oxuyanda artıq rol o qədər ürəyimə, xarakterimə yaxın oldu ki, ruhən dönüb oldum Mustafa.

**20-ci əsrin adamıyam, 21-ci əsrdən nə yaşasam şükür**

**Ar**tıq evli idim o filmə çəkiləndə oğlumun iki, qızımın bir yaşı vardı. Deyirlər qızın ayağı sayalı olar.

Yoldaşım ədəbiyyatçıdır, tələbə ikən burda teatrda dəftərxanada işləyirdi. Rastlaşdıq, dostlaşdıq, evləndik. Onun da həyat yolunu, işini, fəaliyyətini mən düzüb qoşmuşam.

"Ad günü"ndən sonra Rasim Ocaqovun beş filminə çəkildim. Axırıncı film də "Ad günü"nün ardı "Həm ticarət, həm ziyarət" oldu. Onun filmlərinə çəkilmək bir məktəb idi. Mənim aktyor taleyimi Rasim Ocaqov müəyyən etdi, "Ad günü" filmi ilə. İndiyə qədər məni şəkili bilirlər, adımı da küçədə Mustafa çağırırlar.

İllər keçdi Mustafanın sonrakı taleyini oynadım. Ona qədərki zaman həm məni, həm də elə Mustafanı çox dəyişmişdi. "Ad günü"ndə Mustafa kimi özüm də saf, təmiz idim. "Həm ticarət, həm ziyarət"ə dəvət olunanda qorxdum ki, o saf Mustafa ola bilməyəcəm. Yaxşı ki, elə ssenariyə görə də Mustafa o qədər də sadəlöv deyildi, yaxadan tutmağı da bacarırdı. Kino çox möcüzəli aləmdir, kinoya çəkiləndə elə bil yeni nəfəs gəlir mənə. Material olsaydı, işləyərdik. Mənə elə gəlir əsil film kinostudiyada çəkilər.

Hər halda kinoda da, teatrda da Hacı İsmayılov adı var, tarixin bir küncünə düşüb. Fəaliyyətimdən narazı deyiləm, gec olub, çətin olub, amma olub. Davam da edir bitməyib. "Xanuma" tamaşasındakı rolum yeni bir mərhələ oldu mənə.

Xalq artistiyəm, heç vaxt hansısa əsər mənim üçün qoyulsundeyə xahiş etməmişəm. Nə veriblər oynamışam, bəzən heç nədən nə isə çıxartmışam ortaya. Teatr gündəlik işimdir. Heç vaxt hansısa rolu oynamaq iddiasında olmamışam. Heyfsləndiyim odur ki, "Həm ticarət, həm ziyarət"dən sonra kinoya çəkilməmişəm, illər gedir. Həyatımda qalan heç nəyi dəyişməzdim. Tamaşaçının sevgisini qazanmaq hər kəsə nəsib olmur.

İki nəvəm var- Ülkər, Azər, onlarla nəfəs alıram. Nəvə sevgisi başqadır. Dünyanın ən şirin barı nəvələrdir.

Həmyaşıdlarımdan seçildim, elə seçildim ki, indi mənimlə fəxr edirlər ki, Hacı bizimlə bir sinifdə oxuyub. Oxuduğum 190

nömrəli məktəbin kollektivi də fəxrlə deyirlər ki, Hacı bizim məktəbdə oxuyub. Deməli boşuna yaşamamışam.

60-qədər yaşımı hiss etməmişəm. İndi yaş özünü göstərir. Hərdən onunla təsəlli tapıram ki, elə böyük aktyorlarımız olub ki, heç bu yaşa çatmayıblar. Şükür ki, bizə şərəf verib. Mən 20-ci əsrdə yaşamışam, 21-ci əsrdən yaşadığım illər qənimətdir, 12 ildir qənimət yaşayıram. 20-ci əsrdə nə gördümsə, gördüm 21 əsr bizim deyil, gənclərindir.

Sabah desələr ki, get təqaüdə, təsirlənməyə təsirlənərəm, amma bu həm də təbiidir, nəsillərin dəyişməsi gedir. Səhnədə yaş gözümə görünmür. Hələ ki, işləyirik, bizim teatrda bu problem yoxdur, hərənin öz rolu var. Bəyəm, rəssama demək olar ki, sənin artıq 70 yaşın var daha rəsm çəkmə, yaxud bəstəkara yazma demək olar? Biz gənclərə nümunə olmalıyıq. Vaxtı gələndə getməyi də bacararıq, amma vaxt tez keçdi. Heç olmasa bu ərəfədə kinoda, teatrda nə isə eliyək ki...


Sənətin
Mehriban Zəki formulu

Atası aktyorluğu bitirib, amma sənətinin arxasınca getməyib, ailəsini saxlamaq üçün müxtəlif işlərdə çalışıb. Anası bağça müəllimədir, amma əsasən uşaqlarına baxıb, iki qız, bir oğlan. Mehriban ikinci uşaq olub ailədə, ikinci qız. Ailədə hamıdan çox diqqət tələb edən bu arıq, çəlimsiz, tez-tez xəstələnən qıza elə gəlirdi ki, həmişə də diqqətdən kənarda qalır. Xüsusən də üçüncü uşağın oğlan olmağı onu ata-anasından umduğu bütün sevgi və diqqətdən məhrum eləyib. Hər halda, qız belə düşünürdü. Əslində isə iki qızın və bir oğlanın böyüdüyü bu ailədə məqsəd uşaqların hər üçünün təhsilli və tərbiyəli böyümələri idi.

Mehriban orta məktəbdə yaxşı oxuyurdu. Çoxlu mütaliəsi də vardı, evdə əlinə keçən bütün kitabları nəzərdən keçirər, sonra kitabxanalara, kitab mağazalarına üz tutardı. Təbii ki, əsas əl altında olan evdəki kitablardı, onlar da atasının təhsilinə uyğun, mədəniyyət və incəsəntlə bağlı kitablar olardı.

Şüuraltı bilirdi ki, atası onun aktrisa olmasını istəməz, ona görə də həmin kitabları elə-belə, maraq xətrinə oxuyardı. Kino, teatrla bağlı atasının abunə olduğu jurnalları isə lap çox sevərdi.

Bir də hüquqla bağlı ədəbiyyata meyli vardı. Görünür, xaraktercə ədalətli, prinsipial, düzgünlük sevər olması burda öz işini görürdü. Mehriban daxilən hüquq sahəsinə yönəlirdi, kiminsə tapdanmış hüququnun, qanunların müdafiəsi üçün. Hərdən insanların psixologiyasını öyrənmək üçün bəlkə psixoloq olum - deyə düşünürmüş, amma aktrisa olmaq ağlının ucundan belə keçməzmiş.

Orta məktəbi bitirib sənədlərini Universitetin filologiya fakültəsinə verir. Bu, qərarsızlıqdan irəli gəlir. Olur adamda, müəyyən bir məsələdə qərar verə bilmirsən, elə bil Tanrı bunu görüb,

özü səni yönləndirməyə başlayır. Mehribanı da Tanrı yönləndirir. Filologiyaya qəbul olmaq üçün balı çatmır, o vaxtkı təhsil sistemi ilə müsabiqədən keçmir. Kursa gedib stenoqrafiyanı öyrənir, bir müddət makinaçı işləyir. Maliyyə nazirliyində karqüzarlıqla məşğul olur və ordan göndərişlə sənədlərini Xalq Təsərrüfatı İnstitutuna verir. Qəribədir, deyilmi? Özünə də qəribə gəlirmiş... İki imtahandan keçir, üçüncüyə gecikir və imtahana buraxılmır. Sevincək qayıdır evə ki, kəsildim. Evdəkiləri dərd götürür, bu qız orta məktəbi yaxşı qiymətlərlə başa vurub, bəs, niyə taleyi belə gətirir, ali məktəbə qəbul oluna bilmir.

Mehriban vəzyyəti belə görüb içindən gələn bir hisslə deyir ki, qoyun İncəsənət İnstitutuna gedim, teatrşünas olmaq istəyirəm. Görünür, valideynlər qızın heç yerə qəbul oluna bilmədiyini özlərinə o qədər dərd ediblərmiş ki, Mehribanın bu istəyinə qarşı çıxa bilməyiblər. Düşünüblər ki, təki bu qız axır bir yerə qəbul olunsun.

“Teatrşünaslığa iki yerə 15 nəfər sənəd vermişdi, verdim aktyorluğa, valideynlərimə dedim ki, oranı bitirəcəm, amma sənətşünas olacam. İmtahanı Həsənağa müəllim Turabov götürmüşdü, elə bildim müəllimim də o olar sevinmişdim. Böyükağa Kazımov, Məhəmməd Verdiyevdən dərs aldım. Ağakişi Kazımov da bizə dərs deyib. Ən böyük şansım o oldu ki, 3-cü kursdan gəlib “Yuğ” teatrına düşdüm, Vaqif müəllimin yanına”.

Təsəvvür eləyin, uşaqlıqdan bəri nə istədiyini bilməyən, nə isə axtaran, arayan, amma nəyi aradığını özü də müəyyən edə bilməyən qızcığaz oxuduğu ali məktəbdə də özünə maraq dairəsi tapa bilmir. Orda da özünü yerində hiss etmir. Niyə bu qədər yüklüdür, narahatdır, niyə oturuşa bilmir bu qız? - özünün də özünə verdiyi, amma cavab tapa bilmədiyi suallar idi. Bir dəfə hətta institutda Şəfiqə Məmmdova (Mehribana dərs deməyib, amma Şəfiqə xanımda belə bir maraqmı deyim, qabiliyyətmi, orda təhsil alan bütün tələbələri izləyir, duyur, onların gizli aləmlərindən xəbərdar olur və bir gün bunu özlərinə deyirdi) ona demişdi ki, elə bil bəşəriyyətin yükü sənin çiyinlərindədir, bəşəri bir suala cavab axta-

rırsan, nədir səni belə incidən? Mehriban bilmirəm –deyə cavab verib.

Belə bir tələbə Vaqif İbrahimoğlunun marağına, sərhədsiz suallarına tuş gəlir və hədəf bu maraqdan çox məmnun olur. Elə bil onun illərdir özündə arayıb tapmaq istədiklərini Vaqif İbrahimoğlu onun özündə tapır və çıxardıb göstərir ki, bunlar səndə var, sən bunun üçün yaranmısan ki, onları sənətində göstərəsən.

Bu da Vaqif İbrahimoğlu ustadlığı idi, heç kimin görə bilmədiyini görürdü yetirmələrində, üzə çıxardıb özlərini özlərinə tanıdır və gənclərdə özünəinam yaradırdı. Bu səbəbdən də özünütəsdiqi onun yanında tapan gənc bir daha o əhatədən çıxa bilmirdi. Buna Vaqif İbrahimoğlu estetikası deyilir. Bu gün çoxlu yetirmələri var bu estetikanın, amma davamçı yoxdur. Bir qığılcım idi yandı, çox gəncləri alışdırdı, onlar indi yanıb-yanıb qalıblar Vaqif İbrahimoğlusuz, tüstülənə-tüstülənə.

Vaqif İbrahimoğlu odunun atəşinə qızınan, o oda yanan Mehriban Zəki də 10 il alovlandı, alov dilləri ərşə çıxdı. Onun "Qanlı Nigar" tamaşasına baxandan sonra Vaqif İbrahimoğlu atəşinə düşən aktrisa elə bildi ki, elə ömür boyu belə də davam edəcək hər şey. Onunla söhbətdən sonra bağlandı "Yuğ" teatrına. "Bura mənim teatrımdır"- dedi.

Şəhriyarın "Heydərbabaya salam" tamaşasıYuğda gördüyü ilk tamaşa idi. "Elə bil məni aldılar harasa apardılar, hansısa proses getdi mənim mənəvi dünyamda və qaytardılar". "Dədə Qorqud"dan "Bamsı Beyrək boyu"nu hazırladı Vaqif müəllim. Mehriban tamaşada sazla nəql edirdi əhvalatı. "Bütün dastanı başdan-ayağa öyrənmişdim. Hamının rolunu bilirdim. Belə-belə tamaşa arxasınca tamaşa, bağlandım".

Valideynləri bir də görürlər ki, Mehribanı "Yuğ"un səhnəsindən ayırmaq qeyri-mümkündür, özü demiş, artıq taleləri ilə barışırlar. "Sirlər xəzinəsi", "Səma", "Açar" tamaşaları. Beləcə 10 il.

Sonra daha bir 10 il "İbrus" teatrında keçir. "Yuğ"da işləyə-işləyə R.İbrahimbəyovun dəvəti ilə "İbrus"da "Şirəbənzər" tamaşasında rol alır. Sonra daha bir tamaşa, ilk vaxtlar Vaqif İbrahimoğlu

ona məsləhət verib, yol göstərib, “get, sən xəmir idin, yoğurub kökəfason bir şey düzəltmişəm, indi özün necə olacağını müəyyən etməlisən” -demişdi.

Zamanın hökmü,məişətin diktəsi ilə Mehriban Zəki doğma “Yuğ”dan tədricən ayrıldıqca ustadın qəlbində umu-küsü yaranır. Mehriban da ruhu ilə bunu duyurdu, amma məişətin də diktəsi vardı axı.

“Məişətdən danışmaq istəmirəm, amma o problemlər səni idarə edir, xüsusən də müəyyən bir yaşa çatırsan, artıq valideyn-lərin səni deyil, sən onları idarə etməlisən. Özünü də, onları da saxlamalısan maddi cəhətdən, o zaman məişətin yükündən azad ola bilmirsən, həyat sənə məişətlə hesablaşmağı diktə edir”.

“İbrus”da “Arabir görüşməyə kişi axtarıram”, “Buninin so-nuncu döyüşü” Mehribanın ən uğurlu tamaşaları olur. Tamam fərqli teatr, fərqli estetika, yeni cığırlar, yeni qastrollar.

“Ümumiyyətlə, o teatr çox balaca məkanda idi və əvvəldən də ikidilli tamaşaçı üçün nəzərdə tutulmuşdu. İlk tamaşalarda biz oynayanda ikidilli tamaşaçılar üçün oynayıqdıq -bir dəfə rus dilində, bir dəfə də Azərbaycan dilində. Mən çox vətənpərvər insa-nam və dilimi də çox sevirəm, inanılmaz dərəcədə çox sevirəm. Azərbaycandilli tamaşaçı ilə rusdilli tamaşaçı arasında yerlə göy qədər fərq var. Hətta rusdilli tamaşaçı ilə Rusiya tamaşaçısı arasında da böyük fərq gördüm. Azərbaycan tamaşaçısından rus tamaşaçısından aldığın enerjini, teli almırsan. Bir dəfə Mahaçqalada oynayırıq. “İvan Buninin sonuncu döyüşü” tamaşası idi. Tamaşaçı da çox, iynə atsan yerə düşməz. Artıq pilləkənlərin üstündə oturublar.Oranın da zalı təxminən bizim Gənc Tamaşaçılar Teatrının zalı kimidir,arena kimi. Zalda da teatralinsanlar,teatrşünaslar var. Əsəri bilirlər və rus tamaşaçısı üçün Bunin dahidir. Buninə baxmağa gəliblər.Ağzımı açdım elə bir kəlmə dedim ki, cümləmi tamam etməmiş bir nəfər zaldan qışqırdı ki, eşitmədim dediyini. Heç tərpənmədən, zərrə qədər özümü itirmədən, hərçənd, mən tez panikaya düşən insanam, eyni tonla –

çünki sən özün sakit olmamısan, otur, sakitləş, eşidəcəksən – dedim. Xırp səsləri kəsildi”.

Mehriban Zəki “İbrus”da da axtarışda idi, dayanmaq, qane olmaq yoxdur bu aktrisanın təbiətində. Milli Akademik Dram Teatrı isə onu dəvət edirdi.

Yalnız bir tamaşa oynadı o teatrın səhnəsində. Mir Mehdi Seyidzadənin yazdığı “Füzuli” tamaşasında. Məşqlər boyu nə yaşadısa, duydusa, tamaşanı yarıda qoymamaq üçün üç premyerada oynadı və rolunu da dublyora həvalə edib o teatrın qapısını öz əlləri ilə arxasınca qapatdı. Məşq müddətində Mehriban Zəki elə bil dənizdən qumluğa düşmüş balıq idi, suya həsrət, ölmədən dənizinə qovuşacağını gözləyən balıq.

Bir dəfə onunla müsahibəmin başlığını belə qoymuşdum “Uzun, incə bir yolun yolçusu”. Həmin uzun, incə yoldadır Mehriban Zəki - əlində sazı, qəlbində incə duyğuları, boynunda vicdanı və şəxsiyyəti (bəli bu zamanlar vicdan və şəxsiyyət deyilən məfhumlar insanın boynunda olur) yıxıla-dura, dizləri qanaya-qanaya, qəlbi ondan da artıq qan verə-verə, aldığı yaralar göynəyə-göynəyə bir yol gedir. Paralel yol düpbədüzdür, orda rahatlıqla addımlamaq olar, amma Mehriban Zəki kimi insanlara o düz yollar çox maraqsızdır. O, az qism yolçular hamının gedə bilmədiyi yolları sevərlər.

“Gələcəyim hələ qabaqdadır, rollarım hələ məni gözləyir- zarafatla bunları deyib üstəlik qəribə bir poza alıb gülümsəyir. Ona elə gəlir ki, hansısa pafoslu aktrisanı yamsılayır, təqlid edir, lağlağı ilə deyir bunları, amma mən bir tamaşaçı kimi həqiqət qəbul edirəm bu sözləri, çünki Mehriban Zəki potensialının bəlkə yarısını qoya bilib ortaya. Vaqif İbrahimoğlunun qoyduğu o cığırla gedir, hələ sərt döngələr qabaqdadır.

“Tamaşaçını gözəllik və gənclik cəlb edir”-deyir. Mən də razıyam ki, Azərbaycan ədəbiyyatında Mehriban kimi aktrisaların oynaması üçün güclü qadın obrazlarının kasadlığı var, amma ömür də başa çatmayıb axı, mədəniyyətimiz yıxılandan sonra yeni bir dövrə - yola çıxıb, ümid ölməz. Kinoda çəkildiyi obrazlar haqda

sual verdim – neçə filmə çəkilmisən, yaxud səncə neçə filmdə varsan? - soruşdum. Cavabı dərhal aldım – heç neçə. Vikipediyada 20 filmin adı var.

Ailə qurmadı Mehriban Zəki, bunun üçün o uzun, incə yolda bir az ləngimək, yoldan sapmaq lazım idi. "İnsan həmişə xoşbəxt olmaq istəyir. Nə fərqi var, ailə qurub xoşbəxt hiss edirsən özünü, yoxsa subaykən. Əsas sevib, sevilib xoşbəxt olmaqdır. Bəlkə 70 yaşımda "nə sevgi?" deyəcəm, amma indi belə düşünürəm, sevib-sevilmək xoşbəxtlikdir. İnsan həyata tək gəlir tək də gedir, nə gələndə kimisə gətirmir nə gedəndə özü ilə kimisə aparmır. Sənin olan da, olmayan da burda qalır, sən gedirsən, bəlkə izin qala".



# Qəhrəman ananın, sərt atanın övladı

## Qızıl arzusu ilə mis işləməli olan zərgər

Onun haqqında yazılarımdan birində belə bir cümlə işlətmişdim – Özü olmayanda qədri bilinəcək sənətkarlardandır. Biz beləyik, dəyərli insanları - alimi, ustadı, sənətkarı sağlığında bilmərik, itirəndən sonra itkinin ağırlığını anlayarıq. Allah gecindən versin, onu itirməyək, cismən Tanrı nə zaman istərsə o zaman aparır bəndələrini. Əsas olan odur ki, sağlığında itirməyək insanı, sənətkarı. Nə qədər ki, var, yaşayır, hələ yarada biləcəyi obrazlar çoxdur, potensialı içində qovrulur, özü bilir nəyə qadirdir, bilməli olan, onu özünün içindən alıb çıxarda biləcək kimsə olsun təki. Sənətkarın-aktyorun ən böyük şansı nədir bilirsinizmi? Onun özünün də bilmədiyi, duymadığı, qabiliyyətini ona göstərə biləcək, onu da, tamaşaçısını da təəccübləndirəcək bir rejissor çıxsın qarşısına. Nurəddin Mehdixanlıdan danışıram. Bu adı, soyadı tanımayan tapılmaz , soyadını dəyişsə belə.

### Soykökü

Onlar Afşarlardır, Mehdixanlı qolu, Qasım xan xətti ilə. Ulu babaları indiki cənubi Azərbaycandandırlar, Urmiya, Əhər, indiki Cəlilabadla sərhəd boyu babalarının torpaqları olub, babasının sərdabəsi də ordadır. Ərazilər də elə Mehdixanlı adlanır. Onun dünyaya gəldiyi Cəlilabad rayonu Tahirli kəndinin ərazisi o vaxt babalarının qışlağı imiş. Babası dəliqanlı adam olduğundan adam öldürdüyünə görə, atası onu da götürüb keçib bu tərəfə-qışlaq ərazilərinə və qayıtmayıb bir daha. Ara bağlanıb bitib hər şey. Sərhəd açılandan sonra onlar qohum-əqrabalarını tapıb, görüşüblər. İndi də əlaqə saxlayırlar.

## Uşaqlığın son gecəsi

Uşaqlığı boz atın belində keçib. Atası atı çox sevərmiş, ona görə at saxlayarmışlar. Bir gün atı qonşu kənddə yaşayan bacısıgilə verirlər, səhərisi atası Nurəddinə - get, bacıngildən atı gətir, sabah rayon mərkəzinə gedəcəksən - deyir: "Qışdı, şər qarışıb, keçib gedəcəyim yol dağarası yarğandan və dağı aşıb keçməklə, çaydan və qəbristanlıqdan keçir. Qurd dərəsi deyilən yerdir, gündüz vaxtı vahiməlidir, ola ki, qışın qarında axşam vaxtı. Qar, duman, yuxarı qalxdıqca vahimə basır adamı. Özümə nağıllarla, qəhrəmanlarla təsəlli verə-verə keçdim ordan. Geri qayıtmağa bacım qoymurdu, dedim atam gözləyir, deyib atı gətir. Atı mindim, hündür, gözəl at idi, onun belində adam qorxu bilməzdi, qayıtdım evə. Atam hə, gəldin?-deyə bir kəlmə etinasız soruşdu.

Səhərisi gün öz-özümə deyinirəm ki, gecə vaxtı göndərdi, heç sağ ol da demədi. Anam dedi ki, sən gedəndən gələnə qədər evin arxasında dayanıb səni gözlədi. Onlar sevgilərini və narahatlıqlarını büruzə verməzdilər."

## Kənd uşağı, kotandan olan məktəb zəngi

Atasının adı Əzuzulladır, Nurəddin Mehdixanlı onu heç vaxt gülməyən adam kimi xatırlayır. Atası rəhmətə gedəndə qəhrəmanımın 18 yaşı varmış, deyir 18 yaşıma qədər çox təsadüfən atasının dodağını qaçan görüb. Sərt adam olub, amma yaxşı oxuyan uşağı gözünün nuru olarmış. Kənddə iki kitabxana varmış, biri ədəbiyyat müəlliminin, biri də onların evində. Evdə ən yaxşı yemək yaxşı oxuyan uşaq üçün olarmış, onların arzusu dərhal yerinə yetirilərmiş.

Anası evdar qadıı olub, amma Şura vaxtı o ərazilərdə savadsızlığın ləğvini həyata keçirənlərdən biri imiş bu qadın. Hərf tanımayanlara oxumağı, yazmağı öyrədirmiş. Özü bayatılar, şeirlər yazırmış, ədəbiyyatı çox sevərmiş. 17 uşağı dünyaya gətirib, tər-

biyə və təhsil verib bu qadın, 10 qız, 7 oğul. Bəzən onu məktəbə çağırıb sual edərlərmiş müəllimlər ki, bu qədər uşağı necə tərbiyə edirsiniz ki, təhsilləri də yerindədir, tərbiyələri də? Qadın cavab verərmiş ki, onları mən yox, evdəki kitablar tərbiyə edir, çox oxuyurlar ona görə.

"Məktəbə ayaqyalın gedərdik, ayaqqabımız əlimizdə olardı, məktəbin qabağındakı hovuzda ayağımızı yuyub, ayaqqabımızı geyinib girərdik məktəbə. Məktəb, onun təmizliyi canımızdan əziz imiş demək. Birmərtəbəli kənd məktəblərində çox yaxşı müəllimlər vardı. Bu gün Azərbaycan elminin, incəsənətinin qaymaqları o məktəblərin yetirmələridir. Məktəbimizin heç zəngi yox idi, kotanı yuxarıdan asıb ona dəmir parçası ilə döyəcləyib uşaqları dərsə, tənəffüsə səsləyərdilər."

## Sinfin ən balacaboy uşağı

İlk teatr anlayışı məktəbin özfəaliyyət dərnəyindən formalaşıb. Böyük qardaşı Qabilgilin sinfi tamaşa hazırlayıb, Nurəddin qardaşının da oynadığı o tamaşaya baxıb ilk dəfə. Qabil Quliyev sonradan Neft və Kimya institutuna qəbul olunsa da onu yarımçıq atıb İncəsənət institutuna qəbul olur. Eyni yolla qardaşı Nurəddin gedir. Həmin məktəbdə oynadığı tamaşalar sonradan onu İncəsənət institutuna gətirib çıxarır, hərçənd atası onu tamam başqa sənətin sahibi görmək istəyib.

"Məktəbdə oynadığım rollar həmişə mağmın, balacaboy obrazlar olardı, çünki sinfin ən balacaboy uşağı idim. 8-ci sinifdə oxuyanda Lənkərandan bizim məktəbə bir riyaziyyat müəllimi gəldi, özü ilə turnik gətirib quraşdırdı məktəbdə, o qədər dartındım ki, bir də gördüm olmuşam hündür. Kənd həyatı çox maraqlı idi, fəsilləri yaşaya bilirdik, hər fəsildə kənd əhalisinin xüsusi ritualları vardı, payız toyları, qış bağlamaları, yaz əkini, yayda qış tədarükü. Bir ay əvvəl Novruz bayramına hazırlaşardıq. İndiyə qədər də uşaqlığım xırda detallarına qədər yadımdadır."

## Atası rəhmətə gedincə onu danışdırmayıb

Orta məktəbi bitirəndən sonra hamı elə bilirdi ki, o, hərbçi olacaq, çünki nəsillərində daha çox hərbiçilər yetişərdi. Atası isə onun hüquqşünas olmasını istəyirdi. Aktyor olmaq ağlının ucundan da keçməzdi. Hər şey Bakıda "26-lar adına teatr dərnəyi"ndən başladı. Hüquq fakültəsinə qəbul olunmaq üçün imtahanlardan da keçmişdi artıq, qəbul kağızını dərnəyin rəhbəri Lütfi Məmmədbəyov alıb cırıq-cırıq eləyib atdı, sən yaxşı aktyor olacaqsan - dedi. Nurəddin sənədlərini alıb İncəsənət institutuna verdi və qəbul oldu. Bunu eşidən atası rəhmətə gedincəyə qədər oğlu ilə kəlmə kəsmədi, Nurəddin evdən heç bir maddi köməklik görmədi. Həm oxudu, həm işlədi. Sərt ataların oğulları sərt həyatla çarpışıb qalibiyyət qazanar.

Adil İsgəndərovun son kursunun tələbələrindən olub Nurəddin Mehdixanlı. Ustadı Ələsgər Ələkbərova oxşadarmış onu, deyərmiş ki, yaxşı aktyor olacaqasan. Vaqif filmini çəkmək istəyirmiş, bu barədə aktyorla söhbətlər aparır, onu bir növ Vaqif üçün hazırlayırmış, amma ömür vəfa etmir, Adil İsgəndərov dünyasını dəyişir.

Əsgərlikdə ordu teatrında məşğul olur, yenə tamaşalar, yenə rollar. İki ildə dörd böyük tamaşa qoyulur və o tamaşalarda oynayır, aktyor-əsgər kimi verilişlərə çıxırdı.

## Nurəddin Mehdixanlı televiziyada

Aktyoru, sənətkarı xalqa, kütləyə tanıdan televiziyadır. Sovet vaxtı bir televiziya o missiyanı çox böyük ləyaqətlə yerinə yetirərdi. Sənətkarını tanıdırdı millətə, xalqa. Bu gün telekanal bolluğudur, amma tamaşaçıya kimi, nəyi təbliğ edirlər bəlli deyil. Orta və yaşlı nəsil Nurəddin Mehdixanlını heç teatra ayaq basmadan tanıyıb, Azərbaycan Dövlət Televiziyasında Ə. Əhmədovanın "Pəncərədə işıq" (Toğrul), C.Cabbarlının "Solğun

çiçəklər" (Bəhram), N.Həsənzadənin "Kimin sualı var?" (İlham), B.Vahabzadənin "Vicdanla üz-üzə" (Hakim) obrazları ilə. Hər biri fərqli xarakterli obrazlardır.

## Teatrda və kinoda

Teatr səhnəsində bəlkə də Nurəddin Mehdixanlının bəxti televiziyadakı qədər gətirməyib. Rolları çoxdur, əvvəllər də, indi də. Az sayda televiziya tamaşasındakı olan rəngarənglik çoxsaylı teatr tamaşalarında müşahidə olunmur. Mən onun oynadığı, amma yalnız özümün gördüyüm tamaşaları və rolları sadalayacam. Xasay və Hidayət xan ("Xurşidbanu Natəvan", İlyas Əfəndiyev), Kamran ("Unuda bilmirəm", İlyas Əfəndiyev), Təbriz ("Büllur sarayda", İlyas Əfəndiyev), Böyük bəy ("Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev), Aydın ("Aydın", Cəfər Cabbarlı), Ərtoğrul ("Afət", Hüseyn Cavid), Gur Şad ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), Yaralı əsgər ("Hələ "sevirəm" deməmişdilər…", R.Novruz), Rəşid Axundov ("Brüsseldən məktudlar", Həsən Həsənov), Bəbir bəy ("Dirilən adam", Mir Cəlal), Şəmistan ağa ("Ölüləri qəbiristanlıqda basdırın", İsmayıl Şıxlı), Vətən ("Xəcalət", Hüseynbala Mirələmov), Tağıyev ("Mesenat", Əli Əmirli), Xan ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundov), Əmir Teymur ("Əmir Teymur", Hüseyn Cavid).

Gənclik illərində oynadığı lirik qəhrəmanları çıxmaq şərtilə, mən bir tamaşaçı kimi Nurəddin Mehdixanlı kaloritinə yalnız Bəbir bəy ("Dirilən adam", Mir Cəlal), Şəmistan ağa ("Ölüləri qəbiristanlıqda basdırın", İsmayıl Şıxlı), Vətən ("Xəcalət", Hüseynbala Mirələmov), Gur Şad ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), Yaralı əsgər ("Hələ "sevirəm" deməmişdilər…", R. Novruz) bu obrazları yansıta bildim.

Bu aktyor əsil kişi obrazları – Bəbir bəy, Şəmistan ağa , Azərbaycan xanlarının obrazları və bir də Qarabağ müharibəsinin

mərd-qəhrəman döyüşçülərini yaratmaq üçün yaranıb. Bir anlıq Nurəddin Mehdixanlını Cahandar Ağa obrazında təsəvvür edin.

Nə yazıq ki, belə bir sənətkarın yaradıcılığının qaynr vaxtı Azərbaycan kinosunun lam vaxtına düşdü. Xəcalətlə deyirəm ki, cəmi 26 filmə çəkildiyi yazılsa da onlardan da yalnız ikisini xatırlaya bildim - Cavad xan (film, 2009) filmində Cavad xan obrazı və Cavid ömrü (film, 2007) filmində Əhməd Cavad.

**Ailə**

Bu bölümə çatdıq. Bayaq dediyim 17 uşağın hamısı ailə qurub, ən gec evlənən Nurəddin Mehdixanlı olub, 31 yaşında, hərçənd kiçiklərdən deyil.

Oxucu məndən nə tələb elədiyini eşidirəm, amma qəhrəmanımın da öz prinsipləri var, hər iki tərəfə hörmətlə yanaşmaq sadəcə borcumdur. Odur ki, bunları deyə bilərəm. Hər biz Azərbaycan kişisi kimi qəhrəmanım da ailəni müqəddəs bilir, ailəlidir, övladları da var. Azərbaycan kişisinə xas xarakterlə bu barədə detallara varmağı arzu etmir.

**Pafos barədə**

Bilirəm oxucu bir məqama da toxunmağımı istəyir. Dəfələrlə Nurəddin Mehdixanlı barədə söhbətlərdə bu sözün şahidi olmuşam – çox pafosludur. Özüm də hansısa obrazı barədə bu fikri yazmışam bir vaxtlar, amma bu gün gəldiyim qənaət budur- hər bir aktyorun öz obrazları var, tam fərqli də ola bilər, oxşar da, ampula demək istəmirəm, sadəcə Nurəddin Mehdixanlı yerində olanda möhtəşəm olur. Həm də təkcə o, yox, hər kəs, illah da aktyor yerində olanda. Onu yerinə isə rejissor qoyar, özü heç vaxt bunu edə bilməz, bunu daxilən görə bilər, həyata keçirə bilməz, çünki rejissordan asılıdır. "Xəcalət"də Vətəni pafossuz realizə edir.

Sayını artıra bilərəm belə obrazlarının, amma Əmir Teymuru pafossuz necə oynamaq olar, sizcə.

**Son söz**

Onun yox, haqqında olan bu yazının son sözüdür bu. Onun hələ deyəcəkləri çoxdur, qarşıdadır:

"Hər bir aktyor arzu edər ki, sənət yolu mənimki kimi olsun, amma mən daha böyük işlər üçün yaranmışam, daha böyük işlər görə bilərəm. Elə şeylər öyrənmişəm bu sənətdə ki, daha kamil işlər qoya bilərəm ortaya, ona şərait yoxdur. Almazla işləməyi öyrənmiş zərgərə hələ də aliminium, mis verirlər. Axı, zərgər nalbənd deyil. Deyirlər tamaşaçı gəlmir teatra, yalandır, yaxşı tamaşanın tamaşaçısı var. Özül düzgün qoyulmasa nəticədə yaxşı iş qoymaq olmaz ortaya. Şəraiti peşəkarlara yox, diletantlara yaradırlar. Müəyyən yaşa çat və özünə sual ver- düzmü yaşadım? Boşunamı yaşadım? – çətindir bu suallara cavab vermək. Pessimist deyiləm, amma reallığı görürəm."



# Məcburi köçkün adını üstünə götürmək istəmədiyi üçün ölkədən getməyən sənətkar

**Uşaqlığımızın xarizmatik film qəhrəmanıdır. Bir-birinin ardınca çəkildiyi filmlər Azərbaycan kinosunun tarixidir. Yalnız "Arşın mal alan"da Süleymanı xatırlatmaq yetərlidir ki, qalan rolları gözlərimiz qarşısında sıralansın. Bu adı kim tanımır ki... Hacı Murad Yagizarov.**

**Uşaqlığı**

Bakıda doğulub böyümüşəm, köklü bakılıyam. Atam hərbiçi olub, anam müəllimə idi. Atam dağıstanlıdır, anam Şamaxı xanı Mahmud Əliyevin nəvəsidir. Ata tərəfimin hamısı ya diş həkimləri idilər, ya da zərgərlər. Ana tərəfin isə əksəriyyəti dövlət qulluğunda olublar. Nazir, diplomat. Dayım da diplomat idi, istəyirdi ki, mən də onun yolu ilə gedim. Nəslimdə kökümdə incəsənət adamı olmamışdı mənə qədər. Qonşumuz Ələsgər Ələkbərovun təsiri ilə mən tez-tez Dram Teatrının tamaşalarına gedirdim. İncəsənətlə bir peşə kimi məşğul olmaq ağlıma da gəlmirdi. İdmanla məşğul olurdum, boks üzrə Respublika çempionu idim. Voleybolla, üzgüçülüklə, karate ilə ayrı-ayrı vaxtlarda məşğul olmuşam.

Orta məktəbin sonuncu sinfində məktəbin dram dərnəyinə düşdüm, görkəmimə görə məni kiçik bir idmançı rolunu oynamağa dəvət etdilər. Mühitə düşdüm ardınca buraxılış gecəsi üçün bir tamaşa hazırladıq, orda da oynadım. Tamaşaya Ələsgər Ələkbərov gəlmişdi. Ailəm iştirak etmədi, çünki məəttəl qalmışdılar ki, mən neyniyirəm, hansı peşəni seçmək istəyirəm, birdən incəsənəti seçərəm. Ələsgər Ələkbərovdan xahiş etmişdilər ki, baxsın görsün mənim incəsənətə bir aidiyyatım var ya yox. O, da baxdı tamaşaya və ailənin içində mənə dedi ki, sənin incəsənətə getməyin məsləhətdir, istedadlısan, səndə öz gəncliyimi görürəm. Beləliklə sə-

nədlərimi verib İncəsənət İnstitutuna qəbul olundum. Elə birinci kursda Ələsgər Ələkbərov məni "Uzaq sahillərdə" filminin sınaq çəkilişlərinə apardı ki, Mixaylo roluna çəkilim. Çox gənc olduğum üçün o rola məni götürmədilər, filmdə bir partizanı oynadım. Ondan sonra "Ögey ana"da çoban obrazına çəkildim.

**Kino**

O illər ərzində hansı filmə çəkildimsə Ələsgər Ələkbərovla bir yerdə çəkildik. "Böyük dayaq" da həmçinin. Təhsil aldığım illərdə bir-neçə filmə çəkilmişəm. "Böyük dayaq"da Şirzad diplom işim oldu. Ardınca "Ulduz", "Arşın mal alan", "O qızı tapın", "Bir cənub şəhərində", "Arşın mal alan". Əsasən Eldar Quliyevin filmlərində çəkilirdim, çünki uşaqlıq dostum idi. Həyatımda üç dəfə jurnalist obrazında oynamışam. "Həyat öyrədir", "Əsas müsahibə", "Bir cənub şəhərində ".

"Arşın mal alan"ın ssenarisini Tofiq Tağızadə mənə oxumağa verdi, oxudum və ondan xahiş etdim ki, Süleyman rolunu mənə versin, çünki o rolu özümə daha yaxın hesab etdim. Bu rolla öz köklərimə qayıdırdım. Öz mühitimin adamı idi, xaricdə təhsil almış, dövrünün intellektualı.

Bir-birinin ardınca kinolara çəkilirdim, 35 film "Azərbaycanfilm"in istehsalıdır. NTV-nin Azərbaycanla birgə istehsalı olan "Dronqo"da nazir müavini , iki Gürcüstan filminə çəkilmişəm, iki filmə də Almaniyada rol almışam. "Şpeyer və o" filmində Sovet polkovniki rolunu oynamışam, bir də "Şübhə altında" bədii filmində Azərbaycan naziri obrazına çəkilmişəm. Almaniyada "Məkkə" adlı filmdə də çəkilmişəm, onu azərbaycanlı çəkib.

**Teatr**

Hələ tələbə ikən Rus Dram Teatrında işləməyə başlamışam. O vaxtdan 200 rol oynamışam, müxtəlif xarakterli rollarım olub. Bu da mənim həyatım.

Rəsmi surətdə təqaüddəyəm, amma hamı bilir ki, aktyorun təqaüdə göndərilməsi onun ölümü deməkdir. Ona görə də demək olar ki, bütün tamaşalarda varam, oynayıram.

İndi əvvəlkindən çox şey dəyişib, çünki epoxa dəyişilib. Çox işləyirdik, işimizin müqabilində qəpik-quruş alırdıq, amma gələcəyə kommunizmə inanırdıq. Fəxri ad, orden, medal verirdilər, amma dolanışıq yox idi. Bizi Sovet dövlətimiz istismar edirdi. İndi heç olmasa çəkilişlərə görə o vaxt olduğundan çox qonorar alırıq. Düzdür, Moskva aktyorları ilə heç müqayisəyə gələ bilmərik, amma Allaha şükür prezident təqaüdü alırıq. Fəxr etdiyim bir məqam var ki, yaxşı təhsilli, öz intellektini yüksəltməyə çalışan gənclik yetişməkdədir. Dünya miqyaslı tədbirlər bizdə keçirilir, bu da gözəl haldır. Bir birinin ardınca teatrlar təmir olunur. Azərbaycan çox inkişaf edir. Hayıf ki, bizim həyatımızın çox uzun bir hissəsi keçid dövrünə düşdü. Bu keçid dövründə mədəniyyətimiz çox itirdi. Nəsillər arasındakı ardıcıllıq itdi. Böyük bir nəsil kadrları itirdik. Kadrlar getdilər, yerlərini tutan yoxdur, çünki ara böyük oldu. İndi yenilərinin yetişməsi üçün zaman gərəkdir.

**Şəxsi həyatı**

Həm Almaniyada, həm də Bakıda yaşayıram. Ailəm ordadır, mən Bakısız qala bilmirəm, 10 gün sonra havam çatmır, qayıdıram Bakıya. Bakı üçün necə darıxıramsa özümə yer tapa bilmirəm. Birdən hiss edirəm ki, artıq qayıtmalıyam, bunu heç nə ilə izah etmək olmur – vətəndir vəssalam. Gəlirəm məzarlığa gedirəm, əzizlərimi ziyarət edirəm. Atalığım rəhmətə gedəndə ona layiq məzarüstü düzəltdirə bilməmişdim. Mənimki belə gətirib ki, atam da

olub, atalığım da. O, böyük elm adamı idi, bu il ona layiq məzarüstü düzəltdirdim, bir az rahatladım.  Hiss edirəm ki, bizdən sonra gələn nəsillər üçün belə məqamlar heç bir rol oynamayacaq, təəssüf ki, belədir, amma biz belə yetişmişik, bizim üçün ata, ana, böyüklərin məzarı ziyarətgahdır.  Gəlirəm, hökmən onları ziyarət edirəm. Bakıya düşən kimi kerosin qoxusu məni vurur, onu ciyərlərimə çəkirəm, çünki bu Bakının qoxusudur, mənim uşaqlığımın qoxusudur.

Arvadım, qızım, bir oğlan nəvəm var. Ailəm mənim hər şeyimdir. Onlardan danışmaq istəmirəm, gözə gələcəklərindən qorxuram.  Onlar üçün yaşayıram, Allahdan sağlamlıq istəyirəm ki, onların qayğısına qala bilim. Heç kim onlara pislik edə bilməsinlər. Qızım xoreoqrafiya məktəbini bitirib, sonra da Xarici Dillər Universitetində təhsil alıb. Demək olar ki, dörd dil bilir.

90-cı illərin əvvəli idi, xaos hökm sürürdü.  Mən maşınımı saxlayıb teatra girmək istəyirdim, bir-neçə nəfər əllərində zəncir kəsdilər qarşımı ki, bizi Bayıla apar. Dedim ki, uşaqlar bağışlayın, mənim məşqim başlayıb, axşam tamaşam var. Girdim teatra bir də gördüm arxadan dəhşətli səslər gəlir, çönüb gördüm ki, maşınımı salıblar dəmir, ağac, nə bilim əllərinə nə gəldi onun altına. Maşından əsər-əlamət qalmadı, qayıtdım  geri, məni aldılar mühasirəyə təhqiramiz ifadələr işlətdilər. Həmin məqamda əlimdə avtomat olsa biçərdim onları, çünki çox təhqir olunmuşdum, alçaldılmışdım. İllər keçdi, mən "Sovetski"də böyümüşəm, dostlara bu məsələni danışdım, onları çox sərt cəzalandırdılar.

Həmin illər "Azadlıq" radiosundan Mirzə Xəzər mənə təklif elədi ki, gəl, burda səni də, ailəni də işlə, evlə təmin edirik qal. Dedi ki, çox az qalıb, Sovetlər Birliyi dağılmaq üzrədir, səni burda məcburi köçkün kimi sənədləşdirək, bir dənə o sözə görə getmədim. Mən bakılı, azərbaycanlı kimi bunu edə bilməzdim. Ailəmin isə təhlükəsizliyi üçün onları göndərdim. Həqiqətən də çox keçmədi Sovetlər Birliyi dağıldı, o vaxt bu heç ağla gəlməzdi.  Mən elə bir ömür yaşamışam ki, heç kimi alçaltmamışam, satqın olma-

mışam, satılmamışam, sülh adamıyam. Müharibə olmasın, öz sənətimizlə məşğul olaq.

Bu yaşımda məni yalnız uşaqların, müharibə görməyən uşaqların gülüşü xoşbəxt edər.


Kriminal məhəllədən
çıxan "avtoritet"

**Fuad Poladovun "Davam edən istintaqı"**

Köhnə "Sovetski" Bakı tarixinə iki məqama görə düşüb. Biri kriminallığına görədirsə, ikincisi, bəlkə də yerlərini dəyişik də demək olar ki, mədəniyyət - ədəbiyyat adamlarına görədir. İndi haqqında söhbət açdığım sənətkar da həmin küçədə, məhəllədə yetişib. Bir tərəfdə qan-qan deyən "avtoritetlər", bir tərəfdə teatra, mədəniyyətə, ədəbiyyata meydan oxuyan elm və sənət adamları. Bu mühitdə başqa necə yetişmək olardı...

Ona görə də yayı İsmayıllıda nənəsinin yanına gedib laləzarlıqda keçirsə də: "İsmayıllı rayonunda ana nənəmin yanında daha sərbəst, daha xoşbəxt idim. Hara istəyirsən gedirsən, nə istədin eləyirsən, nənə bir söz demir. Azacıq deyinə bilər, vəssalam. Haradasa 1-ci sinifdən 6-cı sinifə qədər hər yay nənəmin yanında, kənd həyatı məktəbi keçmişəm. At çapmaq, çayda üzmək, bütün çətinliklərə düşüb-çıxmaq... Belə qalıb xəyalımda. Uşaqlıq dövrüm daha çox kəndlə bağlıdır. Orada da axşamlar eyvanda pərdə çəkib tamaşalar göstərərdik uşaqlarla. Gündüzlər yenə çöl, meşə, camaat həyətinin məhsulunu bazara çıxarardı, mən də nənəmin həyətindən kartof yığıb qoşulardım onlara. Göyçaya kartof satmağa getmişəm...

Bir dəfə hətta çobanlıq eləmişəm, çoban xəstələnmişdi, dedilər ki, çoban sağalınca növbə ilə hər ailədən bir nəfər "nobata" getməlidir. Nənəmin də bir inəyi vardı. Adı indiyə kimi yadımdadır - "Sürməağız"... Bunlar hamısı çox yadda qalan şirin xatirələrdir."

"Sovetski" isə ümumi həyat məktəbi idi: " Burda dram dərnəyinə gedirdim, sonra dərs yükü artdı, televiziyada uşaq verilişlərində iştirak edirdim. Belə-belə baş qarışdı şəhər həyatına."

İlk dəfə hələ 10-cu sinifdə oxuyanda "İstintaq davam edir" filminə çəkilməklə həyat və sənət yolu müəyyən olunur. Belə gəlir Azərbaycan teatr və kino tarixinə Fuad Poladov adı. "Hə... İlk dəfə hələ 10-cu sinifdə oxuyarkən "İstintaq davam edir" filminə çəkildim, evə şəkilləri gətirmişdim. Atam gördü ki, bu məsələyə münasibətim ciddidir, şəkilləri götürüb cırıqladı. Onsuz da teatra marağımın ötəri olmadığını hiss eləmişdi."

10-cu sinifdə oxuyarkən kinostudiyanın nəzdində yaradılmış aktyorluq kurslarına daxil olur. 132 nömrəli məktəbin şagirdi yaxınlıqdakı İncəsənət İnstitutu diplom işi müdafiə edən tələbələrin tamaşalarında da uşaq rollarında oynayardı. İnstitutun rektoru onu belə görüb təhsil almağa dəvət edir. Sənətə kinodan gəlmiş aktyor uzun bir müddət Akademik Milli teatra bağlanır. Tofiq Kazımov ilk dəfə İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" əsərinin tamaşasında Savalan rolunu verir ona. Üstəgəl teletamaşalar. O dövrün hansı tamaşaçısının xəyalında Emin Bəxtiyarov obrazı qalmayıb? Aktyor özü isə: "Məni indi də bəzən küçədə "Alov", "Atayevlər ailəsi" tamaşalarından tanıyırlar. Baxmayaraq ki, mən o obrazların hər ikisində oynamaqdan imtina etmişdim. Mərhum Lütfi Məmmədbəyov çox israrla mənə o rolları oynadıb. Televiziyada onlardan sonra, Ramiz Həsənoğlu ilə "Fatehlərin divanı" maraqlı oldu, bir də Mehriban Ələkbərzadə ilə "Cəza" maraqlı işlərdən biri idi."

**Filmoqrafiyasında 37 filmin adı var. Aktyor deyir daha çoxdur: "**Doğrudan 37-dir..? Təəccüblü gəldi mənə, kinoda ondan çox az obrazın adını çəkə bilərəm. Onların çoxunu hesaba salmıram, birini rejissorun xatirinə oynamışam, başqa birini nəyinsə xatirinə. İndi eləmərəm e, o vaxt cavan olmuşam. Məsələn, elə "Ad günü"ndə Rasim Ocaqov birtəhər başımı tovladı, xahiş etdi ki, bunu ancaq sən edə bilərsən."

**Milli Dram Teatrının çox uğurlu tamaşalarından olan "Təhminə və Zaur"dan sonra Fuad Poladov uzun bir müddət o səhnəyə çıxmadı.**

**Aktyor yalnız müxtəlif obrazlara girən, müxtəlif xarakterlər yaradan material deyil. O, həm də bütün insanlar kimi bir şəxsiyyətdir. O, da hansısa laqeyidlikdən inciyə, yaxud qısqanclıqdan yaxa qurtarmağa çalışa biləndir. Bəzən onu əhatə edən və sıxan mühitdən sadəcə baş götürüb gedə bilər. Susub gedər, yaxud üsyan ediban.**

**Fuad Poladov əslində qəlbində üsyan etdi, bəlkə də həmin məqamda bir-neçə kəlmə etiraz da ifadə etdi, amma hələ də o barədə susur. Bəzən susmaq da nələrisə çox gözəl şəkildə ifadə etməkdir.**

**Sevgisini də bu sənətin yollarında tapdı. Tapdı-itirdi. Sevdiyi özü kimi sənətin yollarında sevə-sevə addımladığı həmkarı idi. Amma Azərbaycan kişisinə xas xarakterə malik aktyor-sənətkar Fuad Poladovun istədiyi sadəcə evə gələndə xanımının onu qarşılaması, gülərüzlə süfrə açıb qulluq göstərməsi idi. İki sənətkarın həyat yolu buna görə ayrıldı, amma sənətdə bu yol davam edirdi.**

**Ailədə adi məişət qayğılarından tutmuş iri həyatıvacib məsələlərə qədər hamısı Fuad Poladovun çiyinlərindədir: “** Ailə başçısı kimi də yaxşı olmağa çalışıram, ata kimi də, sadəcə, səhnəni dəlicəsinə sevirəm”.

Yaratdığı saysız-hesabsız t***eatr rolları içərisində özünün sevdiyi*** **Napaleon, Hamlet, Sezar, Bunin,** Timonla, İblisdir.

**Son illər çəkildiyi filmlər “Arxada qalmış gələcək”, “Ovsunçu”, “Günaydın, mələyim”, “Güllələnmə təxirə salınır”, “Küçələrə su səpmişəm”, “Aktrisa” filmləridir. Həmkarları ilə müqayisədə onun kino taleyi də rəngarəngdir. Kino az qala olmayan vaxtlarda belə Fuad Poladov kinosuz qalmayıb, çəkilib.**

Son illərin ən çox sevilən obrazıdır “Güllələnmə təxirə Salınır”da Xan: “ Elədir. Mən o cür insanları görmüşəm, onlarla yaxınlığım olub. O vaxt bir məhşur “oğru” var idi, ümumittifaq miqyasda tanınırdı. “Sanka zver” ləqəbli - adı Cabir idi. Onunla ünsiyyətdə olmuşam, dəfələrlə. Yaxın tanıdığım insanlar olub. “So-

vetski"də böyümüşəm, məktəb dostlarım da içərişəhərli uşaqlar olublar.

Bu böyük həyat məktəbi. Əgər o obraz belə canlı alınıbsa, bunların böyük təsiri var. Həyatda keçdiyin yol var e, həyat universitetləridir. Onlar insana çox kömək edir. Hələ gənc ikən, uşaq ikən yan-yörəndə sınan, əyilən, tapdanan, əzilən insanları o qədər görürsən ki, eyni vəziyyətə düşməməyi öyrənirsən, bu situasiyalara düşəndə necə çıxmaq lazım olduğunu öyrənirsən.

Bir dəfə bir həmkarım başqa bir adam haqqında qəzəblə danışdı mənim yanımda ki, o qoymadı məni inkişaf etməyə, qolqanad açmağa. İntiqamımı mən almasam, oğlum alacaq, o, belə, o, filan... Üstündən az bir müddət keçmiş, müşavirədə bu adam durdu həmin adam haqda elə yüksək fikirlər dedi ki, mat qaldım. Çıxanda çalışıb onunla üz-üzə durdum ki, gözlərimin içinə baxsın. Baxdı... Qulağıma da pıçıldadı ki, "ə..siyasətdi də...". Tutdum yaxasından, çəkib özümə tərəf mən də onun qulağına pıçıldadım ki, "hər şeyin öz adı var, bu siyasət deyil..."

Beləcə "Sovetski"dən başlayan "İstintaq davam edir", istintaq yox, həyat və sənət yolu davam edir. Bu gün Fuad Poladovun 64 yaşı tamam olur. Bunu təbrik kimi qəbul edin, lütfən.



# Sevdiyi qıza görə bıçaqlanan xalq artisti

İnsanın müxtəlif hallarının, fərqli ovqatlarının şahidi olandan sonra onun insanlığı haqda təsəvvür formalaşır. Daha doğrusu, təsəvvür belə formalaşarsa düzgün olar. Onu həmişə gülərüzlü, xoşsimalı görmüşəm, amma kövrəlməyinin də şahidi olmuşam, insanları şənləndirməyinin də, sevincinin də, kədərinin də. Bircə hirslənməyini bilmirəm. Hərdən mənə elə gəlir ki, Ramiz müəllim heç hirslənmir. Səhnədə müxtəlif obrazlarına baxmışam, ailədə oğula-uşağa, qıza-nəvəyə, xanımına münasibətini görmüşəm. Elə bil hirslənəndə də onu zarafatla ifadə edir, mən belə şahidi oldum. Görmüşəm ki, el şənliyində zabitlər onu – general Həzi Aslanovmuş kimi əhatəyə alıblar. Ramiz Novruzov həmin anda özü olmayıb elə Həzi Aslanova dönüb.

Eyni tamaşada iki müxtəlif vaxtlarda kulisə keçib müşahidə eləmişəm bu aktyoru. Bəhram Osmanovun "Xəcalət" tamaşasının antraktında birinci dəfə tamaşanın təsirindən ağlaya-ağlaya qucaqlaşdıq. Üstündən iki il keçəndən sonra həmin tamaşanın antraktında kulisdə səhnəyə çıxmağına sanılı saniyələr qalmış görüşdük. Elə bildim görüşdüyüm Ramiz Novruz deyildi, onun "Xəcalət" tamaşasındakı yaratdığı obrazdır. Demək, vaxtı düzgün seçməmişdim, aktyor artıq obraza daxil olan vaxt gəlmişəm onu görməyə.

Çox nadir sənətkarı xalqın sevdiyi qədər də çalışdığı kollektivdə, ünsiyyətdə olduğu insanlar sevirlər. Qəhrəmanın həmin nadirlərdəndir.

## Uşaqlıq

Biləsuvar rayonun Səmədabad kəndində doğulub, orda da orta məktəbi bitirib.

Atası dülgər olub, müharibə veteranı imiş, Berlinə qədər gedibmiş. Atasının müharibə barədə xatirələri ilə böyüyüb, deyir o, müharibədən danışanda söhbətlərindən doymaq olmurdu, çünki çox səmimi danışardı. Ata həm də dindar adam olub, ibadəti, namazı yerli-yerində.

Anası evdar qadın, ailədə iki qardaş, üç bacı olublar. Onlar da hamısı ailəlidirlər, burda Bakıda yaşayırlar. Bircə qardaşı rayondadır, müəllimdir. Əslində aktyorluğu qəhrəmanıma o qardaşı sevdirib, özünün də istedadı var, amma bu gün ona baxıb qürurlanmaqla kifayətlənir.

Orta məktəbdə yaxşı oxuyan olmayıb, amma məktəbin gərəkli şagirdi olub, bütün məktəb tədbirlərində ona güvəniblər ki, şeir deyən, rol oynayan, aparıcılıq edən var.

Bütün kənd uşaqları kimi çilingağac, dirədöymə oynamağına söz yox, amma ən çox futbol oynayarmış. 8-ci sinifdən başlayaraq bütün bu maraq və istedadlar keçir arxa plana, çünki məktəbdə teatr dərnəyi fəaliyyətə başlayır.

"Elə o vaxtlardan da yəqin vurulmuşam bu sənətə. İlk məhəbbət kimidir, bilmirsən niyə sevirsən, onu bilsən demək heç sevmirsən əslində. Bəzi aktyorlar müsahibələrində deyirlər ki, mən heç aktyor olmaq istəmirdim, təsadüfən gəlmişəm bu sənətə. Mən həmişə belə aktyorlardan qorxmuşam, çünki beləlləri gec-tez sənətə xəyanət edir."

İlk dəfə onuncu sinifdə oxuyanda inşada aktyor olmaq istədiyini açıqlayıb. İnşa belə də başlayırmış: "Mən indiyə qədər kim olacağım barədə çox inşalar yazmışam, amma hamısında yalan yazmışam, bu dəfə ilk dəfə həqiqəti deyirəm..."

Təsəvvür edin də, kənddə quzu otarmağı bacarmayan, hər quzu otaranda başı futbol oynamağa qarışdığından bir quzu bada

verən kənd uşağı gəlib neçə ilin sənətkarlarının çəkilmək istədiyi qəhrəman obrazına çəkildi. Uşaqda bəxtə bax e...

### Tələbəlik

Orta məktəbi bitirəndən sonra atası ona bir bilet alıb, üstündə də o vaxtın puluyla 85 manat verib ki, get Bakıya oxu, kim olursan ol, özün bilərsən, amma adam ol. İmtahanda aktyor sənətindən 4, 4, 5 alıb. Özü də Rza Təhmasibdən. Özü də Sovet vaxtı qadağan olunmuş bir şairin şeirini deyib qabiliyyət imtahanında. Rza Təhmasib görünür Tofiq Fikrətin "Siz" şeirini cəsarətlə (qadağan olunduğundan bixəbər olduğu halda) dediyinə görə onun həm qabiliyyətinə, həm də elə qalibiyyətinə 5 yazıb. Yazıdan isə kəsilib, daha doğrusu kəsiblər, şikayəti əsasında onu geri götürüblər, amma bir il Pedaqoji institutda oxuyandan sonra, çağırıblar ki, gəl, səni haqsız kəsiblər. Ramiz Novruzov adlı bu tələbə də eləmə tənbəllik tələbnamə ilə özünü saldırır Adil İsgəndərovun kursuna. Bunu o vaxt hansı tələbə istəməzdi ki...

Adil İsgəndərovun belə bir ənənəsi olub, tələbələrinə sonda bir rəy yazarmış. Ramiz Novruzova yazıb ki, sənin əxlaqınla yanaşılsa irəli getmək olar, böyük teatrda işləyə bilərsən: "Sən o adamlardansan ki, ilk görüşdən etibar edib uzaq yola çıxmaq olar".

### General

Təyinatla bir il Sumqayıt teatrında işləyib. Əsgərlikdən sonra bu teatrda Nəriman Həsənzadənin "Qoy, bütün şərq bilsin" tamaşasında general Şıxlinskini oynayır. Tamaşaya baxanlar arasında Hökumə Qurbanova da varmış. Aktrisa tamaşadan sonra deyib ki, mən yalnız bir söz deyə bilərəm generalı oynayan oğlan yaxşı idi. Aktyor bundan ürəklənib böyük teatrda işləmək üçün müraciət edib. Müraciət az sonra qəbul edilib.

“Bir on il Akademik teatrda özümü sübut etməklə məşğul oldum. Yalnız başımı aşağı salıb işləyirdim. Özüm üçün belə bir xətt tutmuşdum, həmişə orta sıralarda Adil İsgəndərov, Rza Təhmasib, Mehdi Məmmədov əyləşərdi, onları əsas tutub oynayırdım, onların xoşuna gəlsin.”

Tanrı hər 10 ildən bir ona bir hədiyyə göndərib. 31 yaşında Əməkdar artist, 42 yaşında Xalq artisti. Ardıcıl uğurlu rollar da üstəlik.

## Teatrda

Teatrda oynadığı rollar: Nəvvab və İran şəhzadəsi ("Xurşidbanu Natəvan", İlyas Əfəndiyev), Mayor Edmund ("Şeyx Xiyabani", İlyas Əfəndiyev), Bahadur ("Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev), Məhəmməd Suvarlı ("Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev), Cəmil ("Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev), Sisyanov və Kərbəlayi Xan ("Hökmdar və qızı", İlyas Əfəndiyev), Seyton ("Maqbet" Uilyam Şekspir), Edmund ("Kral Lir", Uilyam Şekspir), Kreon ("Medeya", J.Anuy), İbn Yəmin ("İblis", Hüseyn Cavid), Səlim bəy ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Loğman ("Fəryad", Bəxtiyar Vahabzadə), Laçın ("Hara gedir bu dünya?", Bəxtiyar Vahabzadə), Toğrul ("Cəzasız günah", Bəxtiyar Vahabzadə), Fərhad ("Sənsiz", Şıxəli Qurbanov), Baş redaktor ("Mənim sevimli dəlim", Elçin), Andranik və Nostradamus ("Hələ "sevirəm"deməmişdilər…", Ramiz Novruz), Ələs bəy ("Dirilən adam", Mir Cəlal), Qaçaq Süleyman ("Ölüləri qəbiristanlıqda basdırın", İsmayıl Şıxlı), Murad ("Xəcalət", Hüseynbala Mirələmov), Cəbrayıl ("Teleskop", Elçin), “Yaşlı qadının gəlişi”( F. Dürrenmat)

## Kino

Həzi Aslanov roluna təsdiqlənməyin özü gözlənilməz olub. Sınaqda bu obraz üçün sinov gedən və artıq özünü təsdiq etmiş aktyorlar varmış. İddialı, şanslı. Axırıncı üç nəfərin də içindən özünün seçildiyini eşidəndə aktyor qulaqlarına inanmayıb. Seçim prosesində onun adı gələndə bütün seçim heyəti əl çalırmış.

Görünür, atasının müharibə xatirələri, teatr səhnəsində yaratdığı general obrazları və Həzi Aslanovla eyni torpağın yetirməsi olması hərəsi bir damla qoyub bu şansın üzərinə.

“Həzi Aslanov mənim vizit kartımdır, adımı çəkəndə soruşurlar ki, o, hansı aktyordur? Cavab verilir ki, Həzi Aslanovu oynayan. Bu xoşdur adama. Tarixi şəxsiyyətin obrazını yaratmaq və onunla tanınmaq çox gözəldir. Yoxsa adını çəkələr, amma hansı rolla səni tanıtdırsınlar onu tapmayalar-acınacaqlı tale olardı.”

Bütövlükdə bu kinonun qıt vaxtında 28 film. Bəs, sən tamaşaçı, hansı filmlərini xatırlayırsan, daha doğrusu, Ramiz Novruzovun oynadığı neçə kinonun adını çəkə bilərsən? “Sizi dünyalar qədər sevirdim”, “Cavad xan”, “Cavid ömrü”, “Qorxma, mən səninləyəm”, çox yayılmasa da “Sarı gəlin” və televiziyada “Ümid”, “Yurd yeri”, vəssalam. 60 yaşına çatmış Xalq artisti üçün az deyilmi? Allah insaf versin, Azərbaycan kinosunun onurğasına balta vuranlara. Ümid yaxşı şeydir, bugünkü dirçəliş sənətkarın və sənətin xeyrinə işləyər, inşallah.

## Televiziya

H.Cavidin "Topal Teymur" (Divanbəy), L.Tolstoyun "Kreyser sonatası"(Musiqi müəllimi), V.Şekspirin "Antoni və Kleopatra" (Antonio), O.Kamalın "Dodaqdan qəlbə"(Kənan bəy), "Yad qızı" (Nihad) və s. teletamaşalarda maraqlı rollar oynayıb. Həzi Aslanovdan sonra gəl bu aktyoru Kənan bəy obrazında qəbul elə görüm, yazıq tamaşaçı, edə bildinmi? Yoxsa, sevgi ilə nifrət qarışdı bir-birinə? Hə, bax, sənətkarlıq da elə bundadır, onu həm sevə

biləsən, həm də nifrət edəsən, axırda sevgi qalib gələcək, əgər, nə üçün nifrət etdiyini anlasan. Dərk etsən ki, o, elədi bunu, onun sənətkarlığı.

### Sevgi və ailə

Həyat yoldaşının adı Xoşavazdır. Məktəb özfəaliyyət kollektivində bir yerdə iştirak ediblər. Qız ondan iki sinif aşağıda oxuyurmuş. Gözəl səsi varmış, Ramizin yaratdığı obrazlarla onun ifa etdiyi mahnılar bir-birini tamamlayırmış. Elə Ramizi ilk cəlb eləyən də Xoşavazın şirin avazı olub. "Nazik, şirin səslə "Gilənar" mahnısı oxuyurdu. Ay gilənar, ay gilənar, bağçamızın göyçək qızı. Elə şirin alınırdı, başqa kim oxusa mənə elə zövq verməzdi. O gilənar, bu gilənar, tilsimə düşdüm. Hərdən indi də dodaqaltı oxuyur. Birdən hiss edir ki, hamımız qulaq asırıq, deyir nədi, iş-gücünüz yoxdu? Uşaqlarımızdan Şəfəqin də səsi var, arxasınca getmədi. Cavidan isə getdi səsinin arxasınca."

Sonralar hər ikisi Bakıda təhsil alanda yenidən tapıblar bir-birilərini. Xoşavaz musiqi məktəbində təhsil alırmış, Ramiz Novruzov əhd bağladığı qızı axtarmaq istəyərkən tale özü küçədə qızı qarşısına çıxardıb ki, bu sənin bəxtindir. Hər ikisi şoka düşmüş kimi baxıblar bir-birilərinə. Xoşavaza evdən qəti tapşırıq var ki, Ramizlə görüşməsin, hətta əmisi oğlu bir dəfə Ramizi bıçaq davasına da cəlb edib. Bıçaqlanma yüngül sovuşsa da nəticədə qızı oğlana vermək istəməyib ailəsi, əmiləri deyib ki, bir-neçə aya qayıdacaq qız evə-nəticəni belə proqnozlaşdırıblar, amma həmin evlilik 40 ildir ki, qüvvədədir. Bu evlilikdən üç uşaq, beş nəvə var. Xoşavaz xanım isə konservatoriyaya gedib musiqi təhsilini davam etdirməyib, həyatını ailəsinə, övladlarına həsr edib.

"Uşaqlarımız yaxşı uşaqdılar. İki oğlan, bir qız. Böyük qızımızdır, çox gözəl ingilis dili bilirdi, mən düşünürdüm o sahəyə gedər, amma böyüyəndə elan verdi ki, mən saç ustası olmaq istəyirəm. Razı olmadım, qayınanam köhnə analara məxsus bir ritual elədi, yaylığını atdı qarşıma ki, qıza icazə ver, öz istədiyi sənətə

getsin. İcazə verməli oldum, indi öz sahəsinin peşəkarı, şəhərdə iki tanınmış ustadan biridir Şəfəq, bizim də baş sponsorumuzdur. Oğlum Nəriman televiziyalardan birində texniki işdə çalışır, içində yaradıcı insandır, amma utancaqdır, bir az da məhlə ənənələrinə sadiqdir, ona görə yaradıcı istiqaməti seçmədi.

Cavidan aktyor olmaq istəyirdi. İncəsənət Universitetini oxuduğu müddətdə müğənniliyə yönəldi. Filmə də çəkilib, amma indi müğənnidir."

## Rejissorluq

Ramiz Novruz özünün rejissor kimi də sınayıb, bir faciə, bir də komediya qoyub aktyor kimi çalışdığı Milli Akademik Teatrın səhnəsində. "Hələ sevirəm deməmişdilər" özünün yazdığı pyes əsasında səhnələşdirib, "Silindir" komediyası isə E. De Filipponundur. İkinciyə baxmamışam deyə bir söz deyə bilmirəm, amma birinci tamaşası o teatrda ən yaxşı tamaşalardandır.

## Seriallar

Zəif-güclü, keyfiyyətli - keyfiyyətsiz, bu seriallar da hər nədirsə, sənətkar yolunun bir hissəsidir. İndi çox az film çəkilir, ona görə də aktyorlar seriallara cəlb olunur. Əvvəl buna getməyən aktyorlar da sonradan əlacsız halda getməli olur.

Ramiz Novruzov iki seriala çəkilib, Rövşən İsakla işləyib.

Nə həyatından, nə sənət yolundan narazı adam deyil, əksinə. Ehtiyacını çəkdiyim bir mənzil idi, onu da prezidentə müraciət elədim, verdi-deyir.

Həyatında hər şey yerbəyer olub. Görəsən, istədiyi, uğrunda yaşadığı nə isə varmı?

Təbii ki, bunsuz həyat dayanar: "Yazmaq istədiklərim var... Bir də tam səmimi deyirəm Azərbaycanı bütöv görmək istəyirəm".


Bir gecənin içində
məşhurlaşan aktrisa

*"Məni çoxmu sevirsən?"- deyə Kamrandan nazlana-nazlana soruşan ərköyün qız, sevgisini vətənin rifahına qurban verən hökmdar qadın, məkrli həyat yoldaşı, unudulmuş balerina və saydıqca çoxalan müxtəlif xarakterli obrazlarda görmüşük, sevmişik onu. Bu gün böyük bir kollektivə rəhbərlik edən "qara paltarlı qadın"dır. Niyə qara? Buna da, bu günə qədərki həyat və sənət yoluna da özü ilə birgə səyahətə çıxmağımızla işıq salmaq istəyindəyik. Xalq artisti, Bakı Bələdiyyə Teatrının rəhbəri Amlaya Pənahova ilə.*

Uşaqlığım Gəncədə keçib, orda dünyaya gəlmişəm. Nənəli - babalı, atalı-analı, bibili-əmili böyük bir ailədə böyümüşəm. Atamın 17, anamın 15 yaşları olanda mən dünyaya gəlmişəm.

Nizaminin "Xəmsə"si yeni çapdan çıxmışdı, kitabda qəhrəmanların illüstrativ şəkilləri uşaqlıq hafizəmdə həkk olunub. O qəhrəmanlarda özümü təsəvvür edirdim. Qonşuluqda Gəncə Teatrında işləyən sənətkarlar yaşayırdılar, onların uşaqları ilə oturub-dururdum, teatra tez-tez gedirdik. Adil İsgəndərov, Barat Şəkinskaya, Məmmədrza Şeyxzamanov kimi böyük sənətkarlar Gəncə teatrından Bakıya dəvət olunub gəliblər. Yeganə o teatra sədaqətli qalan Ələddin Abbasov oldu. Atamla da dost olublar, düzdür atam ondan yaşca kiçikdir. Atam teatr həvəskarı olduğundan teatrda gənc yaşlarında rollar da oynayıb. Sonra hərbi işi üstün tutduğu üçün hərbiçi oldu. Onun işi ilə əlaqədar da mən 10 yaşımda olanda biz ailəlikcə Bakıya köçdük.

Sənətə həvəsim o qədər böyük idi ki, televiziya açılanda "Bənövşə" uşaq xoruna ilk yazılanlardan oldum. Atam teatr dərnəyinə məni buraxmırdı, amma xora icazə verdi, görünür düşündü ki, xorun ardına düşüb getmərəm. Xorun rəhbəri Əfsər Cavanşirov idi. Sənətə televiziyadan belə gəldim. Xorda beş il solist olmağım

sonrakı teatr fəaliyyətimə çox kömək oldu. Teatrda İlyas Əfəndiyevin "Unuda bilmirəm" tamaşasında ilk dəfə mən səhnədə canlı mahnı ifa etdim.

Məni sənə bağlayan-bağlayan
Eşqim məhəbbətimdir.
Yollarında saxlayan-saxlayan
Sənə sədaqətimdir.

Milli məclisə deputat seçiləndə orda həmkarlarım məni bu mahnı ilə qarşıladılar. İllər sonra da yaddaşlarda qalıb, sevilir.

İlklər həyatımda çoxdur. İlk övlad, nəvə olduğum kimi. Mənim çıxışımla ilk rəngli televiziya efirə çıxıb. Səhnədə ilk canlı ifa edən aktrisa. İlk dəfə teatr tariximizdə dramaturq aktrisa üçün rol yazıb. "Sən həmişə mənimləsən" tamaşasında Tofiq Kazımov risk eliyib 18 yaşlı tələbə qıza baş rolu verdi. Ondan sonra İlyas Əfəndiyev yeni dram əsərlərində mənim ifam üçün rollar yazdı. Onun teatra təqdim etdiyi 12 əsərinin tamaşasında mən rol oynamışam. "Mənim günahım" televiziya tamaşasını isə özüm hazırlayıb baş rolu oynadım. Teatrda həmin tamaşada Ayqızı ifa etmişdim.

Kinoya daha çox meylli idim. Ona görə Moskva Kinemotoqrafiya İnstitutuna getmək istəyirdim, həm də rus dilində təhsil almışdım deyə, Moskva məni çəkirdi. Atam icazə vermədi. Burda maraqlandım, yenə xorda olmağım kömək etdi. Xorun məşqlərini etdiyimiz məkanda həm də radio tamaşalar yazılırdı. Orda aktyorları gördüm, mənə dedilər ki, sən aktrisa olmaq istəyirsənsə əvvəlcə dili bilməlisən. 10-cu sinfi keçdim gecə məktəbinə və gündüzlər gedib Teatr İnstitutunda mühazirələr dinlədim. Daxil olanda isə rektorun icazəsi ilə mən inşanı rus dilində yazdım. Bu da necə oldu. İlk dəfə maraqlanıb instituta gələndə qapı ağzında bir nəfərlə rastlaşdım, soruşdum ki, mən kimə yaxınlaşmalıyam burda oxumaq istəyirəm, amma Azərbaycan dilində təhsil almadığım üçün indidən məsləhət almalıyam. O, da mənə dedi ki,

gəl mühazirələrə, qəbul vaxtına qədər baxarıq. Soruşdum kimsiniz, məlum oldu rektor Rahib Hüseynovdur.

Adil İsgəndərovun kursuna dinləmələrə gəlirdim, sonra da qəbul olunub onun kursuna düşdüm, çünki o vaxt birinci kursdan sonra Adil İsgəndərov ona verilən kursu bəyənməyib özü kurs yığmışdı. Mən onun kursunda dörd yox, beş il oxumuş oldum.

Atam mənim instituta daxil olmağımı sonradan bildi və mənimlə kəlmə kəsmədi.  Anam onun fikirlərini mənə çatdırırdı, zərbələri anam özünə götürürdü. İlk tamaşama ailəmi, qohum-əqabanı dəvət etdim gəldilər. Tamaşadan sonra atam böyük ziyafət verdi və məni təbrik etdi. Dedi ki, istəmirdim sən bu sənətin ətrafında fırlananlardan olasan. Gördüm ki, ilk addımından uğur qazandın. Mən bir gecənin içində çox məşhurlaşdım.   Premyera olan ilin son gecəsinin televiziyada  "Mavi işığ"ını Əli Zeynalovla mən apardıq.

Tofiq Kazımovun dördüncü kurs rejissorları iki tamaşalarında mənə rol verdilər. Orda Tofiq Kazımov məni gördü və İlyas Əfəndiyevin "Boy çiçəyi"nin tamaşasında Nargilə roluna dəvət etdi. Əvvəlcə əsəri verdi oxumağa. Bir gecənin içində neçə dəfə oxuyub ağladım . Səhər soruşdu ki, hansı rolu oynamaq istəyirsən? Dedim əlbəttə Nargiləni. Gəldim Adil İsgəndərovla məsləhətləşməyə dedi icazə vermirəm sən teatrda işləyəsən, mən səni kino üçün yetişdirirəm. O dövrdə Adil İsgəndərovun 30 il çox böyük əziyyətlər çəkdiyi Azdramanı onun əlindən almışdılar. Yetişdirdiyi sənətkarlar ona arxa olmadılar, o, da incidi o teatrdan.  Yeni binanın inşasının təhvilinə az qalmış onu işdən çıxartdılar. Adil müəllim artıq kinostudiyada çalışırdı. Ondan sonra teatr neçə-neçə rejissor dəyişdi, nəhayət Tofiq Kazımov baş rejissor təyin olundu. Ona görə Adil İsgəndərov mənə icazə vermək istəmirdi. Ondan icazəsiz getdim və uğur qazandım. Əvəzində gənc dövrlərimdə kinoya çəkilmədim, çünki Adil İsgəndərov məndən incimişdi.  Yoldaşım Yusif Muxtarov da kinoya deyil, radioya getdiyi üçün onu da kinoya çağırmırdı.

Teatrda bir-birinin ardınca "Qanlı Nigar", "Bizim qəribə taleyimiz", "Unuda bilmirəm", "Şeyx Xiyabani", "Təhminə və Zaur", "Büllur sarayda" çox böyük uğurla gedən tamaşalarda oynadım. O vaxt teatrda Nəcibə Məlikova, Leyla Bədirbəyli, Barat Şəkinskaya kimi nəhənglər vardı. Onlar artıq gənc qız rolunu oynaya bilməzdilər. Mənim gəlişim teatr üçün, onların özləri üçün də yaxşı idi, amma müqavimətlərə də rast gəlirdim. Tamaşaya çıxmalı idim, qrim otağımın qapısını bağlayıb açarları itirən vardı. Səhnə paltarımı kəsib doğrayan vardı. Ailəmi dağıtmağa çalışırdılar.

Yoldaşımla birinci kursdan tanış olduq, nişanlandıq. O, başqa bir ali təhsil almışdı. Dostunun yanına bizim instituta gəlib məni görəndən sonra sənət verib daxil oldu və mənimlə bir kursa düşdü. Yusiflə nişanlı olduq, institutu bitirəndən sonra evləndik. Bir qızımız, bir oğlumuz var. 48 il birgə çox xoşbəxt yaşadıq. O, da xalq artisti idi, Bələdiyyə Teatrını birgə yaratmışdıq.

Uşaqlarımız bizim sənətə meyllənirdilər mən imkan vermədim. Oğlum diplomatdır, Meksikada Azərbaycanın səfiridir. Nəvələrim də istədilər icazə vermədim. İlk nəvəm iki ali məktəb bitirib. Oğlumun oğlu atasının yolu ilə diplomat olmaq istəyir. Kiçik nəvəm deyəsən bizim sənətə gələcək, çox böyük istedadı və qətiyyəti var.

Çətin sənətimiz var. Düzlüyə, həqiqətə, insana inamımı itirmişəm bu sənətdə. Teatr mənim hər şeyimdir, amma gördüyüm haqsızlıqları övladımın yaşamasına qıymaram. Mənim yoldaşım sarıdan dayağım oldu, harda o qarant var ki, onların da dayağı olacaq. Ətrafda o qədər istedadsızlar qaraguruhu əmələ gəlir ki, baş açmağa çətinlik çəkirsən. Öz sənətimdən doktorluq müdafiə elədim. Hamıdan gec xalq artisti oldum. Repertuar hamısı çiynimdə idi. 20 tamaşadan 16-sında baş rolda olduğum bir vaxtda hər şeyi atıb çıxdım teatrdan. 84-cü ildə yaşım 40-ı keçmişdi "Nişanlı qız"da Zərifəni oynadım. 1992-ci ildə çox çətin bir dövrdə teatr çox düşmüşdü, istəyirdim ki, teatrla cəbhələrdə çıxış edək. Nəhayət ki, çıxıb öz teatrımızı yaratdıq. İlk tamaşamız "Medeya"

olmuşdu. Milli Dram teatrından ixtisara düşən qocaman sənətkarları da ətrafıma topladım.

Sonralar kinoya ardıcıl dəvət olunurdum, bununla belə istədiyim qədər deyil. Televiziyada külli miqdarda tamaşalarda oynamışam, radio tamaşalar da çox olub.

Beş il millət vəkili oldum. Elə bilirəm ki, orda da boş yer tutmadım. Sənətimiz özü elə siyasətə xidmət edir. Biz xalqa xidmətdəyik, sənətdə də, diplomatiyada da. Sənətkar elə siyasətçidir. Necə siyasət deyil ki, sovet vaxtı İlyas Əfəndiyevin əsərləri ilə səhnədən o tay, bu tay Azərbaycan deyirdik. Xalq sevdiyi sənətkara inanır, siyasəti məhz o, yeridə bilər. Cəbhə bölgələrində bizim tamaşadan əsgər silahını götürüb birbaşa döyüşə yollanırdı.

Həyat yoldaşımı  itirdim. Onunla birgə dayağım, dostum-həmdəmim getdi. Ürək sevinmir, gülmür. Ailəm başsızdır, o missiya mənim çiyinlərimə düşdü. O, ən pessimist vaxtlarımda məni həyata ruhlandırıb. Bu gün yoxdur.

Bələdiyyə Teatrı mənim həyatımdır. 20 ildən artıqdır burda canımı qoyuram. Bilirəm ki, bir gün mən olmayanda bu teatr yaşayacaq, çünki təməli möhkəmdir.


Unudulmaz qadın

Bir vaxtlar hər gün geyinib-soyunduğu, yuyulan, ütülənən, indi də geyinib-soyunmaqdan nimdaşlaşmış, amma əslində işlənməyən səhnə paltarlarını bir çemodana yığıb özü ilə daşıyır. Hərdən çemodanı yerə qoyur, paltarları eşənəkləyib içindən gah Anna Kareninanın şlyapasını, gah da Dezdomonanın donunu götürüb geyinir, sonra hirslə qarmaqarışıq formada çemodana yığıb ağzını bağlayıb götürüb gedir. Hara? Özü də bilmir. Küçədə kimsə onu tanıyır, ayaq saxlayıb arxasınca baxır, amma yəqin inana bilmirlər ki, bir vaxtlar səhnələri lərzəyə gətirən cazibədar aktrisa indi belə səfil görkəmdə küçələrdə nə gəzir?!

Bu Afaq Məsudun əsrinin qəhrəmanıdır. Milli Dram Teatrında Mehriban Ələkbərzadə "Qatarın altına atılan qadın" adı altında səhnələşdirib. Fikrim tamaşadan deyil, az qala eynilə həmin tamaşanın qəhrəmanının həyatını yaşayan aktrisadan danışmaqdır. Özü də bu taleyi yaşamaqdan yaman çox qorxan aktrisadan - Zərnigar Ağakişiyevadan.

Həyatın bütün zərbələrinə sinə gərib, sənətdə öz sözünü artıqlaması ilə deyən, şəxsi həyatındakı uğursuzluqları uğruna belə almadan irəli getməyi, yaşamağı bacaran xalq artisti, azad – tənha qadın Zərnigar Ağakişiyeva.

Ona mütəmadı zəng eliyirəm, hər dəfə də deyir ki, bilirəm vaxtın yoxdur, amma mənə zəng eləməyi unutma: "Çox darıxıram, nə gələn var, nə zəng edən. Qaynar bir həyatdan sükuta, səssizliyə düşmüşəm, alışa bilmirəm. Yəqin zamanla alışacam, bəlkə də alışmayacam."

Zərnigar xanım, evə qapılmayın, çıxın gəzin, yazdı, yaxşı hava var. Deyir utanıram: "Nə qədər küçələrdə gəzəcəksən, deyəcəklər havalanıb, nədir."

Onu unudulmağa qoymamaq fikri ilə yaxın keçmişdə Kulisdə gedən müsahibəsindən bəzi epizodları vermək istədim.

**Baxışlardakı sevgidən ruhlanıram**

"Qubadan Bakıya ticarət texnikumuna qəbul olmağa gəlmişdim. Burda fikrimi dəyişdim ki, rəssam olmaq istəyirəm. Sənədlərimi rəssamlıq məktəbinə aparanda sənədləri qəbul edən adam dedi ki, neyniyirsən rəssam olmağı qız üçün tibb texnikumu yaxşıdır. Mənə qəribə gəldi ki, bu niyə qaramat tökür işimə. Çıxdım atama dedim ki, gedək pis adamlar var burda. Sonra məsləhətləşdik sənədlərimi verdim incəsənətə. Atam, anam savadlı insanlar deyildi, amma çox incə qəlbli, uşağa heç nəyə məcbur etməyən, arzularının qarşısına sədd çəkməyən. "Ötən ilin son gecəsində" anamı oynamışam, daha doğrusu, oynamamışam, sadəcə anamın həyatını yaşamışam. Atam da uşaqkən necə məcbur etməzdi, mən böyüyəndən sonra elə istəklərimlə hesablaşardı. Özləri elə tərbiyə etmişdilər, başqa cür ola bilməzdi. Valideynlərimə çox minnətdaram. İldə iki dəfə burdan maşın tutub Qubaya onların məzarlarını ziyarətə gedirəm. Yeganə övladlarıyam.

Bir qardaşım var, ana bir, ata ayrı, onunla da doğmalaşmadıq, həmişə yad olduq. Bayaq tədris teatrından danışırdıq, dedim ki, İlham Rəhimli, İsrafil İsrafilov, Əlabbas Qədirovla tədris teatrında işləyirdik. Həmin illər də iş stajıma daxildir. 40 ildir mən sənətdəyəm. İsmayıl Osmanlı, Tofiq Kazımov, Mehdi Məmmədovla bir yerdə işləmişəm. Çox nəhəng sənətkarlar görmüşəm. Niyə bunları deyirəm, çünki bu illər ərzində tamaşaçının məni qəbul etməsini, sevməsini hiss etmişəm. Özüm özümü qəbul etməsəm də, məni sənətə bağlayan tamaşaçı məhəbbəti olub. Şəkillərə baxıram özümü tanıya bilmirəm, inana bilmirəm ki, o xarakterlər məndən keçib.

Mən ömür boyu özüm özümü qəbul edə bilməmişəm, özümdən xoşum gəlməyib. Hətta səsimdən zəhləm gedir. Xüsusən

Rusiya aktyorlarından bu fikri çox eşitmişəm ki, onlar da özlərinə vurğun deyillər. Şəhəri piyada çox gəzirəm, zövq alıram Bakının gözəlliyindən, insanlardan. Kimlərsə yaxınlaşıb ürək sözlərini deyirlər. Onların gözlərindəki sevgini, parıltını görəndə çox ruhlanıram. Başa düşürəm ki, əməyim boşa getməyib.

**13 il birgə yaşadığım adamdan ayrıldım**

İlk dəfə səhnəyə gələndə məni bir aktrisaya dublyor verdilər, gözləri ilə məni parçalayırdı. Gözləri açıqca deyirdi ki, rədd ol burdan. Çıxıb getdim. İnstitutun rektoru o vaxt Rahim müəllim idi, dedi ki, sən niyə baş teatrdan çıxıb getmisən, başqaları yalvarır ki, ora düşə bilsin. Dedim ki, məni çəkmədi. Sonra təkrar qaytardılar və bu dəfə Leyla Bədirbəyliyə dublyor verdilər. Düşündüm ki, yenə eyni vəziyyəti yaşayacam. Məşqlər başlandı, Leyla xanım əsərin oxunuşunda məni çağırdı yanına. Məsləhətlər verdi, isti münasibət, səmimiyyət göstərdi. Tamaşa təhvil veriləndə Leyla xanım xaricə istirahətə getdi, baş rol mənim ifamda premyera oldu. Ostrovskinin əsəri idi, Səməndər Rzayev, İsmayıl Osmanlı, "ağır texnika" ilə bir səhnədə oynadım. Tamaşa, ilk rolum çox gözəl qəbul olundu.

Münasib yaş dövrünə düşmədik. Mən eyni dövrdə oxuduqlarımızın hamısından yaşca böyük idim, teatrda isə əsasən məndən çox böyüklər, ya da çox kiçiklərlə ünsiyyətdə olduq. Rus bölməsində oxumuşdum, birdən-birə ətrafdakılara adaptasiya ola bilmirdim. Nə bilim, bunlar bəhanədir, əsas odur ki, tale belə gətirdi, Allahın yazısıdır.

13 il birinə bağlandım, bir yerdə yaşadıq, sonra anladım ki, bu adam ailə qurmağa layiq deyil. Əvvəla, mənim sənətimə mane olmurdu, deyirdi işlə. Bu xoşuma gəlsə də, sonra acığıma gəldi ki, niyə bu mənim mehmanxanalarda, uzaqlarda olmağımı qəbul edir? Bir də ailə üçün yaranmamışdı elə bil, hər şeyə biganə idi. Mən də artıq tamaşaçı tərəfindən sevilmişdim, o sevgi üstün gəldi.

Elələri də olurdu ki, yaxın düşməyə ürək eləmirdi ki, birdən sənəti atmaz. Qadınlar istəyir ki, kişi onun üzərində qələbə çalsın, amma kişilər güclü xarakterli, ağıllı qadınları sevmirlər. Xəyanətlə yoxam, dözə bilmərəm. Allah məni səhnə üçün yaradıb. Bir dəfə anam dedi ki, mən uşaq olanda qaraçı anama deyib ki, bu uşaq məşhur olacaq. Anam deyir dərd məni götürdü ki, bu hələ uşaqdır necə məşhur ola bilər. İndi başa düşürəm ki, o, qaraçı mənim özfəaliyyət dərnəyində çıxışlarımı görüb başa düşüb ki, aktrisa olacam, avam anama ona görə belə deyib. Anam da elə bilib ki, qaraçı uzaqgörəndir. Hələ beş yaşımdan səhnələrdə idim. Anam 40 hörük hörərdi mənə, həmişə səhnələrdə şeir deyərdim. O vaxt Ələsgər Ələkbərov məni Qubada səhnədə görüb deyib ki, bundan bir şey çıxacaq.

Çıxdı, özünü bütünlüklə sənətə həsr etdi, peşman da deyiləm. Əgər künc-bucaqda qalsaydım peşman olardım. Şükür ki, tamaşaçı da sevib dəyərləndirir, dövlət də sağ olsun, bu yaşımda təminatım var. Ömür boyu qaçhaqaçda olmuşam, məşqlər, qastrollar, əziyyətlər. İndi istəyirəm 12-yə qədər yatıram, rahat yaşayıram. Xalq artisti, ömürlük təqaüdçüyəm, bütün bunlar dəyərdir mənə. Bu güzəran üçün özünü həsr etməyə dəyərmiş. Bu gün məni yaşadan qüvvə odur ki, zəhmətim hədər getmədi."

Bi optimism həm də bir qədər özünü gözlənilən qorxudan sığortalamaq xarakteri daşıyırmış. Bu gün tamam başqa cür danışır. Qorxur. Qorxur ki, bir-neçə ay əvvəl əvvəlcə öz taleyini oynayırmış kimi hazırladığı, sonra əlindən alınan "Qatarın altına atılan qadın"ın taleyi onu da izləyir. Ona görə küçədə görünməkdən, teatra getməkdən çəkinir.

Tamaşada aktrisa nə qədər qovulsa da hər gün teatra gedir. Bir gün teatrın səhnəsindən özünü qatar altına atırmış kimi zala atır. Anna Karenina taleyi… Bu talehli qadınlar hər dövrlərdə var.

Bəlkə nə qədər əlimizdə imkan var, zəmanəmizdə yaşayan bir qadını bu taleyi təkrar etməkdən qoruyaq…

Bunun üçün azacıq diqqətli olmaq yetər.

Çapa imzalanıb: 08.10.2015. Format: 70x100 1/32. Qarnitur: Cambria.
Həcmi: 5,5 ç.v. Tiraj: 400. Sifariş № 204.  Qiyməti müqavilə ilə.